# MÜNDƏRİCAT



3

İBRAHİM ƏLİYEV:
SSRİ-NİN BEYNƏLXALQ MÜNASİBƏTLƏR SAHƏSİNDƏ HEYDƏR ƏLİYEVİN XİDMƏTLƏRİ

7

KÖNÜL İMAMVERDİYEVA: AZƏRBAYCANIN DÖVLƏT RƏMZLƏRİNİN TƏŞƏKKÜL VƏ İNKİŞAF TARİXİNDƏN

10

НАРГИЗ Ф.АХУНДОВА: ШЕЙХ СЕФИ АД-ДИН ИСХАК АРДЕБИЛИ И ШЕЙХЗАДЕ ДЖАМАЛ АД-ДИН АЛИ



14

САФИЯ МЕХБАЛИЕВА:
СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКИЕ, ПОЛИТИЧЕСКИЕ И ПРАВОВЫЕ АСПЕКТЫ ТЕРРИТОРИАЛЬНЫХ ПРИТЯЗАНИЙ АРМЕНИИ НА НАГОРНЫЙ КАРАБАХ

20

ŞƏFA ƏLİYEV, SƏMƏDZADƏ T.R.:
STRATEJİ YOL XƏRİTƏLƏRİNİN İCRASININ İNTENSİVLƏŞDİRİLMƏSİNDƏ MİLLİ İQTİSADİ DİPLOMATİYANIN GÜCLƏNDİRİLMƏSİNİN ƏHƏMİYYƏTİ

24

ELÇİN ƏHMƏDOV: AZƏRBAYCANIN DAXİLİ VƏ XARİCİ SİYASƏTİNDƏ MULTİKULTURAL VƏ TOLERANT DƏYƏRLƏR

28

SAMİR QULIYEV: AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ QAFQAZ STRATEGİYASINDA TƏHLÜKƏSİZLİK VƏ ENERJİ AMİLİ



32

ŞAHLAR ŞƏRİFOV: NAXÇIVAN ŞƏHƏRİ VƏ ONUN XİLAFƏT TƏRƏFİNDƏN FƏTHİ

36

RƏŞAD MƏHƏRRƏMOV: SİYASİ İNNOVASİYALARIN MAHİYYƏTİ VƏ SİYASİ SİSTEMLƏRİN İŞLƏNMƏSİ AMİLİ KİMİ

40

ГЮНАЙ ГАФАРОВА: ПЕРВЫЙ ПРОФЕССИОНАЛЬНЫЙ СКУЛЬПТОР АЗЕРБАЙДЖАНА - ЗЕЙНАЛ АЛИЗАДЕ

**44 | ELVİN PAŞAYEV:**
**OPEK-İN PROQNOZLARI VƏ ONUN STRATEJİ KURSUNDA BAŞ VERƏN DƏYİŞİKLİKLƏR**

**48 | RƏŞAD ƏSGƏROV:**
**DÜNYA PRAKTİKASINDA KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN İNKİŞAFI VƏ İDARƏ OLUNMASI**



**52 | SEVDA HÜSEYNOVA:**
**AZƏRBAYCANIN ÜMUMDÜNYA TİCARƏT TƏŞKİLATI İLƏ ƏMƏKDAŞLIĞI ÜÇÜN YARANMIŞ ZƏMİN VƏ DİGƏR ÖLKƏLƏRİN TƏCRÜBƏSİNİN MÜQAYİSƏLİ TƏHLİLİ**

**56 | BİLAL DƏDƏYEV:**
**OSMANLI MƏDƏNİ HƏYATINA TÖHFƏ VERMİŞ AZƏRBAYCANLI RƏSSAM- ŞAİR ŞAHQULU PƏNAHİ**

**59 | ŞƏHRİYAR MƏMMƏDOV:**
**AZƏRBAYCAN-ABŞ MÜNASİBƏTLƏRİ: HUMANİTAR VƏ İQTİSADİ ƏLAQƏLƏR**

**62 | ELŞAD HƏSƏNLİ:**
**KİV İNFORMASİYA TƏHLÜKƏSİZLİYİNƏ XİDMƏT EDƏN ƏSASLARDAN BİRİ KİMİ**

**65 | ÜLKƏR MƏMMƏDZADƏ:**
**HEYDƏR ƏLİYEV SİYASƏTİ VƏ İLHAM ƏLİYEV TƏRƏFİNDƏN BU SİYASƏTİN YERİNƏ YETİRİLMƏSİ**

**69 | MURAD ƏSƏDOV:**
**QAFQAZDA "YENİ BÖYÜK OYUN"- TÜRKİYƏNİN XARİCİ SİYASƏTİ**

**72 | ALMAZ HƏMİDOVA:**
**QLOBAL İQTİSADİ ÇAĞIRIŞLAR ŞƏRAİTİNDƏ STRATEJİ YOL XƏRİTƏLƏRİNİN HƏYATA KEÇİRİLMƏSİNDƏ LOGİSTİKA SİSTEMİNİN ƏHƏMİYYƏTİ**




**74 | ELNARƏ ƏHMƏDOVA: MÜƏSSİSƏNİN TƏSƏRRÜFATÇILIQ FƏALİYYƏTİ VƏ ONUN YAXŞILAŞDIRILMASI İSTİQAMƏTLƏRİ**



**GEO STRATEGİYA**

**Təsisçi:**
**"Kaspi" Geosiyasi Araşdırmalar Mərkəzi**



**Baş redaktor:**
**Əli Həsənov**
**Redaktor:**
**İbrahim Əliyev**
**Redaktor müavini:**
**İsmayıl Qasımov**

**Korrektor:**
**Leyla Binyatova**

**Dizayner:**
**İman Hüseynov**

**Redaksiya heyəti:**

**Əli Həsənov**
**Mübariz Qurbanlı**
**Səlahəddin Xəlilov**
**Rüstəm Məmmədov**
**Rasim Musabəyov**
**Çingiz İsmayılov**
**Musa Qasımlı**
**İbrahim Əliyev**
**Ərəstun Mehdiyev**
**Cəfər Cəfərov**
**Elman Nəsirov**
**Hikmət Məmmədov**
**Elçin Əhmədov**



**Ünvan:**
**Mətbuat pr. 23M. Beynəlxalq Mətbuat Mərkəzinin 4-cü mərtəbəsi.**
**Tel: (+994 12) 537 16 05**
**Faks: (+994 12) 537 16 05**
**E-poçt:**
**geostrategiya.az@mail.ru**
**strategiya.az@mail.ru**



**"Azərbaycan" nəşriyyatının mətbəəsində çap olunmuşdur.**

**Sifariş № 1842**



**Redaksiyanın icazəsi olmadan dərgidəki materiallardan istifadə etmək qadağandır.**



***"GEOSTRATEGİYA"*** jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən Azərbaycan Respublikasının dissertasiyaların

***Tarix, Antropologiya, Siyasi elmlər, Fəlsəfə, Sosiologiya və İqtisadi elmlər***

üzrə əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına salınmışdır.

# Tarix



İBRAHİM ƏLİYEV
Tarix üzrə fəlsəfə doktoru

## SSRİ-NİN BEYNƏLXALQ MÜNASİBƏTLƏR SAHƏSİNDƏ HEYDƏR ƏLİYEVİN XİDMƏTLƏRİ



Ictimai həyatın elə bir sahəsi yoxdur ki, Heydər Əliyev öz fəaliyyəti dövründə o sahədə öz sözünü deməmiş olsun. O, Sovet hakimiyyəti illərində Azərbaycanda yetişmiş görkəmli ictimai – siyasi xadim olmaqla çoxşaxəli fəaliyyət göstərirdi. Qeyd olunduğu kimi karyerasını dövlət təhlükəsizlik orqanlarında başlayan bu böyük şəxsiyyət ictimai həyatın bütün sahələrində öz sanballı sözünü demiş, mükəmməl və təkrarolunmaz dövlət başçısı, incə diplomat, cəmiyyətin bütün cəhətlərini professional səviyyəsində bilən və zəngin fəaliyyət praktikasına malik bir dövlət xadimi kimi özünü təsdiq etmişdir.

Heydər Əliyev çalışdığı bütün vəzifələrdə gözəl bir diplomat olduğunu əyani şəkildə sübut etmişdir. Hələ təhlükəsizlik orqanlarında işlədiyi zaman o, incə diplomat qabiliyyətini dəfələrlə göstərmiş, dövlərlərarası bir sıra məsələlərin uğuru həlli üçün öz töhfəsini vermişdir. Həmin illərdə sənədlərdən göründüyü kimi xarici dilləri öyrənmiş, bütövlükdə həmin sahədə Şərq ölkələrinin spesefik xüsusiyyətlərini bilən bir mütəxəssis kimi proseslərə cəlb olunmuşdur.

70-ci illərin ortalarından şərq və müsəlman olkələri üzrə məsələlərdə SSRİ ali hakimiyyət orqanlarına, hətta Sov.İKP MK-nin Baş Katibi L.İ.Brejnevə məsləhətçi kimi köməkliyini göstərmişdir. Azərbaycan SSR-ə rəhbərlik etdiyi müddətdə dəfələrlə dövlət nümayəndəliklərinin tərkibində xarici səfərlərdə olmuş, dövləti təmsil etmiş, danışıqlar aparmışdır. Bununla yanaşı SSRİ-yə gələn xarici nümayəndə heyətləri də Bakıya gələrkən onlarla yüksək səviyyədə danışıqlar aparmış və onların təsəvvüründə özü haqqında, Azərbaycan haqqında xoş təəssürat yarada bilmiş, onlardan konkret olaraq Azərbaycan üçün, onun məxsusi problemləri üçün istifadə edə bilmişdir. Onun xarici siyasətlə bağlı fəaliyyəti çoxşaxəli olmuş, Azərbaycanın dünyada tanınması, onun səsinin beynəlxalq ictimaiyyətə çatdırılması, mədəniyyət və incəsənətinin təbliği, respublikanın xariclə iqtisadi əlaqələrinin qurulması, mütəxəssis mübadiləsinin təmin edilməsi, diplomat kadrlarının hazırlanması və onların SSRİ miqyasında diplomat kimi fəaliyyət göstərmələrinə nail olunması, xaricdə yaşayan həmvətənlərlə əlaqələrin yaradılması və möhkəmləndirilməsi bu gərgin fəaliyyətin tam olmayan siyahısı idi. [1, s.391-411]

Heydər Əliyev ictimai-siyasi fəaliyyətinin erkən dövrlərindən Azərbaycanın gələcəyinə istiqamətlənmiş addımlar atmış, onun gələsəkdə müstəqil təmələ malik olmasını hazırlamışdır. Həmin vaxt Azərbaycan SSR Sovetlər İttifaqının tərkib hissəsi olaraq beynəlxalq aləmdə müstəqil fəaliyyət imkanlarına malik deyildi. Lakin Heydər Əliyev bu məsələyə daha qlobal şəkildə yanaşır və belə bir şəraitdə onu dünyaya tanıtmaq, mədəniyyətini dünyada təbliğ etmək, onun dünyaya bu və ya digər məsələlərə inteqrasiya etmək istiqamətində işlər görürdü. Həmin işlərin görüldüyü vaxt onun əhəmiyyəti o qədər də dərindən hiss edilməyə bilərdi. Lakin uzun illərdən sonra Azərbaycanın müstəqilliyi zamanında qabarıq şəkildə özünü göstərir.

1970-80-ci illərdə respublika rəhbərliyinin fəaliyyəti bir neçə istiqamətdə aparılırdı. O vaxt SSRİ-yə gələn nümayəndələrinin Azərbaycana da gəlməsinə nail olunur, burada ümumittifaq əhəmiyyətli elmi, mədəni, siyasi tədbirlər keçirilirdi. [1, s.608] Bu sahədə digər bir istiqamətlərdən biri xarici vətəndaşların Azərbaycanın ali məktəblərinə, elm müəssisələrinə, birgə elmi tədqiqatlara cəlb edilməsi idi. Əgər 1961-1970-ci illərdə respublikanın ali təhsil müəssisələrində 300 əcnəbi tələbə təhsil almışdısa, 1970-ci ildə onların sayı 43 ölkədən 943- tələbəyə çatdırılmışdı. 1981-ci ildə respublika ali təhsil məktəblərində artıq 72 ölkədən 3 min tələbə təhsil alırdı. [2]

Eyni zamanda 1970-ci illərdə Azərbaycanlı tələbələr ADR, Polşa, Çexoslavakiya, Macarıstan və Yuqoslaviyanın ali məktəblərinə göndərilmişdilər. 1979-cu ildə Azərbaycandan həmin ölkələrin ali məktəblərinə 122 tələbə göndərilmişdi. (Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsi yanında Siyasi Sənədlər Arxivi [3, v. 55]

Xarici dövlətlərin ali təhsil müəssisələrinə, elm müəssisələrinə azərbaycanlı alimlərin və mütəxəssislərin ezam edilməsi və onların həmin ölkələrdə çalışması Azərbaycanın dünya ölkələrinə inteqrasiyasına təkan verirdi. Bu işin coğrafiyası kifayət qədər geniş idi. Respublikadan göndərilən mütəxəssislərin çalışdığı ölkələrin sırasına Şərqi Avropanın sosialist ölkələri, Asiya və Afrikanın müstəmləkədən azad olmuş ölkələri, hətta latın Amerikasının inkişaf etməkdə olan dövlətləri daxil idi. [4, v.66]

Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərlik etdiyi dövrdə önəm verdiyi məsələlərdən biri də respublikanın xarici ölkələrlə




mədəni əlaqələrinin gücləndirilməsi, onun mədəniyyətinin və incəsənətinin dünyada təbliğ edilməsi, dünyanın müxtəlif yerlərində yaşayan həmvətənlərlə əlaqələrin gücləndirilməsi idi. Mədəni əlaqələrin gücləndirilməsi və qoyulan məqsədlərə çatılması üçün müxtəlif formalardan istifadə olunurdu: ayrı-ayrı ölkələrdə mədəniyyət günləri keçirilir, kitab sərgiləri, mədəniyyət və incəsənət xadimlərinin qastrolları təşkil edilir, yazıçılar, şairlər, incəsənət xadimlərinin əlaqələri gücləndirilirdi. 1970-ci illərdə Azərbaycan SSR-in 120 ölkənin 860 təşkilatı ilə mədəni əlaqəsi var idi. [5, c. 126]

1982-ci ildən Heydər Əliyevin diplomatik fəaliyyətinin yeni mərhələsi Moskvada Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Sovetinin sədrinin birinci müavini kimi fəaliyyət göstərdiyi dövrə təsadüf edir.

Heydər Əliyevin diplomatik fəaliyyətində bir sıra regionlar üstünlük təşkil edirdi. Rusiya dövlət arxivlərinin tədqiqatçılar üçün açıq olan məhdud informasiyalı sənədlərindən bu fəaliyyəti incəliklərinə qədər araşdırmaq, fərdi baxışlar və konkret mövqelər haqqında ətraflı fikirlər söyləmək, nəticələr çıxarmaq çətin olsa da, mövcud olan məhdud informasiya müəyyən təsəvvür yaratmağa imkan verir.

H.Əliyevin azərbaycanlı-müsəlman olması amili onun fəaliyyətinin istiqamətində müəyyən rol oynamışdır. O, tez-tez şərq və müsəlman ölkələrində səfərlərdə olaraq bütövlükdə SSRİ-ni təmsil etmiş, həmin ölkələrlə əlverişli münasibətlərin yaranması və inkişaf etdirilməsinə oz töhfəsini vermişdir.

Xarici müəlliflərin kənardan müşahidəsi bu cəhətdən böyük maraq kəsb edir. Z.Medvedevin Nyu Yorkda nəşr olunmuş kitabında qeyd olunur ki, Moskva Heydər Əliyevin müsəlman dünyasında malik olduğu nüfuzundan istifadə etməyə və bununla da bu ölkələrdə zəifləmiş təsirini bərpa etməyə çalışırdı. "Əliyev orta Şərqin marksist dairələrində məşhurdur" - bu faktı xüsusi olaraq vurğulayırdı. [6, s. 118]

Yaxın Şərqin müsəlman ölkələri ilə olan problemlərin həllində, onların istiqamətləndirilməsində Əliyevin imkanları və diplomaik bacarıqları əhəmiyyətli rol oynayırdı. 15 avqust 1983-cü ildə SSRİ də səfərdə olan Suriya Ərəb Respublikasının Xalq Şurasının sədri Mahmud Zuabini və səhiyyə naziri M.Kababanı qəbul etmiş, ikitərəfli münasibətlər müzakirə edilmişdi.

1984-cü ilin mart ayının 10-da onun Suriyaya səfəri zamanı həmin ölkə üçün, habelə digər qonşu müsəlman dünyası üçün vacib olan problemləri nizama qoymuşdu. Böyük tərkibdə buraya səfər edən Sovet nümayəndəliyinin başçısı H.Əliyev Suriya hakimiyyətində yaranmış münaqişəni həll etməklə yanaşı Livanın kommunist partiyasının Baş katibi J.Xayi ilə görüşür və region üçün vacib problemlərin həllinə kömək edir. [7] . Mərkəzi mətbuatda dərc olunmuş Sovet-Suriya kommünikesində BMT Təhlükəsizlik Şurasının İsrail qoşunlarının ləngimədən və qeyd şərtsiz olaraq Livandan çıxarılması haqqında qətnaməsi dəstəklənir. Yaxın Şərqdə sülh uğrunda Fələstin amilinin vacbliyi və Fələstin müqavimət hərəkatının saxlanmasının zəruriliyi haqqında danışılır, hər iki ölkənin bütün sahələrdə əlaqələrini möhkəmlətmək cəhdi qeyd olundu. [8]

SSRİ-nin rəhbərlərindən biri olaraq Heydər Əliyev dövlətin xarici siyasət kursunu özünəməxsus prinsipiallıqla və ardıcıllıqla aparırdı. Rəhbərlik etdiyi xarici səfərlərdə, apardığı danışıqlarda öz missiyasını peşəkar bir diplomat və dövlət xadimi kimi yüksək səviytydə həyata keçirirdi. Xarici səfərlərində də özünəməxsus iş stili, həssaslığı, situasiyanı ələ almaq, insanların rəğbətini qazan-maq bacarığı onu fərqləndirirdi. Hətta protokol qaydasında etdiyi çıxışları, həyata keçirdiyi görüşləri, apardığı danışıqları hər dəfə qarşı tərəfin yaddaşında dərin iz qoyurdu.

Heydər Əliyevin SSRİ-nin beynəlxalq münasibətlər sistemində fəaliyyət sahəsi kifayət qədər geniş olmuşdur. Çox zaman mətbuatda və arxiv materiallarında quru və həddən artıq rəsmiyyətli informasiyanın arxasında görkəmli dövlət xadiminin gərgin əməyi dayanırdı. Belə görüşlərin və aparılan danışıqların gedişi haqqında məlumat az olsa da, əldə olunmuş nəticələr məhsuldar işdən xəbər verirdi.

1983-cü ilin yayında H.Əliyev ABŞ-ın Kənd təsərrüfatı naziri C. Blokla apardığı danışıqda sovet-amerikan münasibətlərinə dair məsələlər müzakirə olunur, taxıl alınması barəsində yeni müqavilə imzalanır. 8 sentyabr 1983-cü ildə Sov.İKP MK Siyasi Büronun iclasında H.Əliyevin ABŞ nümayəndəliyinin başçısı, ABŞ kənd təsərrüfatı naziri C.Blokla apardığı danışıq haqqında hesabatı dinlənilir. Bu görüşün nəticələri və bağlanmış müqavilə yüksək qiymətləndirilir. Orada K.U.Çernenko Blokun Ameri-kaya qayıdandan sonra bu görüş haqqında müsbət təəssüratları haqqında dediklərini diqqətə çatdırır. [9, л.2]

Heydər Əliyev Asiya və Afrikanın müsəlman olkələri ilə münasibətlərin qurulması və yüksək səviyyədə saxlanılmasında müstəsna rol oynamışdır. O, həmin ölkələrdə olmuş, Kremldə onların nümayəndələrini qəbul etmiş, bu olkələrlə işgüzar münasibətlərin saxlanmasına, dostluq və əməkdaşlıq əlaqələrinin möhkəmlənməsinə öz töhfəsini vermişdir.

31 may 1983-cü ildə Bolqarıstan XR-nın dövlət Şurasının sədri Todor Jivkov sovet rəhbərlərini, o cümlədən Əliyevi "Georgi Dimitrovun anadan olmasının 100 ili" medalı ilə təltif edir. 26 dekabr 1984-cü ildə Əliyev Bolqarıstan XR Nazirlər Sov-etinin sədri Bojinovu qəbul edir. İqtisadi əməkdaşlıq məsələləri müzakirə olunur.

27 iyun 1986-cı ildə Əliyev Yuqoslaviyanın kommunistlər ittifaqının XIII qurultayında iştirak edir. 20 iyulda Si-mon Bolivarın 200 illik yubileyində iştirak edir. 2 avqustda

meksikalıları qəbul edir. Onlar həm də Azərbaycanda oldular. Mərkəzi Amerikada vəziyyətin tənzimlənməsi məsələsi müzakirə olundu. 18 iyun 1984-cü ildə Əliyev Nikaraqua lideri D.Orteqo ilə ticarət-iqtisadi əməkdaşlıq məsələlərini müzakirə edir.

Heydər Əliyevin xarici siyasətlə bağlı fəaliyyətində sosialist ölkələri ilə münasibətlərin tənzimlənməsi mühüm istiqamətlərdən birini təşkil edir.

Müxtəlif vaxtlarda Bolqarıstan, Yuqoslaviya, Macarıstan, Çexoslovakiya, Nikaraqua, Kuba dövlətlərinin rəsmi şəxsləri ilə danışıqlarda yaxından iştirak etmiş, onlarla əldə olunmuz iş birliyinə öz töhfəsini vermişdir.

Onun Vyetnam, Koreya Xalq Demokratik respublikası, Laos və Kampuçiya ilə əlaqələri həmin ölkələrlə ideya siyasi, ictimai-iqtisadi və mədəni əlaqələrin daha da möhkəmlənməsinə, onların mövqelərinin güclənməsinə və təhlükəsizliklərinin təmin edilməsinə xidmət edirdi. 26 oktyabr 1983-cü ildə Heydər Əliyev sovet nümayəndəliyinin rəhbəri kimi Vyetnama səfər edir. Partiya və dövlət rəhbərləri ilə görüşlərdə hər iki dövləti narahat edən mühüm məsələlər müzakirə olunur. Nümayəndə heyəti böyük təsərrüfat obyektlərinə baş çəkərək bu sahədə əməkdaşlığın perspektivlərin nəzərdən keçirdirlər.

Danışıqlarda Cənubi-Şərqi Asiyada Hindçinin üç olkəsinin – Vyetnam, Laos və Kampuçiyanın siyasi ittifaqının möhkəmləndirilməsinin vacibliyi xüsusi vurğulanır. Bundan əlavə həmin ölkələrə, xüsusən Vyetnama iqtisadi yardım və elmi-texniki kömək göstərilməsi məsələləri danışıqlar predmeti oldu. Yekunda sovet-vyetnam birgə bəyanatı qəbul edilmişdi. Bu səfər çərçivəsində keçirilən görüşlər, aparılan danişiqlar, qəbul edilən sənədlər bu regionda Sovet dövlətinin mövqelərinin daha da möhkəmləndirilməsi baxımından çox əhəmiyyətli idi. Bu zaman rəsmi standartlarla yanaşı Heydər Əliyevin fərdi keyfiyyətləri, onun insanlarla işləmək, məsələlərə yanaşma xüsusiyyətləri aşkar şəkildə özünü büruzə verir və həyata keçirilən fəaliyyətin uğurunu bilavasitə təmin edirdi. [10]

Əliyev sovet xarici siyasət məsələləri ilə bağlı geniş bəyanatla çıxış etmişdi. Səfərin nəticələri Siyasi Büroda bəyənildi və iki dövlət arasında birliyin möhkəmlənməsinin yeni mərhələsi kimi qiymətləndirildi.

12 avqust 1985-ci ildə Əliyevin başçılığı altında nümayəndə heyəti Koreya Xalq Demokratik Respublikasının 40 illik yubileyini qeyd etmək üçün bu ölkəyə gedir və Əliyev böyük nitq ilə çıxış edir. [11]

12 noyabr 1986-cı ildə Heydər Əliyevin başçılğı altında nümayəndə heyəti Laosa gedir. O, qurultayda çıxış edir və sovet-Laos əməkdaşlığından, SSRİ-də ictimai siyasi vəziyyət, müasir beynəlxalq vəziyyətin, xüsusən Asiya-Sakit okean regionunda xüsusiyyətlərinə toxundu. Orada Kampuçiya partiya və dövlət nümayəndələri ilə də görüşmüşdür. [12]

Heydər Əliyevin diplomatik karyerasında Yaponiya xüsusi yer tuturdu. O, Yaponiyanın sol partiyalarının nümayəndələri ilə dəfələrlə görüşərək danışıqlar aparmış, 19 noyabr 1983-cü ildə Əliyev Demokratik Sosializm Partiyasının sədri R.Sasakinin başçılığı altında Yaponiyanın 4 siyasi partiyasının nümayəndəsini qəbul etmişdi, onların Sovet dövləti ilə olan münasibətlərinin istiqamətləndirilməsində mühüm rol oynamışdır. [13, л.40; 14, л.67-68

Afrika ölkələrindən Efiopiya, Anqola, Mozambiklə təmasda olmuş, bu ölkələrlə münasibətlərdə öz xidmətini göstərmişdir. 24



mart 1984-cü ildə Əliyev Sovet-Efiopiya danışıqlarında iştirak edir. Mart ayının 30-da o, Menqistu Xayle Mariamla görüşərək, onunla ikitərəfli ticarət-iqtisadi əməkdaşlıq məsələlərini müzakirə etmişdir.

25 oktyabr 1986-ci ildə Mozambik prezidenti S.Maşelin dəfnində iştirak etmək üçün yola düşür. Yolda Yəmən XDRdayanır, Yəmənin partiya və dövlət xadimləri ilə görüşür. Maputuda dəfndə iştirak edən Əliyev orada Nikaraquanın vitse prezidenti Ramireslə, Anqolanın prezidenti J.E. duş Santuş, ADR Nazirlər Sovetinin sədri V.Krolikovski, Efiopiyanın nümayəndəsi Voderess, Kuba nümayəndəsi Vaqldeslə danışıqlar aparır. Həmin görüşlərdə Heydər Əliyev Sovet dövlətinin Xarici siyasət xəttini yüksək səviyyədə təmsil edir. [15, л.20,26]

Heydər Əliyevin SSRİ ali hakimiyyətində rəhbərlik etdiyi dövrlərdə bütün istiqamətlərdə nümayiş etdirdiyi peşəkarlıq, əldə etdiyi uğurlar heç də həmişə layiqincə qiymətləndirilmir. Xüsusən M.Qorbaçovun hakimiyyəti dövründə onun uğurları qısqanclıqla qarşılanır. Buna görə də 1985-1987-ci illərdə onun diplomatik münasibətlər sahəsində fəaliyyətinin qəsdən məhdudlaşdırıldığı müşahidə olunurdu.

Heydər Əliyevin diplomatik səriştəsi və zəngin təcrübəsi özünü daha parlaq nəticələrini Müstəqil Azərbaycanın quruculuğu dövründə göstərdi. Onun Sovet dövlətini təmsil etdiyi dövrdə beynəlxalq münasibətlər sistemində qazandığı nüfuz, qırılmaz əlaqələr Müstəqillik dövründə Azərbaycanın xarici siyasətinin qurulmasında, onun beynəlxalq imicinin formalaşmasında və dünya miqyasında təsdiqində əvəzsiz rol oynamışdır.

## ƏDƏBİYYAT

*1. M.Qasımlı. heydər Əliyev – istiqlala gedən yol.(1969-1987-ci illər), Bakı, Bakı Universiteti nəşriyyatı,2006.*

*2. Kommunist qəzeti, 1981, 28 1yul*

*3. Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsi yanında Siyasi sənədlər Arxivi (ARPİİSSA)f.1, siy.67,iş.177,*

*4. Azərbaycan SSR Ali və orta İxtisas Nazirliyinin Arxivi (AOİTNA): f.1, siy.9, iş.164*

*5. Саядов С.А. Азербайджан: Международные связи и взаимопонимание. Баку,Азернешр, 1991*

*6. Medvedev Zh. Andropov. Neü York, London, W.W. Norton*

*and Company, 1983*

*7. Pravda 1984, 12 mart, )*

*8. Газ. «Правда» от 14 марта 1983 года*

*9. Российский Государственный Архив Новейшей Истории (РГАНИ), ф.89, оп.42, д.54*

*10. Газ. «Правда» от 1 ноября 1983 года*

*11. Газ. «Правда» от 15 августа 1983 года*

*12. Газ. «Правда» от 13ноября 1986 года*

*13. Государственный Архив Российской Федерации(ГАРФ), ф. 5446, оп.152,д.9, л.40*

*14. ГАРФ, ф. 5446, оп.152,д.13*

*15. ГАРФ, ф. 5446, оп.152,д.17*

***Açar sözzlər:*** *Heydər Əliyev; diplomatik fəaliyyət; Şərq ölkələri, SSRİ, Azərbaycan Respublikası*

***Ключевые слова:*** *Гейдар Алиев; дипломатическая деятельность; Восточные страны, СССР; Азербайджанская Республика*

***Key words:*** *Heydar Aliyev; Diplomatic activities; Eastern countries, the USSR; The Republic of Azerbaijan*

**РЕЗЮМЕ**

Ибрагим Алиев

Заслуги Гейдара Алиева в области международных отношений Советского Союза

В статье исследуются роль и заслуги занимавшегося различные должности в высшей власти партии и государства страны Гейдара Алиева в сфере международной жизни Советского Союза. Здесь также освещены его деятельность в период руководства им Азербайджанской ССР по продвижению культуры, историю, достижений республики в мировом масштабе. Особое внимание уделяется в статье его деятельности в дипломатической сфере, когда он был одним из членов политбюро ЦК КПСС и Первый заместитель Председателя Совета Министров СССР. Отмечается, что его богатый опыт в этой сфере сыграли незаменимую роль в становлении и ведении внешнеполитического курса независимой Азербайджанской Республики.

**SUMMARY**

Ibrahim Aliyev

Heydar Aliyev's merits in the field of international relations of the Soviet Union

The article examines the role and merits of Heydar Aliyev in the sphere of the international life of the Soviet Union. It also highlights his activities during the period when he led the Azerbaijan SSR to promote culture, history, achievements of the republic in the world. Particular attention is given in the article of its activity in the diplomatic sphere, when he was a member of the Politburo of the Central Committee of CPSU and First Deputy of the Chairman of the USSR Council of Ministers.

It is noted that his rich experience in this field played an irreplaceable role in the formation and conduct of the foreign policy course of the independent Azerbaijan Republic.





# Tarix

KÖNÜL İMAMVERDİYEVA
Tarix üzrə fəlsəfə doktoru

## AZƏRBAYCANIN DÖVLƏT RƏMZLƏRİNİN TƏŞƏKKÜL VƏ İNKİŞAF TARİXİNDƏN



İstənilən dövlətin mövcudluğunu onun çoxəsrlik dövlətçilik və tarixi-mədəni dəyərlərini təcəssüm etdirən dövlət rəmzləri olmadan təsəvvür etmək mümkün deyil. Bu zənginliyi özündə əks etdirən rəmzlər sistemi hər zaman mövcud olub və tarixi inkişaf mərhələsi keçmişdir. Dövlət rəmzlərinin formalaşmasının tarixinin öyrənilməsi dövlətçilik tarixinin, mədəniyyətin və ideologiyanın inkişaf tarixi haqqında daha dolğun məlumat almağa kömək edir.

Hələ qədim zamanlardan hökmdarların, qəbilə başçılarının hakimiyyətini bildirən şəxsi nişanları mövcud olmuşdur. Hökmdarlara məxsus belə nişanlar (veksilloid, ştandart) bəzək və emblemlərlə bəzədilmiş, adətən taxta və ya metal sapdan ibarət olmaqla müasir bayraqların ilkin təkamül forması hesab edilirdi və yarandığı gündən hərbi xarakter daşıyaraq döyüşçülərin toplanış yerini, mövqeyini bildirirdi.

Tarixə məlum olan ipək parçadan hazırlanmış ilk bayraq qədim Çində qaldırılıb. Çində Çjou sülaləsinin əsasını qoyan imperator Çou e.ə XII əsrdə qoşunun önündə onun saraya gəlişini xəbər verən ağ bayrağın aparılması əmrini verib. [9, 9] İpəkdən olan bayrağı əldə gəzdirmək veksilloiddən daha rahat olmaqla yanaşı, həm də uzaq məsafədən daha yaxşı görünürdü.

Azərbaycan ərazisində yaranmış ilk dövlətlərin rəmzlərinin formalaşması və inkişafı tarixi prosesi getmişdir. Azərbaycanda ilkin bayraqların (ştandartlar) meydana gəlməsi bizim eradan əvvəlki əsrlərə aiddir. Hökmdarların hakimiyyətinin rəmzi mənasını daşıyan, ağ sapa taxılmış və heyvan təsvirləri ilə bəzədilmiş tunc dövrünə (e.ə. IV-II minilliklər) aid ilk bürünc ştandartlar Azərbaycanda arxeoloji tapıntılar zamanı Şəmkir və Şəki rayonlarında tapılmışdır. Tədricən belə ştandartlar sap və parça hissədən ibarət olan bayraqlarla əvəz olundu. [3, 4]

Zəngin dövlətçilik tarixinə malik olan Azərbaycanda orta əsrlərdə bayraq müxtəlif adlarla sancaq, tuğ, buncuq, ələm kimi tanınmışdır. Bu anlayışlara Kitabi Dədə Qorqud dastanında da rast gəlinir. Bunlar Oğuz tayfalarının müqəddəs simvolları sayılırdı və döyüşçülər həmin rəmzləri öndə daşıyırdılar. (12)

Tarixin müxtəlif dövrlərində Azərbaycan ərazisində Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər kimi qüdrətli dövlətlərin hər birinin müstəqillik rəmzi olan bayraqları, gerbləri, möhürləri, pul vahidləri olmuşdur. Tarixi mənbələrdə Qaraqoyunlular dövlətinin hakimiyyət rəmzləri

sayılan rəngarəng bayraqlarının olması haqqında maraqlı məlumatlar verilir. Digər dövlətlərdə olduğu kimi, Qaraqoyunlularda da bayraq güc və qələbə rəmzi hesab edilirdi. İ.H.Uzunçarşılının qənaətinə görə, Topqapı Sarayında xəzinə kitabxanasında saxlanılan və 1428-ci ildə ispan J.Villadestes tərəfindən perqament üzərində çəkilmiş xəritədə Qaraqoyunluların bayrağı sarı fonun ortasında qırmızı dördkünc formada təsvir edilmişdir.[ 8, 71-72] Bundan əlavə, Topqapı Sarayında Ağqoyunlu dövlətinin ağac sapa taxılmış ağ parçadan ibarət olan bayrağı da aşkar edilmişdir. Uzunsov üçbucaqlı ağ parça üzərində qızılı hərflər ilə "Sultan Həsən Bahadur" sözləri yazılmış, mərkəzdə Uzun Həsənin tuğrasının təsviri, kənarlarında isə Qurandan ayələr verilmişdir. [5, 27]

XVI əsrin əvvəllərində Azərbaycanın dövlətçiliyinin təkamülündə Səfəvilər dövləti böyük tarixi rol oynamışdır. Zəngin dövlətçilik ənənələrini təcəssüm etdirən bayraqlar haqqında məlumat verən XV-XVI əsr Təbriz miniatürləri tarixi bir mənbə kimi böyük əhəmiyyətə malikdir. XVI əsr Təbriz miniatürlərində Səfəvilər dövlətinə aid bayraqlar əlvan rəngli, üçbucaq formada olmaqla, Qurandan olan ayələrlə bəzədilib.

Tarixi mənbələrdə də Səfəvilər dövlətinə aid bayraqlar haqqında müəyyən məlumatlar qeyd olunub. Belə ki, "Cahanarayi Şah İsmayıl" əsərinə (XVI əsr) istinad edən tədqiqatçı M.Abbaslı bildirir ki, Şah İsmayıl Bağdada özünün ay-ulduzlu bayraqları altında yaxınlaşmışdır. Ehtimal olunur ki, bu elementlərin təsvirləri I Şah İsmayılın qoşunlarının bayraqlarında olmuşdur.[1,26 ] "Tarix-i aləmara-yi Şah İsmayıl" əsərində də Şah İsmayılın bayrağı haqqında məlumat verilir. Mənbədə bildirilir ki, Şah İsmayılın bayrağı çox iri olub, ağ qumaşdan hazırlanmış, üzərində "Quran-i Kərim"in 61-ci ("Səf") surəsinin 13-cü ayəsində qeyd olunmuş "nəsrum-minəllahi və fəthun qərib" ("Allahdan kömək və yaxın bir zəfər vardır") və onun qısaca forması olan "nəsrum-minəllahi" ("Allahdan kömək") ifadəsi öz əksini tapmışdır. [7, 322]

XVIII əsrdə inşa edilmiş Şəki Xan Sarayı nadir memarlıq abidəsi olmaqla yanaşı həm də, dövlətçilik tariximizin öyrənilməsində böyük tarixi əhəmiyyətə malikdir. Sarayın divar rəsmlərində təsvir olunan döyüş və ov səhnələrindəki 28 növ bayraq müxtəlif forma və rəngləri ilə seçilirlər.

XVIII əsrin 40-cı illərində Azərbaycan ərazisində ilk müstəqil xanlıqlar yaranmışdır və onların hər birinin dövlət rəmzləri mövcud olmuşdur. Dövlət rəmzləri sırasında əhəmiyyətinə görə seçilən bayraqlar XVIII əsrin II yarısında mövcud olmuş Azərbaycan xanlıqlarında da geniş yayılmışdır. Azərbaycan xanlıqlarının bayraqları XVI-XVIII əsrlərə aid edilən gözəl şərq parçalarından tikilmiş, müxtəlif ornament və Qurandan olan ayələrlə bəzədilmişdir. Bu bayraqlarda Allahdan kömək və yaxın qələbə, Mərhəmətli Allahın adı ilə, Məhəmməd Allahın elçisidir, Məhəmməd möminləri müjdələ kimi ifadələr tez–tez təkrarlanır.

Dövlət bayraqları ilə yanaşı xanlıqların hökmdarlarının şəxsi bayraqlarını da qeyd etmək lazımdır. Azərbaycan xanlarının da öz hakimiyyət rəmzi olan ştandartları mövcud olmuşdur. Bunlara misal olaraq İrəvan xanı Hüseynqulu, Gəncə xanı Cavad xanın, Şəki xanı Səlim xanın ştandartlarını göstərmək olar. XIX əsrin əvvəllərindən başlayaraq Azərbaycan xanlıqları Çar Rusiyası tərəfindən işğal edilməyə başlandı. İranla Rusiya arasında bağlanmış müqavilələr (1813, 1828) əsasında Azərbaycanın şimal hissəsi Rusiyaya, cənub hissəsi isə İrana ilhaq edildi. Döyüşlər zamanı Rusiyaya aparılan qənimətlər arasında xanlıqların bayraqları da var idi. Bunların arasında Gəncə, Bakı, Şəki, İrəvan, Naxçıvan,Təbriz, Xoy xanlıqlarının bayraqlarını qeyd etmək olar. Həmin bayraqlar 1888-ci ildə Qafqaz Hərbi Tarix Muzeyinə verilmiş, 1924-cü ildə isə buradan bəzi bayraqlar Milli Elmlər Akademiyası Azərbaycan Tarixi Muzeyinə təhvil verilmişdir. (3, s. 5,8)

Azərbaycan xalqı əsrlər boyu tarixi yaddaşında dövlətçilik ənənələrini daim qoruyub saxlamışdır. XX əsrin əvvəllərində milli dövlətçiliyin bərpası çox böyük bir hadisə olaraq Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazılmışdır. 1918-ci ildə Azərbaycan öz müstəqilliyini elan edəndən sonra dövlətçiliyimizin atributları yenidən bərpa olunmağa başlanmışdır. Azərbaycan Demokratik Respublikasının həyata keçirdiyi ilk mühüm tədbirlərdən biri 1918-ci il iyun ayının 21-də üzərində ağ rəngli aypara və səkkizguşəli ulduz təsvirləri olan qırmızı rəngli Dövlət bayrağı haqqında qərar verməsidir. Azərbaycanın üçrəngli Dövlət bayrağı isə 1918-ci il noyabrın 9-da Azərbaycan Demokratik Respublikası Hökumətinin iclasında qəbul edilmişdi. [6, 23]

"Azərbaycan" qəzetinin 1918-ci il noyabr ayının 11-dəki nömrəsində bayrağın qəbulu belə qeyd edilmişdi: "Hökumət tərəfindən üç rəngdən ibarət Azərbaycan bayrağının layihəsi qəbul olunub. Mavi, qırmızı, yaşıl rənglərdən ibarət bayrağın qırmızı rənginin fonunda aypara və şəkkizguşəli ulduz təsvir ediləcəkdir".[2] Bayraqdakı rənglərin mənasına gəldikdə, mavi rəng türkçülüyü, qırmızı– müasirliyi, qərb demokratiyasını, yaşıl –islam ideologiyasını ifadə edir. [6, 23]

Tarixçilərin bildirdiklərinə görə, Xalq Cümhuriyyəti tərəfindən üçrəngli bayraq dövlət bayrağı kimi qəbul olunanda orada rənglərin nəyi ehtiva etdiyi göstərilsə də, aypara və səkkizguşəli ulduzun mənaları açıqlanmayıb. Bayrağın üzərindəki aypara və səkkizguşəli ulduzun mənaları barədə müxtəlif fikirlər mövcuddur. Aypara bir vaxtlar Bizans imperiyasının paytaxtı Konstantinopolun gerbi olub. Türklər 1453-cü ildə həmin şəhəri aldıqdan sonra bu gerb Osmanlı İmperiyası tərəfindən islam dininin bir rəmzi kimi qəbul edilib və bütün müsəlman aləmində həmrəylik, hürriyyət, yardım mənasını daşıyır. Səkkizguşəli ulduzun mənasına gəlincə bu, "Azərbaycan" sözünün əski əlifbada yazılışı ilə bağlıdır. Belə ki, əski əlifbada "Azərbaycan" sözü səkkiz hərflə yazılır. [6, 20]

Azərbaycan Demokratik Respublikası dövründə digər rəmzlərlə (gerb və himn) bağlı layihələr hazırlansa da, lakin onların qanunvericilk səviyyəsində təsdiqi və qəbulu mümkün olmamışdır. Belə ki, 1920-ci il yanvarın 30-da Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti tərəfindən milli himnin, dövlət gerbinin və möhürün təsvirlərinin hazırlanması ilə bağlı müsabiqə elan edilmişdir. Müsabiqənin müddəti 1920-ci il may ayının 1-də başa çatmalı idi. Müsabiqə Azərbaycan Xalq Cümhuriyyətinin rəmzlərinin, orden və medallarının, poçt markalarının ilk nümunələrinin yaradılmasına təkan verdi. Lakin, 1920-ci il aprel ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqutu Azərbaycanın milli rəmzlərinin qəbul edilməsinə imkan vermədi. ( 6, 31)

1920-ci ildə aprel işğalı nəticəsində Azərbaycanda sovet hakimiyyəti quruldu və milli dövlətçiliyimizi tərənnüm edən bütün rəmzlər sovet rəmzləri ilə əvəz olundu. Azərbaycan SSR-in bütün bayraqlarında qırmızı rəngdən istifadə olunmuşdur. O zaman qırmızı rəng Sovet xalqının sosializm və kommunizm yaratmaq uğrunda apardığı qəhrəmanlıq mübarizəsi simvolu hesab edilirdi. Bayraq üzərində olan oraq və çəkicin mənasına gəldikdə isə bu fəhlə və kəndli sinfinin ayrılmaz ittifaqını ifadə edirdi. Oraq və çəkic proletar dövlətin emblemi sayılırdı. [10, 454]

Sovet dövründə Azərbaycanda dövlət bayraqlarının dəfələrlə dəyişdirilməsinin səbəbi əlifba dəyişiklikləri ilə əlaqədar olaraq bayrağın üzərindəki yazıların da dəyişikliyə məruz qalması idi. Azərbaycan Sovet Sosialist Respublikasının ilk bayrağı 1920-1921-ci illərdə qəbul edilmişdi. Azərbaycan SSR-in ən son bayrağı 1952-1991-ci illərə aiddir. [ 11]

Sovet hakimiyyəti zamanı Azərbaycan özünün dövlət atributlarını Sovet Rusiyasının atributlarına uyğunlaşdırmışdı. Azərbaycan SSR-

in Dövlət gerblərinin üzərində adətən oraq və çəkic, beşguşəli ulduz, sünbül çələngi ilə əhatə olunmuş aypara təsvir edilmiş və "bütün ölkələrin proletarları birləşin" şüarı yazılmışdı. Dövlət gerbinin dəfələrlə dəyişdirilməsi bayraqlardakı dəyişikliklərə səbəb olan amillərlə bağlı idi. Azərbaycan SSR-in ən son gerbi 1978-ci ilə aid olmaqla Sovet İttifaqının süqutunadək dövlət gerbi statusu daşımışdır. Dövlət bayrağı və gerbi ilə yanaşı, 1945 və 1978-ci illərdə Azərbaycan SSR-in Dövlət himni də qəbul edilmişdir.

XX əsrin 80-ci illərində üçrəngli bayrağımız Azərbaycan xalqının milli azadlıq hərəkatının rəmzinə çevrildi. 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada üçrəngli bayraq Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı olaraq təsdiq edilib. 1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında" Qanun qəbul edərək onu Dövlət bayrağı elan etdi və üçrəngli bayrağımıza Azərbaycan Respublikasının Dövlət bayrağı statusu verildi.

1992-ci il mayın 27-də parlament "Azərbaycan Respublikasının Dövlət himni haqqında" Qanun qəbul etdi. Qanuna əsasən, 1919-cu ildə bəstəkar Üzeyir Hacıbəyli və şair Əhməd Cavad tərəfindən tərtib edilmiş "Azərbaycan marşı" Azərbaycanın Dövlət himni kimi təsdiq edildi.[4,101] Azərbaycan Respublikasının Ali Soveti 1993-cü il yanvarın 19-da qəbul etdiyi Konstitusiya Qanunu ilə 1919-1920-ci illərdə hazırlanmış dövlət gerbi layihələrindən birini müəyyən dəyişikliklərlə Azərbaycan Respublikasının dövlət gerbi kimi təsdiq etmişdi.[6,32] Dövlət rəmzlərimizin Azərbaycan Respublikasının Konstitusiyasının 2 maddəsində (23 və 75) təsbit olunması onların qanunvericilik səviyyəsində təsdiq olunduğunu göstərir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə dövlət quruculuğu siyasətində tarixi işlərlə yanaşı, milli dövlətçilik atributlarının tam formalaşdırılması, onların bütün vətəndaşlar, xüsusən gənclər arasında təbliği və öyrənilməsi işində tarixi zəmin yarandı. 1998-ci il 13 mart tarixli "Azərbaycan Respublikasının dövlət atributlarının təbliği işinin gücləndirilməsi haqqında" Sərəncamın imzalanması dövlət rəmzlərinin daha geniş miqyasda təbliğini təmin edərək, eyni zamanda cəmiyyətin vətənpərvərlik ruhunda formalaşmasına, dövlət rəmzlərinə hörmət və ehtiram hisslərinin gücləndirilməsinə xüsusi təkan vermiş oldu.

Heydər Əliyev tərəfindən dövlətçilik sahəsində görülən işlər bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən inkişaf etdirilməkdədir. 2004-cü il 8 iyun tarixli "Azərbaycan Respublikasının Dövlət bayrağının istifadəsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi dövlət rəmzlərinin qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində görülmüş mühüm tədbirlərdən biridir.

2007-ci il noyabr ayının 17-də Prezident İlham Əliyev tərəfindən "Bakıda Dövlət Bayrağı Meydanının yaradılması" və 2009-cu il noyabrın 17-də "Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında" olan Sərəncamlar dövlət başçısının və Azərbaycan xalqının Dövlət bayrağına olan dərin ehtiramın və yüksək dəyərin bariz nümunəsidir. Ölkə başçısının imzaladığı bu sərəncamlar Dövlət bayrağının dövlət rəmzləri sırasında tutduğu əhəmiyyətli yeri və rolunu, xalqımızın qədim tarixini, mədəniyyətini, milli-mənəvi dəyərlərini dünya ictimaiyyətinə təbliğ etmək naminə gördüyü uğurlu siyasətin ifadəsidir.

2010-cu il sentyabrın 1-də açılışı olan Dövlət Bayrağı Meydanı Azərbaycanda xüsusi əhəmiyyətə malikdir və Azərbaycan xalqının milli dövlətçilik ənənələrini, milli-mədəni dəyərlərini, həmrəyliyini təcəssüm etdirir. Meydanın üzərində vüqarla dalğalanan üçrəngli bayrağımız müqəddəs qürur rəmzinə çevrilərək, ürəyi Vətən sevgisi ilə döyünən hər bir Azərbaycan vətəndaşının qəlbində əbədi yer tutur.

## ƏDƏBİYYAT

1. *Abbaslı M. Şah İsmayıl Xətayinin həyat yolu miniatürlərdə. Bakı: İşıq, 1981, 91 s.*
2. *Azərbaycan qəz. 1918, 11 noyabr*
3. *Azərbaycan bayraqları : kataloq. Bakı: Elm, 2005, 88 s.*
4. *Azərbaycan Respublikasının Qanunlar Külliyyatı I cild "Hüquq ədəbiyyatı", Bakı, 2001*
5. *Əhmədov S. , Məmmədov V. Azərbaycan Respublikasının Dövlət Bayrağı. Bakı: 2010, 156 s.*
6. *Əliyev İ. H. , Məhərrəmov E. Ə. Azərbaycan Respublikasının Dövlət rəmzləri. Bakı: Nurlan, 2008, 56 s.*
7. *Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı: Elm və təhsil, 2011, 482 s.*
8. *Nəcəfli T.H. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri (Müasir Türkiyə tarixşünaslığında) Bakı,Çaşıoğlu, 2012, 604 s.*
9. *Иванов К. Флаги государств мира. Издательство: Транспорт 1971 г. 232 с.*
10. *Энциклопедия. Символы, знаки, эмблемы» «Астрель, АСТ», 2004 г, 556 с.*
11. *http://files.preslib.az/projects/remz/pdf/remz_bayraq.pdf*
12. *http://www.zmogusirzodis.leu.lt/index.php/zmogusirzodis/article/view/7*

**Açar sözlər:** rəmzlər, bayraq, dövlət, hakimiyyət, qanun



## РЕЗЮМЕ

В статье рассказывается об истории происхождения государственных символов Азербайджана. История символов Азербайджана восходит к глубокой древности. Исторические источники и памятники материально-духовной культуры дают информацию о символах государств Гарагоюнлу, Аггоюнлу и Сефевидов, азербайджанских ханств существовавших на территории Азербайджана.

Азербайджанский народ сохранил в исторической памяти традиции, государственных символов и благодаря этому, в 1918 г. после провозглашения независимости в Азербайджане начался процесс по восстановлению символов и атрибутов государственности.

Кроме того, в статье подчеркивается роль государственных символов в истории государственности Азербайджанской Республики.

## SUMMARY

The article describes the history of the origin of the state symbols of Azerbaijan. The history of Azerbaijan symbols goes back to the ancient times. Historical sources and monuments of material and spiritual culture give information about the symbols of Garagoyunlu, Aggoyunlu and Safavids, Azerbaijani khanates that existed on the territory of Azerbaijan.

The Azerbaijani people saved and preserved in historical memory the national-spiritual values, and exceptionally owing to it, after declaring its independence in 1918 the process of restoration of statehood symbols and attributes began in Azerbaijan.

In addition, the article emphasizes the role of the state symbols of statehood in the history of the Republic of Azerbaijan.

# История

## ШЕЙХ СЕФИ АД-ДИН ИСХАК АРДЕБИЛИ И ШЕЙХЗАДЕ ДЖАМАЛ АД-ДИН АЛИ

НАРГИЗ Ф.АХУНДОВА
Доктор философии по истории



История жизни шейха Сефи ад-дина – одна из интересных и загадочных страниц хроники сефевидской династии. Именно «Сефи ад-дин Исхак Ардебили, почитавшийся святым», и дал «имя ордену и фамилии шейхов» Сефевийе (5, с.66). Ещё при жизни своего мюршида Захида Гиляни шейх Сефи был объявлен его духовным преемником. Но о том, как характеризовались отношения между Сефи ад-дином Ардебили (1252-1334) и потомками Гиляни после его смерти, в источниках упоминается не много. На самом деле, на пути к становлению во главе Ардебильского ордена, шейх Сефи прошёл через множество испытаний и даже покушений на жизнь. Раскрытию этих вопросов, а также подробному исследованию некоторых эпизодов из источников и посвящается настоящая статья.

Возвышение шейха Сефи как духовного лидера сефевийе неразрывно связано с историей семьи шейха Захида Гиляни, поэтому их историю лучше всего рассматривать во взаимосвязи. Несмотря на то, что семьи шейхов Захида[I] и Сефи[II] были изначально отличны, словно какая-то невидимая, но глубочайшая идеологическая сила объединяла этих двух святых.

Вот как преподносит начало этой истории средневековый хронолог Фазлуллах ибн Рузбихан Хунджи, называя Ардебиль, откуда был родом Сефи ад-дин, «убежищем святости» (7, с.77):

**نخست کسی (که) علم رفعت آن خاندان بر اوج ارشاد (133 – پ) برافراخت، واحید آفاق شیخ صفی الدّین اسحاق بود و مولد کریمش دیهی ست از ولایت اردبیل که آن را (کلخوران) گویند.**

[Перевод: Первый, кто вознёс великое знамя[III] этой династии на вершину иршада (истины) был единственный в мире Шейх Сефи ад-дин Исхак, славное рождение которого произошло в одной из деревень Ардебильского вилайета, название которой - Кальхуран – Н.А.] (16, с. 233).

В качестве причины избрания Сефи ад-дином «стези благочестия» автор описывает сон:

**و از طایفه ثقات که کتب مؤلفه در سیرت آن طایفه به مطالعه شریف مشرّف فرموده بودند، ... طریق سلوک را آن بود که در واقعه ای دید که او را علمی سبز دادند که در رفعت با افلاک برابری می کرد و در سموّ با اوج سماک همبری (می) نعود...**

[Перевод: Кое-кто из людей, читавших книги, посвящённые жизнеписаниям этого рода…(мне сказали), что причиной избрания пути совершенствования упомянутым шейхом (Сефи – Н.А.) послужило сновидение, в котором ему в руки было дано зелёное знамя , вознёсшееся до небес] (7, с.77;16, с.233).

Шейх Сефи покинул свой дом «вопреки воле своей матери» и отправился на долгие годы в поисках своего мюршида… (10, с.41-42). Затем «он отправился сперва в Шираз, где встретился с Муслих ад-Дином Са’ди…» (7, с.77). Но «даже сам Саади не впечатлил его», пока «…он не узнал о проживающем на побережье Каспийского моря, шейхе Захиде из Гиляна», который, в свою очередь, «в возрасте 60 лет найдя своего» последователя, «провёл рядом с ним последующие 25 лет своей жизни…» (10, с.41-42).

Впоследствии шейх Сефи-ад-дин женился на Биби Фатиме,

став членом семьи своего мюршида и его преемником. Хотя, по некоторым данным, ранее Ахситан III, стремясь укрепить связь с Захидом Гиляни, даже «в 1290 г. отправил Сефи предложение жениться на одной из своих дочерей вкупе с приданным в 14 000 динаров золотом, землями… приносящими урожай» (13, с.46-47). «У Сефи ад-дина было две жены: одна - Биби Фатима, дочь шейха Захида, другая – дочь Ахи Сулеймана из Гилькарана. От первой родились Мухьи ад-дин, Садр ад-дин, Абу Саид. От второй – два сына и одна дочь: Аля ад-дин, Шараф ад-дин и дочь, которая была выдана замуж за сына шейха Захида, Шамс ад-дина» (8, с.64-65).

2. Что касается самого Захида Гиляни, то он был женат дважды: от первого брака он имел сына Джамал ад-дина Али. В возрасте же семидесяти лет он женился во второй раз на юной дочери Ахи Сулеймана, родившей ему сначала дочь – Биби Фатиму, затем сына – Шамс ад-дина Мухаммада (будущего шурина шейха Сефи). Ещё при жизни Захида Гиляни, когда стоял вопрос о передаче преемственности в ордене, его сын Джамал ад-дин Али носил седую бороду, что говорило о его преклонном возрасте, и «только близорукие люди могли допустить, что Захид назначит его своим преемником», поскольку кровно-родственная связь в этом деле не играла особой роли.

Все агиографические сочинения в этом вопросе опираются на известный эпизод из «Сафват-ус-Сафа», когда «шейх Захид ещё при жизни изъявил намерение удостоить Сефи-ад-дина на иршад и посадить на саджддадэ, но тот скромно отказался». Тем не менее, «Обладатель этого трона (шейх Захид), согласно воле божьей и божьим порядкам, надел на него рубаху (т.е., объявил его мюршидом – Ш.Ф.). Злобные люди возразили ему: У тебя есть верный, умный и зрелый сын Джамал ад-дин Али! Почему ты не сажаешь ЕГО на высокий [святой – Н.А.] трон?!». Тогда «шейх, чтобы успокоить народ», придумал для них (сына и зятя) испытание, в котором победил Сефи ад-дин[IV] (1, с.29; 15, с.13). Однако «даже в агиографических источниках не удалось скрыть тот раскол, который образовался в семье Захида в связи с наследованием ордена и его смертью» (12, с.519). Когда шейх Тадж ад-дин Ибрахим Захид почувствовал приближение смерти, то в тот момент «он находился на севере, в Сур-мердэ, расположенном на 10-дневном расстоянии от старого Махмуд-абада и 8-дневном расстоянии от Ардебиля» (12, с.519). Народ Гуштасфи (в районе Арана) хотел, чтобы шейх был похоронен на их территории. Джамал ад-дин настаивал, чтобы его хоронили в Чомаг-абаде в Мугани и Даштавенде, по той причине, что эта территория имела широкую перспективу для заселения и разведения земледелия. Сам шейх предпочитал быть похороненным у себя на родине – в Сийах-руде… В конце концов, он направил посыльного в Калькхоран (на севере Ардебиля), где в тот момент находился Сефи ад-дин. По преданию «8-дневное расстояние всадник пересёк за 1 день и на следующий день привёл с собой Сефи ад-дина. Толпы людей вышли на улицы во всеоружии, видимо, не желая, чтобы шейх покидал их. Тогда Сефи ад-дин тайно посадил его в лодку и увёз в Ленкорань, а оттуда, замаскировавшись в куче мусора, увёз его в Сийах-руд. Когда шейх умер, в комнате кроме Сефи ад-дина никого не было, и он собрал последние инструкции своего наставника» (12, с.519; 2, с.194-196).

«Похищение умирающего принесло последнему преимущество перед всеми остальными претендентами на наследство», - пишет Ж.Обэн. «Джамал ад-дин Али остался в одиночестве, так как все дети шейха Захида, его помощники и сподвижники согласились на присвоение Сефи духовной власти усопшего» (13, с.50). Сефи стал наследником своего мюршида, а сын шейха Захида, Джамал ад-дин, согласно сефевидским источникам, уехал жить близ мавзолея своего отца. С тех пор в агиографических источниках не указывается ни один из сыновей Джамал ад-дина, разве что «внук Захида, Джамалан, с которым раз сидел и беседовал Сефи ад-дин» (12, с.519-520).

Так, преемственность саджддадэ шейха Захида перешла шейху Сефи. Как видно, о передаче преемственности в ордене членам семьи Гиляни в источнике не упоминается. Однако некоторые представители ордена оставались недовольны выбором мюршида. Недовольство вызывал и переход религиозного центра в Ардебиль. Ж.Обэн оценивает эти события следующим образом: «Во всех религиозных орденах и во всех религиях при избрании нового главы внутри орденов происходила необъявленная война. Братство Захидийе постигла та же участь… Гилянцы не желали преемника, который перенесёт их страну в Ардебиль…» (13, с.49).

Полагаю, французский исследователь Ж.Обэн достоин особого упоминания. В 1991 г. в журнале «Turcica» была издана его статья под названием «Shaykh Ibrahim Zahid Gilani (1218?-1301)». Она заставила обратить внимание научной общественности на достоверную информацию о неоднократных попытках покушений, организованных сторонниками сына Захида Гиляни, Джамал ад-дина Али на Сефи ад-дина, содержащуюся в самом же источнике «Сафват ас-сафа». В работе автор затронул немаловажные вопросы, которые до сих пор волнуют умы многих учёных, занимающихся историей сефевидской династии, и составляют одну из центральных тем нашего исследования: как же происходила передача преемственности шейху Сефи, как развивались взаимоотношения между шейхом Сефи и семьёй Гиляни, и какой статус занимала семья Гиляни после смерти святого? Привлекает та своеобразная форма, в которой автор преподносит собственную точку зрения, выражая совершенно новый взгляд критического реализма на указанные события. Так, освещая эпизоды, связанные с объявлением Захидом Гиляни духовным преемником ордена, достойным сесть на саджддадэ, своего зятя, Сефи ад-дина Исхака, Обен сообщает: «Обещание Сефи руки девочки усиливало влияние последнего на его шейха… Сефи окружал его самой внимательной заботой и постепенно становился посредником между ним и посетителями. Такое положение крайне не устраивало Джамал ад-дина Али. Однажды, воспользовавшись тем, что Сафи был вынужден остаться в келье из-за нарыва, а весь присутствующий Ардебильский клан (ta'ifa) оставался с ним, Джамал ад-дин Али и один его блестящий ученик, Мавляна Муваффак ад-дин Ахари, задумали отодвинуть ардебильцев и восприпятствоать им прислуживать (поскольку по традиции прислуживание возлагалось на тех, кто занимал почётные места подле Захида на собраниях). Замысел не удался, но стал ещё одним подтверждением величия Сафи и некомпетентности Джамал ад-дин Али ["Le coup n'est bien sur raconte que son echec ajoutait une evidence de plus a la fortune de Safi, et a l'incompetence de Gamaluddin Ali"] (13, с.49-50). Скорее всего, речь шла о попытке какого-то «военного переворота».

Когда шейх Захид умер, Джамал ад-дин Али «поначалу… отошёл от мира, то есть, был в изоляции. Но считая себя главой и преемником отца, он был обеспокоен, что богатства ускользают у него из рук» (13, с.49).

Dünya təsərrüfat sistemi formalaşdıqca və ticarət əlaqələri inkişaf etdikcə bu sahələrə "diplomatiya", "xarici əlaqələr" anlayışları tədricən, xüsusilə XVIII əsrin axırlarından başlayaraq daxil olmuşdur. Qərbi Avropada bu dövrdə rəsmi qurumların xarici əlaqələr sahəsində "diplomatiya" sözü formalaşmağa başlamış və ölkələrarası əlaqələrdə bu və ya digər formada iqtisadi problemlərin həlli üçün diplomatik danışıqlardan və diplomatiya elementlərindən istifadə edilmişdir. Bununla belə, "İqtisadi diplomatiya" anlayışı son dövrlərə xas olan müasir bir iqtisadi vasitə kimi diqqəti cəlb etməkdədir. İqtisadi diplomatiya 20-ci əsrin sonlarında xüsusilə daha çox tələb olunan fəaliyyət sahəsi kimi beynəlxalq iqtisadi münasibətlər sistemində mühüm əhəmiyyət kəsb etməyə başlamışdır. Bu ilk növbədə beynəlxalq iqtisadi proseslərdə və dünya təsərrüfat sistemində baş verən tarixi transformasiyalar və qlobal təsirlərin artması ilə birbaşa bağlı olmuşdur [1,c 29]. İqtisadi diplomatiyanın beynəlxalq münasibətlər sistemində rolunun artması, həm də beynəlxalq kooperasiya və təsərrüfat əlaqələrinin səmərəliliyinin yüksəldilməsi ilə bağlı ölkələrarası əməkdaşlığın sıxlaşdırılmasının vacibliyi ilə hesab olunur. İ.İvanov belə hesab edir ki, iqtisadi diplomatiya əslində milli maraqlar çərçivəsində dövlətin müxtəlif xarici iqtisadi fəalyyət sahələrində apardığı iqtisadi siyasətin iqtisadi və hüquqi mexanizmlərinin məcmusudur[2]. Görkəmli fransız iqtisadçısı və diplomatı Q.K.Karrer isə belə hesab edir ki, iqtisadi diplomatiya bir tərəfdən dövlətin beynəlxalq aləmdə maraqlarını qoruyursa, digər tərəfdən iqtisadi diplomatiyanın mexanizmləri və alətləri vasitəsi ilə beynəlxalq iqtisadi proseslərin daha səmərəli istiqamətlərinin müəyyənləşdirilməsi mümkündür[3].

İqtisadi diplomatiyanın rolu 1990-cı illərdən sonra dünya xəritəsində yeni dövlətlərin əmələ gəlməsi və sosializm iqtisadi sisteminin əsasən süqut etməsi ilə əlaqədər olaraq daha da güclənmişdir. Belə ki, beynəlxalq iqtisadi münasibətlərə daha müasir yanaşmalar və ölkələrarası əlaqələrin yeni-effektiv modellərinin formalaşdırılması vacib zərurət kimi ortaya çıxmışdır. Rusiyalı alim V.Şetininin fikrincə, iqtisadi diplomatiya - iqtisadi amillərin beynəlxalq münasibətlərə qanunauyğun təsirindən yaranan bir vasitədir [4]. Bundan əlavə, iqtisadi diplomatiyanın inkişafında ölkənin milli xarici iqtisadi strategiyasının işlənib hazırlanması, prioritet istiqamətlərinin seçilməsi və bu sahələrin lazımı səviyyədə təşkilatlandırılması, maliyyələşdirilməsi, kadrlarla təminatı ilə bilavasitə bağlıdır. Müasir dövrdə iqtisadi diplomatiya-dövlətin qloballaşma şəraitində ən mühüm iqtisadi funksiyalarından biridir. Rus alimi İ.Qrişinin fikrincə, hər bir ölkənin davamlı inkişafı və rəqabətqabiliyyətli sənayeyə malik olması, bu ölkənin iqtisadi diplomatiyasının inkişafından çox asılıdır[5].

Qeyd edək ki, dünya təsərrüfat sistemi genişləndikcə və qloballaşma amillərinin təsiri artdıqca iqtisadi diplomatiyanın aktuallığı qaharıq olaraq özünü biruzə verməkdədir. Belə bir şəraitdə iqtisadi diplomatiya bir tərəfdən dünya təsərrüfat sistemində möhkəmlənmək istəyən dövlətlərin milli maraqlarının qorunması, onların iqtisadi sistemlərinin davamlı inkişaf etməsi və ölkənin iqtisadi təhlükəsizliyinin təminatçısı rolunda çıxış edirsə, digər tərəfdən, ölkələr arasında rəqabət mühitini, ticarət iqtisadi münasibətləri dərindən öyrənməkdə səmərəli bir iqtisadi vasitə kimi mühüm əhəmiyyət kəsb edir[6]. İqtisadi diplomatiyanın mühüm vəzifələrindən biri də Azərbaycanın iqtisadi təhlükəsizliyinin təmin edilməsi məqsədilə iqtisadi təhlükəsizlik diplomatiyasının gücləndirilməsidir. İqtisadi təhlükəsizlik diplomatiyası - iqtisadiyyatın sabit və dinamik inkişafının, davamlı iqtisadi artımın təşkili, iqtisadi istehlakın effektivli təmin edilməsi, ehtiyatların və milli resursların hərəkətinə nəzarət, milli və beynəlxalq səviyyələrdə milli iqtisadi maraqların qorunması proseslərindən ibarətdir. Azərbaycan Respublikası Prezdenti İlham Əliyevin 23 may 2007-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası"nda qeyd edilmişdir ki, ölkənin iqtisadi inkişafının davamlı olması

hökümətin iqtisadi siyasətinin təməl prinsipidir. Sürətlə artan neft və qaz gəlirlərindən həddən artıq asılılıq nəticəsində yarana biləcək iqtisadi qeyri-sabitlik təhdidinin qarşısının alınması məqsədilə iqtisadi siyasət iqtisadi çoxşaxəliliyin təşviqinə yönəldilməlidir[7]. Bu baxımdan, milli iqtisadi təhlükəsizliyin prioritet sahələrinə iqtisadi inkişaf proseslərinin gücləndirilməsi, dünya iqtisadi proseslərində ölkənin layiqincə təmsil olunması, milli adət-ənənələrə, sahibkarlıq xüsusiyyətlərinə hörmətlə yanaşmaqla bərabər, beynəlxalq səviyyədə beynəlxalq iqtisadi əlaqələrin xarici-ticarət fəaliyyətinin genişləndirilməsi, sərbəst ticarətin inkişafı, daxili və xarici investisiyalardan ölkənin iqtisadi inkişaf modelinin dünya iqtisadiyyatının effektiv tərkib hissəsinə çevrilməsinin təmin edilməsi və sairlər aiddir.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra, dövlət atributlarının formalaşdırılması, dövlət quruculuğu proseslərinin təşkili ilə yanaşı, ölkənin milli maraqlarına cavab verən iqtisadi inkişaf konsepsiyasının yaradılması zərurəti ortaya çıxdı. Qeyd etmək lazımdır ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra, mühüm dövlət atributlarının formalaşdırdığı proseslərdə ölkəmizin milli iqtisadi diplomatiyasının yaranması, formalaşması və təkmilləşdirilməsi prosesləri sürətlənmişdir. Öz milli sərvətlərindən uğurla istifadə edən Azərbaycan ümummilli liderimiz Heydər Əliyevin tarixi səyləri nəticəsində dünya iqtisadi diplomatiyasında ən ugurlu nümunələrdən biri kimi dəyərləndirilməyə layiq olan milli neft strategiyasını işləyib hazırladı və gerçəkləşdirdi[8]. 1994-cü ildən başlayaraq, Azərbaycanda bazar iqtisadiyyatı şərtlərinə söykənən iqtisadi inkişaf istiqamətləri müəyyənləşdirildi. Bu ilk növbədə 1994-cü ildə həyata keçirilmiş "Əsrin kontraktı" ilə bağlı olmuşdur. Müstəqil Azərbaycanın neft strategiyasının əsasını qoymuş bu kontraktla Azərbaycan dünya təsərrüfat sisteminə çoxşaxəli inteqrasiya istiqamətlərini reallaşdıra bildi. Ümummilli liderimiz Heydər Əliyevin tarixi xidmətləri sayəsində zəngin təbii sərvətləri, maddi-texniki və intellektual potensialı, əlverişli strateji və geosiyası mövqeyi olan, beynəlxalq kommunikasıya xətləri, Qərb-Şərq, Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişdiyi, dünya dövlətlərinin maraq dairəsində olan Azərbaycan tarixi inkişaf yolunu demokratiya, sərbəst sahibkarlıq, azad rəqabət, bazar iqtisadiyyatı ilə müəyyənləşdirdi və iqtisadi siyasət modelində əsas amillər kimi iqtisadiyyatın ayrı-ayrı sahələrinin fəaliyyətinin sabitləşdirilməsi, islahatların sürətləndirilməsi, dünya təsərrüfat sisteminə qoşulması, qloballaşma və liberallaşma şəraitində aktiv inteqrasiya proseslərinin fəal iştirakçısına çevrilməsi özünü göstərmişdir. Hazırda ölkə rəhbərliyi tərəfindən uğurla icra edilən neft strategiyası Azərbaycanı regionda və dünyada dinamik inkişaf edən bir dövlətə çevrilməkdə ciddi təkan vermiş, ölkənin öz milli maraqlarına uyğun iqtisadi diplomatiyası güclənmiş, iri neft-qaz, nəqliyyat, infrastruktur layihələri həyata keçirilmiş, biznes mühiti yaxşılaşmış, sahibkarlığın inkişafına hərtərəfli şərait yaradılmış, ölkənin beynəlxalq imici artmışdır.

Qeyd edək ki, Azərbaycan iqtisadi diplomatiyasının formalaşdırılmasında, təkmilləşdirilməsində və müasir qlobal iqtisadi çağırışlara cabav vermək səviyyəsinə qaldırılmasında ümummilli liderimiz Heydər Əliyevin tarixi xidmətləri böyükdür. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezdentinin 21 yanvar 2013-cü il tarixli Sərəncamında qeyd edilir ki, məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başlamış və dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilmişdir[9]. Müstəqiliyyimizin bərpasından sonrakı dövrdə Heydər Əliyev Azərbaycan xalqının bütün sahələrdə üzləşdiyi mürəkkəb problemlərdən qurtarmağa qadir olan tarixi şəxsiyyət və ümummilli lider kimi, milli iqtisadiyyatımızın dirçəldilməsinə də mühüm töhfələr vermişdir. Azərbaycanın milli iqtisadiyyatının formalaşmasında Heydər Əliyevin xidmətləri misilsizdir. İqtisadi sahədə islahatların ardıcıl və sistemli şəkildə həyata keçirilməsi məqsədilə ulu öndər beynəlxalq tələblərə uyğun qanunvericilik bazasının yaradılmasını təmin etdi. Heydər Əliyevin rəhbərliyi dövründə iqtisadi sahələrin tənzimlənməsi ilə bağlı 70-dən artıq qanun edilmiş, 100-dən çox fərman və sərəncam imzalanmış, 30-a yaxın dövlət proqrammı təsdiq edilmişdir. Ulu öndərin çoxsaylı xarici səfərləri, iki tərəfli və beynəlxalq səviyyədə imzalanmış mühüm saziş və sənədlər, uğurlu neft diplomatiyası, beynəlxalq və regional təşkilatlarla aparılan gərgin iş ölkəmizin inkişafının sürətləndirilməsinə mühüm töhfəsini vermişdir. Beləliklə, Heydər Əliyev strategiyasının həyata keçirilməsi nəticəsində 1995-ci ildən Azərbaycanda inkişafın yeni mərhələsi-bərpa və dinamik inkişaf dövrü başlanmışdır. 1995-2003-cü illər ərzində ümumi daxili məhsul 90,1 faiz, dövlət büdcəsinin gəlirləri 3,9 dəfə, ölkənin valyuta ehtiyatları 85 dəfə, sənaye məhsullarının həcmi 22,4 faiz, kənd təsərrüfatı istehsalı 52,8 faiz, xarici ticarət dövriyyəsi 4 dəfə, iqtisadiyyatda məşğul olanların orta aylıq əməkhaqqı 6,2 dəfə artdı, inflyasiya səviyyəsi 2-3 faizə qədər endirildi. Bu dövrdə iqtisadiyyata bütün maliyyə mənbələri hesabına 20 mlrd. ABŞ dolları həcmində investiyaların qoyulması təmin olundu[10].

Azərbaycanın iqtisadi diplomatiyasının ən böyük uğuru və gücü onun əsasən müstəqil olması, digər dövlətlərin təsirindən çəkinməməsi, milli maraq və milli iqtisadi maraqların ən mühüm xüsusiyyətlərini özündə əks etdirməsi, ölkənin iqtisadi maraqlarının dünya səviyyəsində qorunması iqtidarında olmasıdır. Professor N.Məmmədov qeyd edir ki, ölkəmiz beynəlxalq



enerji layihələrində fəal iştirak dir. Bunun regional və qlobal miqyasda baş verən geosiyasi proseslərə təsirini görməmək mümkün deyil. Indi Azərbaycan özü Trans-Anadolu qaz kəməri adlı enerji layihəsinin təşəbbüskarıdır... Azərbaycanın enerji daşıyıcıları bir neçə istiqamət üzrə ixrac edilir. Bu cür diversifikasiya ölkənin geosiyasi vəziyyətinə müsbət təsir edir, onun rəqabətədavamlılığını artırır[11]. Ölkəmizin əsas təbii sərvət potensialından və milli resurlarından daha uğurlu və maksimum səmərəli istifadə edilməsi kifayət qədər mühüm bir məsələdir və ən yüksək milli maraqları özündə birləşdirmişdir. Heydər Əliyevin təbirincə, Azərbaycanın böyük neft və qaz sərvətlərinə malik olması bizim xalqımızın xoşbəxtliyidir və bu gün üçün, xalqımızın yaxşı yaşaması üçün, ölkəmizin inkişaf etməsi üçün ən əsas amildir[12].

2003-cü ildən başlayaraq ölkə iqtisadiyyatının inkişafında yeni dövr və milli iqtisadi diplomatiyanın əsas vəzifələri sırasında isə kifayət qədər mürəkkəb olan problemlərin-milli iqtisadiyyatın dinamik inkişafının təmin edilməsi, ölkə iqtisadiyyatının imicinin artırılması, milli iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, ixrac potensialının gücləndirilməsi və onun strukturnun diversifikasiyalaşdırılması, ölkə iqtisadiyyatının neftdən asılılığının azaldılması, ümumillikdə milli iqtisadiyyatın qlobal təsirlər şəraitində rəqabət qabiliyyətinin artırılması problemlərinin həlli lazım gəlmişdir. Ümummilli lidermiz Heydər Əliyevin möhkəm təməlini yaratdığı milli iqtisadi diplomatiya kursunun Prezdent İlham Əliyev tərəfindən böyük uğurla davam etdirməsi nəticəsində ölkə iqtisadiyyatının şaxələndirilməsi, dinamik inkişafı, innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması, xüsusilə qeyri-neft sektoru sahələrinin inkişafının sürətləndirilməsi, əhalinin sosial-iqtisadi problemlərinin həll edilməsi, ölkəmizin beynəlxalq səviyyədə imicinin artırılması və rəqabətqabiliyyətinin gücləndirilməsi təmin olunmuşdur. Akademik R.Mehdiyev qeyd etmişdir ki, Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycan iqtisadiyyatının şaxələnməsi və sosial rifah sahələrində mühüm naliyyətlər əldə etmişdir[13].

Son illərdə dünya iqtisadi proseslərində qlobal təsirlər daha çox kəskinləşmiş, eyni zamanda Azərbaycanın əsas valyuta gəlirləri mənbəyi olan neftin qiyməti dünya bazarlarında bir neçə dəfə aşağı düşmüşdür. Təsadüfi deyildir ki, Azərbaycan dünya ölkələri sırasında ilk növbədə neft amilinin hesabına möhkəmlənmişdir və ölkənin milli iqtisadi diplomatiyasının beynəlxalq aləmdə əsas rıçaqı və təsir amili də məhz neft amilidir. Professor Ə.Həsənov haqlı olaraq Xəzər neftinin Azərbaycanın dünyanın aparıcı ölkələri ilə iqtisadi və siyasi əlaqələrinin qurulmasında mühüm əhəmiyyət daşıdığını bildirmişdir[14, s. 904]. Bu baxımdan, neft amili hələ uzun müddət milli diplomatiyanın tutarlı amillərindən biri olaraq qalacaqdır. Amma, son illərin qlobal çağırışları və təhlükələri milli iqtisadiyyatın neftdən asıllığının əhəmiyyətli şəkildə azaldılmasını şərtləndirir və bu istiqamətdə ölkəmizin iqtisadi diplomatiyasının yeni mühüm vəzifələri formalaşmışdır. Həmin vəzifələr, ilk növbədə Azərbaycan Respublikası Prezdentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq etdiyi "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə ki, strateji hədəflərdən irəli gəlmişdir[15].

Beləliklə, yaxın perspektivdə ölkəmizin millli iqtisadiyytaının rəqabət qabiliyyətliliyinin gücləndirilməsi, iqtisadiyyat sahələrinin inklüzivliyi və ölkə əhalisinin sosial rifahın daha



da artırılması istiqamətində Azərbaycanın milli iqtisadi inkişaf modelinin təkmilləşdirilməsi və dünya iqtisadi inkişaf proseslərinə uyğunlaşdırılması istiqamətində geniş miqyasda iqtisadi diplomatik səylər göstərmək lazım gələcəkdir. Qlobal çağırışlara adekvat olaraq investisiyaların cəlbi, azad rəqabət mühiti, dünya bazarlarına çıxış və insan kapitalının inkişaf etdirilməsi və ölkəmizin dünya iqtisadiyyatında mövqeyinin gücləndirilməsi, yüksək gəlirli ölkələr qrupuna daxil olması üçün əlavə tədbirlərin görülməsi milli iqtisadi diplomatiyanın qarşısında duran strateji vəzifələrdəndir. Bu proseslərdə milli iqtisadi diplomatik fəaliyyətin əsas məqsədi ölkə iqtisadiyyatının strukturunun təkmilləşdirilməsi proseslərinə iri kapitalın axınına və investisayaların gətirilməsinin intensivliyinə nail olmaq, dünya ölkələri ilə maksimum səmərəli xarici-iqtisadi əlaqələr formalaşdırmaq, milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması məqsədilə qeyri-neft sektoru sahələrinin ixrac potensialının yüksəldilməsi tədbirlərində fəal iştirak etmək, ölkə sahibkarlarının və biznesmenlərinin milli iqtisadi maraqlar nəzərə alınmaqla dünya bazarlarında fəaliyyətinin genişləndirilməsinə, bütövlükdə milli iqtisadiyyatımızın davamlı və dayanıqlı, dinamik artım tempi ilə inkişafına nail olmaqdan ibarətdir və s.

## ƏDƏBİYYAT


*1. с 29. Шевченко Б.И. Экономическая дипломатия в современной системе международных отношений // Экономический журнал. Выпуск №41/2016.- С 29-40.*

*2. Иванов И.Д. Хозяйственные интересы России и её экономическая дипломатии. Москва, 2001.- С. 4.*

*3. Guy Carron de la Carriere. La Diplomatie économique. Le Diplomate et le marché Broché – février 1998.-224 p.*

*4. «Экономическая дипломатия». Щетинин В.Д., Москва - 2001 г.*

*5. Гришин И.В.. Экономическая демократия: шведский казус//Мировая экономика и международные отношения. №5, 2006. http://www.imemo.ru.*

*6. Əliyev Ş.T. İqtisadi diplomatiya. Bakı, Elm və təhsil, 2012.- 96 s.*

*7. Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası. Azərbaycan Respublikası Prezdentinin 2007-ci il 23 may tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

*8. Əliyev Ş.T. Azərbaycanın xarici iqtisadi siyasəti. Sumqayıt Dövlət Universitetinin Nəşriyyatı, 2015.-185 s..*

*9. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 21yanvar 2013-cü il.*

*10. Mustafayev Ş. Heydər Əliyev-müasir Azərbaycanın qurucusu. Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi. http://www.economy.gov.az.*

*11. Məmmədov N. "Heydər Əliyev Azərbaycanın müstəqil xarici siyasətinin memarıdır". http://newtimes.az.*

*12. Azərbaycan nefti. http://www.azerbaijan.az.*

*13. Ramiz Mehdiyev: "Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycan iqtisadiyyatının şaxələnməsi və sosial rifah sahələrində mühüm nailiyyətlər əldə edilib" http://news.milli.az.*

*14. s. 904. Али Гасанов. Современные международные отношения и внешняя политика Азербайджана. (Второе издание, дополненное), Баку, "Zərdabi LDT" MMC, 2013, 1008 стр.*

*15. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.*



***Açar sözlər:** Azərbaycan, milli iqtisadiyyat, iqtisadi diplomatiya, strateji yol xəritəsi, strateji hədəflər, milli iqtisadi inkişaf modeli, dünya iqtisadi modeli.*
***Ключевые слова:** Азербайджан, национальная экономика, экономическая дипломатия, стратегическая дорожная карта, стратегические цели, национальная модель экономического развития, мировая экономическая модель.*
***Key words:** Azerbaijan, national economy, economic diplomacy, strategic road map, strategic purpose, the national model of economic development, global economic model.*


## РЕЗЮМЕ


В статье исследована важность усиления национальной экономической дипломатии в интенсификации реализации стратегических дорожных карт. Анализированы эволюция формирования экономической дипломатии, мысли и теоретические подходы учёных мира по экономической дипломатии. Раскрыта эффективность усиления национальной экономической дипломатии в ускорении развития национальной экономики. Обоснована важность совершенствования целей и задач национальной экономической дипломатии по улучшению модели экономического развития Азербайджана в условиях современных экономических вызовов.

В конце статьи дан ряд предложений и рекомендаций по важности усиления национальной экономической дипломатии в интенсификации реализации стратегических дорожных карт в ближайшей перспективе.


## SUMMARY


The importance of strengthening the national economic diplomacy to intensify the implementation of strategic roadmaps is investigated in the article. The evolution of the formation of economic diplomacy, thought and theoretical approaches of scientists of the world on economic diplomacy are analyzed. The enhance efficiency of the national economic diplomacy in accelerating the development of the national economy is revealed. The substantiates the importance of improving the goals and objectives of the national economic diplomacy to improve the model of economic development of Azerbaijan in the conditions of the current economic challenges is substantiated.

The number of proposals and recommendations on the importance of strengthening the national economic diplomacy to intensify the implementation of the strategic road maps in the near future are given at the end of the article.

# Multikulturalizm



ELÇİN ƏHMƏDOV
Siyasi elmlər doktoru, professor

## AZƏRBAYCANIN DAXİLİ VƏ XARİCİ SİYASƏTİNDƏ MULTİKULTURAL VƏ TOLERANT DƏYƏRLƏR

Tarixən Azərbaycan Avropa və Asiyanın qovşağında yerləşdiyi üçün xalqlar arasında körpü rolunu oynamış, müxtəlif mədəniyyətlərin əlaqələrində birgə yaşayışında mühüm əhəmiyyət kəsb etmişdır. Əsrlər boyu həmin xalqların və dinlərin nümayəndələri burada dostluq, qarşılıqlı etimad və sülh şəraitində yaşayıb fəaliyyət göstərmişlər. Təbiidir ki, belə bir mühitdə multikultural və tolerant dəyərlər xalqımızın əsl həyat tərzinə çevrilməyə başlamışdır. Bu baxımdan hazırda Azərbaycanda bərqərar olan multikulturalizm və tolerantlıq xalqımızın mentalitetindən irəli gələn ənənə, həm də dövlət ideologiyasının tərkib hissəsi hesab olunur. Azərbaycan Respublikası dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra siyasi və iqtisadi münasibətlərin yeni prinsiplər üzərində bərqərar olmasına səbəb olmaqla yanaşı, eyni zamanda ölkəmizdə multikulturalizmin inkişafı üçün geniş imkanlar yaratdı. Dövrün tələblərinə uyğun olaraq multikultural münasibətləri tənzimləmək, müxtəlif dini inancların, mənəvi-mədəni dəyərlərin daşıyıcısı olan azsaylı xalqların müstəqil dövlətçilik ideyaları ətrafında sıx birləşməsini təmin etmək dövlətin qarşısında duran əsas vəzifələrdən biri idi.

1993-cü ildə yenidən siyasi hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyevin "Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik" münasibətilə Azərbaycan xalqına müraciətində deyilirdi: "... Azərbaycanın taleyi belə gətirmişdir ki, coğrafi-siyasi mövqeyinə görə o, həmişə sivilizasiyaların qovuşuğunda olmuş və istər Qərbin, istərsə də Şərqin çox güclü təsirini öz üzərində hiss etmişdir. Məlumdur ki, Azərbaycan insanın, bəşəriyyətin beşiyi olan nadir ölkələrdən biridir. Burada həyat çox erkən yaranmışdır və Azıx mağarasında tapılmış azıxantrop Azərbaycanın ən qədim ibtidai insan məskənlərindən biri olmasını sübut edir. Eramızdan əvvəl birinci minilliyin sonunda, eramızın birinci minilliyinin əvvəlində Azərbaycan müxtəlif mədəniyyətlərin və dinlərin təsirinə məruz qalmışdır. Məhz bunun nəticəsində tarixən ölkəmizdə müxtəlif dinlərə münasibətdə yüksək tolerantlıq, dözümlülük mühiti yaranmışdır. Yunan-Roma mədəniyyətinin, bütün antik sivilizasiyasının güclü təsiri altında inkişaf edən elm, ədəbiyyat və incəsənətimiz çox erkən dövrlərdə özünəməxsus forma və məzmuna malik olmağa başlamışdır. Bununla yanaşı, sözsüz ki, bizim zəngin mədəniyyətimizin formalaşmasına müxtəlif mərhələlərdə həm zərdüştilik, yəhudi, xristian, həm də islam mədəniyyətlərinin təsiri olmuşdur" (5, C.31, s.141).

Ümummilli lider Heydər Əliyev respublikamızın gələcək uğurlu inkişafı üçün dəqiq ideoloji istiqamət seçərək, öz müdrik siyasəti ilə tarix boyu formalaşmış Azərbaycanın çoxmədəniyyətlilik, tolerantlıq ənənələrini yeni bir mərhələyə qaldırmağa nail olmuşdur. Azərbaycan əhalisinin çoxmillətli tərkibini milli sərvətimiz hesab edən ümummilli lider bütün siyasi fəaliyyətini bu misilsiz sərvətin qorunub saxlanılması, əbədi olması istiqamətinə yönəltmişdi. Ümummilli lider Azərbaycan vətəndaşlarının etnik milli duyğularını nəzərə almaqla, həm də məqsədyönlü şəkildə ictimai-siyasi özünüdərk hisslərinin, vətəndaşlıq və vətənpərvərlik duyğusunun formalaşdırılması kimi ciddi bir dövləti funksiyanı yerinə yetirərək, bütün ölkə vətəndaşlarını azərbaycançılıq platformasında birləşdirmişdir. Onun həmin dövrdə səsləndirdiyi "Xalqın, Vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir!", yaxud "Vətən birdir və hamı bu Vətən üçün çalışmalıdır!" çağırışı bu sahədəki fəaliyyətin əsas göstəricisi hesab oluna bilər (6, s.73).

Ümummilli lider Azərbaycanın daxili ictimai-siyasi, iqtisadi, mənəvi, milli-etnik və dini həyatının tarazlı inkişaf modelini yaratmaqla yanaşı, həm də həlli prinsiplərini ortaya qoymaqla yanaşı, ölkə daxilində ümumi ahəngi pozmadan, etnik-milli və milli-siyasi aspektlər arasında optimal nisbəti nəzərə almaqla, dövlətin təkamül yolu ilə inkişafına ciddi zəmin yaratdı və dövlətçilik probleminin ən əlverişli həlli yolunu ortaya qoydu (6, s.77). Heydər Əliyev milli-vətəndaş birliyini, hərtərəfli inkişaf etmiş, iradəli və əzmkar vətəndaş idealını çox bacarıqla və ustalıqla ümumazərbaycançılıq ideyası ilə bağlayaraq, vahid amala doğru yönəltməyi bacarırdı. Tarixi təcrübə sübut edir ki, güclü birləşdirici ideyası olan insan birlikləri (xalqlar, millətlər, dini icmalar və s.) bu cür ideyaları olmayanlara həmişə qalib gəlmişlər.Təbii olaraq, ümummilli lider etnik millətçiliyə alternativ kimi bütövlükdə Azərbaycan xalqının və cəmiyyətinin, eyni zamanda Azərbaycan dövlətçiliyinin yüksəlişini şərtləndirən və multikulturalizmin əsas mənəvi bazası olan azərbaycançılıq prinsipini milli ideologiya kimi irəli sürdü. O qeyd etdi ki, etnik millətçilik, nəhayət etibarilə, etnik separatizmə, xalqlar arasında münaqişəyə gətirib çıxarır. Azərbaycançılıq ideologiyası isə dinindən, dilindən, irqindən asılı olmadan ölkədə yaşayan bütün vətəndaşları birləşdirir. Ulu öndərin dediyi kimi, həqiqətən də, "Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir" (8).

Azərbaycanın dövlət müstəqilliyi bərpa olunduqdan sonra dini azlıqların hüquqlarının qorunması və təminatı sahəsində çox mühüm addımlar atılmışdır. Vicdan azadlığının təmin edilməsinə yönəlmiş müvafiq qanunvericilik bazasının formalaşdırılması, onun mütəmadi olaraq təkmilləşdirilməsi və uğurlu tətbiqinə nail olunması da müstəqil Azərbaycan dövlətinin əsas fəaliyyət istiqamətlərindən biri kimi daim diqqət mərkəzindədir. Qeyd etmək lazımdır ki, hələ Azərbaycan SSR-də əhalinin mütləq əksəriyyəti islam dininə mənsub olduğu halda rəsmən fəaliyyət göstərən 53 dini icmadan ancaq 18-i islam dini təşkilatı idi. Həmin dövrdə Azərbaycanda 31 xristian dini təşkilatı və təriqəti, 4 yəhudi dini təşkilatı qeydə alınaraq fəaliyyət göstərirdi (1, s.231).

Ölkəmizdə vicdan azadlığının təmin edilməsinə yönəldilmiş normativ hüquqi aktların içərisində 1992-ci ildə qəbul edilmiş "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu xüsusi yer tutur (13). Ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyindən sonra bu qanun daha da təkmilləşdirilmiş, 1996 və 1997-ci illərdə müvafiq düzəlişlər edilmişdir. Bu qanuna

görə, Azərbaycanda vətəndaşlıq hüququna malik olan "hər bir kəs dinə münasibətini müstəqil müəyyənləşdirir, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, dinə münasibəti ilə əlaqədar əqidəsini ifadə etmək və yaymaq hüququna malikdir" (10, s.3). Azərbaycanın çoxmillətli və müxtəlif dinlərin ardıcıllarının yaşadığı ölkə olması, milli siyasətin müxtəlif millət, etnik qrup və dini azlıqların dinc yanaşı yaşaması və dözümlülük prinsipləri əsasında müəyyənləşdirilməsi Konstitusiyada da təsbit olunmuşdur: "Dövlət irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir və bütün vətəndaşlar eyni hüquqlara malikdir" (28).

Qanunun qəbul edildiyi vaxtdan ötən 20 ildən artıq müddət ərzində, ölkə həyatının bütün sahələrində olduğu kimi dini etiqad azadlığının təmin olunması istiqamətində də əhəmiyyətli müsbət dəyişikliklər baş vermiş, bu sahədə dövlət siyasətinin əsasları təkmilləşdirilmiş, yeni idarəçilik prinsipləri formalaşmışdır. Bu prosesə əsas insan hüquq və azadlıqlarının təsbit olunduğu yeni Konstitusiyanın ümümxalq səsverməsi yolu ilə qəbul edilməsi, Azərbaycan Respublikasının vicdan azadlığı ilə bağlı müddəaları da özündə əks etdirən bir çox beynəlxalq konvensiyalara qoşulması amilləri də öz pozitiv təsirini göstərmişdir.

Beynəlxalq sənədlərin dini etiqad azadlığının təmin edilməsində vacib rolu həm də belə bir vəziyyətlə bağlıdır ki, bir çox hallarda bir ölkədəki dini konfessiyaların mərkəzi və ya idarəsi, habelə əsas ziyarətgahları başqa bir ölkədə yerləşir. Məsələn, Azərbaycandakı pravoslav dini icmalarının mərkəzi Rusiya Federasiyasında, katolik icmasının mərkəzi Vatikanda, islam dini icmalarının əsas ziyarətgahları isə Səudiyyə Ərəbistanında, İranda və İraqdadır. Buna görə də dini qurumlar arasındakı normal əlaqələrin qurulması, ziyarətlərin təşkili üçün beynəlxalq müqavilələrin imzalanması zərurəti yaranır (10, s.34). Azərbaycan dövlət-din münasibətləri modeli çərçivəsində bütün dini konfessiyalar qanun qarşısında bərabərdir və eyni statusa malikdir. Ölkə vətəndaşlarının əksəriyyətini təşkil edən müsəlmanların hüquqlarının təmin olunması ilə yanaşı, dövlət respublikada yayılmış digər dinlərə də qayğı göstərir.

Azərbaycanda dövlətin din siyasətinin həyata keçirilməsini təmin etmək məqsədilə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradılmış və Komitə ölkəmizdə mövcud olan dini strukturların fəaliyyətinin tənzimlənməsi, eləcə də dövlətin din siyasəti sahəsində müxtəlif funksiyalarını yerinə yetirir. Ümumiyyətlə, milli dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması bu gün də öz aktuallığını qoruyub saxlayır. Çünki bu dəyərlərin xalqımızın formalaşmasına təsiri böyük olduğu kimi, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu vardır. Bu gün milli dəyərlərimiz elliklə, bütün xalq tərəfindən, dövlətin öz himayəsi altında qorunur və daha da inkişaf etdirilir. Eyni zamanda bəşər sivilizasiyasının müxtəlif mədəniyyətlərinin qorunması üçün dinlər və mədəniyyətlər arasında dialoqun yaranması mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan Azərbaycan bir çox millətlərin və dini konfessiyaların dinc yanaşı yaşamasının unikal nümunəsidir.

Bundan əlavə, ümummilli lider İslam dini ilə bağlı bir sıra beynəlxalq elmi tədbirlərin respublikamızda keçirilməsinin təşəbbüskarı olmuşdur. Onun təşəbbüsü və dəstəyi ilə 1993-2002-ci illərdə İslam dini, mədəniyyəti ilə bağlı Azərbaycanda müxtəlif tədbirlər keçirilmişdir. Bu tədbirlərdən biri 1998-ci il dekabrın 9-11-də Bakıda keçirilmiş "İslam sivilizasiyası Qafqazda" adlı beynəlxalq simpoziumdur. Azərbaycan İslam dünyasının bir parçası olduğuna və Şərqlə Qərbin qovuşuğunda yerləşdiyinə görə bu beynəlxalq simpoziumun Bakıda keçirilməsini təbii hesab etmək olar. Eyni zamanda İslam dininin və İslam sivilizasiyasının Qafqazda yayılması ilə bağlı məsələlərin elmi cəhətdən araşdırılması zərurətini, o cümlədən respublika, regional və beynəlxalq təşkilatların müraciətlərini nəzərə alaraq Heydər Əliyev bu aktual və vacib tədbirin Bakıda keçirilməsini dəstəkləmişdir. Simpoziumda Türkiyə, Rusiya, ABŞ, Misir, Almaniya, Fransa, Küveyt və digər ölkələrdən gəlmiş nümayəndələr iştirak etmişlər (17).

Azərbaycan vətəndaşlarının əksəriyyətini təşkil edən müsəlmanların hüquqlarının təmin olunması ilə yanaşı, dövlət respublikada yayılmış digər dinlərə də qayğı göstərir. Qeyd etmək lazımdır ki, 1995-ci ildə YUNESKO-nun yaranmasının 50 illik yubileyi münasibətilə Beynəlxalq Tolerantlıq günü təsis edilmiş və burada əsas məqsəd dünyada hamını bir-birinə dözümlülük nümayiş etdirərək dinc yanaşı yaşamağa çağırışdan ibarətdir (14). Bundan irəli gələrək Heydər Əliyevin təşəbbüsü ilə 1999-cu ildən etibarən noyabrın 16-sı Azərbaycanda tolerantlıq günü kimi qeyd olunur ki, bu da ümummilli liderin multikultural dəyərlərə, tolerant ənənələrə verdiyi yüksək qiymətin göstəricisidir (7). Bu baxımdan, ümummilli lider haqlı olaraq multikulturalizm siyasətini ölkənin demokratik inkişafının tərkib hissəsi hesab edirdi. O, Azərbaycan ərazisində yaşayan milli azlıqların hüquq və azadlıqlarının, o cümlədən etnik-mədəni, dini dəyərlərinin qorunmasını demokratiyanın mühüm prinsipi olan əsas insan hüquq və azadlıqları kontekstində görürdü. Ümummilli liderin rəhbərliyi ilə, nəhayət ki, demokratik inkişaf yoluna çıxmış Azərbaycan Respublikası, onun qeyd etdiyi kimi, "dinindən, dilindən, irqindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşlarının eyni hüquqlara malik" olmalarını təmin etməli idi (8).

Ümumiyyətlə, Azərbaycan tarixən tolerantlıq, dini dözümlülük ənənələri ilə fərqlənsə də, qeyd etmək vacibdir ki, beynəlxalq standartlara cavab verən tolerantlıq ölkəmizdə məhz Heydər Əliyevin xidmətləri sayəsində qurulmuşdur. Belə ki, 1920-ci ildə bağlanmış Jen Mironosets baş kilsəsinin binası 1991-ci ildə Rus Pravoslav Kilsəsinə verilmişdir (29). Azərbaycanda səfərdə olan Moskvanın və bütün Rusiyanın Patriarxı II Aleksi 2001-ci il mayın 27-də bu məbədi müqəddəs elan etmiş və ona baş kafedral kilsə statusu vermiş və kilsənin açılış mərasimində Azərbaycan Prezidenti Heydər Əliyev, hökumət üzvləri, səfirliklərin nümayəndələri və dini icmaların başçıları iştirak etmişlər. Bundan əlavə, ölkəmizdə 1997-ci ildə gürcü yəhudilərinin sinaqoqu bərpa edilmişdir (9). Ümumiyyətlə, Azərbaycan müstəqillik əldə etdikdən sonra buradakı yəhudi icmaları beynəlxalq yəhudi təşkilatları ilə əlaqələrini möhkəmləndirmiş, öz dini məktəblərini, mədəniyyət mərkəzlərini, cəmiyyətlərini, qəzetlərini yaratmışlar. 2003-cü il martın 9-da Bakıda yeni yəhudi sinaqoqu açılmışdır (19).

Müasir dövrdə çağdaş dünyanın qarşısında duran ən mühüm problemlərdən biri fərqli sivilizasiyalar, dinlər, mədəniyyətlər arasında anlaşmanın, əməkdaşlığın optimal yollarının tapılmasıdır. Təsadüfi deyildir ki, XXI əsrin ilk ili - 2001-ci il BMT Baş Assambleyası tərəfindən "Sivilizasiyalararası dialoq ili" elan olunmuş (15) və 2001-ci il noyabrın 9-da BMT Baş Assambleyasında "Sivilizasiyalararası dialoq üçün qlobal gündəlik"adlanan qətnamə qəbul edilmişdir (16). Bunlar onu göstərir ki, qloballaşma dövründə sivilizasiyalararası dialoqun həyata keçirilməsi daha çox əhəmiyyət kəsb edir. Bu gün müasir Azərbaycanda dövlət-din münasibətləri modeli çərçivəsində

bütün dini konfessiyalar qanun qarşısında bərabərdir və eyni statusa malikdir. Vətəndaşlarının böyük əksəriyyətini müsəlmanlar təşkil edən ölkəmizdə digər dinlərə də xüsusi qayğı göstərilir. Azərbaycan öz mədəniyyəti, tarixi, adət-ənələri ilə fəxr etməyə layiq az sayda dövlətlərdən biridir. Tolerantlıq dövlət strategiyası olaraq əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və bu zəngin ənənə hazırda Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Əsrlərdir ki, xalqımız tolerantlıq, dözümlülük, başqa dinlərə və mədəniyyətlərə hörmət prinsiplərini həyat tərzinə çevirərək bu prosesə mühüm töhfələr vermişdir. Ona görə də dövlət başçısı İlham Əliyevin 2016-cı ili Azərbaycanda "Multikulturalizm ili" elan etməsi heç də təsadüfi deyil və bunun dərin tarixi kökləri vardır. Belə ki, 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan edilməsi bir çox obyektiv amillərdən qaynaqlanır. Multikulturalizm eyni ölkədə yaşayan xalqların mədəniyyət hüquqlarını tanıyan humanist dünyagörüşü və ona uyğun siyasət kimi qəbul olunur. Məsələyə bu kontesdən yanaşdıqda Azərbaycanda müxtəlif millətlərin, dinlərin və mədəniyyətlərin nümayəndələrinin sərbəst yaşamaları üçün bütün zəruri şəraitin yaradıldığını görürük. Müstəqilliyini bərpa etdikdən sonra isə ölkəmizdə multikulturalizm ənənələrinin güclənməsinə dövlət dəstəyi formalaşmışdır ki, indi bu dəstək özünün yüksəliş dövrünü yaşayır. Ölkəmizin tarixən müxtəlif dinlər, mədəniyyətlər üçün dinc yanaşı yaşama məkanı olması Azərbaycanın bu proseslərdə ön sıralarda yer almasını zəruri edir.

Bununla yanaşı, UNESCO 2001-ci ildə Mədəni müxtəliflik üzrə Universal Bəyannaməni və 2005-ci ildə Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında Konvensiyanı qəbul etdikdən sonra mayın 21-i Mədəni Özünüifadə Müxtəlifliyi üzrə Ümumdünya Günü elan edilmişdir. 2008-ci ildən etibarən hər il bu tarixdə ənənəvi olaraq UNESCO-da və dünyanın bir çox bölgələrində müxtəlif qitə və regionların mədəniyyətlərini əks etdirən konsert, sərgi və digər mədəniyyət tədbirlərindən ibarət olan Müxtəliflik Festivalı keçirilir. 2010-ci il mayın 17-dən 26-dək UNESCO-da Azərbaycanın birinci vitse-prezidenti, xoşməramlı səfir Mehriban xanım Əliyevanın mənəvi və maddi dəstəyi ilə təşkil edilmiş Mədəni Özünüifadə Müxtəlifliyi üzrə Ümumdünya Günü münasibətilə üçüncü ənənəvi Müxtəliflik Festivalı keçirilmişdir. Bu festival Latın Amerikasından tutmuş Yaxın şərq və Cənub-şərqi Asiyaya qədər mədəni müxtəlifliyi əks etdirən rəngarəng tədbirlərlə yadda qalmışdır (4). 2009-cu ilin noyabr ayında Azərbaycan UNESCO-nun "Mədəni Özünmüdfiə Müxtəlifliyinin Qorunması və Təşviqinə dair Konvensiyası"na qoşulmuş və sənəd 2010-cu il mayın 15-dən Azərbaycan Respublikasında qüvvəyə minmişdir. Bununla da ölkəmiz bu təşkilat çərçivəsində mədəniyyət və turizm sahəsində həyata keçirilən layihələrdə iştirak imkanlarını genişləndirmişdir. Konvensiya çərçivəsində ölkəmizdə "Mədəni müxtəlifliyimiz mədəni vəhdətimizdir" layihəsi həyata keçirilmişdir (21). Bununla yanaşı, Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2010-cu il iyunun 29-dan 30-dək Bakıda keçirilmiş və ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş "Qloballaşma şəraitində mədəniyyətlərin dialoqu" forumu da bütün dünyada sivilizasiyalar arasında dialoqa öz dəyərli töhfələri ilə yadda qalmışdır. Azərbaycanın birinci xanımı öz fəaliyyəti ilə həm də mədəniyyətlər və sivilizasiyalararası dialoqa necə nail olmağın yolunu göstərir (22).

Bu gün dünyada çoxmədəniyyətli ölkə imici qazanmış Azərbaycanda müxtəlif xalqlar arasında ənənəvi dostluq və qardaşlıq münasibətlərinin, tolerantlığın hökm sürməsi tarixi nailiyyətimizdir. Ölkəmiz bütün dinlərin, mədəniyyətlərin, fərqli baxışların bir ailə kimi yaşadığı tolerantlıq məkanıdır. Tarixən tolerant ölkə olan Azərbaycanda müsəlmanlarla yanaşı, katoliklər, provoslavlar, yəhudilər və digər dinlərə etiqad edən insanlar da yaşayırlar. Ölkəmizdə yaşayan müxtəlif xalqlara öz milli-mənəvi dəyərlərini, dini etiqadını, adət-ənənələrini qoruyub saxlamaq, dil və mədəniyyətini inkişaf etdirmək üçün demokratik şəraitin təmin edilməsi Azərbaycanı dünya ölkələri üçün tolerantlıq örnəyinə çevirib. Qürurverici haldır ki, bir sıra dövlətlər bizim təcrübəmizdən yararlanmağa çalışırlar. İndi dünyada multikulturalizm sahəsində ən optimal model kimi Azərbaycan nümunəsi öyrənilir.

Ölkəmizdə tolerantlıq və multikulturalizm ənənələrinin qorunması işinə xüsusi əhəmiyyət verən Heydər Əliyev Fondu "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsini uğurla həyata keçirir. Layihə çərçivəsində Bakıdakı Pravoslav kilsəsində təmir-bərpa işləri aparılmış, eyni zamanda "Or-Avner" Beynəlxalq Fondu ilə birgə Bakıda yaşayan yəhudi uşaqları üçün 600 yerlik təhsil mərkəzi inşa edilmişdir (25). Bununla yanaşı, Fransa regionlarında kilsələrin, müqəddəs Roma katakombalarının bərpasında Azərbaycanın iştirakı, Həştərxanda Müqəddəs Knyaz Vladimirə abidənin ucaldılması da məhz ayrı-ayrı xalqların və konfessiyaların qarşılıqlı hörmət və dostluq münasibətlərinin genişləndirilməsinə xidmət edir (27). Hazırda Azərbaycanda formalaşmış dini tolerantlıq mühitinin qorunub saxlanması və onun daha da möhkəmləndirilməsində görülən işlər nəticəsində respublikamızda rəsmi olaraq 598 dini icma qeydiyyatdan keçmişdir. Bunlardan 577-si İslam, 21-i qeyri-islam təmayüllü dini icmadır. Eyni zamanda ölkəmizdə 11 kilsə, 6 sinaqoq fəaliyyət göstərir (27). 2008-ci ilin sentyabrında Heydər Əliyev Fondu və Roma Katolik dini icması arasında anlaşma memorandumu imzalanmışdır. Sənəddə müəyyənləşdirilmiş sahələr üzrə inkişaf, yenidənqurma layihələrinin gerçəkləşdirilməsi, sosial və dini təyinatlı obyektlərə yardımla yanaşı, Azərbaycanda məskunlaşan xalqların etno-mədəni komponentlərinin inkişafına yönələn tədbirlərin həyata keçirilməsi də nəzərdə tutulmuşdur. İlkin əməkdaşlıq çərçivəsində fond tərəfindən Bakıdakı Müqəddəs Məryəm kilsəsinin asma tavan şüşələri dini mövzuda və klassik vitraj texnikasında işlənmiş bədii şüşələrlə əvəz edilmiş, eyni zamanda məbədin fasadında keramik panno yerləşdirilmişdir. Fond bu kimi tədbirləri ardıcıl olaraq davam etdirməkdədir (20).

Ümumiyyətlə, tolerantlıq nümunəsi sayılan Azərbaycan Heydər Əliyev Fondunun xətti ilə Parisdə Versal Sarayının parkında abidələri bərpa edir, Strasburqda Müqəddəs Məryəm kafedral kilsəsinin yenidən qurulmasına yardım göstərir, Pakistanda zəlzələdən zərərçəkən qızlar məktəbini yenidən inşa edir, Hollandiya, Rusiya, Gürcüstan, Rumıniya, Misir və digər ölkələrdə təhsil ocaqlarını müasirləşdirir, Afrika ölkələrinin qeyri-maddi mədəni irsinin qorunmasına dəstək verir, Qəbələ Beynəlxalq Musiqi Festivalı kimi onlarca qlobal və mükəmməl mədəniyyət layihəsinə imza atır. Eyni zamanda Heydər Əliyev Fondu Azərbaycanın dövlət müstəqilliyinin 20-ci ildönümü münasibətilə xaricdə həyata keçirilən bir çox layihənin müəllifidir. Fondun Parisdə, Moskvada, Berlində, Romada, Vatikanda təşkil etdiyi tədbirlər ölkəmizin multikulturalizm modelinin təbliğində mühüm rol oynamış, eləcə də Azərbaycan Vatikanda sərgi təşkil edən ilk müsəlman ölkəsi kimi tarixə düşmüşdür. Bu isə bəşəri multikulturalizmin ən ali nümunələrindən biri kimi dəyərləndirilə bilər.

Eyni zamanda Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva tərəfindən də mədəniyyətlərarası dialoqun və dinlərarası əməkdaşlığın inkişaf etdirilməsi sahəsində bir sıra mühüm

işlər görülmüşdür. Bu baxımdan, 2012-ci il iyunun 22-də Romada Mehriban xanım Əliyeva və Vatikanın mədəniyyət naziri, Roma Papasının Müqəddəs Arxeologiya üzrə Şurasının sədri kardinal Can Franko Ravazinin iştirakı ilə Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tac arasında "Roma katakombalarının bərpasına dair ikitərəfli saziş" imzalanmışdır (23). 2015-ci il iyunun 2-də Roma Papası Fransis Mehriban xanım Əliyeva ilə görüşü zamanı, Heydər Əliyev Fondunun dəstəyi ilə Müqəddəs Roma katakombalarının bərpasını yüksək qiymətləndirmişdir (24).

Azərbaycanın birinci vitse-prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva ölkəmizin tolerantlıq ənənələrinin dünya miqyasında təbliğinə böyük dəstək verir. Heydər Əliyev Fondunun xətti ilə dünyanın bir neçə ölkəsində bu qəbildən silsilə tədbirlər keçirilir. Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın iştirakı ilə Parisdə "Dini tolerantlıq: Azərbaycanda birgə yaşamaq mədəniyyəti" mövzusunda keçirilən konfrans multikulturalizmin bu və ya digər formada sıxışdırıldığı Avropanın gələcəyində onun əhəmiyyətini göstərirdi. (26).

Ümumiyyətlə, ölkəmizdə mədəniyyətlərarası dialoqla bağlı keçirilən tədbirlərin məqsədi xalqlar, dövlətlər və sivilizasiyalar arasında dialoq imkanlarını genişləndirmək, cəmiyyətdə sülh, əmin-amanlıq və dözümlülük mühitini inkişaf etdirmək, müasir dünyamızda müzakirə olunan inkişaf modelləri ətrafında fikir mübadiləsi aparmaq, milli özünəməxsusluğu saxlamaqla bəşəri-mədəni dəyərləri mənimsəməkdən ibarətdir. Dünyada sivilizasiyalararası dialoq sahəsində ciddi problemlərin yaşanması, bu fonda münaqişələrin artması tendensiyasının müşayiət olunması, xüsusilə də, islamafobiya kimi təhlükəli meyllərin bir sıra dövlətlərin və digər subyektlərin siyasətində özünə geniş yer alması reallığında Azərbaycanın mədəniyyətlərarası dialoq məkanına çevrilməsi faktı qlobal əhəmiyyət kəsb edən məsələdir. Bu məsələlərin həlli istiqamətində Azərbaycanın təcrübəsi digər ölkələr üçün örnək ola bilər.

## ƏDƏBİYYAT


1. *Azərbaycan Respublikası 1991-2001. Bakı, 2001, 288 s.*
2. *Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti. //"Azərbaycan" qəzeti, 30 dekabr 2000-ci il.*
3. *Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Azərbaycanın Pravoslav xristian icmasına təbriki. //"Azərbaycan" qəzeti, 4 may 2013-cü il.*
4. *Azərbaycan YUNESKO-da keçirilən Müxtəliflik Festivalında uğurla təmsil olunmuşdur // "Azərbaycan", 26 may 2010-cu il.*
5. *Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. I-XXXXVI kitablar. Elektron külliyat. - http://preslib.az/books.html*
6. *Həsənov Ə.M. Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları. Bakı, 2016, 700 s.*
7. *Həsənov Ə. M. Heydər Əliyevin siyasi kursunda multikulturalizmə baxış və yanaşmalar. // "Geostrategiya" jurnalı, № 01(31), yanvar-fevral 2015, s.3-7.*
8. *Abdullayev K.M. Ulu öndər Azərbaycan multikulturalizminin siyasi banisidir // "Azərbaycan"qəz., 23 iyul 2014-cü il.*
9. *Qurbanlı M.Q. Azərbaycanı tolerantlığın ən mükəmməl nümunəsinə çevirən lider. // "Azərbaycan" qəz., 6 may 2015-ci il.*
10. *Həsənov S.S. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun komentariyası. Bakı, 2014, 272 s.*
11. *Hüseynov S.Y. Azərbaycanda dini tolerantlıq mədəniyyəti: tarix və müasirlik. Bakı, 2012, 176 s.*
12. *Hüseynov S.Y. Azərbaycan dini tolerantlığa və sabitliyə töhfə verən örnəkdir // "Xalq qəzeti" 11 fevral 2011-ci il.*
13. *"Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu - http://www.president.az/articles/2672; http://www.meclis.gov.az/; http://scwra.gov.az/docs/169/; http://www.e-qanun.az/framework/7649;*
14. *UN General Assembly Resolution A/RES/48/126 "United Nations Year for Tolerance".*
15. *UN General Assembly Resolution A/RES/55/23 "Year of Dialogue among Civilizations".*
16. *UN General Assembly Resolution A/RES/60/04 "Global Agenda for Dialogue among Civilizations".*
17. *"Azərbaycan" qəz., 12 dekabr 1998-ci il.*
18. *"Xalq qəzeti", 28 may 2001-ci il.*
19. *"Azərbaycan" qəz., 10 mart 2003-cü il.*
20. *"Azərbaycan" qəz., 31 sentyabr 2008-ci il.*
21. *"Xalq qəzeti", 11 sentyabr 2010-cu il.*
22. *"Azərbaycan" qəz., 31 iyul 2010-cu il.*
23. *"Azərbaycan" qəz., 24 iyun 2012-ci il.*
24. *"Azərbaycan" qəz., 4 iyun 2015-ci il.*
25. *"Azərbaycan" qəz., 21 avqust 2015-ci il*
26. *"Azərbaycan" qəz., 10 sentyabr 2015-ci il.*
27. *"Xalq qəzeti", 16 sentyabr 2015-ci il.*
28. *http://www.azerbaijan.az/portal/General/Constitution/doc/constitution_a.pdf*



***Açar sozlər:*** *Azərbaycan Respublikası, beynəlxalq münasibətlər, əməkdaşlıq, sivilizasiyalararası və mədəniyyətlərarası dialoq*
***Ключевые слова:*** *Азербайджанская Республика, международные отношения, сотрудничество, межцивилизационный и межкультурный диалог.*
***Keywords:*** *The Republic of Azerbaijan, international relations, cooperation, intercivilization and intercultural dialogue.*


## SUMMARY


Article explores continued political course of Haydar Aliyev in the context of multicultural values. At the same time, cultural diversity in internal and external policy of Azerbaijan, multicultural and tolerant values have been investigated. The new phase of Azerbaijani multiculturalism, dialogue among civilizations and cultures is analyzed on the basis of sustainable development. The rights and freedoms of national minorities living in Azerbaijan, as well as the protection of the ethnic, cultural and religious values, is explored in the context of fundamental principle of democracy, human rights and freedoms.


## РЕЗЮМЕ


В статье исследуется культурное разнообразие, мультикультуральные ценности и толерантность во внутренней и внешней политике Азербайджана. Наряду с этим, анализируется устойчивый курс Гейдара Алиева в контексте мультикультуральных ценностей. Рассматриваются вопросы защиты прав и свобод национальных меньшинств в Азербайджане в контексте защиты прав и свобод человека.

# Beynəlxalq münasibətlər

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ QAFQAZ STRATEGİYASINDA TƏHLÜKƏSİZLİK VƏ ENERJİ AMİLİ

SAMİR QULIYEV
Tarix üzrə fəlsəfə doktoru




Müharibələrin, xüsusilə də hansı ölkə ya da ölkələrin hakim güc olacağını müəyyən edən “hegemonluq müharibələrin” tarixdən bəri beynəlxalq münasibətlər sistemindəki dəyişikliklərə təsir göstərən əsas hadisələr olduğu müdafiə edilir [18, s.121]. Buna misal olaraq iki dünya müharibəsindən sonra meydana gələn beynəlxalq sistemin formasını göstərə bilərik. Soyuq müharibədən sonra hegemoniya yarışına girmədən ABŞ yeni dünya nizamının liderliyini ələ keçirtsə də, sonrakı illərdə digər dövlətlərin də bu yarışda iştirak etməsi ilə regionlarda və bazarlarda hakimiyyət yarışı daha da qızışmışdır. Bu amansız yarışda xüsusilə Qafqaz regionunda “enerji” və “təhlükəsizlik” amilinə əsaslanan stragiyalar həlledici rola malik olmuşdur.

Tarixdən bəri Qafqaz regionu həm coğrafi baxımdan, həm də iqtisadi və siyasi baxımdan əhəmiyyətli regionlardan olmuşdur. Soyuq müharibə dövründə tamamilə SSRİ-nin nəzarətində olan Qafqaz regionundakı dövlətlər müstəqilliklərini qazandıqdan etibarən bir tərəfdən qloballaşma prosesinə daxil olarkən, digər tərəfdən də kəskin şəkildə regional separatizmə məruz qalırlar. “Böyük oyun” içərisində göstərilən Qafqaz regionu, qlobal güc siyasətlərinin hədəfində olan əsas coğrafiya kimi dəyərləndirilir. Bunun əsas səbəbinin də, “Avrasiyanın Balkanları” olaraq təsvir edilən regiondakı enerji resursları üzərində gedən mübarizə və regiondakı ictimai-siyasi ixtişaşların oynadığı rol göstərilir [7, s.44-46]. Digər nəzəriyyəyə görə isə, Qafqaz regionu dünya coğrafiyasında hökmranlıq üçün əsas dayaq nöqtəsi kimi dəyərləndirilmişdir [15, s.91-92].

Tarix boyunca müxtəlif mədəniyyətlər arasında mərkəzi region [21, s.29] vəzifəsini yerinə yetirən Qafqaz regionu, bu coğrafi dəyərləri ilə birlikdə zəngin yeraltı və yerüstü resurslara malik olması, Xəzər enerji resurslarının Qərbə nəqlində əhəmiyyətli bir yol olması səbəbilə müasir dövrümüzdə də həm geosiyasi, həm də geostrateji baxımdan beynəlxalq arenada rəqabət sahəsinə çevrilmişdir. Bu mübarizə nəticəsində də Qafqaz coğrafiyası dünyanın ən qeyri-sabit və təhlükəli regionu kimi dəyərləndirilmişdir [24, s.122; 33, s.126]. Buna görə də, 1991-ci ildən başlayaraq ABŞ-ın Qafqaz regionu ilə əlaqəli strategiyalarının “enerji” və “təhlükəsizlik” kontekstində müqayisəli tədqiq edilərək öyrənilməsi həm elmi, həm tarixi, həm də praktik siyasət baxımından mühüm aktuallıq kəsb edir.

1. ABŞ-ın regionla əlaqəli strategiyasının konseptual əsasları

ABŞ-ın müasir dövrümüzdə həyata keçirdiyi qlobal siyasətin əsas mahiyyətlərindən biri, bütün dünyada Amerika iqtisadiyyatının inkişafı üçün münbit və əlverişli şərait yaratmaqdan ibarətdir. Amerikalı siyasətçilərinin özləri də ABŞ iqtisadiyyatının inkişafını və ən üst səviyyədə bütün sahələrdə gücünün qorunmasını, yeni bazar və xammal mənbələrinə aid məsələlərin həlli istiqamətində atılan addımlarda görürlər [23, s.283]. Avropa siyasətçilərinin də Qafqaz regionu ilə bağlı Amerikanın siyasətinə dair maraqlı açıqlamaları var. Onlar, ABŞ-ın əvvəlki kimi enerji regionlarını özünün maraq zonaları adlandırmağa cəhd etməsini və bu çərçivədə öz müttəfiqlərinə heç bir fürsət verməməsini açıq şəkildə bəyan edirlər [24, s.83-84]. Bununla birlikdə, ABŞ-ın bu regiondakı siyasətini yalnız iqtisadi kontekstdə deyil, birinci növbədə geosiyasi və starteji maraqlar nöqteyi-nəzərindən dəyərləndirmək lazımdır.

SSRİ-nin süqutundan sonra ortaya çıxan yeni müstəqil dövlətlərin Avropa, Orta Şərq və Asiyada yerləşməsi, bu coğrafiyada olan münaqişələr, Azərbaycan və Mərkəzi Asiyada böyük neft və qaz yataqlarının mövcud olması və enerjinin stabil şəkildə artması kimi faktorlar, enerji təhlükəsizliyini təmin etmək istəyəyən ABŞ üçün strateji baxımından çox əhəmiyyətlidir [34, s.5]. ABŞ, Qafqaz ölkələrində demokratiyanın və müstəqilliyin möhkəmləndirilməsi üçün siyasi demokratiya və bazar iqtisadiyyatı qurumlarının yaradılması istiqamətində siyasət həyata keçirir. Amma bununla birlikdə, Amerikanın regionda gedən rəqabətdə siyasi üstünlüyü ələ keçirmək mübarizəsi birbaşa neftlə əlaqəlidir. C. Buş administrasiyası dövründə xarici işlər nazirinin yeni müstəqil dövlətlərlə əlaqəli xüsusi katibi S. Sestanoviçin dediyi kimi: “ABŞ tərəfindən Qafqaz dövlətlərinin müstəqilliklərinin dəstəklənməsinin, iqtisadi inkişaf üçün səylərinin artırılmasının əsas səbəbi neftə əsaslanan strategiya məsələləridir [31].” Amerikalı şirkətlər, Qafqaz regionunda öz maddi mənfəətlərindən daha çox ABŞ-ın həyati əhəmiyyət kəsb edən maraqlarına xidmət göstərirlər. Çünki ABŞ-ın əsas məqsədi, enerjinin diversifikasiyasını da nəzərə alaraq Asiya ilə Avropanı, İran və Rusiya olmadan birləşdirən yeganə region olan bu coğrafiyanı nəzarətdə saxlamaqdır [9, s.4-5].

Ümumi olaraq ABŞ üçün Qafqaz regionunun əhəmiyyətini aşağıdakı kimi sıralaya bilərik:

a) Strateji əhəmiyyətli yeraltı sərvətləri və neft yataqları ilə zəngin olduğu üçün iqtisadi xam maddə mənbəyinə və bazar imkanlarına sahibdir.

b) Aralıq dənizinin şərq istiqamətini, Bəsrə körfəzi, Şərqi Anadolu və Orta Asiyanı nəzarətdə saxlamaq və idarə etmək üçün geosiyasi əhəmiyyəti olan bir regiondur

c) İranı nəzarətdə saxlamaq üçün çox əhəmiyyətli bir coğrafiyada yerləşir.

d) Rusiyaya qarşı güc balansı formalaşdırmaq üçün və Rusiyanı

çevrələmək üçün strateji əhəmiyyətə malik bir regiondur [20, s.135; 30, s.8-9].

Orta Asiya və Avropa arasında körpü vəzifəsini yerinə yetirməsi səbəbilə də, xüsusilə terror kontekstində təhlükəsizlik məsələləri baxımından və digər qlobal siyasətlər üçün mərkəz ya da koridor rolu oynadığına görə bu region əhəmiyyətlidir. ABŞ-ın qlobal gücünü qoruma strategiyası çərçivəsində Qafqaz regionu Rusiyanı cənubdan, İranı şərqdən, Çini şimal-qərbdən çevrələyə bilməsi baxımından da əhəmiyyət daşıyır. Digər tərəfdən də, fərqli sivilizasiyaları təmsil edən və nüvə silahına sahib olan dövlətlərin (Rusiya, Çin, Hindistan və Pakistan) mərkəzində yerləşməsindən ötrü də əhəmiyyəti getdikcə artan bir regiondur [4, s.32].

2. 1991-2017-ci illər ABŞ-ın Qafqaz strategiyasına təsir göstərən amillər

ABŞ-ın sabiq prezidenti C.Karterin milli təhlükəsizlik məsələləri üzrə məsləhətçisi Z.Bjezinski, SSRİ-nin süqutundan sonra ABŞ-ın Qafqazla əlaqəli siyasətlərini üç mərhələdə izah edir. 1991-1995-ci illər arası ilk mərhələnin əsas xüsusiyyəti ABŞ-ın Qafqazla əlaqəli Moskva mərkəzli siyasət tətbiq etməsidir. 1995-2001-ci illər arasındakı dövr ABŞ-ın yeni müstəqillik qazanmış dövlətləri tanıması ilə münasibətlərin inkişaf etdiyi mərhələdir. 2001-2008-ci illər arası ABŞ-nın regional məsələlərdə daha fəal göründüyü mərhələdir [7, s.137].

İlk dövrdə ABŞ, regionda Rusiyaya əhəmiyyət verən "Öncə Rusiya" strategiyası tətbiq etmişdir. Bu siyasətə görə; Qafqaz regionu ilə münasibətlərin qurulması və inkişafı Moskva üzərindən həyata keçirilməlidir. Bunun əsas səbəbi, Rusiyanın beynəlxalq sistemə inteqrasiya edilməsi və beləliklə də təhlükəsizlik mexanizmasına daxil edilərək etibarlı tərəfdaşa çevrilməsinin təmin edilməsi siyasətidir [32, s.3-4]. Bu kontekstdə Rusiyanın 1992-ci ildə qəbul etdiyi "yaxın ətraf" doktrinası, ABŞ tərəfindən də qəbul edilərək Rusiya ilə ABŞ-ın Qafqaz istiqamətli siyasətləri bu dövrdə birbirini tamamlayaraq paralellik göstərmişdir [3, s.27]. ABŞ-ın ilk illərdə Qafqaz regionuna və xüsusilə də Azərbaycana istiqamətlənən siyasətləri ABŞ-ın region ölkələri ilə münasibətlərinə də mənfi təsir göstərmişdir. 1992-ci ildə erməni lobbisinin nüfuzlu olduğu Massachusetts əyalətindən senator J.Kerri tərəfindən Konqresə təklif edilən lahiyə nəticəsində, ABŞ Konqresi "Azadlığa dəstək aktına" Azərbaycana sanksiya xüsusiyyəti daşıyan "907-ci düzəlişi" qəbul etmişdir. Bu baxımdan bu ilk dövr ABŞ-ın regionla bağlı siyasətləri ziddiyyətli, Ermənistanın və erməni lobbisinin mənafelərinə xidmət etmişdir. ABŞ-ın bu anlaşılmaz qərarı qəbul etməsi Amerika daxilində də müzakirələrə səbəb olmuşdur [27, s.32].

1995-ci ildən etibarən dəyişən geosiyasi mühitlə birlikdə ABŞ-ın da xarici siyasəti dəyişmişdir. ABŞ-ın Qafqaz və Orta Asiya regionunu "strateji və həyati əhimiyyət kəsb edən bir region" kimi elan etməsi [10, s.190], Rusiyanın reaksiyasına səbəb olmuşdur. Bu strategiyaya bir cavab olaraq, Rusiya regionda ABŞ-ın əleyhinə olan Avrasiya mərkəzli bir strategiya həyata keçirməyə başlamışdır [7, s.91]. Xüsusilə də, Çeçenistan müharibəsindən sonra Moskvanın zəifliyinin ortaya çıxması ilə birlikdə ABŞ, Qafqaz regionu ilə əlaqədar xarici siyasətində daha fəal addımlar atmışdır. Bu çərçivədə, ABŞ Qafqaz regionundakı ölkələrlə əlaqəli olaraq "sənin torpaq bütövlüyün mənim milli mənfəətlərimə uyğundur" [22, s.112] şəklində qəti bir bəyanatla Gürcüstana dəstək olduğunu, böyük bir diasporu olan Ermənistana maddi yardımı davam etdirəcəyini və zəngin enerji resurslarına sahib olan Azərbaycanı da heç bir ölkəyə buraxmayacağını ifadə etmişdir.

11 Sentyabr 2001 hadisəsindən sonra ABŞ, beynəlxalq səviyyədə terrorizmlə mübarizə proqramına əsaslanaraq Qafqaz regionu ilə daha yaxından maraqlanmağa başlamışdır [12, s.116]. 11 Sentyabr hadisələrindən sonra region ölkələrindən Gürcüstan və Azərbaycan öz milli mənafelərinə də müvafiq olaraq dərhal beynəlxalq anti-terror koalisiyasına qoşulmuş, İraq və Əfqanıstandakı əməliyyatlarda ABŞ-nın yanında yer almışdır. Hər iki ölkə 11 Sentyabr hadisələrindən əvvəl terrorizmə məruz qaldıqlarını və terror təhlükəsini yaşadıqlarını dünya ictimaiyyətinə çatdırmışdır [26, s.78-79]. Bu çərçivədə Gürcüstan və Azərbaycanın anti-terror koalisiyasında iştirak etməsi ABŞ ilə sıx əlaqələrinin inkişafı üçün də əsas təşkil etmişdir [14, s.52]. Digər tərəfdən, Ermənistan isə İraq və Əfqanıstandakı əməliyyatlara qoşulmaqdan imtina etdi. Onun Rusiya və İranla sıx münasibətləri bu qərarı qəbul etməsində əsas olmuşdur. Azərbaycan və Gürcüstanın belə addım atması onu göstərdi ki, hər iki ölkə Rusiya və İranın təzyiqi olmadan belə qərarlar qəbul edərək müstəqil hərəkət edə bilər.

ABŞ-ın Qafqaz siyasətini anlaya bilmək üçün ABŞ-da hakimiyyətdə olan administrasiyaların Qafqaz siyasətinə də qısaca nəzər salmaq yerində olardı. B.Klinton administrasiyası dövründə ABŞ daha çox iqtisadi əməkdaşlığa əsaslanan siyasət yürüdərək xüsusilə Qafqaz regionunda siyasi baxımdan arxa planda qalmışdır [6, s.98-99]. Klinton administrasiyası dövründə Qafqaz regionunda meydana gələn Dağlıq Qarabağ probleminə Balkan regionundakı problemlər qədər əhəmiyyət verilməmişdir. SSRİ-dən boşalan regiondakı ölkələr üzərində nəzarəti və nüfuzu bir-bir itirən Rusiyanın həddindən artıq radikal reflekslər göstərməsindən çəkinən ABŞ, xüsusilə 1994-cü ildə dövlət katibinin müavini olan S.Talbotun başçılıq etdiyi diplomatların təsiri ilə "əvvəlcə Rusiya" anlayışı ilə regionu Rusiyanın "arxa bağçası" kimi görməyə başlamışdır. Lakin bundan təxminən üç il sonra Talbotun 21 iyul 1997-ci il tarixində Con Hopkins Universitetindəki mühazirəsində ABŞ-ın bu bölgədə "Moskvanın hegemon siyasətinə artıq göz yummayacağı" bütün dünyaya elan edilmişdir [19, s.374].

ABŞ rəhbərliyinin fikirlərinin dəyişməsində B.Klintonun 1996-cı ilin sonlarında başlayan ikinci prezidentlik dövründə dövlət katibi təyin edilən M.Olbraytın regiondakı boşluğun yenidən Rusiya tərəfindən doldurulmasına mane olmağın zəruriliyi barəsindəki təklifinin təsiri böyük olmuşdur. Həm 1998-ci ilin oktyabrında [1] və 1999-cu ilin dekabrında təsdiqlənən "ABŞ-nın Milli Təhlükəsizlik Strategiyası" [2] sənədlərində, həm də 1999- cu ildə ABŞ Konqresində tərəfindən qəbul edilən "İpək Yolu Strategiyası" qanununda [5] regionun əhəmiyyəti vurğulanmış, ABŞ-ın regionla əlaqəli siyasətinin əsas mahiyyəti və sərhədləri müəyyənləşdirilmişdir.

2000-ci ildə hakimiyyətə gələn Corc Buşun dövründə isə Azərbaycan neftinin dunya bazarına ixracatı artmış və Vaşinqton üçün olduqca önəmli olan Bakı-Tbilisi-Ceyhan boru kəmərinin tikintisinin istehsalat danışıqları son mərhələyə gəlmişdir. Enerji təhlükəsizliyi baxımından və qəbul etdiyi strategiya çərçivəsində ABŞ, Cənubi Qafqaz regionuna daha çox əhəmiyyət verərək münasibətlərini müxtəlif sahələrdə çox tərəfli genişləndirmişdir. 11 sentyabr 2001-ci ildə meydana gələn terror hadisələrindən sonra ABŞ-ın qlobal yayılma siyasəti daha da güclənmiş və bu çərçivədə Qafqazda nüfuz qazanma səylərini də çoxaltmışdır. Uzun müddət tətbiq olunan və Azərbaycana qarşı sanksiyaları əks etdirən 907-ci düzəlişin icrasının dayandırılması, Gürcüstana güclü bir şəkildə yerləşmək cəhdləri, bu çərçivədə uzun müddətdən bəri Gürcüstan ordusuna təlim proqramının tətbiq olunması və Saakaşvilinin iqtidara gətirilməsi prosesi, Azərbaycanda hərbi baza əldə etmə istəyinin müdafiə naziri D.Ramsfeld səviyyəsində rəsmi olaraq ifadə edilməsi, ABŞ rəsmilərinin Xəzərin təhlükəsizliyinin öz təhlükəsizlikləri olmasına dair şərhləri [16, s.29], bu tezisi gücləndirən amillərdəndir.

2001-2008-ci illər arasında ABŞ-ın Qafqaz regionunda bütün sahələrdəki gücünü möhkəmlətmək cəhdləri davam etmişdir. Bu istiqamətdə Qafqaz regionundakı enerji layihələrinə dəstək verən ABŞ,

öz hərbi gəmilərinin Qara dəniz hövzəsinə girişi üçün addımlar atmış və xüsusilə də Gürcüstanın NATO-ya üzv qəbul olunmasına çox əhəmiyyət vermişdir. İqtisadi baxımdan ön planda olan beynəlxalq layihələr, kiçik problemlərə baxmayaraq həyata keçirilsə də, xüsusilə Gürcüstanın NATO üzvlüyü və ABŞ hərbi gəmilərinin Qara dənizə daxil olması mövzusu, Rusiyanın və Avropanın bəzi ölkələrinin də ciddi narazılıqları səbəbilə həyata keçirilməmişdir [8, s.7].

3. ABŞ-ın Qafqaz strategiyasında Rusiya amili

2008-ci ildən başlayaraq Qafqaz regionu ilə əlaqəli ABŞ-ın strategiyası Rusiyanın regionla əlaqəli siyasətlərinə reaksiya kimi fəallıq göstərmişdir. 2008-ci ilin 7-16 avqust tarixləri arasında baş verən və "beş günlük müharibə" kimi də yadda qalan müharibədə C.Osetiya və Rusiya ilə birlikdə Abxaziya da iştirak etmiş, Rusiyanın quru, dəniz və hava qüvvələri vasitəsilə Gürcüstanın önəmli şəhər və limanları bombalanmışdır. Qori şəhərinin işğal edilməsi ilə Gurcustan faktiki olaraq iki hissəyə bolundu. Belə olduqda, işğal altında olan Gurcustanın şimal hissəsi Gurcustan hokumətinin nəzarəti altından cıxdı [25, s.47]. Gürcüstan tərəfi hərbi qüvvələrini geri çəksə də Rusiya Gürcüstandakı işğalını Aİ-nın həmin dövrdəki sədri Fransanın vasitəçiliyində təqdim edilən "Sarkozi planının" 16 avqustda imzalanmasına qədər davam etdirmişdir. Rusiya bu plan çərçivəsində Gürcüstandan əsgərlərini geri çəksə də, 26 avqust 2008-ci ildə müstəqil dövlət kimi tanıdığı Abxaziya və C.Osetiyada hərbi və siyasi nüfuzunu davam etdirir [28, s.9].

Gürcüstan ilə Rusiya arasında gərginliyi artıran və xüsusilə də ABŞ-ı Gürcüstan məsələsinə daxil edən problemlərindən biri də Pankisi dərəsində meydana gəlmişdir. C.Osetiyanın şərqində yerləşən bu dərədə, Çeçenlər və digər regionlardan məcburi köçürülən əhali yaşayır [17, s.31]. Rusiya, bu dərədə çeçen müqavimətlilərin olduğunu iddia edərək buraya müdaxilə etməyə çalışsa da, Gürcüstan buna biganə qalmamışdır. Rusiya 2000-2002 illəri arasında dərəni vaxtaşırı bombalamış və rus-gürcü gərginliyi də buna paralel olaraq artmışdır [29, s.242]. 11 sentyabr hadisələrinə qədər Rusiya ilə Gürcüstan arasında Çeçenlərin dəstəklənməsi səbəbi ilə problem təşkil eden Pankisi dərəsi, 2002-ci ildə beynəlxalq terrorizmə qarşı ABŞ tərəfindən başladılan kampaniyanın əhatə sahəsinə daxil edilmiş və Rusiya ilə bu oblastda problemlər yaşanmışdır.

Qafqaz regionunda ABŞ-ın əsl müttəfiqi kimi qələmə verdiyi Gürcüstanın torpaq bütövlüyünün sarsılması və regional təhlükəsizliyin idarəsinin Rusiya tərəfindən ələ keçirilməsi nəticəsində 2008-ci ilə qədər regionda üstün mövqeye malik olan ABŞ-ın Qafqaz regionundakı mövqeləri zəifləmişdir. Bu hadisələrdən sonra ABŞ-ın Qafqaz regionundakı əsas hədəflərindən biri Gürcüstanın NATO-ya üzv qəbul etdirilməsi olmuşdur. Bu istiqamətdə ABŞ tərəfindən ciddi addımlar atılmış, NATO-ya üzv olan ölkələrlə geniş müzakirələr aparmışdır. Ancaq bu strategiyanın da reallaşmasına Avropa ölkələrinin Rusiyadan enerji baxımından asılı olmaları maneəçilik törətmişdir. 2017-ci ilə qədər ABŞ tərəfindən eyni cəhdlər davam etdirilsə də hələki Gürcüstanın NATO üzvlüyü baş tutmamışdır.

2010-2015-ci illər arası ABŞ-Azərbaycan münasibətlərində gərginliyin, anlaşmazlığın olduğu dövrdür. Bunun ən böyük səbəbi isə, ABŞ rəsmilərinin israrlı bir şəkildə Türkiyə-Ermənistan sərhəddinin açılmasını tələb etməsi və Ermənistanla əlaqəli dezinformasiyadan formalaşan dekonstruktiv siyasətləri olmuşdur. ABŞ, 2015-ci ildən etibarən Gürcüstanda hərbi baza qurmağa cəhd göstərir. ABŞ-ı fiziki olaraq BTC vasitəsilə Xəzərə bağlayan əsas ölkə Gürcüstandır. Bununla yanaşı Ermənistanı inkişaf etdirəcək fəaliyyətlər mövzusunda Türkiyəyə təzyiq göstərməsi və raketdən qorunması üçün Türkiyənin sərhədlərinə yerləşmə cəhdi ilə Şimali Qafqazda illərlə davam edən gərginlikləri birləşdirdiyimizdə ABŞ-ın regionla əlaqəli böyük layihələrinin olduğu ortaya çıxır. Bu çərçivədə ABŞ üçün Cənubi Qafqaz regionu mühüm strateji əhəmiyyətə malik region kimi dəyərləndirilir [11]. ABŞ-ın Cənubi Qafqazla əlaqəli strategiyalarını həyata keçirməsi ancaq tarixdən bəri müttəfiq hesab etdiyi Türkiyə üzərindən mümkündür. Ancaq 1 mart qanun layihəsi ilə ABŞ-ın bu strategiyası əngəllənmişdir. Bu qərarla ABŞ hərbi mütəxəssislərinin və kəşfiyyatçılarının Qafqaz regionu ilə sərhəddə açıq fəaliyyət göstərməsinin qarşısı alınmışdır. Rusiyanın Gürcüstandakı hərbi hərəkatının bir səbəbi də Amerikan strategiyasına qarşı bir reaksiya ola bilər.

Rusiyanın Gürcüstanda uğurlu mövqeyə nail olması və enerji layihələrinin sərhəddinə yerləşməsi ABŞ tərəfindən təhdid kimi qəbul edilir. ABŞ-ın Qafqaz regionu ilə əlaqəli strategiyası enerji və təhlükəsizlik kontekstində regionda Rusiya ilə yarışaraq davam edir.

Nəticə

Müasir dövrümüzdə böyük geosiyasi əhəmiyyətə malik olan Qafqaz regionu ilə əlaqəli böyük dövlətlər arasında gedən üstünlük mübarizəsi; Rusiyanın Xəzər hövzəsindəki təsirinin azaldılması, Çinin regionda fəal olmasına maneəçilik törədilməsi, ABŞ-nın siyasi nüfuzunun artırılması, ABŞ-ın hərbi gücü və şirkətləri ilə regiondakı fəaliyyətinin çoxaldılması, enerji resurslarının və enerji boru kəmərlərinin nəzarətdə saxlanılması, regiondakı təhlükəsizlik problemlərində fəal olunaraq dövlətlərə təzyiq göstərilməsi kimi müxtəlif güclər tərəfindən həyata keçirilən bir çox siyasət və bunlara müvafiq strategiyalar ilə izah edilə bilər.

Bu baxımdan Qafqaz regionunda həm region ölkələri həm də qlobal güclər arasındakı mübarizə daha da qızışmış və siyasi rəqabət daha da artmışdır. Bu amansız rəqabətin əsas hədəfi regiondakı trilyonlarla dollarlıq (təqribən 200 milyard barrel neft və 18 trilyon $m^3$ təbii qaz) neft və təbii qazın istehsalında üstünlüyə sahib olmaq, enerjinin daşınmasında tranzit ödənişindən faydalanmaq, digər güclərə nəzərən enerji qiymətlərinə nəzarət etmək və regionda strateji üstünlük əldə etməkdir. Nəticə olaraq, son illərdə "yeni böyük oyun" kimi adlandırılan beynəlxalq rəqabətin arxa planında, keçən əsrdə olduğu kimi bugün də enerji resurslarının istifadəsi, əldə edilməsi və nəqli ilə əlaqədar mənfəət mübarizəsinin olduğunu deyə bilərik. Qafqaz regionunda aparılan bu mübarizə və rəqabətdən də ən çox region ölkələri zərər görmüşdür. Regionda marağı olan güclər arasında gedən bu siyasi mübarizə Qafqaz regionunun təhlükəsizliyinə təhdid təşkil edir.

ABŞ-ın Qafqaz regionu ilə əlaqəli strategiyasına Rusiyanın regionla əlaqəli fəaliyyətləri, enerji təhlükəsizliyi, regiondakı münaqişələr, Cənubi Qafqaz dövlətləri ilə iki tərəfli münasibətləri, erməni lobbisi və Amerikadakı administrasiyaların dövrlərə müvafiq doktrinaları təsir göstərən əsas amillər olmuşdur.

**ƏDƏBİYYAT**


*1. A National Security Strategy for a new century / The White House, October 1998, http://www.fas.org/man/docs/nssr-98.pdf, (19.05.2017).*

*2. A National Security Strategy for a new century / The White House, December 1999, http://clinton4.nara.gov/media/pdf/nssr-1299.pdf, (19.05.2017).*

*3. Allison G., Blackwil R.D. Russia and U.S. national interests why should Americans care? // Belfer Center for Science and International Affairs and Center for the National Interest, Harvard University, 2011, p. 25-30, http://www.cftni.org/Russia-and-US-NI_final-web.pdf, (19.05.2017).*

*4. Aslanlı A. Qlobal siyasətdə Qafqaz // Analitik baxış: aylıq analitik informasiya məcmuəsi, №4, Sentyabr-Oktyabr 2010, s. 29-38.*

5. Assessments Required by the Silk Road Strategy Act of 1999 / U.S. Department of State, http://www.state.gov/p/eur/rls/rpt/23605.htm, (19.05.2017).

6. Baban I., Shiriyev Z. The U.S. South Caucasus strategy and Azerbaijan // Turkish Policy, Vol. 9, №2, p. 93-103, http://www.turkishpolicy.com/dosyalar/files/93-103.pdf, (19.05.2017).

7. Bjezinski Z.K. Böyük şahmat taxtası. Bakı: Qanun nəşriyyatı, 2011, 328 s.

8. Caferov N., Aslanlı A., ABD ve Güney Kafkasya: Ağustos 2008 öncesinde ve sonrasında // Aksaray Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi dergisi, Cilt 8, Sayı 4, 2016, s. 1-10.

9. Carrère H. E. Le Caucase, région d'importance stratégique? // Tribune, №410, 19 juillet 2013, http://www.defnat.com/site_fr/pdf/Carr%C3%A8re-d'Encausse%20-%20Le%20Caucase,%20 r%C3%A9gion%20d'importance%20strat%C3%A9gique(T410).pdf, (19.05.2017).

10. Cəfərov S. Xəzərin karbohidrogen ehtiyatları və Azərbaycanın enerji təhlükəsizliyi: reallıqlar və perspektivlər // Tarix və onun problemləri jurmalı, №4, 2009, s. 190-191.

11. Çınar B., ABD'nin bölgeden bölgeye sıçrama stratejisi // 21. Yüzyıl Türkiye enstitüsü, http://www.21yyte.org/kose-yazisi-yazdir/301, (19.05.2017).

12. Cornell S. US engagement in the Caucasus: Changing gears // Helsinki Monitor 2005 , №2, p. 111-119, http://www.silkroadstudies.org/new/inside/publications/0506_Hmonitor.pdf, (19.05.2017).

13. Cornell S. US engagement in the Caucasus: Changing gears // Helsinki Monitor 2005 , №2, p. 111-119, http://www.silkroadstudies.org/new/inside/publications/0506_Hmonitor.pdf, (19.05.2017).

14. Diplomatiya aləmi / Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Jurnalı, №7, 2004, http://www.mfa.gov.az/files/file/7(2).pdf, (19.05.2017).

15. Edwards M. The new great game and the new great gamers: disciples of Kipling and Mackinder // Central Asian Survey, Vol. 22, №1, 2003, p. 84–96.

16. Eisenbaum Boris. La politique américaine dans le Caucase // Les Cahiers de l'Orient, №101, 2011, p. 23-33.

17. German T.C. The Pankisi gorge: Georgia's Achilles heel in its relations with Russia? // Central Asian Survey, Cilt: 23, №1, Mart 2004, s. 27-39.

18. Gilpin R. War and Change in World Politics. New York: Cambridge University press, 1981, 288 p.

19. Goldgeier J.M., McFaul M. Power and purpose: U.S. policy toward Russia after the cold war. Washington: The Brookings İnstitutions, 2003, 456 p.

20. Hasanoğlu M., Cemilli E. Güney Kafkasya'da ABD politikası, İstanbul: IQ kültür sanat yayıncılık, 2006, 192 p.

21. Kantarcı H. Kıskaçtaki bölge Kafkasya. İstanbul: IQ Kültür sanat yayıncılık, 2006, 256 s.,

22. Khelashvili G., Macfarlane S. N. The evolution of US policy towards the Southern Caucasus // Uluslararası ilişkiler, Cilt 7, №26, Yaz 2010, p. 105-124.

23. Kissinger H. Does America need a foreign policy?: Toward a Diplomacy for the 21st Century. New York: Simon and Schuster, 2001, 318 p.

24. Lussac S. Géopolitique du Caucase: au carrefour énergetique de l'Europe de l'ouest. Paris: Editions TECHNIP, 2010, 186 p.

25. Mahmudlu C., Əhmədov A. Beş günlük müharibənin Cənubi Qafqaz dövlətlərinə təsiri // Journal of Qafqaz University, History, law and political sciences, Noyabr 2010, s. 46-53.

26. Nəsirov E. ABŞ və dünya 11 Sentyabrdan sonra. Bakı: Bakı Universiteti, Adiloğlu, 2003, 262 s.

27. Nəsirov E. Azərbaycan-ABŞ münasibətləri (1991-1997). Bakı: Qanun nəşriyyatı, 1998, 136 s.

28. Öztürk A. Rusya-Gürcistan Krizi: yerel bir çatışma // Küresel Yansımalar. OAKA: USAK, Cilt: 4, №7, 2009, s. 1-27.

29. Purtaş F. Rusya Federasyonu ekseninde Bağımsız Devletler Topluluğu. Ankara: Platin yayınları, 2005, 313 s.

30. Rzayeva G., Tsakiris T.G.R. Strategic imperative: Azerbaijani gas strategy and the EU's southern corridor // SAM Review, Center for Strategic Studies, Baku, 2012, 41 p.

31. Sestanovich S. U.S. policy toward the Caucasus and Central Asia, // Washington DC, April 30, 1998,http://1997-2001.state.gov/www/policy_remarks/1998/980430_sestan_hirc.html, (19.05.2017).

32. Sherwood R.E. US Policy and the Caucasus // Contemporary Caucasus Newsletter, Berkeley Program in Soviet and Post-Soviet Studies, №5, Spring 1998, p. 3-4.

33. Şıhaliyev E. A. Kafkasya jeopolitiğinde Rusya, İran, Türkiye rekabetleri ve ermeni faktörü. Ankara: Naturel yayınları, 2004, 378 s.

34. Stephen S., Blank J. U.S. military engagement with transcaucasia and Central Asia // Strategic Studies Institute, June 2000, 43, http://www.strategicstudiesinstitute.army.mil/pdffiles/pub113.pdf, (19.05.2017).

***Açar sözlər:*** *Azərbaycan, Qafqaz, ABŞ, Təhlükəsizlik, Enerji, Rusiya, Gürcüstan*

***Ключевые слова:*** *Азербайджан, Кавказ, США, Безопасность, Энергетика, Россия, Грузия*

***Key words:*** *Azerbaijan, Caucasus, USA, Security, Energy, Russia, Georgia*

**РЕЗЮМЕ**

В разное время в стратегии Кавказа Соединенные Штаты развивались в разных направлениях. Влияние Америки на Южном Кавказе постепенно, но постоянно повышалось со времени независимости государств Южного Кавказа в 1991 году. Хотя Соединенные Штаты стали все более важным актором в политике региона, американские интересы на Южном Кавказе Остались в состоянии изменения. Поддержка независимости этих государств, их демократизации и интеграции в евроатлантические структуры изначально были сформулированы как принципы политики США, а Вашингтон определил несколько важных интересов национальной безопасности в регионе. В середине 1990-х годов энергетическая политика стала главной движущей силой внимания США к региону.

**SUMMARY**

The United States has been developing in different directions at different times in the Caucasus strategy. America's influence in the South Caucasus has gradually but continuously been on the rise since the independence of the South Caucasian states in 1991. While the United States has become an ever more important actor in the politics of the region, American interests in the South Caucasus have remained in a state of flux. Support for the independence of these states and for their democratisation and integration in Euro-Atlantic structures were initially enunciated as principles of US policy, while Washington identified few crucial national security interests in the region. In the mid-1990s, energy politics grew to become the main driving force of US attention to the region.

# NAXÇIVAN ŞƏHƏRİ VƏ ONUN XİLAFƏT TƏRƏFİNDƏN FƏTHİ

ŞAHLAR ŞƏRİFOV
İlahiyyat üzrə fəlsəfə doktoru



Arxeoloji qazıntıların nəticələrinə görə, Naxçıvan tunc dövründə artıq böyük bir yaşayış məntəqəsi olmuşdur. Naxçıvan haqqında ən erkən məlumat İosif Flaviyə (e.ə. I əsr) və Klavdi Ptolemeyə (eramızın II əsri) məxsusdur. Klavdi Ptolemeyin "Coğrafiya" əsərində Naxçıvanın adı ilk dəfə "Naksuana" şəklində qeyd olunmuşdur (7, s.338). Orta əsr ərəbdilli və farsdilli mənbələrdə şəhərin adı "Nəşavə", "Naqçuan" şəklində qeyd olunmuşdur.

Orta əsr müəlliflərindən əl-Bəlazuri, ət-Təbəri, əl-İstəxri, Qudamə ibn Cəfər, İbn Hövqəl, əl-Müqəddəsi, İbn Misqəveyh, Məhəmməd Bəkrani, Yaqut əl-Həməvi, İbn əl-Əsir və Həmdullah Qəzvini Naxçıvan haqqında az da olsa məlumat vermişlər. Əl-Bəlazuri Busfurracan nahiyəsinin əsas şəhərlərindən olmuş Nəşavada (Naxçıvan) "bir çox qəsrlərin tikildiyini" qeyd etmişdir (1, s.195). əl-Bəlazurinin məlumatına görə, zəngin şəhərlərdən olmuş Nəşava "Sasani şahənşahı Ənuşirəvanın dövründə tikilmişdir" (1, s.195). E.Çələbiyə görə isə Naxçıvan "Şah Əfrasiyab tərəfindən tikilmişdir" (3, s.44). XIII əsr müəllifi Yaqut əl-Həməvi "Mucəm əl-buldan" əsərində qeyd etmişdir: "Nəşava Azərbaycan şəhəridir. Bəziləri onu Arran şəhəri hesab edirlər. Xalq arasında ona "Naxçuvan" və ya "Nakcuvan" deyirlər" (14, V, s.286).

Azərbaycanın qədim şəhərlərindən olan Naxçıvanın ən parlaq dövrü X-XI əsrlərdə Əbu Duləfilərin, XII əsrdə Azərbaycan Atabəylər dövlətinin paytaxtı olduğu dövrə təsadüf edir (10, s.407).

Naxçıvan Azərbaycanın qədim mədəniyyət ocaqlarından biridir. Zəngin təbii sərvətlərə, əlverişli coğrafi mövqeyə malik olan bu diyar qədimdən Qafqazın iri mədəni mərkəzlərindən birinə çevrilmiş, onun Şərq ölkələri ilə iqtisadi, mədəni əlaqələrində mühim rol oynamış, yerli tayfaların və xalqların mədəni-tarixi inkişafına ciddi təsir göstərmişdir. Təsadüfü deyil ki, Azərbaycanın qədim tarixinin parlaq səhifələrinin bir çoxu bilavasitə Naxçıvanla bağlıdır.

E.ə. IX-VI əsrlərdə Naxçıvan Şərqin qədim dövlətlərinin Mannanın və Midiyanın tərkibinə daxil idi. Midiya dövründə Naxçıvan tanınmış şəhərlərdən biri olmuşdur. E.ə. VII əsrdə Naxçıvan skiflərin hücümuna məruz qalmış, e.ə. VI əsrin ortalarından IV əsrin 30-cu illərinədək Əhəmənilər imperiyasının tərkibində olmuşdur. Əhəmənilər dövlətinin süqutundan IV əsrin sonlarından e.ə. I əsrin birinci yarısınadək Naxçıvan Makedoniyalı İsgəndərin imperiyasının və Atropatenanın bir hissəsi olmuşdur (7, s.338). B.e. I əsrindən Naxçıvan şəhəri antik Albaniyasının tərkibinə daxil idi (6, s.169). Sasani hökmdarı II Şapur (309-379) Qafqaz yürüşü zamanı (364-367) Naxçıvan şəhərini dağıtmış, 18 min ailəni isə əsir aparmışdı (7, s.339). Albaniya bəzən Sasani hökmdarlarının nüfuz dairəsində olmuşdur. 591-ci ildə bağlanmış Sasani-Bizans müqaviləsinə görə, Naxçıvan Sünik və Vaspurakan vilayətləri tərkibində Sasanilərə tabe edildi (13, s.44). Naxçıvandakı Yezdabad qalasının Sasani şahənşahı III Yezdəgird (632-651) tərəfindən tikdirildiyi qeyd olunur (7, s.339). VI əsrin I yarısından Naxçıvanda Sasanilərə məxsus olan zərbxana fəaliyyət göstərməyə başlamışdı. Y.A.Paxomovun fikrincə, Sasani hökmdarlarının adından kəsilmiş "naxç" işarəli gümüş dirhəmlər Naxçıvan zərbxanasına məxsusdur (9, № 5). 625-ci ildə Bizans imperatoru İraklinin (619-641) yürüşü nəticəsində dağıdılmış Atropatena-Adərbayqan şəhərlərindən biri də Naxçıvan olmuşdur.

Azərbaycan ərazisinə ərəb qoşunlarının hücumları 642-ci ildə baş vermiş Nəhavənd döyüşündən bir il sonra 643-cü ildə başlandı. Orta əsr ərəbdilli mənbələrinin təhlili təsdiq edir ki, xəlifə Ömərin dövründə ərəblər yalnız ölkənin cənub və Dərbəndədək Xəzərsahili torpaqlarını tuta bilmişdilər. Bu mərhələnin sonunda yerli əhali ilə müqavilə bağlayan ərəblər onlara müqavimət göstərməyən yəni xristianlara, yəhudilərə və işğalın ilk dövründə atəşpərəstlərə dini vergi olan cizyə ödəmək müqabilində toxunmadılar. İslamı qəbul edənlərə güzəştlər edildi, ərəblərlə birlikdə yürüşlərdə iştirak edən yerlilər xidmətləri əvəzində vergidən azad edildilər (12, s.5; 13, s.35). Lakin, 644-cü ildə, Xilafət mərkəzində baş vermiş siyasi gərginlikdən istifadə edən Azərbaycan əhalisi üsyan edərək ərəblərlə bağladıqları müqavilələrin şərtlərini yerinə yetirməkdən imtina etdi.

Xəlifə Ömərin qətlindən sonra hakimiyyətə gəlmiş Osman ibn Əfvanın (644-656) Azərbaycana göndərdiyi sərkərdə Vəlid ibn Uqbənin rəhbərlik etdiyi ordunun hücumu ilə ərəblərin Azərbaycana ikinci-geniş yürüşü başlandı. Azərbaycan torpaqlarını yenidən işğal etmiş və yeni sülh müqaviləsi bağlamış ərəblər sərkərdə Salman ibn Rəbiənin başçılığı ilə Araz çayını keçərək Albaniya ərazisinə də hücum etdi, ölkəni taladı, zəngin qənimətlə və əsirlərlə Vəlidin qərargahına qayıtdı (13, s.35). Nailə Vəlixanlının fikrincə, "İran istiqamətindən hücum edən ərəblər Cənubi Azərbaycan kəndlərini və Naxçıvan obalarını viran qoyaraq xeyli arvad-uşaqları əsir götürüb Culfa keçidindən Arazın o tayına apardılar" (12, s.5-6). Mənbələrin təhlili təsdiq edir ki, bir neçə dəfə Naxçıvana hücum edən ərəblər Naxçıvan qalasını tuta bilməmiş, ətraf yerlərin işğalı ilə kifayətlənmişdilər (13, s.36). 644-cü ildə xəlifə Osmanın göstərişinə əsasən sərkərdə Həbib ibn Məsləmənin başçılığı ilə güclənmiş yeni ərəb hücumları Naxçıvan üçün də daha ağır nəticələrə səbəb oldu. Bu yürüşdə Salman ibn Rəbiə də Həbib ibn Məsləməyə yardım edirdi (13, s.37).

Z.M. Bünyadov və R.Məmmədov Naxçıvanın ərəb ordusu tərəfindən işğalını dəqiq tarix göstərmədən "xəlifə Osmanın (644-656) dövrünə", Dağıstan tarixçisi Ə.Şıxsəidov isə 644-645-cü illərə aid etmişlər. Hər iki Azərbaycan alimi Naxçıvana yalnız bir hücum haqqında məlumat vermişdilərsə, Ə.Şıxsəidov ərəblərin Cənubi Qafqaza 32/652-653-cü ildə baş vermiş yeni hücumundan da bəhs etmişdir (12, s.6; 13, s.38).

Bəlazuri qeyd edir ki, Həbib ibn Məsləmənin Salman ibn Rəbiənin köməyi ilə Qaliqaladan (Ərzurum) başladığı ilk hücumu bu şəhərin alınması ilə nəticələnmişdi. Bundan sonra Mərbəlada möhkəmlənmiş ərəb sərkərdəsi burada onun görüşünə gəlmiş Xilat batrikini qəbul etmiş, bu batrikin hələ 640-cı ildə baş vermiş ərəb hücumları dövründə sərkərdə İyaz ibn Ğanəmlə bağladığı müqaviləni təsdiqləyərək müəyyən olunmuş vergini qəbul etmişdi. Xilatdan sonra Həbib, əl-Busfurrucan (Naxçıvan əraziləri) sahibi ilə görüşərək onu hakim vəzifəsinə təyin etmiş, onunla sülh və əmin-amanlıq müqaviləsi bağlamışdı. Daha sonra "əl-Qırmız kəndi" adlanan Əzdişata gələn Həbib kürdlərin çayını (Nəhr əl-əkrad) keçərək Dəbil şəhərini yenidən tutmuşdu. Təslim olan və aman istəyən Dəbil əhalisi ilə sülh müqaviləsi bağlayan Həbib öz dəstəsini ölkənin içərilərinə göndərərək Dəbilin bütün kəndlərini ələ keçirmişdi. Beləliklə, Qaliqaladan Dəbilədək bütün torpaqları ələ keçirmiş ərəblər yalnız bundan sonra Naxçıvana hücum etmişdilər (1, s.280-281; 12, s.7; 13, s.38-39).

Ərəblərin Naxçıvana hücumu Dəbilin (Dvinin) yenidən tabe edilməsindən sonra baş vermişdi. Əl-Bəlazuri və başqa ərəb müəllifləri bu şəhərin işğalı gedişini geniş şərh etməsələr də Həbibin mənbədə "ən-Nəşavə" adlandırılan Naxçıvanı tutması, bu şəhərin və Dəbilin əhalisi ilə bağlanmış müqaviləyə oxşar müqavilə bağlaması haqqında məlumat vermişlər. Ərəblər Dəbil əhalisi ilə aşağıdakı şərtlər əsasında müqavilə bağlamışdılar: "Mərhəmətli və rəhimli Allahın adı ilə. Bu kağız Həbib ibn Məsləmədən Dəbilin həm burada olan, həm də olmayan xristian əhalisinə, onun atəşpərəstlərinə (məcus) və yəhudilərinədir. Mən sizin özünüzün, malınızın, kilsələrinizin, sinaqoqlarınızın, şəhərlərinizin divarlarının toxunmazlığına təminat verirəm. Siz amandasınız. Biz bağlalanan müqaviləyə əməl edəcəyik, nə qədər ki, siz ona riayət edəcək, cizyəni və xəracı ödəyəcəksiniz. Allah şahiddir, Allahın şahidliyi kifayətdir. Möhürlədi: Həbib ibn Məsləmə" (1, s.282). Naxçıvan işğal olunduqdan və ərəb sərkərdəsi ilə Naxçıvan əhalisi arasında müqavilə bağlandıqdan sonra əl-Busfurrucanın batriki (xristian əyan) Həbibin yanına gələrək onunla özünün bütün ölkəsi adından hər il xərc ödəyəcəkləri vədi ilə sülh müqaviləsi bağladı (1, 282).

XIII əsr müəllifi Yaqut əl-Həməvi əl-Busfurrucanı "Arran ölkəsinin (Albaniyanın -Ş.Ş) vilayəti" adlandırırdı. O, Nəşavanın əhali arasında "Naxcuvan" və yaxud "Nakcuvan" kimi tanındığını, onun Azərbaycanda böyük şəhər olduğunu, Ərminiyə ilə sərhəddə yerləşdiyini, bəzilərinin isə onu Arrana aid etdiklərini" də qeyd etmişdir (14, V cild, s.286-287).

Əl-Bəlazurinin məlumatına görə, Xilafət ordusu tərəfindən ələ keçirilmiş Naxçıvanın və əl-Busfurrucanın (Vaspurakanın) hakimləri ilə ətraf yerlərin hakimləri kimi ərəb üsul-idarəsinə tabeçilik və vergi ödəmək şərtilə ayrı-ayrılıqda sülh müqavilələri imzalamış Həbib ibn Məsləmə buradan Sisəcana (Sünikə) hücum etdi, qızğın döyüşdən sonra Vays qalasını tutdu və "əs-Sisəcandakı qalaların sakinləri ilə ona vəd etdikləri xərcin ödənilməsi şərtilə sülh bağladı. Naxçıvanın və əs-Sisəcan (Sünik) qalalarının ələ keçirilməsindən sonra Həbib ibn Məsləmə xəlifə Osmanın göstərişilə Bizans sərkərdəsi Mavrianın ardınca Curzana (Gürcüstana) getdi. Ondan ayrılmış Salman ibn Rəbiə isə altı minlik qoşunla Naxçıvandan Beyləqana, oradan isə Bərdəyə aparan yeganə yolun üzərində yerləşən Biçənək aşırımı vasitəsilə Arranın içərilərinə daxil oldu (12, s.9; 13, s.46).

Lakin ərəblərin işğal etdikləri yerlərdə yaratdıqları və əsasən müqavilələrdə nəzərdə tutulmuş vergilərin toplanması ilə məşğul olan idarələr hələ kifayət qədər möhkəm deyildi. Həm ölkənin daxilində, həm də Xilafətin mərkəzində baş verən hər bir siyasi dəyişiklik yerli əhalinin xarici tabeçilikdən azad olmaq cəhdləri ilə nəticələnirdi. Məhz buna görə də Cənubi Qafqazın bir çox böyük şəhərləri, o cümlədən, Naxçıvanla bağlanmış sülh də uzun sürmədi. 653-cü ildə, növbəti qarşıdurmaların birində, hətta Dərbənddən şimala-xəzərlərin şəhəri Bələncərədək irəliləyə bilmiş ərəb sərkərdəsi Səlman ibn Rəbiənin öldürülməsindən sonra Azərbaycanın çox hissəsi yenidən ərəblərin itaətindən çıxdı. İki ildən sonra xəlifə Osman artıq Cənubi Qafqaza yaxşı bələd olan Həbib ibn Məsləməni yeni qüvvələrlə buraya göndərdi. Ərəb müəllifi əl-Kufi "altı min süvarisi və piyadası olan Həbibin Xilat və Sirac Tayra (Şiraka) yeni - ikinci yürüşü, orada düşərgə salması, sonra Curzana (Gürcüstana) məktub göndərərək bu ölkənin hakimi ilə əvvəllər bağladığı sülh müqaviləsini təzələməsi" haqqında məlumat vermişdir (4, s.345-346). Ərməniyyə hüdudla-rında üç dəstəyə bölünən ərəblərin bir dəstəsi Vaspurakan vilayətinə hücum edərək Naxçıvan şəhərinədək həmin ərazidə yerləşən bütün kənd və qalaları ələ keçirə bilmişdilər (12, s.9).

Orta əsr ərəbdilli mənbələrində olan məlumata görə, xəlifə Osman Cənubi Qafqazda işğal edilmiş yerləri, o cümlədən, Naxçıvanı öz idarəsi altında birləşdirmiş Həbib ibn Məsləməni tezliklə 654-cü ildə yeni vali ilə əvəz etdi. Artıq bu dövrdə ərəblərin Cənubi Qafqazdakı işğal dairələri xeyli genişlənərək şimal-qərbdə Tiflis və



şimal-şərqdə Dərbənd daxil olmaqla Xəzər sahillərinədək bütün tarixi Azərbaycan ərazilərini və qonşu torpaqları əhatə etdiyinə görə Xilafət nümayəndəsinin iqamətgahı Albaniya dövlətinin əsas şəhəri olan Bərdəyə köçürüldü. Qısa müddətdən sonra xəlifənin əmri ilə Huzeyfə Mədinə şəhərinə qaytarıldı və Azərbaycanda onu müvəqqəti olaraq qohumlarından biri əvəz etdi.

Ərəb müəllifləri Osmanın xəlifəliyi dövründə Azərbaycanda və Ərminiyədə Huzeyfədən sonra rəsmi surətdə valilik edən məşhur sərkərdə Muğirə ibn Şubənin, Qasim ibn Rəbiət ibn Umeyyə və Əmr ibn Müaviyə kimi şəxslərin adlarını çəkmişlər. Xəlifə Əlinin hakimiyyəti illərində (656-661) isə onun Cənubi Qafqazdakı valisi əl-Əşəs ibn Qeys olmuşdur (1, s.286-288; 13, s.50).

654-cü ildə Naxçıvan üçüncü raşidi xəlifəsi Osman ibn Əfvanın (644-656) dövründə - Həbib ibn Məsləmənin başçılığı altında olan ordu tərəfindən tutuldu. Ərəb sərkərdəsi Həbib ibn Məsləmə və Naxçıvan əhalisi arasında bağlanmış sülh müqaviləsinə görə, Naxçıvan əhalisi Xilafətə hər il cizyə və xərac ödəməyi öhdəsinə almışdı. 656-cı ildə Naxçıvan qalası yaxınlığında Xilafət və Bizans qoşunları arasında güclü döyüş baş verdi (7, s.339).

VII əsrin ortalarında Naxçıvan ərazisində xəlifə orduları və bizanslılar arasında döyüş baş verdi. Həmin döyüşdə qalib gəlmiş müsəlmanlar Naxçıvanı öz dayaq məntəqəsinə, hərbi idarə mərkəzinə çevirdilər. VII əsrin ortalarında Naxçıvan Əməvilər xilafətinin tərkibində idi (5, s.10). Əməvilər dövründə xəzərlərin və bizanslıların hücumlarına daha çox məruz qala biləcək bölgələrə, o cümlədən, Dərbənddə və Naxçıvanda qoşun hissələri yerləşdirilmişdi (13, səh-52). 680-ci ildə xəlifə Müaviyənin vəfatından sonra Xilafət mərkəzində qarışıqlıq yarandı. Bundan istifadə edən xəzərlər 685-ci ildə Cənubi Qafqaza hücum etməklə yanaşı Naxçıvan ərazisinə daxil olaraq xeyli əsir və qənimətlər ələ keçirmişlər. Qısa müddət sonra Leontinin başçılığı ilə Cənubi Qafqaza daxil olan Bizans ordusu Qafqaz ölkəsinin 25 vilayətini viran etdi, 8 min əsir ələ keçirdi və yerli əhalinin üzərinə ağır vergilər qoydu. Əməvi xəlifəsi Əbdülməlik ibn Mərvanın (685-705) dövründə yenidən Azərbaycan torpaqlarına daxil olan ərəblər Naxçıvan ərazisində (Culfa və Ordubad tərəflərdə) özbaşınalıqlar etdi (13, s.53). Xəlifə Əbdülməlik tərəfindən əl-Cəzirə, Azərbaycan və Ərminiyə valisi təyin edilən Məhəmməd ibn Mərvanın dövründə (693-709) ərəblərin Cənubi Qafqazda möhkəmlənmə prosesi gücləndi. İstər xəzərlərə, istərsə də bizanslılara qarşı baş verən vuruşmalar nəticə etibarı ilə VIII yüzilliyin əvvəlində ərəb hakimiyyətinin xeyli güclənməsinə, strateji əhəmiyyətli Naxçıvanda yeni ərəb qoşunlarının yerləşdirilməsinə gətirib çıxardı (13, s.55).

Bizansa qarşı əsas dayaq nöqtələrindən biri olmuş Naxçıvan Ərəb Xilafətinin Azərbaycanda inzibati və hərbi mərkəzi və ərəb əmirlərinin əsas iqamətgahlarından biri idi. IX əsrdə Azərbaycanda Ərəb Xilafəti əleyhinə qalxmış Xürrəmilər hərəkatının ən geniş yayıldığı bölgələrdən biri də Naxçıvan olmuşdur. Naxçıvan inzibati baxımdan Ərəb Xilafətinin III əmirliyinin tərkibinə daxil idi. IX əsrdə Naxçıvan Busfurracan (Vaspurakan) vilayəti ilə birlikdə Ərəb Xilafətinin xəzinəsinə 100 min dirhəm xərac verirdi (2, s.134).

Xilafətin ucqarlara nəzarəti zəiflədikdən sonra - IX əsrin sonlarından Naxçıvan Xilafətdən tam asılı olmayan Sacilər (879-941) dövlətinin tərkibinə daxil edildi və X əsrin 30-cu illərinədən bu dövlətin nəzarəti altında qaldı. Sacilər dövləti süquta uğradıqdan sonra Naxçıvan bir müddət hələ də onların əmirlərindən olan Deysəm ibn İbrahimin (932-937) ixtiyarında idi. Sonra isə Naxçıvan Salarilər (941-981) dövlətinin tərkibinə daxil olmuşdur. X əsrin sonlarından Naxçıvan Azərbaycan tarixində mühüm rol oynamış Rəvvadilər (981-1117) dövlətinin tərkibində idi. X əsrin sonundan XI əsrin 60-cı illərinə kimi Naxçıvan “Naxçıvanşahlıq” adlı feodal dövlətinin paytaxtı olmuşdur (11, s.75). Naxçıvan bir müddət Əbudülafilər və Dulafilər kimi tanınan ərəb mənşəli sülalə tərəfindən də idarə olunmuşdur. X əsrin 80-ci illərində ölkədə yaranmış siyasi vəziyyətlə əlaqədar Naxçıvanda müstəqil, yaxud yarımmüstəqil dövlət qurumu – “Naxçıvanşahlıq” meydana gəlir. Naxçıvanşahlıq ərəb xilafətinin süqutundan sonra təşəkkül tapmış Azərbaycan feodal dövlətlərindən biri idi. Naxçıvanşahlıq Salarilər dövlətinin son vaxtlarında meydana gəlmiş və Rəvvadilər dövləti ilə yanaşı fəaliyyət göstərmişdir. Naxçıvanşahlıq adlanan feodallığın təşəkkülü Rəvvadilər dövlətinin adı ilə sıx bağlıdır. Bu feodallığın başında Əbu Duləfilər sülaləsinin nümayəndələri dururdu. Duləfilərin idarə etdiyi, Ordubadla Əylis arasında yerləşən Qoğtən əmirliyinin hakimi Əbu Duləf 982-ci ildə Salarilərin son nümayəndəsi Dvin hakimi Əbül Hica ibn İbrahimi məğlubiyyətə uğradaraq, Dvin, Naxçıvan və digər şəhərləri tutur və Basfurracan da daxil olmaqla həmin ərazilərdə möhkəmlənməyə çalışır. O, buna nail ola bilməsə də, nəvəsi Əbu Duləf sonralar Dvini yenidən tutur və “Naxçıvanşah” titulunu qəbul edərək şahlığı idarə edir. Bu feodal dövləti Naxçıvan, Qoğtən (Qoltan, Ordubad, Əylis) əmirliyi və Dvin ərazisini əhatə edirdi. Naxçıvanşahlıq 80 ilə yaxın (983-1065/66) mövcud olmuşdur (8, s.192).

X-XII əsrlərdə Naxçıvan, Culfa şəhərləri Yaxın və Orta Şərqdə iri ticarət və sənətkarlıq mərkəzi kimi şöhrət qazanmışdı. Kiyev

knyazlığına və Qərbi Avropaya gedən karvanlar bu şəhərlərdən keçirdi.

Səlcuq sultanı Alp Arslan (1063-1072) Azərbaycanın cənub vilayətlərində Rəvvadilər dövlətinin hakimiyyətinə son qoyduqdan sonra Naxçıvana da yiyələnmiş və burada özünə iqamətgah inşa etdirmişdi. Səlcuqluların Azərbaycan üzrə canişini Naxçıvanda qərarlaşmışdı. Naxçıvan şəhəri XII əsrin 30-cu illərindən 70-ci illərin ortalarına kimi Azərbaycan Atabəylər dövlətinin paytaxtı olmuşdur (7, s.340).

1221-ci ildə Naxçıvan şəhəri monqollar tərəfindən dağıdıldı, əhalisi qarət və talan edildi. 1225-ci ildə Naxçıvan Xarəzmşah Məhəmmədin oğlu Cəlaləddin Mənqburnı tərəfindən işğal edildi. XIII əsrin 30-cu illərində Qızıl Ordanın, 1257-ci ildə isə Hülakular dövlətinin tərkibinə daxil oldu. 1258-ci ildə Hülaku xan Bağdadı tutaraq mənəvi olaraq müsəlmanlar üçün birləşdirici rol oynayan, lakin zəif idarəetmə aparatına sahib olan Xilafətə son qoydu. Bununla da bütün İslam şəhərləri kimi Naxçıvan da Xilafətdən ayrıldı. XIII əsr mənbələrindən məlum olur ki, Elxanilər dövlətinin tərkibinə daxil olan Azərbaycan doqquz tümənə bölünmüşdü. Naxçıvan tüməni bunlardan biri idi. Naxçıvan tüməni müasir Naxçıvan MR ərazisini, o cümlədən Naxçıvan şəhərini əhatə edirdi. Azərbaycanın 27 iri şəhərindən beşi (Naxçıvan, Ordubad, Azad, Əncan və Maku) bu tüməndə yerləşirdi (7, s.340).

Qədim Azərbaycan şəhərlərindən olan Naxçıvan ərəblər tərəfindən sülh yolu ilə tutulmuş şəhərlərdən biri olmuşdur. Bu ərazidə olan əhli-kitab əhli-zimmə sırasına daxil edilir, bağlanmış müqavilənin şərtini gözləməklə onların şəxsi və mülki toxunulmazlıqlarına zəmanət verilirdi. Müqaviləyə görə, Naxçıvanın da İslam dünyası qarşısında təəhhüdləri islam dini təlimini, bu dini və onun mərasimlərini təbliğ etmək, ona etiqad etmək, İslama qarşı müharibə aparmamaq, bu müharibələrdə iştirak etməmək, vergini və ya xəracı vaxtında ödəmək idi. Ərəb Xilafəti isə onları xarici hücumlardan müdafiə etməli, əhalinin siyasi hüquqlarının və etiqad azadlıqlarının qorunub saxlanılmasını təmin etməli, şəxsi həyatına və dini işlərinə qarışmamalı, əmlakına, şəxsiyyətlərinə hörmət etməli idi.

Naxçıvan bir çox orta əsr Azərbaycan alim və mütəfəkkirlərinin vətəni olmuşdur. Ərəb müəllifi Yaqut əl-Həməvi qeyd etmişdir ki, "Naxçıvandan bir çox elm adamları çıxmışlar və onlar "Ən-Nəsəvi" (yəni Naxçıvani) ləqəbi ilə məşhurdurlar (14, V cild, 286-287). Alim Əbu Ömər Naxçıvani (XI əsr) Azərbaycanda fəlsəfi fikirlərin yayılmasında böyük rol oynamışdır. Elməddin Naxçıvani XI əsrin böyük təbibi sayılırdı. Onu "Həkimlər Şahı" adlandırırdılar" (5, s.11-15).

Bu dövrdə Naxçıvan memarlıq məktəbi bütün Şərqdə məşhurlaşmışdı. Həmin məktəbin əsasını memar Əcəmi ibn Əbubəkr Naxçıvani qoymuşdur. 1162-ci ildə onun rəhbərliyi ilə Yusif ibn Kuseyr türbəsi, 1186-cı ildə isə Möminə Xatun türbəsi tikilmişdir. Culfa kəndindəki "Gülüstan türbəsi" orta əsrlərin müasir nəslə böyük bir memarlıq yadigarıdır. Naxçıvan memarlıq məktəbi Yaxın və Orta Şərq ölkələrinin memarlıq sənətinə istiqamət verici təsir göstərmişdir. Osmanlı-Səfəvi müharibələri dövründə dəfələrlə dağıldılmasına baxmayaraq, Naxçıvan XVII əsrədək memarlıq baxımından qiymətli tikililərə malik idi. Osmanlı müəllifi Övliya Çələbinin məlumatına görə, XVII əsrdə Naxçıvanda 10200 "örtülü ev", 40 məscid, 20 karvansara, 7 hamam və bazarlar olmuşdur (3, s.83). Övliya Çələbinin bu məlumatına əsasən demək olar ki, o zaman Naxçıvanda təxminən otuz minə yaxın əhali olmuşdur.

Nəticə olaraq deyə bilərik ki, VII əsrin II yarısından etibarən Naxçıvan "İslam mədəniyyəti" mərkəzlərindən biri olmuşdur. Naxçıvan İslami memarlıq ənənələrini indiyədək qoruyub saxlamışdır.

## ƏDƏBİYYAT


*1. Bəlazuri, Əhməd ibn Yəhya, Fütuhul-buldan, (thq: Abdullah Ənis Təbba), Beyrut-1987.*

*2. Bünyadov Z.M. Azərbaycan VII – IX əsrlərdə, Bakı, 2007.*

*3. Evliya Çələbi, Səyahətnamə, Bakı-2012.*

*4. İbn Əsəm əl-Kufi, Kitab əl-Fütuh. Beyrut-Lübnan. h.1411/m.1991.*

*5. Quliyev C., Mədətov Q., Nadirov A., Sovet Naxçıvanı, Bakı-1984.*

*6. Məmmədova F. Qafqaz Albaniyası və albanlar, Bakı, 2005.*

*7. Naxçıvan Ensiklopediyası, Bakı-2002.*

*8. Naxçıvan tarixi, ən qədimdən XVIII əsrin 40-cı illərinədək. "Əcəmi nəşriyyatı". 2013. III cilddə. I cild. 452 s.*

*9. Пахомов Е.А. – Монеты "Нахчавана", Az.SSR EA-nın Xəbərləri, 1949.*

*10. Şərifli M.X. IX əsrin ikinci yarısı-XI əsrlərdə Azərbaycan feodal dövlətləri, Bakı-2015.*

*11. Şərifli M.X. IX əsrin II yarısı-XI əsrdə Azərbaycan feodal dövlətləri, Bakı, 1978.*

*12. Vəlixanlı N. Naxçıvan - ərəblərdən monqollaradək (VII-XII əsrlər), Bakı-2005.*

*13. Vəlixanlı N. Naxçıvanın VII-XII əsrlər dövrü tarixdə və tarixşünaslıqda. Naxçıvan-2015. 180 s.*

*14. Yaqut əl-Həməvi, Mucəm əl-buldan, Beyrut, h.1397/m.1977.*



***Açar sözlər:*** *Naxçıvan, Nəşavə, Əbu Düləfilər, Vaspurakan, Albaniya.*

eləcə də, neft bazarına yeni əlamətlər gətirə bilər. OPEK-in baş direktoru Abdulla Salam Əl-Bədri isə bildirib ki, neftin qiyməti hazırda elə bir səviyyədədir ki, bu indekslə gəlir əldə etmək qeyri-mümkündür. Bu isə yeni proqramlar həyata keçirməyə imkan vermir. Yeni neft müəssisələrinin salınması, terminalların tikilməsi, tankerlərin alınması indiki şəraitdə mümkün deyil. Onun fikrincə, bu vəziyyətdə həmin layihələri bir neçə il geriyə çəkmək ən effektiv yollardan biridir[2].

Qeyd etmək lazımdır ki, OPEK-in 152-ci toplantısında hasilatın indiki səviyyədə saxlamasına dair qərar qəbul edilmişdir. Bu isə bir çox müşahidəçilərin təəccübünə səbəb olmuşdur, çünki kartelin hasilatı azaldacağı gözlənilməkdəydi. Bununla bərabər neft ixrac edən ölkələr qiymətləri qaldırmaq üçün hər bir ölkənin müəyyən olunmuş kvotaya sadiq qalması barədə qərar qəbul etmiş və qərarı iri neft idxalçıları müsbət qarşılamışdır. Onların fikrincə, neft istehsalı aşağı salınsaydı, o halda xam neftin qiyməti artacaq, bu isə onsuz da pis vəziyyətdə olan dünya iqtisadiyyatına mənfi təsir göstərəcəkdir.

OPEK-in baş katibi Abdulla Salam əl-Bədri 2015-ci ilin yanvarında Davosda keçirilən forumda neft hasilatı kvotasının azaldılmasından imtina edilməsinə açıqlama gətirərək bildirmişdir: "Əgər biz hasilat kvotasını azaltsaydıq o zaman gələcəkdə martda, apreldə və sonra yenə də azaltmaq məcburiyyətində olacaqdır. Qiymətlər yüksək ola bilərdi, onlar(ABŞ) hasilatı artırmaqda davam edəcəkdilər, başqa sözlə desək OPEK-in hasilatı azaltması fonunda Amerika Birləşmiş Ştatları hasilatı artıracaq və bununlada bazarda bizi əvəz edəcəkdilər. Lakin Birləşmiş Ştatlar qiymətlərin normal səviyyəsində bizi əvəz edə bilməz, onlar bunu yalnız qiymətlər yüksək olduqda bacara bilərlər. Bu səbəbdən də biz qərara aldıq ki, heç bir şey etməyək və bazara situasiyanı tənzimləməyə imkan verək. Bu qərar hər hansı bir ölkəyə qarşı yönəlməmişdir: nə ABŞ-a və çətin hasil olunan neftə, nə Rusiya Federasiyasına, nə də hər hansı digər bir ölkəyə qarşı. Bu bizim energetika nazirlərimizin iqtisadi qərarı olmuşdur və biz bunu dəstəkləmişik"[3, c.10-12].

OPEK-in 2035-ci ilədək həyata keçirilməsi nəzərdə tutulan yeni uzunmüddətli konsepsiyası özündə bir sıra mütərəqqi istiqamətləri əks etdirir. Lakin bugün dünyada cərəyan edən hadisələr vəziyyətə daha konstruktiv yanaşmanı tələb edir. Belə ki, dünyanı cənginə alan iqtisadi böhrandan ciddi əziyyət çəkən dövlətlər arasında OPEK dövlətləri də vardır. İnflyasiyanın neft qiymətlərinə təsiri əsas gəlirləri neftdən olan və büdcələri buna uyğun hesablanan neft dövlətlərini ağır vəziyyətdə qoymuşdur. Təbii ki, OPEK bu vəziyyətdə ciddi tədbirlər görməyə məcburdur. Bu baxımdan da OPEK siyasətini dəyişdirmək qərarına gəlmişdir. Bu qurum üzvləri Avstriyada keçirilən toplantıda neftin istehsalını azaltmaq haqqında qərar qəbul etmək istəyirdilər. Əgər belə bir qərar alınsaydı, dünya üzrə neftin istehsal həcmi xeyli aşağı düşəcək və qiymətlər də qalxacaqdı. OPEK üzvlərinin hamısı belə fikirləşirdi ki, neftin qiyməti 70 ABŞ dolları həcmində olmalı idi.

Ümumiyyətlə, istehsal hədlərinin dəyişdirilməməsi gözləniləndir, çünki OPEK üzvü olan dövlətlərin iqtisadiyyatı neft ixracı üzərində qurulmuşdur. Məhz bu amil neft hasilatının mütəmadi olaraq aşağı salınmasına mane olur-bu ölkələrin iqtisadiyyatı neft qiymətinin dünya bazarında ucuzlaşmasından birbaşa ziyan çəkir, hasilatı azaltmaqla dəyəcək ziyanın ikiqat artacağını gözləmək mümkündür. OPEK-də belə düşünürlər ki, təşkilatın siyasətinin dəyişdirilməsi üçün vəziyyətin analiz edilməsinə vaxt, təxminən 4-5 ay müddət lazımdır. Bu müddət ərzində dünya bazarında təklifin azalması səbəbindən təbii qaydada neftin qiymətləri yüksəlməyəcəyi halda, təşkilat üzvlərinin əksəriyyətinin büdcəsinin həssaslığını nəzərə alaraq OPEK hasilatın azaldılması ilə bağlı qərar qəbul edə bilər. Lakin bildirmək lazımdır ki, faktiki olaraq 2008-ci ilin dekabrından etibarən kartel hasilatın tənzimlənməsini həyata keçirməmiş, 2012-ci ildən etibarən isə 30 il ərzində tətbiq olunan ölkə kvotası mexanizmindən imtina etmişdir. Bu səbəbdən bugün bu sahədə hələ də qeyri-müəyyənlik hökm sürür:OPEK hasilatın azaldılması ilə bağlı qərarını hansı qaydada reallaşdıracaqdır?. 2014-cü ilin sonları 2015-ci ilin əvvəllərində qiymətlərin qəfil enməsindən sonra OPEK ölkələri nəinki neft hasilatını azaltmamış, əksinə onlar öz bəyanatları ilə bazarda vəziyyətin stabilləşməsinə mane oldular.

**OPEK-in kvotaları və ölkələr üzrə neft hasilatı (gündəlik/min barel)**

| *Ölkə* | *Kvota (01/07/05)* | *Hasilat (03/16)* | *Hasilat (05/16)* | *Hasilat (06/16)* | *Mümkün hasilat* |
|---|---|---|---|---|---|
| *Əlcəzair* | *894* | *1084* | *1080* | *2085* | *1430* |
| *Anqola* | *1900* | *1776* | *1773* | *1773* | *1700* |
| *İndoneziya* | *-* | *Məlumat yoxdur* | *-* | *-* | *-* |
| *İran* | *4110* | *3291* | *3562* | *3644* | *3750* |
| *İraq* | | *4189* | *4281* | *4217* | *-* |
| *Küveyt* | *2247* | *2772* | *2740* | *2800* | *2600* |
| *Liviya* | *1500* | *345* | *296* | *332* | *1700* |
| *Nigeriya* | *2306* | *1722* | *1424* | *1523* | *2250* |
| *Qatar* | *726* | *664* | *659* | *662* | *850* |
| *Səudiyyə Ərəbistanı* | *10099* | *10120* | *10241* | *10308* | *10500* |
| *BƏƏ* | *2444* | *2682* | *2188* | *2095* | *2450* |
| *Venesuela* | *3225* | *2320* | *2188* | *2095* | *2450* |
| *Ümumi* | *31422* | *32251* | *32361* | *32643* | *32230* |

***Mənbə:*** *https://ru.wikipedia.org, Организация стран экспортёров нефти, Квоты ОПЕК*

Əgər 2011-ci ilə qədər kvotalar ölkələr üzrə müəyyənləşdirilirdisə, 2012-ci ildən etibarən OPEK üzvü olan ölkələrin ümumi hasilat həcmi əsasında müəyyənləşdirilməyə başlanılmışdır. Son illərdə o dəyişməz qalmaqda davam edərək sutkalıq 30 milyon barel təşkil etməkdədir. Həm də nəzərə almaq lazımdır ki, bu tənzimlənmə ancaq xam neftə aiddir, hansıki onun payına OPEK üzvü olan ölkələrin hasil etdiyi maye karbohidrogen ehtiyatlarının 85% düşür. Neft qiymətlərinin qalxıb-enməsinin qarşısını almaq məqsədi ilə OPEK-in kvotaları artırıb-azaldımasını bir necə dövrə ayırmaq mümkündür. Qiymətlərin yüksəlməsi zamanı kartel kvotaları artırır, qiymətlərin enməsi zamanı isə azaldırdı.

Lakin qeyd etmək lazımdır ki, kartelin qərarları heç də həmişə bazarda vəziyyətin stabilləşməsinə müsbət təsir göstərməmişdir. Cənub Şərqi Asiya regionunda maliyyə-iqtisadi böhranın başlamasına baxmayaraq istehlakın artmasını güman edərək 1997-ci ilin noyabr ayında OPEK-in 103-cü yığıncağında təşkilat hasilatın sutkalıq 2,5 milyon barelə qədər artırılması barədə qərar qəbul etmişdi. Lakin böhran səbəbindən 1998-ci ildə dünya üzrə istehlak yalnız sutkalıq 0,5 milyon barelə qədər genişlənməyə səbəb olmuşdur. Bu isə neft ixracatçısı olan ölkələrdə xeyli miqdarda

kommersiya xarakterli neft və neft məhsullarının toplanmasına, “Brend” markalı neftin qiymətinin bir barel üçün 19,1 dollardan 9 dollara qədər enməsinə gətirib çıxarmışdı. Belə olan halda birgə fəaliyyət göstərmək məqsədi ilə OPEK ilk dəfə olaraq digər neft hasilatçısı olan ölkələrə müraciət etmişdi. 1998-ci ildə Rusiya Federasiyası OPEK-də müşahidəçi olmaq statusunu aldı. 1999-cu ilin ortalarına doğru vəziyyət stabilləşməyə başladı və OPEK növbəti dəfə kvotanı azaltmaq barədə qərar qəbul etdi və dünya iqtisadiyyatı böhran sonrası dirçəlişə başladı[3, c.10-12]

Qeyd etmək lazımdır ki, İraq 1998-2011-ci illər ərzində ölkələr üzrə kvota sistemindən uzaqlaşdırılmışdı, hansıki İraqın hasilat gücü sutkalıq 1,1-1,2 milyon barelə çatırdı. Bundan əlavə onu da qeyd etmək lazımdır ki, 2009-cu ildən etibarən OPEK faktiki olaraq tənzimləyici tədbirlər həyata keçirməmişdir. Əgər əvvəlki illərdə kvotalarla bağlı il ərzində iki dəfə qərar qəbul edilirdisə, 2009-cu ildən etibarən yalnız bir dəfə-2011-ci ilin sonunda qərar qəbul edilmişdi. Bu qərar kartel iştirakçısı olan ölkələrin kvotalarının dəyişilməsinə səbəb olmamış, yalnız İraqın uçot sisteminə geri qayıtması ilə nəticələnmişdi.

Qiymətlərin kəskin enməsi fonunda OPEK-in hasilatı azaltmamasının səbəbini araşdıran mütəxəssislərin böyük əksəriyyəti fikirləşir ki, kartel bazardakı payını ona görə azaltmaq istəmir ki, belə olacağı halda kartel üzvü olan ölkələrin itkiləri potensial mənfəətlərindən daha çox olacaqdır. Həmçinin kartel üzvü olan ölkələr(hər şeydən öncə “daha ucuz” ehtiyatlara sahib olan Səudiyyə Ərəbistanı) üçün bazardakı paylarını itirmək sərfəli deyildir, çünki uzunmüddətli prespektivdə bu kartelin ümumi qazancının(qiymətlərin yüksəlməsi hasilat həcminin azalmasını kompensasiya etmir) azalmasına gətirib çıxaracaqdır. Bundan əlavə hasilatın azaldılması sosial amillər-dövlət büdcəsinin yüksək kəsirləri nəticəsində ölkələr daxilində narazılıqların yaranmasına da səbəb ola bilər.

2015-ci ilin fevral ayında Rusiya Federasiyasında Vygon Consulting Araşdırma Mərkəzi tərəfindən neftin dünya bazarında qiymətləri, ona təsir göstərən amillər və gələcəkdəki dinamikası ilə bağlı Rusiyanın iri neft-qaz şirkətləri, bu ölkədə aktivləri olan bəzi xarici kompaniyalar, bəzi federal orqanlar(Energetika, İqtisadi İnkişaf və Təbiət Nazirlikləri) və mütəxəssis cəmiyyətləri arasında araşdırma aparılmışdır. Ortalama olaraq araşdırma iştirakçıları fikirləşirlər ki, neft qiymətləri mütəmadi olaraq yüksələcək və uzunmüddətli prespektivdə bir barelə görə 93 dollar təşkil edəcəkdir.

Araşdırma zamanı sorğu iştirakçılarının müəyyən qismi hesab edir ki, OPEK şist nefti hasilatının dünyadakı inqilabı yüksəlişinin qarşısını almaq istəyir. Həqiqətən də ABŞ-da şist hasilatı dayandırılmasa, o zaman aşağı qiymətlər Çində şist nefti hasilatı potensialının və Rusiya Federasiyasında çətin hasil olunan neft yataqlarının hasilatına maneçilik törədəcəkdir. Araşdırma iştirakçılarının əhəmiyyətli hissəsi qeyd edir ki, öz fəaliyyəti ilə OPEK məqsədli şəkildə alternativ enerji mənbələrinin inkişafını ləngidir ki, ümumdünya yanacaq-enerji resurslarının balansında böyük həcm neftə məxsus olsun. Fikrimizcə bu amil müasir dövrdə ikinci dərəcəli olsa da, gələcəkdə qlobal neft bazarında kartel öz tənzimləyici mövqeyini qoruyub saxlayacağı halda OPEK-in siyasət istiqamətini məhz alternativ enerji mənbələri müəyyənləşdirəcəkdir.

Mütəxəssislərin az bir qismi hesab edir ki, OPEK ümumiyyətlə vəziyyətə təsir göstərmək iqtidarında deyildir. Bunu bir sıra səbəblərlə izah edirlər: kartel üzvləri arasında aşağı səviyyəli nizam intizamın olması(faktiki olaraq bütün yük Səudiyyə Ərəbistanının üzərinə düşür), daxili sosial etirazlar üzündən hasilatın azaldılmasının mümkünsüzlüyü və hasilatın sutkalıq 2 milyon barelə qədər azaldılacağı halda belə qiymətlərin enməsinin qarşısının alına bilinməməsi və s. [4,c.37-38].




OPEK hansı hallarda hasilatı azaldacağı məsələsi Vygon Consulting Mərkəzinin araşdırdığı əsas məsələlərdən biri olmuş və nəticə olaraq aşağıdakı variantlar irəli sürülmüşdür:

1. Dünya bazarında neft qiymətləri 40 dollardan aşağı olacağı halda kartel hasilat azaldılacaqdır;
2. Katrel üzvü olan ölkələrdə sosial-siyasi vəziyyəti stabilləşdirmək mümkün olmadıqda;
3. OPEK-in milli fondlarında qızıl valyuta ehtiyatları tükənməyə başladıqda;
4. Rusiya Federasiyası və Meksika OPEK-ə qoşulacağı halda;
5. OPEK heç bir halda hasilatın azaldılmasına getməyəcəyi təqdirdə;
6. Dünya bazarında neftə tələbatın azalacağı halda;
7. Səudiyyə Ərəbistanının siyasi istəyi səbəbindən[4,c.39]

2016-cı ilin avqust ayından etibarən dünya satız bazarlarında neftin qiymətləri təxminən 45 dollara qədər enmiş, həmçinin dünya üzrə daşınmalar yüksəlmiş, tələbin yüksəlmə tempi azalmağa başlamışdır. 2016-cı ildə dünya bazarlarında neft tələbatı gündəlik 1,4 milyon barel təşkil etdiyi halda, 2017-ci ildə qiymətlərin enməsi səbəbindən neftə dəstəyinin azalması fonunda tələbin gündəlik 1,2 milyon barelə qədər azalacağı proqnozlaşdırılır. Mühafizəkar ssenariyə görə OPEK ölkələrinin 2013-cü ildə xam neftə olan gündəlik 30,3 milyon barel tələbatı, 2018-ci ildə gündəlik 29,2 milyon barelə enəcək, uzunmüddətli prespektivdə isə yüksəliş yenidən bərpa olunacaqdır. 2035-ci ilə qədər tələbat gündəlik 37 milyon barelə çatacaqdır. 2020-ci ildən 2035-ci ilə qədər olan dövrdə dünya maye yanacaq daşınmasında OPEK-in payı 31-35% arasında, hər bir halda 2012-ci il səviyyəsindən yüksək olacaqdır.

OPEK-də proqnozlaşdırılır ki, 2017-2019-cu illərdə ABŞ və Kanadanın bərk kollektorlarındakı hasilat pik səviyyəsinə çatacaqdır. Belə ki, 2035-ci ilə qədər proqnoz üçün verilmiş hesabatda üç şist yatağı-“Bakken/Three Forks”, “Eagle Ford” və “Permian Basin” haqqında ətraflı tətqiqat aparılmışdır. Mühafizəkar ssenariyə görə 2035-ci ilə qədər Şimali Amerikada hasilat işlərinin aparılması çətin olan yataqlarda gündəlik 2,7 milyon barelə qədər azalma müşahidə olunacaqdır. Dünya şist nefti daşınmaları 2018-2019-cu illərə qədər gündəlik 4,9 milyon barelə qədər yüksələcək, daha sonra 2035-cü ilə doğru enmə müşahidə olunacaq daşınmalar 1,4 milyon barelə qədər azalacaqdır[5,c.2].

OPEK üzvü olmayan ölkələrdən xam neft daşınmaları 2020-

2035-ci illər ərzində azalacaq və böyük ölcüdə maye yanacağın hesabına genişlənən təklif əsasında kompensasiya ediləcəkdir. Belə olan halda OPEK üzvü olmayan ölkələrdən 2012-ci ildə gündəlik 53 milyon barel olan daşınmaların həcmi, 2035-ci ildə 62 milyon barelə qədər yüksələcəkdir. Ümumiyyətlə, proqnoz olunan dövr ərzində OPEK üzvü olmayan ölkələr hasilat həcminin artması hesabına OPEK ölkələrini keçəcəkdirlər.

Vəziyyətin gələcəyinin proqnozlaşdırılması analitikləri ehtiyatlı olmağa məcbur edir. Çünki qiymətlərin səviyyəsinə olduqca çox amil təsir göstərir. Aydındır ki, qərb ölkələri qiymətlərin əsas tənzimləyicisi kimi gələcəkdə də OPEK-dən öz məqsədləri üçün istifadə etməkdə davam edəcəkdir. Təşkilatın daxilində isə çətin, çox kəsin vəziyyət yaranmaqdadır ki, bu və ya digər iştirakçı ölkə yaranmış vəziyyətdən istifadə edərək onun üçün müəyyən edilmiş kvotanı pozaraq təkbaşına qazanmağa çalışacaqdır. Bu isə katrel daxilində inamsız mühitin yaranmasına, yeni iştirakçıların reqlamentsiz hərəkətlərə yol verməsinə, sonda isə təşkilatın fəaliyyət effektivliyinin aşağı enməsinə səbəb olacaqdır.

Yuxarıda qeyd olunanları ümumiləşdirərək bildirmək lazımdır ki, bugün dünyada hasil olunan xam neftin 40% OPEK üzvü olan ölkələrin payına düşür və proqnozlara görə yaxın 20-25 il ərzində kartel öz hasilat səviyyəsini 50% qədər artıracaqdır. Kartel dünya bazarında “qara qızıl”ın qiymətinin stabilləşdirilməsi istiqamətində siyasətini davam etdirərək hasilat səviyyəsinin azaldılması və çoxaldılmasını həyata keçirir. Təşkilatın dünya neft-qaz ehtiyatlarının 78% sahib olmasına baxmayaraq OPEK qiymət formalaşdırma mexanizminə tam şəkildə nəzarət edə bilmir. Çünki, OPEK-in qiymət siyasəti böyük ölçüdə qlobal iqtisadiyyatın stabilliyindən və dayanıqlığından da xeyli dərəcədə asılıdır[6]. Eyni zamanda onun fəaliyyəti təşkilat üzvləri olan ölkələrin daxili sabitliyindən də asılıdır. Digər təşkilatlar kimi OPEK də daimi olaraq həm xaricdən, həm də daxildən təsir göstərən müxtəlif problemlərlə qarşı qarşıyadır.

Bir tərəfdən neft qiymətləri istehsal xərclərini və istehsalçıların əsas risklərini örtməlidir, digər tərəfdən isə qiymətlər dünya iqtisadiyyatının və neft sənayesinin inkişafına, investisiyaların yatırılmasına mənfi təsir göstərməməlidir. Beləliklə, bu problemləri yalnız OPEK üzvü olan ölkələrin və müstəqil neft hasilatçısı olan ölkələrin birgə fəaliyyəti hesabına həll etmək mümkündür. Bu istiqamətdə aparılan ölçülüb-biçilmiş, dəqiq təşkil olunmuş və diqqətli fəaliyyət mövcud problemlərin uzunmüddətli həllinə imkan verəcəkdir.



## ƏDƏBİYYAT


1. *OPEK-in rəsmi saytı(Elektron resurs). Giriş qaydası: www.opec.org*
2. *Фубини Ф. Меняется нефтяная карта: от Семи сестёр к российским и китайским гигантам// Corriere della Sera, 2007, 31 октября*
3. *Сергей Ежов, Новая старая роль ОПЕК, анализ и прогноз, Нефть России 3/2015, http://vygon.consulting, c.10-12*
4. *Григорий Выгон, Мировой рынок нефти: от “ручного управления” к “невидимой руке”, Роль ОПЕК, VYGON Consulting, web: http://vygon.consulting, c.37-38*
5. *Анастасия Никитина, Нефтегазовая Вертикаль, Прогнозы Опек(по материалам WOO 2013,OPEC), www.ngv.ru, c.2*
6. *Симония Н.,Нефть в мировой политике//Международные процессы-М.,2005, Т.3,№3*
7. *Annual Statistical Bulletin 2007/The Organization of the Petroleum Exporting Countries.-Vienna:The OPEC Secretariat, 2008*
8. *OPEC bulletin, 168th OPEC Conference meets, no 10, Vienna, December, 2015, p.6-7*


***Açar sözlər:*** *startegiya, proqnoz, kvota, hasilat, şist nefti, neft qiymətləri*

***Ключевые слова:*** *стратегия, прогноз, квоты, производство, сланцевая нефть, цены на нефть*

***Key words:*** *strategy, forecast, quotas, production, shale oil, oil prices*


## РЕЗЮМЕ

В статье обсуждаются важность энергетической политики ОПЕК и применение производственных квот в период нефтяных кризисов, что является особенно актуальным в свете стремительного падения цен на нефть в последние годы. Даже несмотря на то, что большая часть мировых нефтяных запасов находятся под контролем ОПЕК, на фоне резкого падения цен на нефть в 2014 году, она не в состоянии регулировать цены. Проблемы, возникшие в результате снижения цен на черное золото, не могут быть решены только за счет стран-участниц ОПЕК, также важно вовлеченность других независимых стран-производителей нефти.

Ключевые слова: стратегия, прогноз, квоты, производство, сланцевая нефть, цены на нефть

## SUMMARY

The article discusses the importance of OPEC’s energy policy and application of production quotas in times of oil crisis, what is especially relevant due to the sharp decline in prices during last years. Although, the lion share of oil resources is under control of OPEC, dramatic fall of prices in 2014, demonstrated the inability of OPEC to regulate prices. Problems which were caused by the fluctuation of prices can not be solved merely by efforts of OPEC-member countries, but only in cooperation with other independent oil producing countries.

# İqtisadiyyat

## DÜNYA PRAKTİKASINDA KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN İNKİŞAFI VƏ İDARƏ OLUNMASI

RƏŞAD ƏSGƏROV
Azərbaycan Respublikası Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası



Son illər həm inkişaf etmiş ölkələrdə, həm inkişaf etməkdə olan ölkələrdə, həm də üçüncü dünya ölkələrinin iqtisadiyyatlarında kiçik və orta müəssisələrin (KOM) rolu artmaqdadır. Onların iqtisadiyyatların rəqabət qabuiliyyətinin artmasında, iqtisadi artım və məşğulluğun təmin olunmasında, sənaye məhsulları istehsalının genişlənməsində, ixracın effektivliyinin artmasında, bazar yönümlü iqtisadi siyasətin bərqərar olmasında rolu danılmazdır. KOM-ların fəaliyyətləri ilə bağlı dövlətlərin təşviq tədbirlərini araşdıran və yeni normativ çərçivələr təklif edən əsas beynəlxalq təşkilatlardan ən mühümü İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatıdır(İƏİT - OECD). İƏİT-nin "Bolonya Konfransı"nda iştirakçı dövlətlərin müvafiq nazirləri və təmsilçiləri .

1. KOM-un iqtisadi inkişafda, yeni iş yerlərinin yaranmasında, regional və iqtisadi inkişafda, sosial birliklərdə, həmçinin qadın və gənc sahibkarların oynadığı rolda əhəmiyyətini təsbit etdilər;

2. Sahibkarlığın və dinamik sektor kimi KOM-un iqtisadiyyatın yenidən strukturlaşmasında və yoxsulluqla mübarizədə vacibliyini təsbit etdilər;

3. Qloballaşmanın, texnoloji dəyişiklik və innovasiyaların KOM üçün yeni alternativlər yaratdığını və daha yüksək yaşayış standartları gətirəcəyini və onun xeyirlərinin hamı üçün bərabər bazisdə əldə oluna bilməsini bildirdilər;

4. KOM-un siyasətlərinin davamlı və sosial inkişafla yanaşı fərdi ölkələrin və sektorların prioritetlərinə və vəziyyətlərinə uyğunlaşdırılmasının vacibliyini bildirdilər.

Kiçik və orta biznesin iqtisadiyyatda əsas üstünlüyü onun daha az kapital xərcləmələri hesabına ciddi məşğulluq potensialı formalaşdıra bilməsidir. Hətta belə hesab olunur ki, KOM-ların əmək tutumluğu iri bizneslərdən daha yüksəkdir. KOM-lar dünyanın inkişaf etmiş ölkələrini özündə birləşdirən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT - OECD) ölkələrindəki müəssisələrin 95%-ni, məşğulluğun 60-70%-ni təşkil edirlər. Avropa Birliyində (AB) isə KOM-lar bütün müəssisələrin 99%-ni təşkil edirlər ki, onlardan da 91%-i işçilərinin sayı 10-dan az olan mikro-müəssisələrdir. Neft-qazla zəngin ərəb ölkələrindən Səudiyyə Ərəbistanının ÜDM-nin 25%-ni, Əlcəzairdə 77%-ni, Birləşmiş Ərəb Əmirliklərində 75%-ni KOM-lar istehsal edir. Livan və Küveytdə iş yerlərinin 90%-i, Misirdə isə kənd təsərrüfatından kənarda fəaliyyət göstərən müəssisələrin 99%-i KOM-ların payına düşür. İnkişaf etmiş ölkələrdə Ümumi Daxili Məhsulun (ÜDM) 50%-i KOM-lar tərəfindən istehsal edilir. Geniş kapital bazasına malik olmayan və milyonlarla ailələrin fərdi gəlir mənbəyi olan kiçik və orta sahibkarlıq subyektlərinin iqtisadi böhran dövründə xüsusi həssaslıq dərəcəsinin artması da bir faktdır. Bunun aşağıdakı səbəbləri var:

1. Onlar miqyaslarının kiçik olması səbəbindən daha artıq kiçilməyə gedə bilmirlər;

2. Onlar fəaliyyətlərini fərdi surətdə diversifikasiya edə bilmirlər;

3. Onlar daha zəif maliyyə strukturuna və kapitallaşmağa malikdirlər;

4. Onlar aşağı və ya sıfır dərəcəli kredit reytinqinə malikdirlər;

5. Onlar kreditlərdən həddən artıq asılıdırlar;

6. Onlar cəmi bir neçə maliyyə opsionlarına malikdirlər.

KOM-lar arasında mühüm fərqləndirici amil onların inkişaf dərəcəsidir. İƏİT o firmaları "yüksək artımlı müəssisələr" kimi müəyyən edir, ki onların 3 il ərzində illik olaraq 20 faizdən çox işçi artımına və hesabat dövrunun əvvəlində ən azi 10 əməkdaşa malik olmuşlar (OECD 2009). Tədqiqatçılar hesab edirlər ki, yüksək artımlı müəssisələr sahibkarlıq həyatında gücün mənbəyidir, onlar iqtisadi artım və yeni iş yerlərinin yaradılmasının mühüm təkanvericisi kimi çıxış edirlər. Yüksək inkişaf etmiş müəssisələrin xüsusi vacib alt qolu fəaliyyət müddəti 5 ildən az olanlardır. Bu yeni yüksək artım göstərən firmalara bəzən "təkmil şirkətlər" deyilir, belə ki, dünya miqyasında bu şirkətlərin payı toplam firmaların 1 fazindən az olmasına baxmayaraq, bunlar yeni iş yerlərinin yaradılması və iqtisadi artımın əldə edilməsində böyük rol oynayırlar. Son araşdırmalar siyasi qərar vericiləri iş yerləri yaratmaq baxımdan bu cür yüksək artım göstərərn firmaların vacibliyinə diqqətlərini çəkmişdir. Henrikson və Johansson (2010) hesab edir ki, artım fərqləri, zaman periodu, firmanın böyüklüyü və yaşı, təhlil metodları və coğrafi əhatə fərqliliklərinə baxmayaraq bir neçə faktı hamsına aid etmək olar. Bir neçə sürətlə inkişaf edən firma yüksək inkişaf etməyən firmalarla müqayisədə iş yerlərinin bütün yeni şəbəkələrinin proporsional olmayan dərəcədə böyük hissəsini yaradır. Bu firmalar inkişaf etdiyi müddətdə tənəzzül daha da qabarır. Bu cür firmalar orta ölçülü firmalardan daha gəncdirlər.

Bütövlükdə kiçik və orta müəssisələr iqtisadi inkişaf

səviyyəsindən asılı olmayaraq bütün iqtisadiyyatlar üçün xüsusi önəm daşıyır. Böhran dövründə debitor borclarının ödənməsindəki ləngimələr və artan ödəniş qabiliyyətsizliyi və ya müflisləşmə dərəcəsi KOM-ların maliyyə resurslarına çıxışını çətinləşdirən amillərdir. Nəzərə almaq lazımdır ki, KOM-ların ən mühüm maliyyələşmə mənbəyi xüsusi kapital və bank kreditləridir. Kreditlərə çıxışın çətinləşməsi KOM-ları rezervlərin mobilizasiyası, özünümaliyyələş-dirmə, faktorinq kimi alternativ maliyyələşdirmə mənbələrinin tətbiqinə ciddi şəkildə vadar etdi. Müxtəlif Avropa ölkələrinin antiböhran tədbirlər paketində KOM-lara vergi güzəştləri, eksport kreditləri və sığortalama xərclərinin kompensasiyası, borcların ləngidilməsi kimi tədbirlər yer alır. Yaponiyada hökumət korporativ vergini növbəti iki il üçün illik gəlirləri 61 min avroya qədər (8 milyon yen) olan KOM-lar üçün 22%-dən 18%-ə qədər endirdi. Niderlandda 200.000 avroya qədər olan dövriyyələr üçün olan vergi kateqoriyasının dərəcəsi 2009 və 2010-cu illər üçün 23%-dən 20%-ə düşdü[88]. Eyni zamanda, Kanada, Çexiya, Fransa və İspaniyada əlavə dəyər vergisi (ƏDV) ödənişlərinin dərhal və ya bir aydan sonra kompensasiyası tətbiq olunur. KOM-lərin qlobal iqtisadi böhranlar dövründə satışın azalması və onlara ödənilməli vəsaitlərin ləngidilməsi kimi "tələb şoku" (demand shock) təzyiqlərinə ənənəvi cavabları bundan ibarət olur:

- mənfəətliliyin dolayı artırılması məqsədilə xərclərin (o cümlədən, əmək haqqılar üzrə) kəskin ixtisarı;
- əlavə likvidlik mənbələri axtarışı (özlərinin etməli olduqları ödənişlərin ləngidilməsi, dividendlərin azaldılması);
- yeni investisiya və genişlənmə planlarının təxirə salınması.

Müxtəlif inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin kiçik və orta sahibkarlığın inkişafı üzrə fərqli dövlət tənzimləməsi və təşviqi modelləri vardır.

ABŞ təcrübəsi.ABŞ-ın Kiçik Biznes Administrasiyası (SBA) kiçik bizneslərə birbaşa borc vermir, ancaq biznesin maliyyələşməsi və inkişafı üçün əhəmiyyətli rol oynayır. SBA kiçik biznеslərin inkişafı üçün səhm kapitalı, uzun müddətli borclar və idarəetmə xidməti təklif edir. Ancaq həmin firma onların standartlarına uyğun, yəni müəyyən növ və ölçüdə olmalıdır. Digər bir proqram zaminlikdir. Bu, o deməkdir, SBA hər hansı kiçik biznes borc aldığı zaman ona zamninlik edir və borc ödənilmədiyi təqdirdə öhdəlikləri üzərinə götürür. İxracın maliyyələşdirilməsi biznesin xaricə açılmasına və məhsulun xaricə çıxışını təmin etmək üçün tətbiq edilir, adətən banklar ixrac üçün borcların verilməsində maraqlı deyillər və bu zaman SBA 90% məsulliyyəti öz üzərinə götürür. Kiçik firmalar özlərini təsdiqləmək üçün başladıqları gündən dövlətlə müqavilə bağlamalıdırlar. Belə ki, onlar federal vebsəhifədə qeydiyyatdan keçməli,maliyyə hesabatı üçün tanınma nömrəsi almalı, məhsula və ya xidmətə uyğun sənaye kodu tapmalıdırlar. Ölçü standartı işçilərin sayına və orta illik qəbzlərə əsaslanır. Texnologiya proqramı texnologiya bazarında rəqabətliliyin güclənməsi, genişlənməsi və biznesin inkişafına şərait yaradır. SBA təbii fəlakət səbəbindən ziyan dəymiş şəxsi mülkiyyəti, maşın və avadanlıqları, inventarları və biznes aktivlərini təmir etmək və ya yeniləmək üçün ev sahiblərini, icarədarları, bütün ölçüdə olan özəl və qeyri-maliyyə təşkilatlarını aşağı faizli fəlakət borcları ilə təmin edir. Eyni zamanda, burada təşəbbüslər dedikdə hökumət tərəfindən həyata keçirilən layihələr və proqramlar nəzərdə tutulur. Sxem 2-də "Startup America" istisna olmaqla digərləri pilot proqramlardır. "Startup America" isə Ağ Ev tərəfindən yüksək inkişaflı sahibkarları bir yerə yığmaq, sanki bir alyans kimi və onları şöhrətləndirmək və ruhlandırmaq üçün irəli sürülən təşəbbüsdür. İclaslar və treninqlər bölümündə biz departamentlərin adlarını görə bilərik. Onların vəzifəsi kiçik bizneslərin müxtəlif tipli iclaslarda iştirakını təmin etmək və onlara lazım olan anda təlimlər keçməkdir. Kiçik biznes proqramının məqsədi kiçik və əlverişsiz bizneslərin bazarda rəqabət aparmasına dəstək vermək, şəhərkənarı və kənd ərazilərində az diqqət yetirilən sahələri inkişaf etdirmək, həmiçinin müxtəlif birlikləri - azlıqların, veteranların, qadınların birliklərini təşkil edərək onlara bizneslərinin inkişafı üçün müəyyən güzəştlər etməklə kiçik biznesi genişləndirmək üçün bir çox layihələr həyata keçirməkdir. Müdafiə ofisi kiçik bizneslərin federal hökumətdə təmsil edir və "Elastik Tənzimləmə Aktı"nda (Regulatory Flexibility Act) onların maraqlarını müdafiə edir. Dinləmələr və Müraciətlər ofisinin missiyası müəyyən SBA proqram qərarlarının müstəqil və kvazi məhkəmə çağırışlarını təmin etməkdir. Baş Müfəttiş ofisinin missiyası isə Amerikan xalqının mənfəəti və SBA-in tamlığının, məsuliyyətinin və performansının inkişaf etdirilməsi üçün müstəqil və obyektiv nəzarəti təmin etməkdir. Nəhayət, Ombudsman ofisi kiçik bizneslər federal agentliyin ədalətsizliyi ilə üzləşdikdə (məsələn, təkrar təftişlər, həddən artıq cərimələr, cəzalar və təhdidlər zamanı) yardım göstərir.

Avropa Birliyi (AB) ölklərinin təcrübəsi. 23 milyon kiçik və orta ölçülü şirkətlər AB-də mövcud olan bütün biznesin 99%-ni təşkil edir və onun iqtisadi inkişafında, innovasiyasında, məşğuliyyətində və sosial inteqrasiyasında aparıcı rol oynayır. AB ərazisində orta hesabla əhalinin 1000 nəfərinə 40 KOM (Azərbaycanda 22 KOM). Avropa Komissiyası KOM üçün uğurlu sahibkarlığa dəstək olmağı və bines muhitinin inkişafını hədəfləyir və onlara bugünkü qlobal iqtasiyyatda bütün potensiallarını həyata keçirməyə imkan verir. 2008-ci ildə qəbul olunan "Kiçik Biznes Aktı" (Small Business Act - SBA) Avropa Komissiyasının kiçik və orta ölçülü şirkətlərin AB-nin iqtisadiyyatında mərkəzi rol oynamasını təsdiqlədi. İlk dəfə olaraq AB və üzv ölkələr üçün KOM siyasəti öz yerini tapdı. "Kiçik Biznes Aktı" həm AB, həm də milli səviyyədə siyasətlərin dizayn olunması və düzəlişlər olunmasına bələdçilik edən müəyyən prinsiplərdən ibarətdir. Bu, şirkətlərin bütün mümkün potensiallarından istifadə etməklə yeni



peşələrin yaradılması və inkişafı üçün AB daxilində hüquqi və inzibati mühitin inkişafı üçün əhəmiyyətlidir.

AB və ABŞ-da ayrı-ayrılıqda KOM-lar eyni dövriyyəyə malik olsalar da, AB-nin iqtisadiyyatında, ÜDM-də onların rolu daha böyükdür. AB-də fəaliyyət göstərən 23 milyon KOM bütün müəssisələrin 99%-i təşkil edərək 75 milyon iş yeri ehtiva edirlər[129]. AB ərazisində 1 yanvar 2005-ci ildən etibarən KOM-ların yenilənmiş təsnifatı qüvvəyə minmişdir. Birlik əraizisində bu vahid təsnifatdan KOM-lar kredit üçün müraciət edərkən tələb olunan "Özünü qiymətləndirmə bəyannaməsi" modelində (model self-assessment declaration) və regional maliyyə fondlarına çıxış zamanı aktiv istifadə edirlər. Bu definisiyaya əsasən işçilərinin sayı 10-a, illik dövriyyəsi və illik müstəqil mühasibat balansı 2 milyon avroya qədər olan müəssisələr mikro; işçilərinin sayı 10-50 arasında olan, illik dövriyyəsi və illik müstəqil mühasibat balansı isə 2-10 milyon avro intervalında olan müəssisələr kiçik; işçilərinin sayı 50-250 arasında olanlar, illik dövriyyəsi 10-50 milyon avro və illik müstəqil mühasibat balansı müvafiq olaraq 10-43 milyon avro olan müəssisələr isə orta müəssisələr hesab olunur. Burada işçilərin sayına həm tam ştatlı işçilər, həm yarımştat işçilər, həm də mövsümi işçilər daxildir. Hələ yekun müqavilə imzalanmayan sınaq müddəti keçənlər, təlim müqaviləsi ilə təşkilatda təcrübə keçən tələbələr bu zaman nəzərə alınmır. İllik dövriyyə satışdan və xidmətlərin göstərilməsindən il ərzində gələn gəlirlərin dolayı vergilər çıxıldıqdan və ən vacib ödənişlər edildikdən sonra qalan yekunudur. İllik müstəqil mühasibat balansı isə müəssisənin əsas aktivlərinin son dəyəridir.Kiçik biznes aktına görə KOM-lar aşağıdakı kimi təsnifatlaşdırılır (Sxem 1).

**Sxem 1. Kiçik və orta biznesin təsnifatı**




Avropa Birliyi ölkələrindən Almaniyada iqtisadi inkişaf və ixracda kiçik və orta müəssisələr (Mittelstand) olduqca mühüm rol oynayır. Almaniyanın Federal İqtisadiy-yat və Texnologiya Nazirliyi "KOM-ların dirçəldilməsi: daha böyük məsuliyyət, daha böyük azadlıqlar" adlı yeni təşəbbüsdə aşağıdakı 7 sahəni kiçik və orta biznesin dəstəyi üçün prioritet elan edib: innovasiya; bacarıqlı işçi qüvvəsi, "start-up"ların və biznes uğurlarının dəstəklənməsi; ölkədən kənarda bazar imkanları; maliyyələşmə; bürokratiyanın azaldılması; xammal və enerji effektivliyi. Avropa Birliyində kiçik biznes aktının nəticəsinin bir hissəsi kimi "AB KOM Elçisi" təsisatının yaradılmasını qeyd etmək olar. "Elçi"nin vəzifəsi Komissiya və KOM arasında və onların təmsilçi qurumları ilə danışıq kanallarının açılması və Komissiya daxilində KOM-un himayədarı olmaqdan ibarətdir. Bununla yanaşı üzv ölkələrin hər birinin KOM-nu təmsil edən "Milli Elçilər" də seçilərək onların şəbəkəsi yaradırlmışdır. İlk dəfə olaraq 2011-ci il sentyabrın 14-də AB biznes qurumlarının iştirakı ilə "KOM Elçilər Şəbəkəsi"nin (Network of SMEs Envoys) formal görüşü keçirilmişdir. KOM-ların Avropada məşğulluğun artırılmasında, məhsul çeşidinin, bazar və ticarət dövriyyəsinin genişləndirilməsində əhəmiyyəti çox böyükdür. Bir çox məqamlarda sahibkarların bacarığı və təcrübəsi şirkətin daha da genişləndirilməsi üçün kifayət qədər səmərəli olmur. Bizensin inkişafının daha yüksək mərhələləri üçün yeni texnologiyalar və "nou-hau"lar, əlavə bacarıqları olan işçi heyəti və yeni bazarlara giriş tələb olunur. Həmçinin məsləhət və yardımlar, maliyyə investisiyaları da yeni bazara giriş üçün çox vacibdir.

Avropa Birliyinə böhran dövründə daha çox şirkət lazımdır. Ancaq bunun qarşısındakı mühüm əngəl kiçik şirkətlərin biznesi başlaması üçün tələb olunan xərclərin çoxluğu və nisbətən çox zaman tələb olunmasıdır. 2008-ci ildə "Kiçik Biznes Aktı"nın yenilənməsi ilə "Rəqabətlilik Konsulu" (Competitiveness Council) şirkələr üçün daha geniş və ambisiyalı şərtlər hazırladı. Rəqabətlilik Konsulunun 2011-ci il yekun iclasında üzv ölkələrdə yeni şirkətlərin qurulması üçün müddətin 3 günə, xərclərin 100 avroya endirilməsi tövsiyyə olundu.Sahibkarlığın çiçəklənməsi üçün yalnız yeni şirkətlərin yaradılmasını düşünmək yalnış olardı. Hər il minlərlə kiçik firmaların sahibləri mübarizəyə dözməyərək istefa verir və firmanı vermək üçün kimsə tapmır. Şirkətin bir şəxsdən digərinə ötürülməsi çox uzun və mürəkkəb prosesdir. Biznesin transferi üçün bir neçe illik hazırlıq tələb oluna bilər. Ancaq bir çox sahibkarlar ailə biznesini satarkən psixoloji sədlə üzləşirlər. Əgər aşkar varis mövcud deyilsə, bu transfer hazırlıqlarını, "nou-hau" və bacarıqların ötürülməsini ləngidir. Bu yalnız mövcud sahibkar üçün biznesin dəyərini azaltmır, eyni zamanda alıcı sahibkarın planları üçün də təhlükə yaradır. Avropada hər il 2 milyon iş tutumu olan 450000-dən artıq biznes transfer olunur. Bu səbəbdən Avropaya transfer proseslərini asanlaşdırmaq və effektiv dəstək xidmətlərini inkişaf etdirmək lazımdır.

**Sxem2. AB-də kiçik və orta müəssilər üçün xidmətlər**




Resursların mobilliyi AB-nin müəssisələri üçün xarakterik xüsusiyyətdir. Avropa Komissiyası xaricdə təşkil olunan peşə təlimlərini ciddi şəkildə dəstəkləyir. Avropa şirkətləri AB tərəfindən həyata keçirilən dəstək xidmətlərindən peşə və təhsil təlimlərindən geniş şəkildə yararlana bilər. Avropada kiçik şirkətlər üçün ən uygun proqram "Leonardo Da Vinci" proqramıdır. Bu proqram ümumiyyətlə fərdləri iş həyatı və cəmiyyət üçün tam yararlı ola biləcək bilik, qabiliyyət və bacarıqlarla təmin etmək üçün innovativ transmilli təşəbbüsləri dəstəkləyir.

KOM-ların yaradılması və inkişafı məşqulluğun və iqtisadi inkişafın əldə edilməsində təməldir. Şirkət menecerləri belə

mürəkkəb dünyada biznesi uğurlu idarə etmək və inkişaf etdirmək üçün lazımi biliklərə yiyələnməlidir. Avropada menecment bacarıqlarının qurulmasına yönəlmiş maraqlı təşəbbüslərin müəyyən olunması və yerli, milli və Avropa səviyyəsində gələcək siyasi inkişaf bazasının təmin edilməsi üçün AB-dən 19 ölkə və Norveç bir qrup ekspertlərdən ibarət işçi qrup formalaşdırmışlarbunlar da əsas diqqəti KOM-ların yaradılması və inkişafına yönəltmişlər.

KOM-un inkişaf məqsədlərindən biri ətraf mühitə təsirin azaldılmasıdır. KOM-lar Avropadakı sənayə çirklənməsinin təxminən 64%-nə səbəb olurlar. Şirkətlərin 24%-ə yaxını ətraf mühitə təsirin azaldılması (əsasən enerji istehlakını azaltmaqla) proseslərinə qoşulmuşlar. KOM-ların 0,4%-i isə sertifikatlaşdırılmış Ətraf Mühit Menecemet Sistemindən (EMAS, ISO 14001 və ya başqa sistemlər) istifadə edir. KOM ətraf mühitin çirklənməsinin qarşısını almaq və ya azaltmaq üçün investisiya qoyarkən daha az xərcli həllərə üstünlük verir: sadə təmizləmə sistemi, qapalı sistem (suyun və ya zibilin təkrar emalı), enerji effektli elektrik lampaları, zibillərin ayrılması və s. Avropa Kiçik Biznes Portalı KOM-a bazarlar və maliyyələşmə alternativləri haqda lazımi informasiyaları tapmaqda kömək edir. AB enerjidən effektiv istifadənin yollarını dərindən öyrənilmisini və texnoloji eko-innovasiyaların, yeni biznes modellərinin və idarəetmə sistemlərinin köməyi ilə ətraf mühitə təsirin azaldılmasını geniş şəkildə maliyyə instrumentləri ilə təmin edir.

Avropadakı bizneslərin əksəriyyəti bir insanlı şirkətlərdir (one person enterprises), yəni işçi qüvvəsi yoxdur. Belə şirkətlər Avropadaümimi işçi qüvvəsinin məşğulluğunun 8%-ni təmin edirlər və bu şirkətlərdə çalışanlar Avropa əhalisinin isə 4%-ni təşkil edir. Bəzi Avropa ölkəsindən olan şirkətlər isə işçi qəbul etmir. Buna səbəb əmək haqqı vergiləri, sosial öhdəliklər, davamlı hesabatın hazırlanması, sağlamlıq və təhlükəsizliklə bağlı inzibati yüklərdir. Şirkətlərin bir hissəsi qeyri-əmək haqqı xərclərini qarşılaya bilmədiklərinə görə, bir hissəsi isə uyğun işçi tapa bilmədiyinə görə və ya yeni işçilərin təlimi çox xərc tələb etdiyi üçün işçi qəbul etmirlər. İşçi qəbulu üçün məcburi inzibati müqavilələrin azaldılması, inzibati prosedurların azaldılması və sadələşdirilməsi təklif edilir.

Avropada hər il bir neçə yüz min şirkət bağlanır. Bu sağlam iqtisadiyyatın bir hissəsidir, bundan başqa şirkətlərin yalnız 50%-i onlar yaradılandan 5 il sonra həyatda qalır. Şirkətlərin 15%-i müflis olduqlarını elan etməklə bağlanırlar, bunun 4-6%-i aldadıcı iflasdır. Yaxşı qurulan şirkətlərin mövcud olmasına səbəb onların sahiblərinin ilk addımda müflis olmalarına baxmayaraq yenə cəhd etmələridir. İflasa ciddi yanaşılmalıdır, ancaq bilinməlidir ki, əsl istedadlı sahibkarlar Avropada peşənin və sərvətin bütün potensialının üzə çıxarılması üçün digər cəhdləri edəcəklər.Daxili və xarici mühasibatın kiçik şirkətlərin sahibləri, menecerləri və həmçinin səhmdarları üçün əhəmiyyəti getdikcə artmaqdadır. Onları hazırlamaq üçün Avropa səviyyəsində "Beynəlxalq Mühasibat Uçotu Standartları"ndan və yeni "Beynəlxalq Maliyyə Hesabatı Standartları"ndan istifadə olunur.

**ƏDƏBİYYAT**


1. *Azərbaycan iqtisadiyyatında kiçik və orta sahibkarlıq: Nəticələr, problemlər və perspektivlər". Azərbaycan Respublikası Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsi, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı. Bakı.*
2. *"Kiçik və orta sahibkarlıq subyektləri üçün əyani vəsait". Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi Sahibkarlığa Kömək Milli Fondu. Bakı,2002*
3. *İri, orta və kiçik sahibkar meyarları" http://e-qanun.az*
4. *"Biznes-Planlaşdırma: Kiçik özəl müəssisələrin sahibləri, müdirləri və mühasibləri üçün tədris-metodik vəsait". Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu; Tərtibçi: E.Məmmədov; Layihənin rəhbəri: S.Bağırov;Beynəlxalq Özəl Sahibkarlıq Mərkəzi. Bakı.*
5. *European Comission, "Think Small First": "Small Business Act" for Europe, Brussels, 25.6.2008 COM(2008)*
6. *Prince Nwakanma, Hudson Nwakanma, Gail Thompkins, "Entrepreneurial Productivity: Sectoral Contribution to the GDP of Developing Economy", International Business & Economics Research Journal – July 2010 Number 7*
7. *Smita Kuriakose, "Fostering Entrepreneurship in Azerbaijan", International Bank for Reconstruction and Development, World Bank, 2013*
8. *The EU Eco-Management and Audit Scheme (EMAS).*



***Açar sözlər:*** *sahibkarlıq, kiçik və orta sahibkarlıq, maliyyə investisiyaları, yüksək inkişaf, kicik biznes.*

***Ключевые слова:*** *предпинимательство, малое и средное предпринимательство, финансовые вложения, высокое развитие, малый бизнес.*

***Keywords:*** *enterprise, small and medium business, financial investments, high development, small business.*


**РЕЗЮМЕ**


Согласно статье, малые и средние предприятия (МСП) очень важны для всех экономик независимо от уровня экономического развития. Здесь анализируются теоретические вопросы, изучаются различные модели государственного регулирования и поощрения развития среднего и малого бизнеса различных развитых и развивающихся стран. Традиционные ответы на «шок спроса» (demand shock) как снижение продажи МСП во время экономического кризиса, в том числе задержка суммы, которые должны быть оплачены им, также находят свое отражение в статье.


**SUMMARY**


According to the article, small and medium-sized enterprises (SMEs) are very important for all economies, regardless of the level of economic development. Here are analyzed the theoretical questions, and being studied various models of state regulation and promotion of the development of small and medium-sized businesses in various developed and developing countries. Traditional responses to the "demand shock" as the decline in the sale of SMEs during the economic crisis, as well as, the amount of delay that must be paid to them, are reflected in the article.

# AZƏRBAYCANIN ÜMUMDÜNYA TİCARƏT TƏŞKİLATI İLƏ ƏMƏKDAŞLIĞI ÜÇÜN YARANMIŞ ZƏMİN VƏ DİGƏR ÖLKƏLƏRİN TƏCRÜBƏSİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

SEVDA HÜSEYNOVA
Azərbaycan Turizm və Menecment Universiteti

WORLD TRADE ORGANIZATION

XX əsrin sonunda sosializm sisteminin iflası və "soyuq müharibə"nin tədricən aradan qaldırılması beynəlxalq və yerli təşkilatların fəaliyyətində keyfiyyətcə yeni mərhələnin başlanmasına imkan verdi. İdeoloji qarşıdurmanın dəf olunması və qarşılıqlı etimadın güclənməsi ilə dünyada siyasi iqlimin ümumən mülayimləşməsi, beynəlxalq təşkilatların yaxından iştirakı ilə yaranmış bir sıra hərbi, siyasi və iqtisadi münaqişələrin həll olunması beynəlxalq aləmdə bu təşkilatların rolunu əhəmiyyətli dərəcədə yüksəltdi [4; səh. 23]. Azərbaycan regional və qlobal səviyyədə fəaliyyəti, o cümlədən beynəlxalq arenada əməkdaşlığı genişləndirərək və dərinləşdirərək müstəqil dövlət kimi bir sıra siyasi və iqtisadi beynəlxalq təşkilatlara üzv olmuşdur. Ümumdünya Ticarət Təşkilatına (ÜTT) da üzvlük müraciəti edilmişdir və hazırda üzvlük prosesi davam edir.

Azərbaycanın hazırda ən mühüm problemlərindən biri Dağlıq Qarabağ problemidir. Ərazisinin 20 %-i işğal altında olan bir dövlət üçün bütün siyasi və iqtisadi prioritetlərin önündə ərazi bütövlüyünü və suverenliyini təmin etməkdir. Buna görə də, Azərbaycan bütün siyasi və iqtisadi gedişlərində ərazi bütövlüyünün təminatı maraqlarını öndə qoyur. Əlbəttə ki, Azərbaycan istənilən beynəlxalq təşkilata üzvlüyündə BMT tərəfindən hələ ilk müstəqillik zamanında tanınmış ərazisi (Dağlıq Qarabağ da daxil olmaqla) ilə daxil olmalıdır. Məhz buna görə də təkcə iqtisadi üstünlüklərini rəhbər tutaraq, onun siyasi maraqlarına uyğun olmayan əməkdaşlıqlara getmir, bu da düzgün bir mövqedir. Artıq Azərbaycanla əməkdaşlıq bir çox dövlətlərin, təşkilatların, o cümlədən "super güc"lərin marağındadır. Azərbaycan isə tarazlı, balanslı siyasi və iqtisadi siyasət yürüdür. Aydındır ki, beynəlxalq təşkilatlarda da "tərəfkeşlik", "dostluq" və "arzu olunanlıq" amilləri rol oynayır, xüsusilə iqtisadi qruplaşmalarda. ÜTT-nin özünü bir sıra tədqiqatçılar "şimalın cənub üzərində iqtisadi hökmranlığını təmin etmək" (inkişaf etmiş ölkələrin, inkişafdan geri qalan və inkişaf etməkdə olan dövlətlər" üzərində hakimliyi) vasitəsi hesab etmişlər.

Azərbaycan Respublikasının ÜTT-yə üzv olma niyyətini əks etdirən müraciət 23 iyun 1997-ci il tarixində ÜTT Katibliyinə təqdim edilmişdir. Dünya ticarətinin 164 ÜTT üzv dövləti vasitəsilə 98 %-nin ÜTT tərəfindən aparıldığı bir vaxtda, onun üzvü olmayan ölkələrin, o cümlədən Azərbaycanın rəqabətə davamlı iqtisadiyyat yarada bilməsi, ixrac bazarlarına çıxması məqsədilə həmin sistemin üzvü olması hesab edirik ki, zaman məsələsidir. Digər mənbələri araşdırarkən və təhlil edərkən, belə qənaətə gəlirik ki, ÜTT-yə üzv olduqdan bəri yüksək sənayeləşmiş dövlətlər ticarətin liberallaşdırılmasından daha çox iqtisadi səmərə götürür. Bu tapıntıya söykənərək, inkişaf etməkdə olan dövlətlərin ÜTT-yə üzv olmazdan əvvəl rəqabətə davam gətirə biləcək beynəlxalq ticarət mühitinin formalaşdırması zəruriliyini əminliklə vurğulaya bilərik.

Dünya Bankının Tədqiqat sənədində Katteneo və Barqa üzvlüyün əsas "xarici" mənfəətlərini belə təsvir edir: a) "Arzuolunan ölkə" statusu almaqla, həmin dövlətlərə daha əlverişli və sərfəli ixrac şərtləri əldə etmək; b) ticarət sazişləri və danışıqları məsrəflərinin azaldılması; c) ticarət üzrə beynəlxalq qaydaların yaradılmasında iştirak; d) beynəlxalq mübahisələrin həlli üzrə mexanizminə çıxış. [5; səh. 18].

Üzvlüyün gətirəcəyi "daxili" mənfəətlər isə əsasən yerli şirkətlər və beynəlxalq investorlar üçün daha əlverişli və daha təkmil biznes mühitinin yaradılması ilə əlaqədar olub, aşağıdakıları əhatə edir: a) daha effektiv və etibarlı ticarət siyasətlərinin yaradılması və islahatları və, b) yerli qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə üzvlükdən bir mayak, çərçivə kimi yararlanmaq [5; səh. 16].

Bütün bu faydalar ilə yanaşı, əlbəttə ki, üzvlüyün məsrəfləri – və ya itkiləri də var. ÜTT-yə üzvlük işçilər, koordinasiya, bacarıqların artırılması, qanunvericiliyin dəyişdirilməsi, təkmilləşdirilməsi və təsdiqi üçün müəyyən imkanlar, resurslar, ictimai sektorun iştirakçılığı, şirkətlərin təhhüdünü tələb edir ki, bunların da bəziləri

və ya bir çoxu inkişaf etməkdə olan dövlətlərdə çatışmaya bilər. Məsələn, Səudiyyə Ərəbistanı ÜTT-yə 10 il sürən, 365 iki tərəfli və 14 çoxtərəfli danışıqlar raundundan, ticarət rejimi və biznesin tənzimlənməsi sistemi barəsində 3500 sualı cavablandırdıqdan və 7600 səhifədən ibarət sənədləşmələr təqdim etdikdən sonra 2005-ci ildə üzvlüyə qəbul olunmuşdur. Səudiyyə Ərəbistanı ÜTT qarşısında öhdəliklərinin icrası üçün 28 Kral Əmrləri və 42 qanunla və tənzimləyici qaydalar qəbul etmişdir [6; səh. 3].

Faydaları ilə yanaşı, üzvlük prosesinin çətinlikləri də vardır. Əvvəla, ÜTT üzvlüyü kifayət qədər baha və qəlizdir, dəyəri də getdikcə artır. Bu proses getdikcə daha uzun olur. ÜTT-yə qoşulmaq indi GATT sazişlərinin tələblərindən də üstün, onun çərçivələrindən kənar tələblərin icrasını tələb edir. Və bunlarla məhdudlaşmayaraq, ÜTT üzvlüyü üzv olmaq istəyən ölkənin xüsusi maraqları, şərtləri və ya istək və ehtiyaclarını, ona qarşı xüsusi -differensial münasibət tələbini demək olar ki, nəzərə almır [6; səh. 13].

Bütün bunları nəzərə alaraq, inkişaf etməkdə olan dövlətlərin ÜTT-yə qarşı tənqidi münasibəti artmaqdadır. Milli iqtisadi siyasətə də toxunan bu çətinliklərinə baxmayaraq, yenə də dövlətlər ÜTT-yə üzv olmağa müraciət edir və bu yolu davam etdirirlər. Bu da onunla izah olunur ki, ÜTT-yə üzvlük təkcə iqtisadi fayda gətirmir, həm də siyasi nüfuzunu artırır, həmin dövlətin dünya bazarı və bazar iqtisadiyyatı prinsipləri əsasında iqtisadi siyasət formalaşdırmasını nümayiş etdirir. Kattaneo deyir ki, "bəzi dövlətlər üçün üzvlük iqtisadi rasional arxasında siyasi qərardır" [5; səh. 72]. Ancaq inkişaf etməkdə olan dövlətlərin üzvlüyünü nəzərdən keçirərkən, iqtisadi rasional olmadan, iqtisadi səmərə və itkiləri müzakirə etmədən üzvlüyə qoşulan dövlətləri də görmək olar və buna Monqolustanı [13; səh. 231] misal gətirə bilərik. 2001-ci ildə 15 illik müzakirədən sonra təşkilata üzv olan Çinin isə əldə etdiyi nailiyyətlər göz qabağındadır. Çünki, o bu prosesə kifayət qədər hazırlaşmışdı. Hazırlıq müddətinə daha az vaxt sərf edən Qırğızıstan, Moldova və Gürcüstan isə ÜTT üzvlüyündən gözlədiklərini artım hədəfinə nail ola bilmədilər. Qırğızıstan sərhədlərini bütün mallar və investisiyalar üçün açdı, ancaq nə malların, nə də investisiyaların həcmi artmadı, əksinə azaldı. Ölkəyə gələn xarici birbaşa investisiyalar 2 dəfə aşağı düşdü (1999-cu ildə 96 milyon dollardan 2000-ci ildə 39 milyon dollara). Gürcüstanda da eynilə, iqtisadi göstəricilər hələ artmır. Moldova isə ÜTT-yə üzv olduqdan sonra ölkənin kənd təsərrüfatı mühəndisliyi, tütün və şərabçılıq sektorları böhrana doğru getdi [11; səh. 67]. Məhz bu ölkələrin keçdiyi yoldan öyrənərək, Azərbaycanın tələsmədən bütün addımları hesablaması vacibdir.

Təbii sərvətlər ilə zənginlik baxımından, inkişaf etməkdə olan və keçmiş MDB üzvü olan üç ölkənin – Qazaxıstan, Azərbaycan və Türkmənistanın ÜTT ilə əməkdaşlıq perspektivlərini müqayisə edək. Qazaxıstan 2015-ci ildə ÜTT-nin üzvü olmuş, Azərbaycan və Türkmənistan hələ ki ÜTT üzvü deyil. Türkmənistan isə heç hələ üzvlük müraciəti də etməmişdir. Hər üçün təbii sərvətlər – xüsusilə, neft və qaz ilə zəngin, inkişaf etməkdə olan dövlətdir.

Qazaxıstan ÜTT üzvlüyünə 1996-cı ildə müraciət etmiş, 2015-ci ildə isə üzvlüyə qəbul edilmişdi. İşçi qrupu 27-si Avropa İttifaqı dövlətləri olmaqla 39 ÜTT üzvündən ibarət idi. Həm Birləşmiş Ştatlar, həm də Rusiya Qazaxıstanın ÜTT-yə üzv olmasını dəstəkləyirdi. Müstəqilliyindən cəmi 5 il sonra üzvlüyə müraciət edən hidrokarbonla zəngin bu dövlət əlbəttə ki dünya ticarət meydanına lazımlı idi (eyni münasibət Azərbaycan üçün də mövcuddur – irəlidə daha ətraflı izah edəcəyik). MDB ölkələri arasında ÜTT-yə daha tez üzv olan Ermənistan, Gürcüstan, Qırğızıstan və Moldova ÜTT-nin təsirini iqtisadiyyatlarında hələ hiss etməmişkən, Qazaxstan da Azərbaycan və Türkmənistan kimi üzlük üçün gözüyumulu sazişləri imzalamaq istəmirdi. Təbii, son sadalanan üç ölkənin digərlərindən fərqli olaraq strateji sərvətinin də idxal – ixrac şərtləri sual altında idi. Qazaxıstan 2013-cü ildə 2050-ci ilə kimi dünyanın 30 ən rəqabətli ölkəsindən birinə çevrilmək hədəfini qoyduğu 2050 Strategiyasını təsdiqlədi – bu da onun ÜTT üzvlüyünə ehtiyacını bir qədər labüdləşdirdi [10; səh. 12]. Son illərdə dünyanın ən güclü 50 iqtisadiyyatlarının siyahısında yer alan Qazaxıstan qlobal ərzaq ehtiyatlarının təminatında yüksək rol oynaya biləcəyi üçün ÜTT tərəfindən də onun üzvlüyünün tezləşməsi dəstəklənirdi.





Qazaxıstanın idxal və ixracatına baxsaq, ticarətin liberallaşdırılması əlbəttə ki, onun xeyrinədir. Bu baxımdan Qazaxıstan üçün ÜTT-dən əldə edəcəyi ən mühüm töhfə korrupsiyanın azaldılması, xarici investisiyaların liberallaşdırılması olar. Bunun üçün də ölkənin ÜTT qarşısında götürdüyü institutsional islahatları icra etməsi vacib idi [9; səh. 27].

Qazaxıstan 2015-ci ildə ÜTT üzvlüyündə qəbul olduqda hələ də bir neçə mübahisə məsələləri açıq qalmışdı. Xüsusilə də Qazaxıstan Avrasiya Gömrük İttifaqının üzvü olduğu üçün, o, hər iki təşkilatda üzvlüyünün hüquqi bazasını təmin etmək məcburiyyətində idi. Birincisi, Qazaxıstan kənd təsərrüfatının subsidiyalaşdırılmasına xüsusi diqqət yetirirdi. Kənd təsərrüfatının dövlət tərəfindən dəstəklənməsi həddi ÜTT-də kənd təsərrüfatı məhsullarının ümumi istehsal dəyərinin 8,5 %-i qədər təşkil edir. Müqayisə üçün, onu qeyd edə bilərəm ki, Avrasiya Gömrük İttifaqı çərçivəsində kənd təsərrüfatına dövlət dəstəyi 10 %-dən artıq olmamalıdır. İkincisi, tərəflər yerli tutulma payı üzrə razılığa gələ bilmirdilər. Sadə dildə desək, yerli tutulma payı – Qazaxıstanda yerli məhsullar və xidmətlərin mütləq mənada xarici kapitalın iştirakı ilə investisiya layihələrinə cəlb olunması şərtidir. Məsələn, neft-qaz layihələri üçün bu 50 % təşkil edirdi. ÜTT-yə daxil olmaqla, respublika keçid mərhələsində bu qeyri-tarif alətindən tamam imtina etməyə nail olmalıdır. 2021-ci ilə kimi Qazaxıstan yerli tutulma payını ləğv etməlidir.

Üçüncüsü, Qazaxıstan Avrasiya İttifaqı ilə ÜTT üzvlüyü naminə, gömrük tariflərini hər ikisinə uyğunlaşdırmalıdır. Onun ÜTT-yə üzv olması şərtlərin idxal malları üzrə gömrük rüsumlarını 6.5 %-dək azaltmalıdır [11; səh. 23]. Bu isə, Avrasiya Gömrük İttifaqı çərçivəsində təsbit edilmiş gömrük rüsumlarından xeyli fərqli olacaq. ABŞ və Avropa İttifaqı Qazaxıstanı Avrasiya Gömrük İttifaqı öhdəliklərindən imtina etməyə çalışdığı üçün, Rusiya Qazaxıstana lazımı köməkliyi və dəstəyi göstərirdi [15; səh. 29]. Habelə, yenə də Qazaxıstanın ÜTT-yə üzvlüyü Avrasiya Gömrük İttifaqının fəaliyyətində bir xeyli çətinliklər yaradacağı gözlənilir, çünki, bir çox şərtlər var ki, Gömrük İttifaqının qaydaları ilə ziddiyyət təşkil edir. Eyni çətinlikləri Gömrük İttifaqı Belorusiyanın ÜTT-yə üzv olunacağı prosesdə də yaşayacaq.

Qeyd etdiyimiz kimi, Türkmənistan ÜTT-yə üzvlük üçün müraciət etməmişdir. Türkmənistanı Azərbaycan ilə müqayisə üçün seçməyimizin əsas səbəbi odur ki, Xəzər hövzəsi ölkə olmaqla yanaşı, o da, Azərbaycan kimi zəngin qaz, xam neft, hidrokarbon ehtiyatlarına malikdir və son on illikdə ümumi daxili məhsulu Azərbaycanda olduğu kimi yüksək surətlə artmış, iqtisadiyyatının əsas hissəsini qaz ixracı təşkil etmişdir. ÜTT-yə müraciət etməməsi səbəbini onunla izah etmək olar ki, hidro-karbon ehtiyatlarının qiyməti tariflə tənzimlənmir, onlar rəqabətli azad ticarət prinsiplərindən ayrıca, müstəqil şəkildə təsbit olunur və heç də ticarətin liberallaşdırılması səviyyəsindən asılı deyil. Borular vasitəsilə daşınan təbii qazın ixrac şərtləri və qiymətləri daşınılan ölkə ilə aparılan qarşılıqlı danışıqların nəticəsində individual olaraq müəyyən edilir. Bu da bir sıra ÜTT sazişlərinin tətbiq olunmasını mümkünsüz edir. Buna görə də, Türkmənistan üçün ÜTT-yə üzvlük prioritet olmamışdır. 2013-cü ildə Türkmənistan prezidenti ÜTT-yə üzvlük ilə bağlı danışıqların başlanması üçün Komissiyanın təşkilinə qərar versə də, müşahidəçilər ÜTT üzvlüyünün Türkmənistandan çox uzaq olması fikrindədir. Bunu onunla izah edirlər ki, Türkmənistan geniş miqyaslı özəlləşdirmə təcrübəsi yoxdur, zəif özəl sektora malikdir və qlobal renkinqlərdə korrupsiyanın geniş yayıldığı, repressiv bir ölkə kimi qiymətləndirilir və ən mühüm sahəsi olan neft – qaz sektoruna xarici investisiyaların cəlbində maraqlı deyil [12; səh. 7].

Azərbaycan üçün digər bir maraqlı üzvlük prosesi nümunəsi Səudiyyə Ərəbistanının üzvlüyü ola bilər (neft ixracına əsaslanan iqtisadiyyat ölkəsi olaraq). Səudiyyə Ərəbistanının da üzvlüyü tam iyirmi il çəkmişdi (1985-2005-ci illər). Bu müddət ərzində o, mühüm siyasi proseslərdən keçməli oldu – Səudiyyə Ərəbistanı hökumətinə siyasi və iqtisadi təzyiqlərin edilməsi ilə nəticələnən 1991-ci il İkinci Körfəz Müharibəsi, Soyuq müharibənin bitməsi və Sovet İttifaqının dağılması ilə Səudiyyə alyansının prioritetlərinin dəyişməsi, 9/11 Nyu-York terror aktı nəticəsində Səudiyyə Ərəbistanının siyasi həyatına mənfi təsiri və s. Ölkədəki monarxiya quruluşuna görə, heç vaxt kommunist ölkəsi olmasa da, Səudiyyə Ərəbistanı qarşısında ÜTT-nin əsas tələbi ticarətin tam liberallaşdırılması və tam açıq bazar prinsipinə keçilməsi olmuşdu. Krallıq üçün ÜTT üzvlüyündən ən böyük gözləntisi neft-kimya məhsulları üçün yeni bazarlara çıxmaq idi. Doğrudur, ÜTT olmadan belə Krallıq neftin ən böyük ixracatçısı idi, ancaq indi ona neftdən sonra iqtisadiyyatına ikinci ən böyük gəlir sahəsi olan neft-kimya məhsullarının bazarının genişləndirilməsi idi [7; səh. 88]. Krallığın siyasətçiləri bildirirdilər ki, Səudiyyə Ərəbistanı bu an üçün nə qədər zəngin olsa da, növbəti otuz ildə ÜTT vasitəsilə iqtisadiyyatı diversifikasiya etməklə, ixracı artırmasa bu inkişaf davamlı olmayacaq [7; səh. 131]. Maraqlısı odur ki, hətta Səudiyyə Ərəbistanı da nəticədə ÜTT-yə inkişaf etməkdə olan ölkə kimi qoşuldu. Bu da onunla izah olunur ki, neftə əsaslanan bu iqtisadiyyat da, üzvlük nəticəsində digər sahələrin tənəzzülündən ehtiyat edərək, diversifikasiya və inkişaf üçün güzəştli və müddətli keçid istəyirdi. Həmçinin, Səudiyyə Ərəbistanı danışıqlar nəticəsində İslam dinində qadağan olunmuş ÜTT-nin bəzi kənd təsərrüfatına aid şərtlərini də qəbul etməməyə nail oldu. Deməк, ÜTT -yə üzvlükdə dövlətin maraqların uyğun şərtlərlə üzv olmaq mümkündür və Azərbaycan da buna çalışır.

Azərbaycanın təbii sərvətləri olan neft və qazın ümumi daxili məhsulda (ÜDM) payı 59 %, 2013-cü ilin ixracında isə 89 % təşkil etmişdir [8; səh. 65]. İqtisadi nəzəriyyələrə əsasən bu amili çoxları iqtisadiyyatın uzun müddətli inkişafını riskə alan bir fakt kimi izah edir [8; səh. 47]. Başqa dillə desək, Holland sindromu amili Azərbaycana da bəzən şamil olunsa da, neftə əsaslanan ölkə iqtisadiyyatının Holland Sindromuna yoluxması ehtimalı tədqiq edilmişdir. Rosenberg və Saavalainenin Azərbaycanda bu sindorum ehtimalı tədqiqi nəticəsində gəldiyi qənaətə görə, Ümumdünya Ticarət Təşkilatın qoşularaq, ticarət baryerlərinin aradan qaldırılması, milli istehsalın gücləndirilməsi, kənd təsərrüfatının inkişafı bu sindroma yoluxmanın qarşısını ala bilər. [6; səh. 73]. Bu da hazırda Azərbaycanın daxili iqtisadi siyasətinin strateji xəttidir.

Buradan belə qənaətə gəlirik ki, Azərbaycanın ÜTT-yə üzvlük prosesinin ləngiməsini tənqid edən tərəflərin fikrinin əksinə olaraq, Azərbaycan doğru yoldadır. Digər ölkələrin nümunəsinin müqayisəsi də göstərir ki, bu addımı tələsik qəbul etmək olmaz. Neft-qaz ölkəsi olaraq ÜTT üzvlüyünün diqqətlə təhlil edilməsi vacibdir. Neft ölkəsi olaraq, azaldılmış rüsum və tariflərin, qeyri-tarif tənzimləmələrinin neft sektoruna təsirindən çəkinmək əsassızdır. Neftə əsaslanan iqtisadiyyatlardan - Qazaxıstan üçün ÜTT kənd təsərrüfatı məhsulları üçün, Səudiyyə Ərəbistanı üçün neft-kimya məhsulları üçün, İordaniya üçün kömür və qeyri-metal ehtiyatları üçün, Bəhreyn üçün alüminium məhsulları üçün alternativ geniş bazar təmin etmiş oldu və bu da, həmin ölkələrdə iqtisadiyyatın



diversifikasiyasına yardım etdi. Azərbaycan da bu nümunələrdən bəhrələnərək, xüsusilə neft qiymətlərinin aşağı düşdüyü bir vaxtda, ÜTT-dən kənd təsərrüfatının və turizm bazarının genişləndirilməsi üçün istifadə edə bilər.

Göstərilən amillər, o cümlədən müəyyən nisbi oxşar iqtisadiyyatların müqayisəli təhlili deməyə əsas verir ki, Azərbaycanın ÜTT-yə üzvlüyü üçün yaxşı zəmin yaranmışdır. Lakin hələ də, bir sıra açıq məsələlər vardır ki, onlar üzrə də ölkənin siyasi və iqtisadi maraqlarının təminatı vacibdir. Üzvlük üçün 1997-ci ildən müraciət etməsinə baxmayaraq, ölkədə mərkələşdirilmiş iqtisadi inkişaf hədəflərinin olması, özəlləşdirmənin hələ də lazımı səviyyədə getməməsi, o cümlədən ölkənin əsas gəlir mənbəyi olan neftin qiymətinin qeyri-sabitliyi, bizim üçün ÜTT-yə üzvlüyə hələ hazır olub olmamağımızın öyrənilməsini tələb edir.

## ƏDƏBİYYAT

1. *Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi PREZİDENT KİTABXANASI. Azərbaycan Beynəlxalq Arenada. Səh.4*

2. *Haqverdiyev O. Avrasiya Gömrük İttifaqı: xeyri nədir, şəri nə? // "Həftə içi" qəzeti. 23.11.2013-cü il.*

3. *Ömərov V. Azərbaycanın dünyaya inteqrasiyasında beynəlxalq təşkilatların rolu. Bakı. Səs, 2013. S.23.*

4. *Cattaneo O. and Barga P. Everything You Always Wanted to Know about WTO Accession. World Bank Policy Research and Working Paper 5116. 2009.*

5. *Ghulam F. Accession to the World Trade Organization: Factors Shaping the Case of Saudi Arabia's Accession (1985-2005). The London School of Economic and Political Science. Thesis submitted to the Department of International Relations for the degree of Doctor of Philosophy. London July 2012*

6. *Huseynov R. Welfare and Economy -Wide effects of Azerbaijan's Accession to the World Trade Organization: A quantitative Assessment. Inaugural Dissertation zur Erlangung des Grades Doktor der Agrarwissenschaftgen. Bonn. 2015*

7. *Khatibi A. Kazakhstan's Accession to WTO: A quantitative assessment. ECIPE working paper 02\2008*

8. *Mukhamadiyev Y. Kazakhstan on Fast Track to Join WTO. // Astana Times. Jan. 2013*

9. *Sagadiyev K., Kazakhstan's Membership of the WTO: Problems, Consequences and Prospects. // Kazakhstan İnternational Business Magazine N 1, 2013.*

10. *Sadikov M. Turkmenistan: Ashgabat Talks Privatization and WTO, Surprising Observers. // Eurasia Journal. January 2013*

11. *Tsogtbaatar D. Mongolia's WTO accession: Expectations and realities of WTO membership. Gallagher E, Low P., Andrew L. S. (eds) / Managing the Challenges of WTO Participation. 45 Case Studies// Cambridge University*

12. *Армения, Карабах и Евразийский экономический союз: В Ереване и Степанакерте комментируют заявление Назарбаева // Панармениан. 30 мая 2014*

13. *Нормы ВТО станут приоритетными по отношению к Таможенному союзу // «Независимая Газета», 12.10.2011*

14. *Таможенный союз обновил пошлины с учетом вступления России в ВТО.// Газета «РИА Новости», 23 август, 2012*

## SUMMARY

This article is focused on learning the political, economic and social read-inness of Azerbaijan for the membership proccess to the World Trade Or-ganization and generally reviews pre-history of Azerbaijan in building part-nerships with the international organizations which in its terms created bet-ter opportunities and readiness for proceeding the process of membership to WTO, and how these conditions can impact to enhance the role of our coun-try in international arena.

## РЕЗЮМЕ

В данной статье изучается создание процесса политической, экономической и социальной обстановки страны в членство Всемирной Торговой Организации, сотрудничество Азербайджана международными организациями и благодаря этим сотрудничествам создания последующих международных членств в целом. В то же время, проанализируем случаи получения пользы от ВТО, а так же определенные обстоятельства для повышения репутации политики и экономики развивающийся страны с богатыми ресурсами на международной арене.

# Mədəniyyət



BİLAL DƏDƏYEV
Tarix üzrə fəlsəfə doktoru

## OSMANLI MƏDƏNİ HƏYATINA TÖHFƏ VERMİŞ AZƏRBAYCANLI RƏSSAM- ŞAİR ŞAHQULU PƏNAHİ




XV əsrdən başlayaraq Azərbaycanın Osmanlı dövləti ilə olan münasibətlərində mədəni əlaqələrin daha da gücləndiyi bilinməkdədir. Bu dövrdə güclü imperiya şəklinə gələn Osmanlı dövləti elm və sənət sahəsindəki əksikliklərini doldurmaq məqsədi ilə qonşu müsəlman ölkələrdən çox sayda elm və mədəniyyət xadimini öz ölkəsinə cəlb etmişdir. Bunlar arasında çox sayda azərbaycanlı elm və sənət xadimi də öz yerini almışdır. Bu da iki ölkə arasında güclü mədəni əlaqələrin yaranması və inkişafına şərait yaratmışdır. Ənənə halını alan bu prosses Fateh Sultan II Mehmeddən (1451-1481) sonra hakimiyyətə gələn bir çox Osmanlı sultanı tərəfindən dövlət siyasəti olaraq davam etdirilmişdir [13, 289-290; 3, 866-867; 5, 458; 19, 13]. Xüsusilə, tarixşünaslıqdan da bilindiyi kimi 1514-cü ildə baş vermiş Çaldıran döyüşündən sonra Sultan I Səlim (1512-1520) tərəfindən Təbrizdən İstanbula yüzlərlə tanınmış azərbaycanlı elm və mədəniyyət xadimi aparılmışdı. XVI əsrdə Osmanlı mədəniyyətinə nəqqaş (rəssam), xətat və şair kimi töhfə vermiş belə muhacir azərbaycanlı sənətkarlardan biri də Şahqulu Pənahi olmuşdur.

Aşağıda məlumat veriləcək Şahqulu Pənahi haqqında Azərbaycan və Türkiyə tarixşünaslığında bir neçə tədqiqat işi aparılıdığının şahidi oldum. Azərbaycanda onun daha çox şairliyi, Türkiyədə isə rəssamlığı tədqiq edilmişdir. Ədəbiyyat tarixşünaslığında onun haqqında ilk məlumatı verən İsmayıl Hikmət (Ərtaylan) olmuşdur. Hikmət 1928-ci ildə Bakıda nəş etdirdiyi "Azərbaycan ədəbiyyatı tarixi" kitabında ilk dəfə bu dəyərli Azərbaycan sənətkarını xalqımıza tanıda bilmişdir [12, 356-358]. Daha sonra Həmid Araslı, Azadə Musabəyli [18, 18] Ömər Bayram [4, 87] və Vüsalə Musalı [17, 268] kimi tədqiqatçılar qısa da olsa Şahqulu Pənahinin ədəbi yaradıcılığına öz əsərlərində bəzi əlavələr edərək yer veriblər. Türkiyəli sənət tarixçisi Banu Mahir isə Osmanlı miniyatur sənətini tədqiq edərkən Şahqulunun nəqqaşlıq fəaliyyətlərini göz ardı etməyən tədqiqatçı kimi bilinir [14, 128; 15, 122-123]. Ancaq əldə etdiyim yeni mənbə məlumatları Şahqulu Pənahi haqqında daha geniş məqalə yazmağıma şərait yaratdı.

Şahqulu Pənahi haqda sözsüz ki, ilk məlumatların alındığı yer Osmanlı mənbələridir. Belə mənbələrdən nəşr edilmiş bir neçə Osmanlı arxiv sənədini xüsusi olaraq qeyd etmək lazımdır. Bunlar Şah İsmayılın (1501-1524) Təbrizdə "Həşt Behişt" sarayındakı xəzinəsinin ələ keçirilməsindən sonra osmanlılar tərəfindən qeydə alınmış 2 sentyabr 1514-cü il tarixli və bu gün Türkiyə Respublikası Topqapı Sarayı Muzeyi Arxivində saxlanılan D. 10734 saylı farsca arxiv sənədi [11], 23 mart-12 aprel 1515-ci il tarixli Sultan Səlimin Amasiyada yazdırdığı Təbrizdən İstanbula aparılan elm və sənət xadimlərinin siyahısı tutulan təqsimat dəftəri [2, 325-333] ilə 1520, 1526 [20] və 1546-cı il tarixli [22] Qanuni Sultan Süleyman dövrü Osmanlı saray sənətkarlarına (əhl-i hirəfin) hər üç ayda bir verilən yevmiyyə-maaş dəftərləridir. Bu arxiv sənədləri Şahqulunun rəssamlıq sahəsindəki fəaliyyətlərini məlumatlandıran çox qiymətli məndələrdir. Osmanlı dövlət adamı və tarixçisi Gelibolulu Mustafa Alinin (v.1599) "Mənaqibi hünərvəran" [10] əsərində də onun rəssamlığı haqqında kifayət qədər məlumat verilir. Bunlardan başqa onun həm rəssamlıq, həm də şairlik yönlərini ələ alan ilkin mənbələr isə Osmanlı təzkirəçiləri olan Aşiq Çələbinin (v.1572) "Məşairüş-şüarə" [3] və Əhdi Bağdadinin (v.1593) "Gülşəni-şüəra" [1] əsərləridir. Eyni zamanda mövzumuzla əlaqəli aparılmış başqa tədqiqat işləri olan kifayət qədər kitab, məqalə və ensiklopediya maddələrindən də bu məqalənin hazırlanmasında istifadə olunmuşdur.

Əslən Təbrizli olaraq bilinən Şahqulu (sadəcə bir yerdə 1546-cı il arxiv sənədində onu "Şahqulu Bağdadi" kimi [16, 93; 22, 505] təqdim edirlər) haqqında sözsüz ki, ilk məlumatların alındığı yer Osmanlı mənbələridir. Osmanlı təzkirəçiləri onu daha çox "Pənahi" kimi bir şair olaraq qələmə versələr də, eyni zamanda Təbrizdən gələn azərbaycanlı nəqqaşlardan biri kimi də təqdim edirlər. Bu mənbələrdən birində Pənahi ləqəbli nəqqaş Şahqulunun Sultan II Bəyazidin (1481-1512) hakimiyyətinin son illərində oğlu şahzadə Əhmədin bəylərbəyi olduğu Amasiya şəhərinə Təbrizdən gəldiyi qeyd edilir [3, 199-201; 1, 112-113]. Bəzi tədqiqatçılar da sadəcə Aşiq Çələbidə "Sultan Bəyazidi mərhum zamanında diyari əcəmdən Təbrizdən gəlüp Sultan Əhmədi





mərhum şahzadə ikən Amasiyada asitanəsinə gəlüp Sultan Səlimi mərhumun cülüsündən İstanbula gəlüp Sultan Süleyman mərhum dövründə nəqqaşbaşı olmışdı" [3, 199] şəklində keçən bu məlumatı öz əsərlərində istifadə edərək səhfən Şahqulunun məhz 1514-cü ildən əvvəl Osmanlı dövlətinə getdiyini qeyd etmişlər [12, 356; 18, 18; 17, 268]. Lakin yuxarıda adları qeyd olunan bir neçə mötəbər Osmanlı arxiv sənədində Şahqulunun Sultan Səlim tərəfindən 1514-cü ildə baş verən "Çaldıran" döyüşündən sonra çox sayda azərbaycanlı elm və sənət xadimi ilə birlikdə İstanbula aparıldığı açıq bir şəkildə yazılmaqdadır. Belə ki, Çaldıran döyüşündən sonra Təbrizə daxil olan Sultan Səlim, Təbrizdəki "Həşt Behişt" sarayındakı Səfəvilərdən geriyə qalan xəzinəni və çox sayda elm və mədəniyyət xadimini ələ keçirtmişdi. Təbrizdə qənimət olaraq götürülən Səfəvi xəzinəsinin qeydə alındığı 2 sentyabr 1514-cü il tarixli arxiv sənədində "Cəmaatı naqqaşan" başlığı altında nəqqaş Şahqulunun da adına rast gəlinir. Sənəddə yazılanlardan belə məlum olur ki, 1514-ci ildə Səfəvi dövlətində nəqqaşlar qrupu fəaliyyət göstərmişdir. Şahqulu, Əbdülqəni və Hüseyn Qəzvini kimi nəqqaşlardan təşkil olunmuş bu qrupun başçısı isə Şah Mansur Təbrizi olmuşdur. Yenə sənədin başqa bir yerində "Cəmaatı naqqaşan" başlığı altında bir neçə nəqqaşın əl işləri ilə yanaşı "An yed-i üstad Şahqulu: Zin-i esb-i natamam 2 qıta; sebz, munaqqaş, musavvər. Sədəf kari munaqqaş" cümləsindən [11, 33, 36] aydın olur ki, osmanlılar tərəfindən ələ keçirilən qənimətlər arasında Şahqulunun gümüş örtüklü göy rəngli qiymətli qaşlardan daha tam olaraq hazırlayıb bitirmədiyi iki ədəd yəhər də olmuşdur. Başqa bir Osmanlı arxiv sənədi olan və 23 mart-12 aprel 1515-ci il tarixli Sultan Səlimin Amasiyada yazdırdığı Təbrizdən İstanbula aparılan elm və sənət xadimlərinin adlarının yer aldığı təqsimat dəftərində də, Osmanlı dövləti tərəfindən maaşa bağlanan, yəni "ulüfə" alan 70-ə yaxın azərbaycanlı elm və sənət xadiminin arasında nəqqaş Şahqulunun adına təsadüf edilir [2, 332]. Beləcə bir müddət Amasiyada qalan Şahqulu bundan sonraki nəqqaşlıq fəaliyyətini ömrünün sonuna qədər yaşadığı Osmanlı paytaxtında sürdürmüşdür. Yuxarıda qeyd olunanlardan aydın olur ki, Şahqulu Səfəvi dövlətində çox tanınmış və istedadlı bir rəssam olmuş və onun xüsusi maaşa bağlanaraq İstanbula aparılmasında da bu amil mühim rol oynamışdır.

Şahqulunun İstanbuldaki həyatı haqqında keçən ilk məlumat isə 12 dekabr 1520-ci ilə aiddir. Bu sənəd "ruznamə" adlanan 1520-ci il tarixli saray sənətkarlarının maaş dəftəridir. Burada onun artıq İstanbulda Osmanlı sarayında nəqqaş kimi fəaliyyət göstərdiyi açıq bir şəkildə qeyd olunur [20, 26]. Bu tarixdən təqribən beş il sonra 1526-cı ilin əvvəlində tutulmuş "əhl-i hirəf"in növbəti maaş dəftərində isə onun adı nəqqaşlara məxsus göstərilən siyahının başında gündəliq qazancı 22 axça olaraq göstərilir və adının qabağında "Təbrizdən sürgün gəlib Amsiyada cihət buyrulub İstanbul xassə xərcinə həvalə olunmuş..." cümləsi yazılıdır [16, 91; 20, 26]. Buradan bir daha aydın olur ki, Şahqulu məhz Çaldıran döyüşündən sonra sürgün edilərək Osmanlı dövlətinə aparılıb. Onun daha əvvəlki tarixdə şahzadə Əhmədin Amasiyadaki sarayına işə alınması məlumatı isə həqiqətə uyğun deyildir.

Şahqulunun adı keçən son arxiv sənədi isə 15 mart-12 iyun 1546-cı ilə aiddir. Bu əhli hiref dəftərində keçən məlumatlara görə, o gündəlik 25 axça maaş alaraq "sərbölük", yəni naqqaşların başçısı vəzifəsindədir [16, 93; 22, 505]. Bundan əlavə əlimizdə olan "bayramlarda Sultana verilən hədiyyələr və sultandan sənətkarlara paylanan ənamlarla" bağlı tarixsiz üç arxiv sənədində də Nəqqaş Şahqulunun adına rast gəlinir. Burada Sultan Süleymana iki dəfə hədiyyə verən sənətkara, iki min axça pul mükafatı və bir də "bənəkli kaftan" (xələt) hədiyyə edilmişdir [20, 66, 67, 71]. Lakin, bu sənədlərdə onun vəzifəsi başnəqqaş olaraq yox, sadəcə nəqqaş kimi göstərilir. Belə olduğu təqdirdə güman etmək olar ki, ard arda yazılmış bu üç sənədin tarixi 1546-cı ildən əvvəl olmalıdır.

Osmanlı tarixçisi Mustafa Ali "Mənaqibi hünərvəran" əsərində qeyd edir ki, nəqş sənətinin sirlərini Səfəvi sarayının məşhur nəqqaşı Ağa Mirdən öyrənən Şahqulu, öz işini yüksək səviyyədə bacaran və "son nəqşi ilkindən daha yaxşı olan" bir sənətkar olmuşdur. Müəllif daha sonra davam edərək bildirir ki, başnəqqaş olandan sonra onun üçün sarayda xüsusi emalatxana açılmış və maaşı da gündəlik 100 axçaya çıxardılmışdır. Sultan Süleyman (1520-1566) da tez-tez emalatxanaya baş çəkərək onun əl işlərinə zövqlə tamaşa edərmiş [10, 65]. Şahqulunun, Osmanlı nəqqaşlıq sənətində yenilik edərək "saz yazmaq" və ya "saz qolu" adlandırılan minyatur çəkməyin bir növü kimi yeni bir nəqş janrı tədbiq etdiyi türkiyəli sənət tarixçiləri tərəfindən ortaya çıxarılmışdır. Osmanlı sənətşünaslığında ilk dəfə Şahqulu tərəfindən tədbiq olunan bu "saz" üslubu daha sonralar da istifadə olunaraq inkişaf etdirilmişdir. Bu işi XVIII əsrdə yaşamış Osmanlı nəqqaşlarından Əli Üsküdari daha yaxşı bacardığı üçün ona "sani-i Şahqulu", yəni ikinci Şahqulu demişlər [14, 128; 6, 283-284].

Osmanlı müəlliflərindən Aşıq Çələbi və Mustafa Ali kimi tarixçilər Şahqulu Pənahinin söz və nəqş sənətini övsələr də, şəxs olaraq onu bəyənmədiklərini açıq bir şəkildə qeyd edirlər. Eyni zamanda bu mənbələrdə onun, Osmanlı baş şahnaməçisi olan başqa bir azərbaycanlı şair Fətullah Arifi (v. 1562) ilə münasibətlərinin yaxşı olmadığı da bildirilir [3, 559; 9, 238].

Şahqulu Pənahi türk və fars dillərində yazdığı ruh oxşayan şeirlərilə XVI əsr Osmanlı ədəbi mühitində özünə yer edən şairlərdən olmuşdur. Osmanlı dövlətində yaşamış hürufi meyilli şairlərdən biri kimi də tanınmışdır. Onun hürufilik fəlsəfəsini izah edən kiçik bir məsnəvisi vardır. Şahqulunun bu əsəri türkoloq İsmayıl Hikmət Ertaylan tərəfindən ortaya çıxarılaraq, 1946-cı ildə "Hurufi Edebiyyatı Örnekleri II Məsnəvi-i Pənahi" adıyla çap edilmişdir [8]. Əfsuslar olsun ki, bu məsnəvi xaricində ancaq bir neçə şeiri günümüzə qədər gəlib çatmışdır. Aşiq Çələbi və Əhdi Bağdadinin əsərlərində keçən bu beytlərdən ikisi belədir:

*Yazaydı ləl-i yari fil-məşəl gər,*
*Görən derdi zəhi ruh-i musavvər [3, 200].*
*Gərçi bi-çarə bə kuy-i tu bəsi mi ayəd,*
*Heç bi-çarə-tər əz bəndə kəsi mi ayəd [1, 113].*

Mənbələrdə Şahqulunun vəfatı ilə bağlı açıq bir şəkildə heç bir məlumat verilmir. Sadəcə ümumi hadisələri təhlil edərkən onun nə vaxt dünyasını dəyişdiyini təqribi olaraq təyin etmək mümkündür. Ən son 1546-cı il arxiv sənədində adı keçən Şahqulu Pənahinin Osmanlı dövlətinin 1551-ci ildə şahnaməçi olaraq təyin olunmuş şair Fətullah Arifi Çələbi [7, 63] ilə münasibətlərinin olduğuna diqqət edidikdə onun 1551-ci ildən sonra həyatda olduğu anlaşılır. Lakin 1557-ci ildə tutulmuş əhli hiref dəftərindəki siyahıda adına rast gəlinmədiyi üçün



[16, 94-95; 21, 8-9] artıq bu tarixə qədər vəfat etdiyini güman etmək olar.

Şahqulu, Osmanlı dövlətində yaşadığı 42 illik həyatının demək olar ki, hamısını sarayda nəqqaş və baş nəqqaş kimi məsuliyyətli vəzifələri icra edərək keçirtmişdir. İstedadlı nəqqaş, gözəl xəttat və şair olan Şahqulu Pənahi, bu illər ərzində ərsəyə gətirdiyi göz oxşayan əsərləriylə Osmanlı mədəni həyatına yeni çalarlar qataraq, xüsusilə bu ölkənin rəssamlıq sənətinin inkişafında çox böyük rol oynamışdır.

## ƏDƏBİYYAT


1. *Ahdi Bağdadi. Gülşen-i Şuara, B metin, hazırlayan: Süleyman Solmaz, Denizli, 2009.*
2. *Arslan Hüseyin. XVI.yy. Osmanlı Toplumunda Yönetim, Nüfus, İskan, Göç ve Sürgün. İstanbul, 2001.*
3. *Aşık Çelebi. Meşa'irü'ş-Şu'ara, İnceleme Tenkitli Metin. C. I, hazırlayan: Filiz Kılıç, Gazi Üniversitesi Sosyal Bilimler Enstitüsü Eski Türk Edebiyatı Anabilim Dalı Doktora Tezi, Ankara, 1994.*
4. *Bayram Ömer. Anadolu Sahasında Azerbaycanlı Şairler. / Journal of Qafqaz, Vol. 1, No-15, 2005, s. 81-90.*
5. *Смирнов В. Д. Очерк истории турецкой литературы. Всеобщая история литературы. под редакцией В. Ф. Корша и А. И. Кирпичникова, т. IV, СПБ, 1892.*
6. *Derman F.Çiçek, Duran Gülnur. Şahkulu, TDİ, C. 38, 2010, s.283-284.*
7. *Dədəyev Bilal, Osmanlı dövlətində şahnaməçi azərbaycanlı alimlərdən biri olan Fətulla Arifi Çələbi./Geostrategiya, No 06(30) noyabr-dekabr 2015, s.61-67.*
8. *Ertaylan Hikmet İsmail. Hurufi Edebiyyatı Örnekleri II-Mesnevi-i Penahi. İstanbul, 1946.*
9. *Gelibolulu Mustafa Ali. Künhü'l-Ahbarın Tezkire Kısmı. hazırlayan: Mustafa İsen, Ankara, 1994.*
10. *Gelibolulu Mustafa Ali. Menakıb-ı Hünerveran. İstanbul, 1926.*
11. *Genç, Vural. Heşt Behişt Sarayından Topkapı Sarayına: Şah İsmailin, Çaldıran Savaşı'ndan Sonra Alıkonulan Hazine ve Eşyaları./ Toplumsal Tarih, Sayı: 208, Nisan, 2011, s.24-36.*
12. *Hikmet İsmail. Azerbaycan Edebiyatı Taririhi I-II. hazırlayan: Parvana Bayram, Ankara, 2013.*
13. *Kastamonlu Latifi. Tezkere-i Latifi. İstanbul, 1314.*
14. *Mahir Banu. Şahkulu./ Dünden Bügüne İstanbul Ansiklopedisi, C. XVII, 1994, s.128.*
15. *Mahir Banu. Osmanlı minyatür sanatı. İstanbul, 2012.*
16. *Meriç Rıfkı Melül. Nakış Tarihi Vesikaları./Ankara Üniversitesi İlahiyat Fakültesi Dergisi. Cilt: 1, Sayı: 2, 1952, s.85-107.*
17. *Musalı Vüsalə. Osmanlı təzkirələrində Azərbaycan şairləri, Bakı, 2009.*
18. *Musayeva Azadə. XV-XVI əsrlər Azərbaycan mühacirət ədəbiyyatı və Xəlilinin "Firqətnamə"si. Bakı, 2007.*
19. *Rehber jurnalı. No-3, 27 şevval /1 dekabr, 1324/1906, Bakı.*
20. *Uzunşarşılı İsmail Hakkı. Osmanlı Sarayında Ehl-i Hiref Defteri./Belgeler. XI/15, Ankara, 1986, 23-76.*
21. *Yaman Bahattin. 1557 Tarihli Ehl-i Hiref Defterine Göre Osmanlı Saray Sanatkarları./ KÖK Sosyal ve Stratejik Araştırmalar Dergisi. c. VIII, Sayı-2, Güz: 2006, s. 5-38.*
22. *Yaman Bahattin. 1545 yılı Osmanlı Saray Sanatkarları./ Belleten. c. LXXII, Sayı-264, Avqust, 2008, s.501-534.*



***Açar sözlər:*** *Azərbaycan, Şahqulu Pənahi, Səfəvi dövləti, Osmanlı dövləti, saz üslubu.*

***Ключевые слова:*** *Азербайджан, Шахгулу Панахи, государство Сафеви, Османское государство, стиль саз.*

***Key words:*** *Azerbaijan, Shah Qulu Panahi, Safavids, Ottoman state, "saz" genre.*



## РЕЗЮМЕ

Родившийся в Тебризе Шахгулу Панахи был одним из азербайджанских мастеров вносивший свой вклад в культуру Османлы XVI в. как каллиграф (художник), поэт и т.д. Он, в 1514 году после битвы «Чалдыран» вместе с многочисленными деятелями науки и искуства был сослан в Стaнбул. Работавший в сарае некоторое время каллиграфом а потом исполняющий обязанности главного каллиграфа государства Шахгулу Панахи привел новшествов османскую искусства каллиграфии и получился новый жанр под названием «стиль саз». В то же время написанные под прозвишем Панахи, трогающую душу стихи на турецком и персидском языке помогли утвердится ему как поэт в Османской литературе XVI века. Его несколько стихотворений и одна маленькая поэма обясняюший философию хуруфизмфа дошли до наших дней. Талантливый художник, каллиграф и поэт Шахгулу Панахи, добавив новые оттенки в культурной жизни османской империи, в частности сыграл важную роль в развитии искуства живописи этого государства.



## SUMMARY

Shah Qulu Panahi who was originally from Tabriz was one of the Azerbaijani masters contributing to the cultural life of Ottomans as poet and artist. He was exiled to Istanbul together with many Azerbaijani science and art workers after "Chaldiran" battle which happened in 1514. He started as an artist in Ottoman palace and later was appointed as a head of artists. His main achievement in the field is his invention of a new genre in painting under the name of "saz". At the same time with his poetries written in Turkish and Persian languages, he was able to occupy important place in the Ottoman literature environment of XVI century. Some of his poetries and his small mesnevi which describes the philosophy of "hurrufism" were able to reach to our days.

Shah Qulu Panahi who was a talented artist, poet and calligrapher by adding a new way to the Ottoman cultural life, in particular played important role in the development of art of painting of this country.

# İqtisadiyyat

ŞƏHRİYAR MƏMMƏDOV
Xəzər Universiteti

## AZƏRBAYCAN-ABŞ MÜNASİBƏTLƏRİ: HUMANİTAR VƏ İQTİSADİ ƏLAQƏLƏR



Böyük siyasi nüfuzu və iqtisadi potensialı ilə beynəlxalq aləmdə həlledici mövqeyə malik ABŞ dünya siyasətini müəyyən edən, onun nizamını dəyişməyə qadir olan fövqəldövlətdir. O, hegomon dövlət olaraq bütün beynəlxalq və regional təşkilatların aparıcı üzvü və yönləndiricisidir.

ABŞ politoloqu Z.Bjezinski qeyd edirdi ki, "məhdud ərazi miqyası və az əhali sayına baxmayaraq böyük enerji resurslarına malik olan Azərbaycan geosiyasi cəhətdən həlledici əhəmiyyət kəsb edir. O, Xəzər dənizi və Orta Asiyada yerləşən zəngin resurslara çıxışın həlledici nöqtəsidir" (1, 314). Elə bu fikri əsas götürərək deyə bilərik ki, Azərbaycan da ABŞ-ın maraq və mənafe dairəsində olan dövlətdir.

Müstəqilliyin ilk illərində rəsmi ABŞ böyük geostrateji əhəmiyyəti olan Azərbaycanla geniş əlaqələr yaratmağa, bölgədə gedən ictimai-siyasi dəyişikliklərə və hərbi problemlərə müdaxilə etməyə səy göstərirdi. Bu məqsədlədə 1992-ci ilin iyul ayında ABŞ Prezidenti Birinci Corc Buş Azərbaycan Prezidentinə öz ölkəsinin Azərbaycanla bütün sahələrdə əlaqələr yaratmağa və münasibətləri inkişaf etdirməyə hazır olduğunu bildirən məktub ünvanlayır və ABŞ-ın dövlət katibi Ceyms Beyker iki ölkə arasında rəsmi münasibətlər yaratmaq məqsədi ilə Bakıya səfər edir. Lakin Azərbaycanın ABŞ üçün əhəmiyyətini düzgün qiymətləndirə bilməyən o zamankı hakimiyyət bu əməkdaşlığı yüksək səviyyəyə qaldıra bilmir. Bir tərəfdən yenicə müstəqillik elan etmiş Azərbaycan Respublikasında xarici siyasətin zəifliyi, bir yandan da Ermənistanın Azərbaycana təcavüzü nəticəsində yaranmış çətinliklər 1992-1993-cü illərdə iki ölkə arasındakı əlaqələrin genişləndirilməsi istiqamətində işləri ləngidirdi. Digər tərəfdən də ABŞ-da etibarlı dayaq və güclü təsir mexanizmlərinə və təşkilati strukturlara malik olan erməni lobbisinin fəaliyyəti Vaşinqtonun respublikamıza qarşı ciddi sanksiyalar tətbiq etməsinə gətirib çıxardı. Belə ki, 1992-ci ilin oktyabrında ABŞ Konqresi senator C.Kerrinin təklifi ilə Azərbaycana hər cür yardım göstərilməsini qadağan edən "Azadlığa dəstək aktına 907-ci düzəliş" deyilən sənədi qəbul etdi. Müstəqilliyə yenicə qədəm qoyan dövlət olaraq siyasi və iqtisadi dəstəyə daha çox ehtiyac duyan Azərbaycan yeganə keçmiş Sovet respublikası idi ki, ona qarşı ədalətsiz olaraq "907-ci düzəliş" kimi məhdudiyyətlər tətbiq edilmiş və bununla da Azərbaycan-ABŞ münasibətlərində ciddi soyuqluq yaranmışdı (3).

1993-cü ilin yanvarında Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyev yenicə prezidentlik fəaliyyətinə başlayan Bill Klintona məktub göndərərək ümidvar olduğunu bildirir ki, o, müstəqil Azərbaycan Respublikasına xoş və xeyirxah münasibət bəsləyəcək, dünyanın bir çox regionlarında baş verən silahlı konfliktlərin həllinə nail olacaq, Naxçıvanın Ermənistan tərəfindən blokadaya alınmasını aradan qaldırmaq üçün Amerika dövlətinin bütün imkanlarından istifadə edəcəkdir.

Bunun ardından, 1993-cü ilin yanvarinda ABŞ və Rusiya prezidentləri Dağlıq Qarabağ problemi və Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı birgə bəyanat verərək, münaqişəni nizama salmaq üçün tezliklə ATƏM-in Minsk konfransının çağrılmasına tərəfdar olduqlarını bildirirlər, fevralın 4-də isə ABŞ-ın Azərbaycandakı səfiri Riçard Mayls Naxçıvana səfər edir və Azərbaycana qarşı hər cür yardımı qadağan edən "907-ci düzəlişə" baxmayaraq, Amerikadan Naxçıvana humanitar yardımla yüklənmiş təyyarə gəlir.

1993-cü ilin aprelində ABŞ Prezidenti Bill Klinton Azərbaycan Prezidentinə ermənilərin Kəlbəcəri işğal etməsini pisləyən məktub göndərdi. Həmin dövrdə ABŞ Türkiyə və Rusiya ilə birlikdə erməni silahlı qüvvələrinin işğal edilmiş ərazilərdən çıxarılması və münaqişənin ATƏM çərçivəsində danışıqlar yolu ilə aradan qaldırılması planının hazırlanması və onun həyata keçirilməsi istiqamətində də səylər göstərirdi.

Beləliklə, 1993-cü ilin əvvəllərindən başlayaraq Azərbaycan-ABŞ münasibətlərində gərginliyin yumşalması müşahidə olunur. Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra isə xarici siyasət sahəsində, o cümlədən də ABŞ ilə münasibətlərdə ciddi irəliləmələr özünü gösrərməyə başlayır. Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Ali Sovetin sədri Heydər Əliyev 1993-cü ilin sentyabr ayında ABŞ Prezidenti Bill Klintona, vitse-prezident Albert Qor və Konqresin spikeri Tomas Foliyə məktub göndərərək ABŞ Konqresi tərəfindən qəbul edilmiş 907-ci düzəlişin qeyri-obyektiv olduğunu əsaslandırmış və Azərbaycan barəsində ayrı-seçkilik bəndinin ləğv olunması üçün tədbirlərin görülməsini xahiş etmişdi. Cavab məktubunuda ABŞ Prezidenti Azərbaycana edilən son hücumları və bunun nəticəsində bir çox Azərbaycan torpaqlarının işğalını qətiyyətlə pisləyərək münaqişənin aradan

qaldırılması üçün Dağlıq Qarabağ ermənilərinə və Yerevan hökumətinə ciddi təzyiqlər göstərilməsi haqqında məlumat vermiş və Amerikanın Azərbaycana bundan sonra 907-ci düzəliş qüvvədə qalmaqla, qeyri-hökumət təşkilatları xətti ilə ciddi kömək göstərəcəyini bildirmişdir.

Həmin ilin oktyabrında ABŞ Dövlət Departamenti Azərbaycanın cənub-qərbinə erməni silahlı qüvvələrinin hücumu ilə əlaqədar bəyanatla çıxış etmiş və işğal olunmuş bütün ərazilərdən hərbi qüvvələrin çıxarılmasını təkidlə tələb etmişdi. Bu bəyanat iki ölkə arasındakı münasibətlərin müsbət istiqamətə yönəlməsinin ilkin göstəricisidir.

Siyasi xadim Z.Bjezinski, ABŞ konqresmeni C.Kennedi, T.Penni və başqaları 1994-cü ilin ikinci yarısında həm Prezident Bill Klintona, həm də Konqresə müraciətlər edərək, Azərbaycanla hərtərəfli əlaqələrin əhəmiyyətini anlatmış, bu ölkəyə qarşı Konqresin qəbul etdiyi 907-ci düzəlişi aradan götürməyə çağırmışlar. Həmin ilin dekabrında ATƏM-in (1 yanvar 1995-ci ildən ATƏT) Budapeşt sammitində ABŞ-ın BMT-dəki daimi nümayəndəsi M.Olbrayt və Dövlət Departamentinin yeni müstəqil dövlətlərlə baş əlaqələndiricisi C.Kollinzin təşəbbüsü ilə Avropanın müxtəlif bölgələrində baş verən münaqişələrin, o cümlədən Ermənistan-Azərbaycan münaqişəsinin həll edilməsini ayrı-ayrı dövlətlərin inhisarından çıxarılıb, birbaşa ATƏT-in ixtiyarına verən qətnamə qəbul olunmuşdur. İlk dəfə olaraq Azərbaycanı tamamilə təmin edən bu qətnaməyə görə, münaqişə zonalarında, o cümlədən də Dağlıq Qarabağ ətrafında baş verən problemin həllində hansısa bir ölkənin deyil, ATƏT-in sülhməramlı qüvvələrinin yerləşdirilməsi məqsədəuyğun bilinmişdir.

1995-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Amerikanın bir sıra görkəmli ictimai və siyasi xadimləri ilə çoxsaylı görüşlər keçirmiş, iki ölkə arasındakı əlaqələrin inkişaf perspektivlərini müzakirə etmiş, Azərbaycan haqqında həqiqətin dünyada, xüsusən də ABŞ-da yayılması istiqamətində danışıqlar aparmışdır. O, 1995-ci il oktyabrın 7-də Bakıda işgüzar səfərdə olan ABŞ-ın "Amerikares" humanitar təşkilatının fəxri sədri, görkəmli siyasi xadim Z.Bjezinskini qəbul edərkən demişdir: "Biz istəyirik ki, Azərbaycan haqqında həqiqət hər yerdə, xüsusən də ABŞ-da və ölkənizin beynəlxalq əlaqələrlə, siyasətlə məşğul olan dairələrdə bilinsin" (5).

1995-ci ilin mayında Azərbaycana müxtəlif humanitar yardımların verilməsini nəzərdə tutan "Xelms layihəsi" deyilən sənəd də məhz Konqresdə erməni lobbisinin ciddi müqaviməti ilə rastlaşmış və təxirə salınmışdır.

1996-cı il Azərbaycan-Amerika münasibətlərində dönüş ili oldu. Belə ki, yaranmış münasibətlərin və getdikcə dərinləşən strateji əməkdaşlığın müsbət təsiri nəticəsində 1996-cı ilin yanvarında konqresmen C.Vilsonun təşəbbüsü və bir çox digər Amerika rəsmi dairələrinin dəstəyi ilə Konqresdə "Azərbaycana birbaşa humanitar yardım göstərilməsi haqqında" qanun layihəsi bəyənilmiş və erməni lobbisinin ciddi müqavimətinə baxmayaraq təsdiq edilmişdi. Qanuna görə, əgər Prezident müəyyən etsə ki, qeyri-hökumət təşkilatları tərəfindən Azərbaycana göndərilən yardım qaçqınların və məcburi köçkünlərin ehtiyaclarını lazımi dərəcədə ödəmir, onda hökumət təşkilatları bu işə qoşula bilər. Prezident Bill Klinton tərəfindən elə həmin gün imzalanan bu qanunu iki ölkə arasındakı əlaqələri məhdudlaşdıran 907-ci düzəlişin aradan qaldırılmasına və Azərbaycan-Amerika münasibətlərinin əhəmiyyətli dərəcədə dəyişməsinə doğru atılan böyük addım hesab etmək olardı.

Lakin ABŞ-ın erməni diasporunun güclü təsiri və xüsusi səyi ilə 1996-cı ilin iyun ayında ABŞ Konqresinin Nümayəndələr palatasında ölkələrimiz arasında münasibətlərin inkişafına ziyan vuran "Porter əlavəsi" deyilən yeni bir sənəd qəbul edildi ki, bu da Azərbaycanda ciddi narazılıq doğurdu. Azərbaycan hökumətinin bəyanatı və görülən digər ciddi tədbirlər nəticəsində 1996-cı ilin iyulunda ABŞ Senatı xarici dövlətlərə yardım haqqında qanun qəbul edərkən "Porter əlavəsi"ni müzakirə etmiş və Amerikanın prinsiplərinə zidd layihə kimi rədd etmişdir. ABŞ Konqresi yekun qərar qəbul edərkən büdcənin xarici ölkələrə yardım bölməsində Azərbaycana humanitar yardım məsələsi uzlaşdırıcı komissiyasının verdiyi təklif şəklində qəbul edildi.

İki ölkə arasındakı münasibətlərin yaxşılaşması və yüksələn xətlə inkişafı 1997-ci ilin may ayında demokrat B.Şermanın Amerikanın erməni lobbisinin təsiri ilə Dağlıq Qarabağa birbaşa humanitar yardım edilməsi ilə bağlı təklifi ABŞ-ın qanunverici orqanında rədd edilməsinə və Prezident B.Klintonun Prezident Heydər Əliyevi iyul-avqust aylarında ABŞ-a rəsmi səfərə dəvət etməsinə gətirib çıxardı.

Ulu Öndər Heydər Əliyev deyirdi ki: “İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir” (6). Yeni müstəqillik yoluna qədəm qoymuş ölkni gücləndirmək üçün iqtisadi dirçəlişə nail olmaq lazım idi. Bu məqsədlə hökumət ABŞ-ı və Qərb dövlətlərini Azərbaycanla iqtisadi əməkdaşlığa və iqtisadi tərəfdaşlığa cəlb etmək istiqamətində iş aparır, ölkənin mümkün potensialı və təbii resursları nəzərə alınaraq qarşılıqlı sosial-iqtisadi əməkdaşlıq yaratmağın yollarını axtarırdı. Bu məsələdə Xəzər nefti ən yaxşı vasitə idi.

Bu istiqamətdə ilk dəfə olaraq 1994-cü il avqustun 10-da Azərbaycan Dövlət Neft Şirkətinin vitse-prezidenti İlham Əliyevlə Amerikanın Yunayted BMB Qrup Şirkəti rəhbərləri çox mühüm bir müqavilə imzaladi. Həmin müqavilə 20 il müddətinə bir neçə yüz milyon barel gücündə olan iki neft yatağının birgə işlənməsini və istismarını nəzərdə tuturdu.

Bunun ardınca 1994-cü ilin sentyabr ayının 20-də 7 ölkənin 11 neft şirkəti ilə Xəzər dənizinin Azərbaycan sektorundan 30 il müddətinə dəyəri 50 milyard dollara bərabər olan 511 milyon ton neft çıxarmağı nəzərdə tutan müqavilə bağlandı. "Əsrin müqaviləsi" adlanan neft kontraktlarına ABŞ-ın "Amoko", "Pennzoyl", "Yunokal", "Eksson" kimi iri neft şirkətləri də cəlb edilmişdir. “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarının birgə istismarını nəzərdə tutan "Əsrin müqaviləsi"ndə investisiya payının 47%-i ABŞ şirkətlərinə məxsus idi (4).

Qərbin aparıcı neft şirkətləri ilə Azərbaycan Hökuməti arasında bağlanan transmilli neft-qaz sazişinin imzalanması göstərirdi ki, Qərb və xüsusilə də ABŞ regionda öz geoiqtisadi planlarını reallaşdırmaq məqsədilə ciddi addımlar atmağa hazırdır. ABŞ politoloqu Ariel Koen “Əsrin müqaviləsi”nə münasibət bildirərkən qeyd edirdi ki: “...tarixdə ilk dəfə ABŞ və onun müttəfiqləri Avrasiyanın daxili məkanlarına və burada olan zəngin iqtisadi resurslara çıxış əldə edirlər” (2, 110).

Məhz bu müqavilədən sonra Amerika-Azərbaycan əməkdaşlığının davamı olaraq Xəzər neftinin hasili və dünya bazarlarına nəqli ilə bağlı müxtəlif investisiya layihələri işlənib hazırlandı və müqavilələr bağlandı. İqtisadi əməkdaşlığın siyasətlə sıx bağlı olduğunu bildirən Prezident Heydər Əliyev xüsusi qeyd edirdi ki, ABŞ şirkətlərinin Azərbaycanda fəaliyyəti nəticəsində Amerikanın bu bölgədə strateji məqsədlərinin möhkəmlənməsi üçün əsas yaranmışdır. Politoloq A.Abbasbəyli “Dünya siyasəti” kitabında yazır ki: “ABŞ Xəzər regionunda neft hasilatından çox onun

üzərində nəzarətə daha daha maraqlıdır. O, regionda öz kapitalını yerləşdirib və iri neft-qaz layihələrinə əsasən genişlənməyə davam etməklə sonradan bu kapitaldan regionda daha da möhkəmlənmək məqsədilə istifadə etməyə cəhd göstərir. Xəzər nefti Amerikanın neft idxalının diversifikasiyasını təmin edəcək mənbələrdən biridir ki, diversifikasiya da ABŞ-ın enerji təhlükəsizliyinin əsas şərtlərindən biridir" (1, 314).

1996-cı ilin oktyabr ayında ABŞ Prezidenti Bill Klintonun MDB dövlətləri ilə energetika və ticarət əlaqələri üzrə rəsmi nümayəndəsi Yan Kalitskinin başçılıq etdiyi nümayəndə heyətinin Bakıya səfəri və Azərbaycan Prezidenti ilə apardıqları danışıqlar ABŞ-Azərbaycan iqtisadi əməkdaşlığının inkişafına mühüm təkan vermişdir. Həmin ilin dekabrında Bakıda ABŞ-ın Azərbaycanda fəaliyyət göstərən onlarla şirkət və birliklərinin, iş adamlarının fəaliyyətini tənzimləmək, vahid bir mərkəzdən onlara istiqamət vermək baxımından çox böyük əhəmiyyət kəsb edən ABŞ Ticarət Palatasının rəsmi açılışı oldu.

Bunun ardınca isə ABŞ-ın daha iki nüfuzlu və aparıcı neft şirkətləri hesab olunan "Amoko" və "Yunokal" Azərbaycanın "Dan ulduzu" və "Əşrəfi" neft yataqlarının istismarı üzrə imzalanmış növbəti konsorsiumda 55,5 faiz payla iştirak etmişdir. Bu, Azərbaycanda neft yataqlarının istismarı sahəsində ABŞ şirkətlərinin payının çoxluq təşkil etdiyi ilk müqavilə idi.

Azərbaycan-Amerika münasibətlərinin və əlaqələrinin zirvəsi ABŞ Prezidenti Bill Klintonun dəvəti ilə Azərbaycan Prezidenti Heydər Əliyevin Amerikaya 1997-ci il iyulun 27-dən avqustun 7-dək davam edən rəsmi səfəri hesab olunur.

Amerikanın görkəmli dövlət və siyasi xadimi Z.Bjezinski Azərbaycan Prezidentinin ABŞ-a rəsmi səfərini Amerikanın Qafqazda yeritdiyi regional siyasətdə yeni mərhələnin başlandığını sübut edən epoxal və tarixi bir hadisə hesab etmişdir (7).

Səfər zamanı Azərbaycan Prezidenti ABŞ-ın vitse-prezidenti Albert Qorun iştirakı ilə Azərbaycan və ABŞ arasında energetika sahəsində dövlətlərarası dialoqun yaradılmasına dair saziş bağlamış və Amerikanın "Şevron", "Pennzoyl", "Yunokal", "AMOKO" kimi böyük neft korporasiyasının rəhbərləri, "Motorolla" şirkətinin nümayəndələri və digər iş adamları ilə bir neçə işgüzar görüş keçirmiş, iki ölkə arasında mövcud iqtisadi əlaqələrin genişlənməsi və inkişaf imkanlarını müzakirə etmişdir.

Azərbaycan-ABŞ münasibətləri, xüsusən iqtisadi əməkdaşlıq məsələləri 2004-cü il avqustun 9-da Prezident İlham Əliyevin senator T. Stivensin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşündə və 2004-cü il oktyabrın 5-də Vaşinqtonda iqtisadi əməkdaşlıq üzrə ABŞ-Azərbaycan işçi qrupunun səkkizinci iclasında da geniş müzakirə olunmuşdur. İki ölkə arasındakı iqtisadi əlaqələr digər dövlət rəsmilərinin, xüsusən aidiyyatı üzrə nazirlərin qarşılıqlı səfərləri çərçivəsində də gündəliyə gətirilmiş, ciddi qərarlar qəbul olunmuş və həyata keçirilmişdir.



Beləliklə Azərbaycan ABŞ-ın xüsusi marağında olan Şərq-Qərb nəqliyyat-kommunukasiya və tranzit dəhlizinin (TRASEKA layihəsi) yaradılması və fəaliyyətində mühüm rol oynayır. Cənubi Qafqaz və Xəzər bölgəsində Azərbaycan bütün qlobal problemlərin həllində ABŞ-ın yaxın müttəfiqi və etibarlı tərəfdaşı kimi çıxış edir.

## ƏDƏBİYYAT


1. *Abbasbəyli A. Dünya siyasəti (XX əsrin ikinci yarısı-XX əsrin əvvəlləri). Bakı, 201.*
2. *Novruzov N.Xarici siyasətin Azərbaycan modeli. Bakı, 2012.*
3. *Həsənov Ə. Azərbaycan geosiyasəti. Bakı, 2015.*
4. *Məmmədov N. Xarici siyasət: reallıqlar və gələcəyə baxış. Bakı, 2013.*
5. *www.anl.az/down/meqale/ses/2013/yanvar/290685.htm*
6. *files.preslib.az/projects/toplu/umummilli_lider.pdf*
7. *referat.ilkaddimlar.com/d_pdf_refe_ekono_7819.pdf*



***Açar sözlər:*** *Siyasi nufuz və iqtisadi potensial; strateji əməkdaşliq; diaspora; hərbi təcavüz; neft-qaz ehtiyyatlar.*

***Ключевые слова:*** *Политическое влияние и экономический потенциал; стратегические партнерства; диаспора; военная агрессия; запасы нефти и газа.*

***Keywords:*** *Political influence and economic potential; strategic partnerships; diaspora; military aggression; oil and gas resources.*



## РЕЗЮМЕ

В статье изучаются связи между Азербайджаном и США в гуманитарной и экономической сфере, и отмечается, что трудности, возникшие в сфере гуманитарной помощи нашей стране в результате 907-й поправки, были устранены после серьёзных усилий и предпринятой успешной внешней политики Общенационального Лидера Гейдара Алиева. Кроме того, выявляются главные особенности экономического сотрудничества между двумя странами, а также основные черты сильных взаимосвязей в энергетической и торговой сфере. Восточно-Западный Транспортно-Коммуникационный и транзитный коридор двух стран (ТРАСЕКА), тесное экономическое сотрудничество в области углеводородных ресурсов Каспийского бассейна было привлечено к исследованию.



## SUMMARY

The article explores the relationship between Azerbaijan and USA in the humanitarian and economic spheres. According to result of 907- amendment in the field of humanitarian aid from the United States to Azerbaijan faced serious challenges where thanks to the efforts of national leader Heydar Aliyev those challenges were eliminated. Apart from the economic cooperation between the two countries, energy and trade cooperation emphasizes essential aspects of a solid bilateral relationship. Transportation opportunities, East-West transit corridor (TRACECA) and close economic cooperation in the fields of hydrocarbon resources of the Caspian basin have been involved in the research.

# KİV İNFORMASİYA TƏHLÜKƏSİZLİYİNƏ XİDMƏT EDƏN ƏSASLARDAN BİRİ KİMİ

ELŞAD HƏSƏNLİ
Siyasi elmlər üzrə fəlsəfə doktoru



***Kütləvi informasiya vasitələrinin dövlət və insanların hərtərəfli inkişafında rolu əvəzsizdir. Media həm də dövlətin sabitliyi və təhlükəsiziliyi baxımından əhəmiyyətli olan, eləcə də zəmin yaradan vasitədir. Tədqiqat işində müasir dövrdə informasiya təhlükəsizliyinin təmin olunmasında KİV-in fəaliyyəti, cəmiyyətin maariflənməsində əhəmiyyəti və onun üzərinə düşən vəzifələr, eyni zamanda bu sahədə qanunvericilik bazasının yaradılmasında görülmüş işlər təhlil olunur və dəyərləndirilir. Tədqiqatda əsaslandırılır ki, ölkəmizdə qəbul olunan qanunlar və bu sahədə atılan addımlar, eləcə də medianın inkişafı təhlükəsiz cəmiyyətin yaranmasına, demokratik dəyərlərin qorunmasına xidmət edir.***

Mütərəqqi jurnalistika öz məqsədinə müvafiq olaraq həmişə cəmiyyətin inkişafına xidmət edib, onun məlumatlandırılması və maariflənməsinə öz töhfəsini verib. Maarifçi ideyaların təbliği və qarşıya qoyulmuş məqsədə çatmaq üçün jurnalistika öz imkanları daxilində səylərini əsirgəməyib. Jurnalistikanın ilk nümunəsi olan qəzet və sonradan bu missiyaya qoşulan jurnal, radio və televiziya KİV sistemində birləşərək zamanın diktəsi ilə bir toplum halında xalqa, millətə, dövlətə xidmət edib və bu gün də öz fəaliyyətini bu yöndə qurur. Lakin indi əvvəlki dövrlərdən fərqli olaraq KİV-in üzərinə yeni-yeni vəzifələr qoyulub, onun məsuliyyəti bir qədər də artıb. Bu məsuliyyət isə dövlətin milli maraqları, onun hər bir sahədə təhlükəsizliyi, o cümlədən informasiya təhlükəsizliyi ilə əlaqədardır. Belə ki, informasiya toplayan, onu işləyən və təqdim edən KİV aparıcı vasitə kimi həmişə diqqət mərkəzində olan qurumlardır. KİV hər hansı bir ideyanın təbliği, onun ictimaiyyətə açıqlanması və kütlənin hər hansı bir fikrin həyata keçirilməsinə səfərbər edilməsi və istiqamətlənməsi baxımından mühüm rola malikdir. Hələ vaxtilə yeganə informasiya vasitəsi olan qəzetin əhəmiyyəti yüksək qiymətləndirilir və bildirilirdi ki, qəzet kollektiv təbliğatçı, təşviqatçı və təşkilatçıdır. İndi bu missiyanı bütövlükdə informasiya sistemi daşıyır. Akademik Ramiz Mehdiyev yazır ki, "mətbuatın azad və sərbəst fəaliyyəti üçün bütün lazımı şərtləri təmin etməklə biz onu qarşımıza məqsəd qoyuruq ki, ölkəmizdə çıxan qəzetlər, fəaliyyət göstərən kütləvi informasiya vasitələri hər şeydən əvvəl Azərbaycan həqiqətlərinə xidmət etsin, xalqımızın keçdiyi yolu, qarşılaşdıqları çətinlikləri, onun uğur və problemlərini doğru-düzgün, obyektiv işıqlandırsın, cəmiyyətimizin demokratikləşməsinə və tərəqqisinə xidmət göstərsin"[7].

Geniş media şəbəkəsinin mövcud olduğu indiki dövrdə, virtual aləmin inkişaf etdiyi, informasiya texnologiyalarının geniş vüsət aldığı hazırkı mühitdə təhlükəsizlik sahəsinə daha bir element əhatə olunub. Bu element informasiya təhlükəsizliyi amilidir. Bu gün cəmiyyətin idarə olunmasında zəruri olan qanunların bir çoxunda təhlükəsizlik məsələləri ilə bağlı amillər xüsusi yer tutur. Buraya milli, ideoloji, hərbi, siyasi, iqtisadi, ekoloji və digər sahələrlə bağlı problemlər daxildir. Bu qanunların mahiyyətinin geniş ictimaiyyətə çatdırılması və onların tələblərinin yerinə yetirilməsi, eləcə də hər kəsin üzərinə düşən məsuliyyətin müəyyənləşdirilməsində KİV-in xüsusi rolu var. Belə ki, istənilən qanunda fəaliyyətin istiqamətləri, əhatə dairəsi və hüdudları mövcuddur. Bu tələblərin pozulması hər hansı bir sahədə təhlükəsizliyin təminatına xələl gətirə və cəmiyyətə ziyan vura bilər. Dövlətin mövcudluğunu təmin edən, onun təhlükəsiziliyinə zəmanət verən əsas qanunlar isə aşağıdakılardır:

a) Milli Təhlükəszilik haqqında Azərbaycan Respublikasının Qanunu

b) Dövlət sirri haqqında Azərbaycan Respublikasının Qanunu

c) Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu

ç) Terrorçuluğa qarşı mübrizə haqqında Azərbaycan Respublikasının Qanunu

d) Dini ekstremizmə qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanunu

e) Hərbi vəziyyət haqqında Azərbaycan Respublikasının Qanunu

Qeyd olunduğu kimi, bu qanunların hər biri əsas məqsədə, ölkənin həm daxili, həm də xarici təhdidlərdən qorunmasına, onun inkişafına və gələcəyinin təmin olunmasına xidmət edir. Bu istiqamətdə hər hansı məqsəd isə milli ideologiyadan, bu yöndə təbliğatdan başlayır, onun üçün zəruri zəmin hazırlayır. Tədqiqatçı Rəsmiyyə Mahmudova yazır ki, "bu gün informasiya ayrı-ayrı şəxslərin, qrupların və ya təşkilatların üzvlərinin şəxsi maraqları üçün aşkar və gizli məqsədlərlə fərdi və sosial subyektlərin fəaliyyətinə ziyan vurmaq üçün həyata keçirdikləri psixoloji təzyiq vasitəsidir. Nəzərə alsaq ki, informasiya psixoemosional və sosial gərginliyin yaranmasına, mənəvi norma və kriteriyaların təhrif olunmasına, sosial stereotiplərin və davranışların qeyri-adekvatlığına, yanlış dəyərlərə və istiqamətlərə, eləcə də digər arzuolunmaz nəticələrə gətirib çıxara bilər, o zaman insanların informasiya immunitetini artırmaq məsələsi gündəmə gəlir" [9].

Göründüyü kimi, KİV ideyanın təbliği üçün əsas vasitə olmaqla yanaşı, cəmiyyət və fərdlərin qarşısında duran vəzifələrin qabardılması, reallıqların nəzərə alınması nöqteyi-nəzərindən də vacib atribut, amildir. KİV həm də müəyyən qədər nəzarətçilik funksiyasını həyata keçirən media orqanları məcmusudur. Heç də təsadüfi deyil ki, hazırda media "dördüncü hakimiyyət", bəzən də "ikinci hakimiyyət "adlandırılır və o, bu statusu alıb. Belə ki, cəmiyyətin və fərdlərin üzləşdiyi problemlər, qarşıya çıxan çətinliklər çox zaman KİV tərəfindən işıqlandırılır və öz həllini tapır.

Dövlətin mövcudluğunu təmin edən siyasətin əsas aktorlarından biri suverenlikdir. Ölkələrin coğrafi ərazisi ilə bərabər onların müstəqilliyi və suverenliyi də idarəçilik üçün əsas verir. Bu kontekstdə dövlətlərin BMT səviyyəsində qəbul olunan ərazilərini tanımaq, ona hörmət etməklə yanaşı, beynəlxalq hüququn "bir-birinin daxili işlərinə qarışmamaq" prinsipinə əməl etmək də subyektlərin öhdəlik və vəzifələrinə daxildir. Lakin dünyanın inkişaf etmiş və aparıcı dövlətlərinin hegemonluğunun hələ də mövcud olduğu indiki zamanda heç də bütün ölkələrin suverenliyinə hörmətlə yanaşılmır. Tarix elmləri doktoru professor Əli Həsənov qeyd edir ki, "suverenlik beynəlxalq hüququn "daxili işlərə qarışmamaq "anlayışı ilə müəyyən edilən konsepsiyada öz ifadəsini tapmışdır. Bu konsepsiyaya görə, heç bir dövlət başqasının daxili işlərinə qarışmaq hüququna malik deyil. Lakin müasir şəraitdə bu prinsipin mütləq şəkildə gözlənilməsi müşahidə olunmur. Güclü dövlətlər və başqa geosiyasi aktorlar (dini təsisatlar, beynəlxalq təşkilatlar, KİV, transmilli korporasiyalar, hökumətlərarası və qeyri-hökumət təşkilatları, sərhədsiz ekoloji, səhiyyə və s. qurumlar) dövlətin daxili siyasətinə təsir, hətta, əks-təsir edirlər" [4].

Hazırda internet jurnalistikasının da uzərinə ciddi, mühüm vəzifələr düşür. Ənənəvi qəzetlərin internet versiyası, internet radiosu və televiziyalarının, xəbər portallarının, digər internet şəbəkələrinin fəailyyəti günumuzün reallıqlarıdır. Nəzərə almaq lazımdır ki, hər bir fəaliyyət sahəsinin inkişafının həm müsbət, həm də mənfi cəhətləri var. Bu inkişafa humanist məqsədlə yanaşdıqda, ondan bəşəri dəyərlər üçün istifadə etdikdə bu, beynəlxalq aləmə, dovlətə, xalqa fayda verəcək. Elmin, texnikanın, informasiya texnologiyalarının imkanlarından, inkişafından naqis məqsədlər üçün istifadə edildiyi zaman isə bu, mənfəət deyil, bəla, məhrumiyyət, təhlükəyə səbəb olacaq. Yəni əksliklərin mübarizəsi, xeyirlə şərin qarşıdurması bu gün həm də qlobal səviyyədə özünü göstərir. İnformasiya təhlükəsziliyi üçün bu yöndə də xüsusi mexanizm işlənib hazırlanır və bu fəaliyyət həm də qanunvericilik müstəvisində tənzimlənir. Bu gün demək olar ki, bütün sahələr informasiya sayəsində fəaliyyət gostərir, informasiyanın ən təkmil versiyası olan elektron informasiya geniş tətbiq edilir. Buna görə də informasiya təhlükəsizliyi problemi yalnız KİV-lə məhdudlaşmır, o daha geniş sahələri əhatə edir, təhlükəsizlik baxımından ciddi tədbirlərin görülməsi tələb olunur. 2016-cı il noyabrın 16-da Azərbaycan prezidenti İlham Əliyev Bakıda Dünya Xəbər Agentliklərinin V Konqresinin, Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının XVI Baş Assambleyasının birgə açılış mərasimində çıxışında bildirib ki, "Azərbaycan internetin tam azad olduğu ölkədir və əhalimizin 75 faizindən çoxu fəal internet istifadəçisidir. Ölkə əhalisinin sayı təqribən 10 milyon nəfərdir və Azərbaycanda sosial mediadan istifadə edənlərin sayı 2 milyondur. Bu rəqəm onu nümayiş etdirir ki, Azərbaycanda azad medianın inkişafı çox uğurlu olub. Biz məqsədimizə nail olmuşuq və bu 25 il ərzində siyasi və iqtisadi islahatlarla yanaşı, transformasiya keçmiş sahələrdən biri demokratik inkişaf istiqamətindəki islahatlar olub" [1].

Hazırda kiber-təhlükəsizlik məsələsi də mütəxəssisləri daha çox narahat edən problemlər sırasındadır. Elektron sistem əsasında qurulmuş fəaliyyət sahələrinə edilən müdaxilələr, haker hücumları günümüzün reallıqlarına çevrilib. Akademik Rasim Əliquliyev bildirir ki, "cəmiyyətin informasiya təhlükəsizliyinin təmin olunmasında internet provayderləri də əhəmiyyətli rol oynayır. Ölkəmizdə interet xidmətləri təxminən 40-a yaxın provayder tərəfindən göstərilir. Cəmiyyətin informasiya təhlükəsizliyi, əsasən provayderlərdən və onların administratorlarından asılıdır" [2]. Bu cür təhlükə, eləcə də digər təhdidlərə qarşı mübarizə və informasiya təhlükəsizliyinin təmin olunması üçün Azərbaycan Respublikasının prezidenti İlham Əliyev 2012-ci il sentyabr ayının 26-da "İnformasiya təhlükəsizliyi sahəsində fəaliyyətin təkmilləşdirilməsi tədbirləri" haqqında fərman imzalayıb. Bu sənəd "ölkədə informasiya proseslərinin mühafizəsi, sabitliyi və fasiləsizliyi, dövlət orqanlarının informasiya ehtiyatlarının qorunması,bu sahədə təhdidlərin qarşısının alınması,təhlili və qabaqlanması üçün dövlət və qeyri-dövlət informasiya infrastrukturu subyektlərinin, onların istifadəçilərinin fəaliyyətinin əlaqələndirilməsi, kiber-təhlükəsizlik sahəsində risklərin qiymətləndirilməsi və idarə olunması, ümummilli hazırlığın və maarifləndirmənin təmin edilməsi" məqsədi daşıyır [5].

Ölkə başçısının bu fərmanının tələblərinə əsasən Azərbaycan Respublikası Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi, eləcə də Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında əlaqələndirici qurum olan Elektron Təhlükəsizlik Mərkəzi yaradılıb. ETM isə öz növbəsində kiber-təhlükəsizlik sahəsində informasiya infrastrukturu subyektlərinin fəaliyyətinin əlaqələndirilməsini, ölkə səviyyəsində mövcud və yarana biləcək elektron təhlükələrə dair məlumatlandırmanı, əhalinin, eləcə də özəl və digər qurumların kiber-təhlükəsizliklə bağlı maarifləndirilməsini, həmçinin onlara metodiki yardımı həyata keçirir. Bu qurum ölkədə fəaliyyət göstərən digər aidiyyatı təşkilat və müəssisələrlə əlaqəli surətdə işləyir.

Hazırda dövrün tələbləri ilə ayaqlaşmaq üçün hər bir sahədəki yeniliklərlə əlaqədar müvafiq tədbirlər görülür və sahəvi qanunvericilik bazası təkmilləşdirilir. Hər bir sahənin qanunlarında isə müəyyən qabaqlayıcı addımlar-maddələr, bəndlər, o cümlədən təhlükəsizlik tələbləri mövcuddur. Tədqiqatçı Xalid Niyazov haqlı olaraq bildirir ki, "media bir tərəfdən cəmiyyətin siyasi sistemini möhkəmləndirə, inkişaf etdirə, digər tərəfdən onu deformasiyaya uğrada, cəmiyyətə mənfi təsir edə bilər. Domokratik cəmiyyətlərdə media hakimiyyət və xalq arasında münasibətlərin ahəngdarlığının əsas vasitəsinə çevrilmişdir. KİV müxtəlif təsisatları təmsil etdiyindən, bəzən onun dövlətin və cəmiyyət maraqlarını ifadə etməməsi hallarına da rast gəlmək mümkündür" [8].

Məlum olduğu kimi, dövlətin və vətəndaşın əsas hüquq və azadlıqları ilk növbədə ana qanunda-Konstitusiyada təsbit olunub. Konstitusiya demokratik dövlətin əsas göstəricisidir. Sonra isə sahə qanunları gəlir. Ölkəmizdə KİV-in fəaliyyətini tənzimləyən əsas qanun Kütləvi İnformasiya Vasitələri haqqında Azərbaycan Respublikasının Qanunudur. 1999-cu ildə yenidən işlənərək qəbul olunan və sonradan bəzi əlavələr və düzəlişlər edilən bu sənəddə vətəndaşın informasiya azadlığı, məlumatın qanuni yolla və azad surətdə əldə olunması, yayılması, senzuranın, kütləvi informasiya azadlığından sui-istifadənin yolverilməzliyi, informasiya azadlığının və jurnalist hüququnun pozulmasına görə məsuliyyət nəzərdə tutulub. Bu hüquq və azadlıqlar və məsuliyyət KİV-lə bağlı digər qanunlarda da öz əksini tapıb. Bu qurumların hər biri həm də informasiya təhlükəsiziliyinin təmin olunmasına yönəlib[6].



Sivilizasiyaların yarandığı vaxtlardan indiyədək cəmiyyətlərdə bu və digər şəkildə informasiya mübadiləsi, eyni zamanda informasiya mübarizəsi aparılıb. İnformasiyadan bəzən silah kimi istifadə olunub və o, informasiya müharibəsinin əsas alətinə çevrilib. Bu gün də həm ayrı-ayrı ölkələr, həm də beynəlxalq aləmdə bəzi dairələr, qüvvələr arasında siyasi, hərbi və iqtisadi mövqe uğrunda açıq və gizli mübarizə gedir. "Gizli deyil ki, informasiyaya malik olanlar vəziyyətə nəzarət edirlər. Amma çox az adam bilir ki, dünyanın xüsusi xidmət idarələri özlərinin ehtimal olunan rəqibləri haqqında məlumatın 80%-ni ənənəvi olaraq açıq mənbələrdən, sorğu kitablarından, monoqrafiyalardan, məqalələrdən, kataloqlardan, icmallardan və digər nəşrlərdən alırlar. Nəhəng açıq informasiya mənbəyi olan internet isə bu "xəzinə"ni ağlagəlməz imkanlar meydanına çevirib" [3]. Çox vaxt iqtisadi mənfət uğrunda aparılan mübarizə hərbi qarşıdurmalara çevrilir. Bunu biz hazırda şərqdə-İraq, Suriya, Əfqanıstan, Liviya və bir sıra başqa ölkələrin timsalında görürük. Bu münaqişələrin hərəkətverici qüvvələri isə Qərbdə yerləşib və hər şey informasiya mübarizəsindən başlayıb. Çox zaman "demokratikləşmə" pərdəsi arxasında gizlədilən siyasət sonda insanların məhrumiyyətinə, qaçqın axınına, iqtisadiyyatın zəifləməsinə, devalvasiyaya gətirib çıxarır.

Ölkəmizə gəldikdə isə, hazırda bizi narahat edən əsas məsələ Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Dünyada mövcud olan ikili standartlar, beynəlxalq ədalətsizlik və hüquqi normalara hörmətsizlik, eləcə də bu problemlə bağlı informasiya təbliğatının qeyri-obyektiv aparılması hələ ki, münaqişənin həllinə xidmət etmir. Bununla belə, Azərbaycanın haqlı mövqeyi, ölkədəki tolerant mühit, tarazlaşdırılmış daxili və xarici siyasət, eləcə də KİV-in xidməti sayəsində vəziyyət dəyişməkdədir. İşğalçı Ermənistanın yürütdüyü mənfur siyasət, özünütəcrid mövqeyi bu ölkənin monoetnik quruluşu, yaranmış iqtisadi və demoqrafik tənəzzül onun özünün daha çox ziyan çəkməsinıə gətirib çıxarır. Digər tərəfdən, bu ilin aprel ayında qoşunların təmas xəttində yaranmış gərginlik və Azərbaycanın hərbi əməliyyatlar zamanı əldə etdiyi üstünlük ölkəmizin öz ərazi bütövlüyünü bərpa etmək əzmində olduğunu göstərir. Baş verən hadisələrə hərbi və psixoloji yöndən düzgün qiymət verən dövlət rəhbərliyi, ordu və mülki şəxslər, ölkə vətəndaşları mütəşəkkil surətdə atılan addımların real nəticəsinin şahidi oldu. Milli ruhun təntənəsi, hərbi-psixoloji, media-ordu, media-vətəndaş həmrəyliyi özünün müsbət nəticəsini göstərdi.

Bu gün düşmənlə müqayisədə hərtərəfli, o cümlədən informasiya üstünlüyü olan Azərbaycan yaranmış istənilən vəziyyəti öz xeyrinə dəyişmək, çevik addımlar atmaq və problemləri həll etmək üçün bütün vasitələrdən istifadə etmək haqqına, hüququna malikdir və ondan yararlanmaq əzmindədir. Azərbaycan dövlətinin düzgün siyasətini 2016-cı ilin noyabrında Bakıya səfər etmiş erməni vətənpərvərlər, hüquq müdafiəçiləri-Vahe Avetyan, Vahan Martirosyan və Suzzana Caqinyanın hərəkətləri də təsdiq edir. Onlar Bakıda Xocalı Soyqırımı qurbanlarına ucaldlmış "Ana harayı" abidəsini ziyarət edib üzr istədilər. Erməni jurnalsit, yazıçı və hüquq müdafiəçilərinin erməni xalqı adından etdikləri üzrxahlıq Ermənistan hakimiyyətinin apardığı siyasətin fiaskoya uğradığını göstərir və ölkəmizin düzgün yolda olduğunu bir daha sübut edir.

## ƏDƏBİYYAT


*[1] Azərbaycan Prezidenti İlham Əliyevin Dünya Xəbər Agentliklərinin V Konqresinin, Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının XVI Baş Assambleyasının birgə açılış mərasimində nitqi. http://www.president.az/articles/21714*

*[2] Əliquliyev R. İnformasiya cəmiyyətinin formalaşmasının multidissiplinar elmi-nəzəri problemləri və onların ölkəmizdə araşdırılmasi vəziyyəti. AMEA-nın "Xəbərlər" məcmuəsi, cild 1, №1, mart, Bakı, 2014,s,33*

*[3] Əsgərbəyov Y. İnternetdə informasiya müharibələri. İnformasiya müharibələri və kompüter cinayətkarlığı, "Elm və təhsil", Bakı, 2011,118 s*

*[4] Həsənov Ə. "Geosiyasət", "Aypara-3", Bakı, 2010,604 s*

*[5] "İnformasiya təhlükəsizliyi sahəsində fəaliyyətin təkmilləşdirilməsi tədbirləri" haqqında Azərbaycan Respublikası prezidentinin fərmanı. http://www.president.az/articles/6298)*

*[6] "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının qanunu. "Azərbaycan" qəzeti, 3 fevral, №34, Bakı, 2000*

*[7] Mehdiyev R. Azərbaycanın inkişaf dialektikası. Bakı, Azərbaycan Milli Ensiklopediyası, 2000, 288 s*

*[8] Niyazov X. Dövlət informasiya siyasəti,"Elm və təhsil", Bakı, 2016, 324 s*

*[9] R. Mahmudova. İnformasiyanın neqativ təsiri və onun aradan qaldırılması yolları. Beynəlxalq Telekommunikasiya İttifaqının 150 illiyinə həsr olunmuş İnformasiya təhlükəsiliyinin multidissiplinar problemləri üzrə 2-ci Respublika elmi-praktiki konfransının Əsərləri, Bakı,14 may 2015,s, 74*



***Açar sözlər:*** *milli təhlükəsizlik; informasiya təhlükəsizliyi; kiber-təhlükəsizlik; informasiya sistemləri; ideologiya; kütləvi informasiya vasitələri; jurnalistika; demokratiya.*

***Ключевые слова:*** *национальная безопасность, информационная безопасность, кибер-безопасность, информационные системы, идеология, средства массовой информации, журналистика, демократия.*

***Key words:*** *national security, information security, cyber-security, information systems, ideology, mass media, journalism, democracy.*



**РЕЗЮМЕ**

Роль СМИ во всестороннем развитии государства и людей незаменима. Медиа – это средство, которое имеет значимость с точки зрения стабильности и безопасности государства и создающее для этого почву. В исследовательской работе анализируются и оцениваются деятельность СМИ в обеспечении информационной безопасности в современный период, значимость для просвещения общества и обязанности, возлагаемые на них, в то же время, работы, проводимые в создании законодательной базы в этой сфере. В исследовании утверждается, что законы, принятые в нашей стране, шаги, предпринимаемые в этой сфере, а также развитие медии – всё это служит созданию безопасного общества, сохранению демократических ценностей.



**SUMMARY**

The role of mass media in the all-round development of state and people is irreplaceable. Besides, media is a tool that has significance in terms of stability and security of the state and to create for this soil. The research analyzed and evaluated the activities of media in providing information security in modern times, the importance of education for society and the duties assigned to them, at the same time, the work carried out in the establishment of the legal framework in this area. According to the study, laws adopted in our country and the steps taken in this sphere, as well as the development of the media - all this serves to create safe society and the preservation of democratic values.

# Siyasət

ÜLKƏR MƏMMƏDZADƏ
Bakı Dövlət Universiteti

## HEYDƏR ƏLİYEV SİYASƏTİ VƏ İLHAM ƏLİYEV TƏRƏFİNDƏN BU SİYASƏTİN YERİNƏ YETİRİLMƏSİ



Bir dövlətə, bir millətə başçılıq etmək, lider olmaq, ümumən sözün geniş mənasında liderlik hər insana bəxş olunmur. Sözsüz ki, belə insanlar seçilmiş olurlar, onların hər adi insandan başqa öhdəlikləri olur. Tarix boyu hər dövlətə hər millətə müxtəlif liderlər gəlmişdir, lakin, onlar içərisində tarixi kökündən dəyişən, millətin yolunu aydınlatan, dövləti uçurumun kənarından qaytaran sözün əsl mənasında dahi olan liderlər çox az olmuşdur. Dünya tarixində iz qoyan belə bir dahi lider xoşbəxtlikdən Azərbaycan xalqına nəsib olmuşdur. Azərbaycan torpağının dahi oğlu Ulu Öndər Heydər Əlirza oğlu Əliyev tarixdə bir daha əvəzlənməyəcək şəxsiyyətdir. Əlbəttə ki, ölkənin çətin siyasi məqamında, keşməkeşli günlərində onun taleyi ölkəyə rəhbərlik edən şəxsdən asılı olur. Bütün bu dediklərimizi əsaslandıran akademik Ramiz Mehdiyev yazmışdır: “Kəskin ziddiyyətlər, faciəli proseslər, dərin kataklizmlər içərisində çapalayan ölkənin taleyüklü anında ona hansı şəxsiyyətin rəhbərlik etməsi isə onun tarixi-siyasi taleyində həlledici rol oynayır. Müstəqillik yoluna yenicə qədəm qoymuş, xarici və daxili siyasətinin əsas prinsipləri hələ müəyyən edilməmiş, ziddiyyətlərin kəskinləşdiyi bir zamanda acınacaqlı vəziyyətə düşmüş Azərbaycan üçün bu, xüsusilə böyük əhəmiyyət kəsb edirdi. ... Ən mürəkkəb vəziyyətlərdə düzgün qərar çıxarmaq, ağır və çətin problemlər içərisindən ən vacib və təxirəsalınmaz olanları müəyyənləşdirib həll etmək, qarşıya ümdə vəzifələr qoyaraq onların yerinə yetirməsi üçün iradə və əzmkarlıq göstərmək, öz kəsərli sözü, dəmir məntiqi ilə hamını bu yolda səfərbər etmək qabiliyyətinə bu qədər yüksək səviyyədə sahib olan şəxsiyyətə tarixdə nadir hallarda rast gəlmək mümkündür” [9, səh 104]

Ulu öndər Heydər Əliyev məhz respublikamızın müasir tarixinin ən ağır günlərində - 1993-cü ildə xalqın təkidi ilə Azərbaycanda ikinci dəfə siyasi rəhbərliyə qayıtdı və ölkəni dünyanın siyasi xəritəsindən silinməkdən – Azərbaycanı bir

dövlət olaraq parçalanmaqdan xilas etdi. Bu, o demək idi ki, Azərbaycanın siyasi inkişaf mərhələsində yeni era – Heydər Əliyev erası başlayır. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev hələ 1993-cü il oktyabrın 10-da andiçmə mərasimindəki nitqində Azərbaycanın ağır iqtisadi böhran vəziyyətindən çıxarılması üçün sosial-iqtisadi sahədə qarşıda duran təxirəsalınmaz vəzifələri irəli sürmüş və onların həyata keçirilməsi uğrunda həyatının sonuna qədər biliyini, bacarığını, təcrübəsini həsr edəcəyinə and içmişdi. [7, səh 251]

Qafqazda sülhün, əmin-amanlığın, siyasi sabitliyin, iqtisadi və mədəni inteqrasiyanın əsas təminatçısı və alovlu təbliğatçısı, "Qafqazda sülh", "Ümumi Qafqaz evi" ideyasının və konsepsiyasının banisi və bu konsepsiyanı həyata keçirən Heydər Əliyev olmuşdur. Bu, tarixi həqiqətdir ki, Heydər Əliyev bütün Qafqaz bölgəsində sülhün yaradılması təşəbbüsü ilə çıxış etmiş, onun təklifi ilə imzalanmış "Qafqaz regionunda sülh, sabitlik və təhlükəsizlik haqqında" Tbilisi Bəyannaməsində (1996) "Ümumi Qafqaz evi" ideyasını dəstəkləmişdir. [6]

Ulu Öndər Heydər Əliyev ATƏT-in İstanbul zirvə görüşündə (1999) "Cənubi Qafqazda sülh, təhlükəsizlik və əməkdaşlıq paktı"nın yaradılması təklifi ilə çıxış etmiş və öz nitqində söyləmişdir: "Cənubi Qafqaz regionu Avropanın ayrılmaz hissəsidir. Mən Amerika Birləşmiş Ştatlarının, Avropa Birliyi ölkələrinin, Rusiyanın, Türkiyənin, Gürcüstanın, Ermənistanın və ATƏT-in marağı olan bütün digər üzvlərinin dövlət və hökumət başçılarına müraciət edərək onları regionumuzun problemlərinin həlli üçün qətiyyətli fəaliyyət göstərməyə çağırıram. Mən Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktının təsis olunmasını təklif edirəm. Belə bir pakt dövlətlərarası münasibətlərin və münaqişələri aradan qaldırmağın prinsipial əsaslarını təsbit etməlidir. Onun əsasında regiondan xarici hərbi qüvvələr çıxarılmalıdır. Regionu bölən ayırıcı xətlər aradan qaldırılmalıdır. Təcavüzə, etnik təmizləmələrə, separatçılığa və terrorizmə son qoyulmalıdır. Baş vermiş faktlar əsasında hərəkətlərə və ikili standartlara yol verilməməlidir. Belə bir pakt regionda sülh, sabitlik və təhlükəsizlik yaranmasına, Cənubi Qafqazın suveren, müstəqil demokratik dövlətlərinin iqtisadi tərəqqisinə və əməkdaşlığına gətirib çıxarardı. XXI əsrin astanasında beynəlxalq birliyin Cənubi Qafqazda uğurlu fəaliyyəti azad, bölünməz və təhlükəsiz Avropanın yaradılmasına mühüm töhfə olardı." Bu təklif bir çox region dövlətləri tərəfindən müdafiə olunmuşdur. [1]

Heydər Əliyev Azərbaycan xalqının xilaskarı, müasir müstəqil Azərbaycan dövlətinin qurucusudur. Ulu öndərin zəngin irsi, ideyaları və tövsiyələri müasir cəmiyyətimizin inkişafının və sülhün qorunub saxlanılmasının nəinki ideya mənbəyidir, həmçinin möhtəşəm səfərbəredici amildir. Ümummilli liderin təlatümlərdən, təhlükələrdən çıxararaq qurub-yaratdığı Azərbaycan indi onun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi altında bütün dünyaya möhtəşəm yüksəliş dinamikası nümayiş etdirir. Ulu öndərin yaratdığı quruculuq şəraiti indi Azərbaycanın real siyasi və iqtisadi həyatında təzahür edir. Heydər Əliyev irsi yaşayır və qalib gələrək öz bəhrəsini müstəqil Azərbaycan Respublikasının inkişafında göstərir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Konstitusiyaya və Qurani-Kərimə əl basaraq dövlətə və millətə sədaqətlə xidmət edəcəyinə and içərək, bəyan etmişdi: "Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır.

Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasətinin davam etdirilməsidir. Bu gün bu yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm. Heydər Əliyevin siyasətini davam etdirəcəyəm…" [12]

Heydər Əliyev ideyaları, siyasi xətti bu gün də yaşayır, qalib gəlir və bu siyasi kursun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyilə Azərbaycan son on ildə sürətlə inkişaf edərək regionun lider dövlətinə çevrilmişdir. Hazırda ölkəmizdə həyata keçirilən irimiqyaslı layihələr isə respublikamızın beynəlxalq aləmdə nüfuzunu daha da artırmaqdadır. [9]

Müstəqil dövlətçiliyimizin və Azərbaycanın ən yeni tarixinin yaradıcısı olan ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi strateji inkişaf konsepsiyasına uyğun olaraq, dövlətçilik siyasətinin ən layiqli davamçısı, yüksək intellektə, əhatəli dünyagörüşünə, prinsipial mövqeyə, şəxsi nüfuza, fikirlərinin reallığa uyğunluğunu inandırıcı dəlillərdən istifadə yolu ilə sübut etmək bacarığına malik olan, beynəlxalq aləmdə kifayət qədər tanınmış siyasi xadim Cənab İlham Əliyevin 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə ölkəmizdə sabitliyin axarı, müstəqilliyin möhkəmləndirilməsi, dövlətçiliyin gücləndirilməsi və qüdrətləndirilməsi, əhalinin rifah halının yaxşılaşdırılması, beynəlxalq nüfuzunun yüksəlməsi və sülhün qorunub saxlanması istiqamətində yeni-yeni uğurlar qazanılmaqdadır. Bu gün Azərbaycan xalqı, vətəndaşlarının Milli Konstitusiya və mütərəqqi qanunlarla tənzimlənən hüquq və azadlıqlarına real təminatlar yaradan, hüquqi məkanda və vətəndaş cəmiyyətdə yaşadığına, mütərəqqi islahatlar nəticəsində formalaşmış demokratik, sivil və hüquqi dövlətdə fəaliyyət göstərdiyinə, "Əsrin müqaviləsi" və bu kimi digər böyük layihələri həyata keçirdiyinə, özəlləşdirmə aparilmaqla bazar iqtisadiyyatı şəraitinin formalaşması nəticəsində əldə etdiyi iqtisadi müstəqilliyinə, beynəlxalq aləmin tamhüquqlu üzvü olmaqla, dünya dövlətləri birliyinə hərtərəfli inteqrasiya etdiyinə, ərazi bütövlüyünün bərpası istiqamətində aparilan və son nəticədə erməni qəsbkarları tərəfindən işğal edilmiş torpaqlarımızın azad olunması ilə nəticələnəcək siyasətə görə dövlət başçısı İlham Əliyev tərəfindən həyata keçirilən dövlətçilik siyasətinə borcludur. Dövlət başçısı Cənab İlham Əliyevin rəhbərliyi altında respublikamızın dinamik şəkildə və yüksələn xətlə sosial-iqtisadi inkişafı, əhalinin həyat şəraitinin qabaqcıl ölkələr səviyyəsinə qaldırılması, müxtəlif sahələr üzrə, o cümlədən idmanla əlaqədar əhəmiyyətli nailiyyətlərə müvəffəq olunması, demokratik dəyərlərin tam şəkildə reallaşması və dünya dövlətləri birliyinə hərtərəfli inteqrasiyası, doğma torpaqlarımızın erməni işğalından azad edilməsi istiqamətində müəyyənləşdirilmiş uzaqgörən strateji xəttə uyğun olaraq, məqsədyönlü tədbirlər həyata keçirilir.[8, səh 101-102]

Dövlət müstəqilliyinin qorunması, milli maraqların müdafiəsi

üçün heç bir xarici təsirə yol verilmədən aparılan siyasət, Azərbaycanın regionda və dünyada nüfuzunun yüksəldilməsi XXI əsrin əvvəlində müstəqil Azərbaycan dövlətinin siyasətini xarakterizə edir. Bu xətt mühüm beynəlxalq məsələlərə dair ölkəmizin mövqeyində, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həllinə yanaşmada, mürəkkəb siyasi problemlər yaşayan qonşu dövlətlərlə münasibətlərdə, enerji resurslarından istifadədə, xarici şirkətlərlə bağlanan müqavilələrdə və sair məsələlərdə aydın təzahür edir. Dağlıq Qarabağ münaqişəsinin həlli yolları haqqında danışarkən Prezident həmişə vurğulayır ki, biz ölkənin ərazi bütövlüyünü şübhə altına alan, onun suverenliyini pozan hər hansı nizamlama modelini qəbul etməyəcəyik. Bir-biri ilə gərgin münasibətləri olan, regionda maraqları kəsişən əksər dövlətlərin hər biri ilə (ABŞ-İran, Rusiya-Gürcüstan) Azərbaycan dostluq və konstruktiv əməkdaşlıq münasibətlərindədir və bir dövlətin siyasi, strateji, iqtisadi və sair maraqlarına görə digəri ilə əlaqələrə yenidən baxmaq niyyətində olmadığını bildirir. ABŞ Konqresinin Qars-Axalkalaki-Tbilisi-Bakı dəmir yolu layihəsini maliyyələşdirməkdən imtina etməsinə rəğmən Azərbaycan Türkiyə və Gürcüstanla birlikdə onun tikintisində israrlı olduğunu bildirir, yeni maliyyələşmə mənbələri axtarıb tapır. Yaxud Azərbaycanda işləyən hər hansı xarici şirkət öhdəliklərini pozursa, Azərbaycan hökuməti ölkənin iqtisadi mənafelərini əsas götürərək və digər mülahizələri rədd edərək yeni investorlarla danışıqlar aparır. Bu qəbildən çox misallar gətirmək olar. Prezident bildirir ki, “Azərbaycan öz müstəqilliyini çox qiymətləndirir. Müstəqillik hansısa rəsmi atributlarla ölçülmür. Dünyada bir çox ölkə var ki, onun atributları mövcuddur, amma müstəqil siyasət apara bilmir. Azərbaycan xoşbəxtliyi ondadır ki, biz bundan azadıq”. Bu baxımdan özünü fəxrlə başqa dövlətin “forpostu” adlandıran işğalçı Ermənistanın vəziyyəti doğrudan da acınacaqlıdır. İqtisadi, siyası və kommunikasiyalar cəhətdən qonşu dövlətlərdən tamamilə asılı olan bu ölkə öz təcavüzkar siyasətinin girovuna çevrilmişdir. Bu məsələyə Azərbaycan Prezidentinin münasibəti də maraqlıdır: “Bizim qonşuluğumuzda başqa ölkələr var ki, adı müstəqildir, özü müstəqil deyil, başqa qüvvələrin, dairələrin, ölkələrin iradəsi ilə oturub-durur. Bizdə əsl müstəqillik var, öz siyasətimizi yalnız və yalnız xalqın iradəsinə, istəyinə əsaslanaraq həyata keçiririk. Heç kim bizə təsir edə bilməz.” [3, səh 64-67]

Təqdirəlayiq haldır ki, dövlət rəhbəri İlham Əliyevin müvəffəqiyyətlə həyata keçirdiyi məqsədyönlü siyasətlə ölkəmizin birinci xanımı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın nəcib fəaliyyəti həmahəngdir. Prezidentimiz və onun xanımı Azərbaycanın nəinki Qafqaz regionunda, eləcə də bütün dünyada aparıcı mövqeyə sahib durması, dünya birliyində layiqli yerini tutması, qüdrətli, inkişaf etmiş dövlətə çevrilməsi üçün yorulmadan çalışırlar. Mədəniyyətimizin, milli-mənəvi dəyərlərimizin qorunması, ümumbəşəri dəyərlərə sadiq qalması, təhsilimizin, elmimizin inkişafı istiqamətində bu xeyirxah xanımın göstərdiyi xidmətlər, gördüyü dəyərli işlər xalqımız üçün, millətimiz üçün, vətənimiz üçün müstəsna əhəmiyyətə malikdir. Mehriban xanım Əliyeva Heydər Əliyev Fondunun prezidenti olaraq dövlətçilik tariximizdə misilsiz tarixi xidmətlər göstərmiş qüdrətli bir şəxsiyyətin – Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev irsinin qorunması və təbliği kimi ali bir missiyanı da layiqincə yerinə yetirir. Ulu öndər Heydər Əliyev zəngin dövlətçilik və siyasi irsinin qorunması, təbliğ edilməsi və gələcək nəsillərə ötürülməsi Azərbaycan xalqının milli dövlətçilik şüurunun inkişafının və yetişməkdə olan gənc nəslin dövlətçilik ənənələrinə sədaqət, azərbaycançılıq ideologiyası, Azərbaycan məfkurəsi ruhunda tərbiyə olunmasının ən vacib şərtlərindən biridir. [2, səh 20]

2003-cü ildən etibarən cənab İlham Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin siması, atributu kimi qəbul edilir. Ulu öndərin zəngin və tükənməz siyasi irsinə, xalqımızın iradəsinə söykənən Prezident İlham Əliyev peşəkar dövlət xadimi, görkəmli siyasətçi, nüfuzlu bir lider kimi ölkədə və xaricdə özünü təsdiq etdi. Dövlətin inkişafında o qədər də böyük hesab edilməyən zaman ərzində, 2003-cü ildən bəri davam edən dövrdə Prezident İlham Əliyevin başçılığı ilə əldə edilən uğurlar nəticəsində Azərbaycan dünyanın siyasi məkanında sanballı yer tutub.

Cənab Prezident İlham Əliyev respublika nazirlər kabinetinin 2008-ci ilin birinci yarısının sosial-iqtisadi yekunlarına həsr olunmuş iclasında öz nitqində söyləmişdir: “Bizim gələcək illər üçün əsas məqsədimiz neft-qaz amilindən asılılığımızı azaltmaqdır. Əlbəttə, biz realist olmalıyıq və bilməliyik ki, hələ uzun illər ərzində neft-qaz, enerji sahəsi bizim iqtisadiyyatımız üçün aparıcı sahə olacaqdır və bu, normal bir prosesdir. Amma bilirsiniz ki, qeyri-neft sektorunun inkişafı üçün lazımi tədbirlər görülür və deyə bilərəm ki, son illər ərzində kənd təsərrüfatında ən yüksək nəticələr əldə edilibdir. Bu ilin altı ayında kənd təsərrüfatı istehsalı 10 faizdən çox artmışdır. Əvvəlki illərdə bu artım daha da aşağı rəqəmlərlə ölçülürdü. Ancaq görülən tədbirlər nəticəsində – biz bu gün bu barədə danışacağıq – bir il ərzində böyük artıma nail ola bildik. Bu tədbirlər kompleks xarakter daşıyırdı və təkcə bir ilin tədbirləri deyildir. Biz bunu son bir neçə il ərzində etmişdik və indi nəticələrini görürük. Mən şübhə etmirəm ki, artıq görülmüş və gələcəkdə görüləcək tədbirlər nəticəsində kənd təsərrüfatında daha da böyük inkişaf olacaqdır.” [5]

Bu gün Azərbaycanın sürətli inkişafı yeni-yeni istiqamətləri əhatə edir və ölkəmizin regionda lider dövlət olduğunu bir daha təsdiqləyir. Fərəhləndirici haldır ki, 2013-cü ildə Azərbaycanda kosmik sənayenin yaranmasının əsası qoyulmuşdur. Həmin il “İnformasiya-kommunikasiya texnologiyaları ili” elan olunmuşdur. Ötən ilin əvvəllərində ilk Azərbaycan peyki - “Azərspace-1” fəzaya qaldırılmışdır. Bu, xalqımızın, dövlətimizin böyük tarixi nailiyyətidir.

İqtisadiyyat bütün dövrlərdə hər bir ölkənin yüksəlişini təmin edən dayaqlardan biri olmuşdur. Müasir qloballaşma dövründə iqtisadi maraqlar dünyanın simasını kökündən dəyişən ciddi amilə çevrilmişdir. Azərbaycanm gələcəyi iqtisadi amillərlə birbaşa bağlıdır. 2003-2006-cı illər ölkəmizin sosial-iqtisadi inkişafınm sürətləndirilməsi ilə səciyyələnir və Azərbaycan iqtisadiyyatı üçün olduqca uğurlu olmuşdur. Əldə olunan bu uğurları isə ölkəmizdə ictimai-siyasi sabitliyin qorunması, islahatların ardıcıl həyata keçirilməsi, iqtisadi inkişafda yeni hədəflərin müəyyən edilməsi və cəmiyyətin real ehtiyaclarınm ödənilməsinə yönəldilmiş dövlət proqramlarmm reallaşdırılması, sosial siyasətə vaxtında korrektivlər edilməsi, dövlətin maliyyə imkanlarınm artması, regional və beynəlxalq əməkdaşlığm genişləndirilməsi təmin etmişdir. Yüksək və davamlı iqtisadi artım tempinin təmin edilməsi iqtisadi inkişafda yeni mərhələnin əsas xüsusiyyətlərindən biri kimi

qiymətləndirilməlidir. 2003- 2006-cı illərdə ÜDM-in həcmi 2,5 dəfə artmışdır. Beynəlxalq iqtisadi təşkilatlar tərəfindən hazırlanan hesabatlarda Azərbaycanda iqtisadi artım tempinin dünyada rekord səviyyəyə çatdığı qeyd edilir. İlbəil artmaqda olan dövlət büdcəsi ölkə iqtisadiyyatında müşahidə olunan mütərəqqi dəyişiklikləri çox aydın şəkildə özündə əks etdirir.

Ölkə iqtisadiyyatında neft sektoru həlledici rol oynasa da, son illər qeyri-neft sektorunun da fəaliyyətində canlanma hiss olunur. İqtisadiyyatın neft sektorundan asılılığının azaldılması və sənayenin hərtərəfli inkişafının təmin edilməsi iqtisadi siyasətin öncül istiqamətlərindən biri kimi müəyyən edilib. Ölkə başçısının təşəbbüsü ilə Dövlət İnvestisiya Şirkətinin yaradılması da qeyri-neft sektorunun inkişaf etdirilməsinə xidmət edir. Prezident İlham Əliyev əvvəlcə ölkəmizin inkişaf prioritetlərini müəyyən edən "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" fərmanı imzaladı, az sonra isə davamlı və tarazlı inkişafın təmin edilməsinə yönəldilmiş Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramını (2004-2008-ci illər) təsdiq etdi. Sosial-iqtisadi və institusional bloklar üzrə genişmiqyaslı konkret tədbirləri nəzərdə tutan regional inkişaf proqramı hazırda uğurla icra edilir. [10]

Prezident İlham Əliyevin Bakı Biznes Mərkəzində "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfransda nitqində söyləmişdir: "Birinci beşillik Proqramın icrası nəticəsində iş yerlərinin açılması ilə bağlı əvvəldən verilmiş proqnozlar daha da nikbin olmuşdur, 600 mindən çox iş yerləri açılmışdır ki, biz 2004-cü ildə bəyan etdiyimiz hədəflərə çata bildik. Ancaq bu proses ondan sonrakı dövrdə də davam etmişdir. 2009-cu ildə ikinci Dövlət Proqramı qəbul edilmişdir. Bu ilin sonunda bu Proqram başa çatacaqdır. Azərbaycan iqtisadiyyatı dünya miqyasında ən sürətlə inkişaf edən iqtisadiyyatdır. Ölkəmiz bu baxımdan bütün mötəbər beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilir. Hazırda Azərbaycanda müxtəlif layihələrdə iştirak edən yerli şirkətlərin sayı böyük dərəcədə artmışdır. Son 9 il ərzində on minlərlə yeni müəssisə yaradılmışdır ki, 2500-ə yaxın məktəb, 500-dən çox tibb müəssisəsi, 35 Olimpiya idman Kompleksi və digər sosialyönümlü obyektlər istifadəyə verilmişdir. İnfrastruktur layihələrinin icrası məsələləri daim diqqət mərkəzində olmuşdur. Ölkəmizdə demoqrafik vəziyyət müsbətdir. Birinci Proqram qəbul olunandan bu günə qədər əhalimizin sayı 1 milyon 86 min nəfər artıbdır. 2003-cü ildə əhalimiz 8 milyon 270 min, 2012-ci ildə 9 milyon 356 min olmuşdur. " [4]

Bu gün İlham Əliyevin rəhbərliyi ilə sosial-iqtisadi və siyasi sahədə həyata keçirilən genişmiqyaslı tədbirlər ölkəmizin hərtərəfli inkişafı üçün əlverişli imkanlar və yeni-yeni perspektivlər açır. Heç şübhəsiz, Heydər Əliyevin miras qoyduğu və İlham Əliyev tərəfindən uğurla yerinə yetirilən siyasət nəticəsində Azərbaycanın bugünkü dinamik inkişaf tempi onu ortamüddətli perspektivdə yüksək həyat səviyyəsinə, güclü iqtisadiyyata malik ölkələr siyahısına daxil edəcək və qafqazda öz liderliyini qoruyub saxlayacaqdır.

## ƏDƏBİYYAT


1. *Heydər Əliyev "Müstəqilliyimiz əbədidir", XXIII cild, Bakı, 2008, 217 səh*
2. *Xoşməramlı səfir, I kitab, Bakı, Şəms, 2005, 192 səh*
3. *İlham Əliyev "İqtibaslar və təhlil", Bakı, "Azərbaycan" nəşriyyatı, 2006, 328 səh*
4. *İlham Əliyev "Azərbaycan 2013-2003: əsrə bərabər illər: Regional inkişaf: modernləşmə və sahəvi ənənələrin qorunması", Bakı, Şərq-Qərb, 2013, 492 səh*
5. *İlham Əliyev "İnkişaf - məqsədimizdir: XXXI kitab: iyun 2008-avqust 2008", Bakı, Azərnəşr, 2016, 392 səh*
6. *İradə Hüseynova "Heydər Əliyev və Qafqazda sülh prosesi", Bakı, Çaşıoğlu, 2008, 672 səh*
7. *İradə Hüseynova "Müstəqil Azərbaycan dövlətinin qurucusu", Bakı, Təhsil, 2004, 472 səh*
8. *Məhərrəm Məmmədov "III Respublika: Milli inkişaf modeli və strategiyasi", Bakı, 2008, 216 səh*
9. *Ramiz Mehdiyev "Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi", Azərbaycan Milli Ensiklopediyası Nəşriyyatı, 2001, 276 səh*
10. *Ramiz Mehdiyev "Yeni siyasət: inkişafa doğru" I cild, Bakı, Oskar NPM, 2008, 581 səh*
11. *http://customs.gov.az/az/news-1609.html Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir*
12. *"Azərbaycan" qəzeti, 01.11.2003*


***Açar sözlər:*** *Heydər Əliyev, İlham Əliyev, prezident, sülh, siyasət, davamçı.*

***Ключевые слова:*** *Гейдар Алиев, Ильхам Алиев, президент, мир, политика, преемник.*

***Keywords:*** *Haydar Aliyev, Ilham Aliyev, president, peace, policy, successor.*

## SUMMARY

Heydar Aliyev's policy and continuation of this policy by Ilham Aliyev

Ilham Aliyev as a successful successor of the policy of Heydar Aliyev has taken important steps in developing and flourishing of the Republic of Azerbaijan.

## РЕЗЮМЕ

Политика Гейдара Алиева и в продолжение этой политики Ильхама Алиева

Ильхам Алиев как успешной преемника политики Гейдара Алиева предпринял важные шаги в развития и процветания Азербайджанской Республики.

# Region

# QAFQAZDA "YENİ BÖYÜK OYUN"- TÜRKİYƏNİN XARİCİ SİYASƏTİ

MURAD ƏSƏDOV
Bakı Dövlət Universiteti




Qafqaz Mərkəzi Asiya ilə Xəzər hövzəsinin Qara dənizə, Anadoluya və Avropaya açılmasına imkan yaradan, Rusiya, Türkiyə və İranın sabitliyinə təsir edən geosiyasi əhəmiyyətə malik bir regiondur(3;2014. 1). Şərq və Qərb, Şimal və Cənub arasında keçid bölgəsi olan Qafqaz, Soyuq Müharibədən sonra yeni yaranan dünya nizamında özünəməxsus yer tutan əhəmiyyətli regiondur. Türkiyə dünyanın ən əhəmiyyətli üç böhran bölgəsinin ortasında yerləşir. Bu regionlardan xüsusilə ikisi (Qafqaz və Yaxın Şərq) sahib olduqları enerji qaynaqları ilə dünya dövlətlərinin marağında olmaqla yanaşı, bu dövlətlərin rəqabət sahəsidir. Bu vəziyyətin region sabitliyi üçün müsbət olduğunu söyləmək isə bir qədər çətindir. Ümumiyyətlə, Qafqaz coğrafi mövqeyi etibarilə demək olar ki, Türkiyə ilə eyni coğrafiyada yerləşir. Belə ki, Anadolu və Qafqaz üçün istifadə edilən, "Kiçik Asiya" və "Ön Asiya" terminləri də bunun bir göstəricisidir. Bu coğrafi yaxınlıq, eyni zamanda bu bölgənin tarixi, demoqrafik, mədəni və siyasi inkişafına da müsbət təsir göstərmişdir. Bu səbəbdən, Türkiyənin Qafqaz və burada yeləşən dövlətlər ilə əlaqələrini inkişaf etdirməsini, ya da maraqlanmasını tələb edən bu yaxınlıq, eyni zamanda, SSRİ- nin dağılmasından sonra regionda meydana gələn bir çox şərtlər səbəbiylə daha çox əhəmiyyətli olmuşdur(5; 2002. 4-5).

SSRİ-in dağılmasından sonra Türkiyə xarici siyasətinin şəklini və məzmununu dəyişdirmişdi. Belə ki, Türkiyə Qafqaz və Mərkəzi Asiyada müstəqil respublikaların yaranmasını böyük bir coşğu ilə qarşılamışdır. Türkiyənin qarşısına çıxan bu yeni geosiyasi mühitdə yenidən öz xarici siyasətinə baxmaq məcburiyyətində qalmışdır. Türkiyənin Qafqaz xalqlarıyla mədəni, dil, tarix, soy birliyi və coğrafi yaxınlığının olması regionda aktiv bir siyasət aparmaq imkan verir ki, bu da onu Rusiya və İranla qarşı-qarşıya gətirmişdir. SSRİ-nin dağılmasından sonra "Adriatikdən Çin Dənizinə Türk Dünyası" ideyasının yaranması Rusiyanı olduqca narahat etmişdir. 1991-ci ilin əvvəllərində Türkiyədə mövcud olan Qafqaz ilə əlaqədar həddindən artıq coşğu, yaxın dövrdə yerini daha təmkinli və ölçülü bir siyasətə buraxmışdır. Bu ilk coşğu dövründə güc qazanan bu siyasətin təməlində böyük bir ehtimalla, radikal ruhlu İrana və Rusiyaya qarşı bir tarazlıq ünsürü olan dünyəvi Türkiyənin nüfuzunu təsdiq etmək dururdu(1;2004. 398).

Qafqaz haqqında müəyyən bir siyasi hazırlığı olmayan Türkiyə üçün, bu hadisələr təzyiq kimi olmuşdur. Bu səbəbdən ilk zamanlardan başlayan bu coşğu zəifləmişdi, bunun da əsas səbəbi Türkiyənin daxili iqtisadi və siyasi problemlərinin olması Qafqazda aktiv bir siyasət apara bilməməsinə səbəb olmuşdur. Həm də Türkiyə ciddi bir problemlə "Cənub-Şərq Anadolu Problemi" ilə məşğul olmaq məcburiyyətində qalmışdır.

SSRİ-nin dağılmasından sonra, Qafqaz regionunda yaranan boşluğu yeni yaranan dövlətlər tərəfindən doldurulması ilə yanaşı, Türkiyənin regionun bəzi dövlətlərilə yaxınlığı və Qərb blokunda etibarlı bir ölkə olması, ABŞ başda olmaqla Qərb dövlətləri tərəfindən məcbur edilən Türkiyə iqtisadi gücünün sərhədlərinin fərqində olaraq bu regiona yönələn siyasətini Qərb ilə əməkdaşlıq üzərindən qurmuşdur. Türkiyə qərbə inteqrasiya adı altında bu regiona yönəltməyə çalışmışdır. ABŞ isə ilk mərhələdə birbaşa deyil, Türkiyə vasitəsi ilə regiona nüfuz etməyə çalışmışdır. Bunun da əsas səbəbi Türkiyənin regiona qonşu olmasıyla yanaşı, tarixi əlaqələrinin olması idi. Avropa və Amerikanın Türkiyəyə olan etibarları isə Qərb ilə müttəfiq olması və bir çox xüsusiyyətləri ilə (demokratiya, insan hüquqları) region ölkələrinə model ola biləcəyi düşüncəsidir. Bu siyasət həm Türkiyənin regional liderlik iddiasına dəstək verəcək, həm də keçid dövrünü yaşayan region dövlətlərinə Qərb ünsürlərini təbliğ edəcəkdi(8; 2014.132). Lakin sonrakı proseslər göstərdi ki, ABŞ və Avropa ölkələri Qafqaz və Mərkəzi Asiya siyasətlərində Türkiyənin vasitəçiliyinə ehtiyac duymadan hərəkət etmişdirlər.

Xüsusilə, 1992-ci ildən sonra Qərb dövlətləri Rusiya lehinə öz siyasətlərində dəyişiklik edərək Türkiyəni Qafqazda yalnız buraxmışdılar. Bunu Qərb bloku ilə Rusiya arasındakı danışıqlar prosesi, Azərbaycandakı hadisələr, Dağlıq Qarabağ problemi və Bakı neft boru xətti kimi lahiyələrdə açıqca görmək mümkündür. Bütün bu proseslərdə maddi və mənəvi potensialı ilə tək başına hərəkət etmək məcburiyyətində qalan Türkiyə qarşısında Qərb dövlətlərinin rəftarı düşündürücüdür. Bütün mənfi şərtlərə baxmayaraq, Türkiyə iqtisadi və siyasi problemlərini həll edib, Avropa ilə inteqrasiya olunma məqsədində irəlilədiyi zamanda Qafqaz dövlətlər üçün bir ümid mərkəzi olaraq Rusiyanın təsirini ortadan qaldıra biləcəkdir. Lakin Türkiyənin, qısa bir zaman kəsiyində AB-yə(Avropa Birliyi) inteqrasiyası çətindir. Azərbaycan neftnin daşınmasında da aydın olurdu ki, Türkiyə Qərbin dəstəyini əldə edə bilmədiyi müddətcə çətinlik çəkmək məcburiyyətində qalacaqdır. Bu çərçivədə, Türkiyənin ən əhəmiyyətli strategiyası Qərblə birlikdə hərəkət edərək, Qafqazın təkrar rus hakimiyyətinə girməsinə

mane olmağa çalışmaqdır.

Qloballaşan dünyada çox şaxəli olan türk xarici siyasətinin Qafqaz regionunda apardığı siyasəti iki başlıq altında vermək olardı.

1. Cənubi Qafqazda sülhün və təhlükəsizliyin bərpası.

2. Cənubi Qafqazda mümkün qədər çox tərəfliliyin həyata keçirəcəyi iqtisadi əlaqələr platforması.

Bunun üçün Türkiyə Cənubi Qafqazda fəal siyasət həyata keçirməlidir. Lakin bu siyasəti hələ də istənilən nəticəni verməmişdir. Həm siyasi, həm də iqtisadi baxımdan bu əlaqələrin qorunmasına maneələr törədən bir çox amillər vardır. İstərsə bu regiondakı məsələlər, istərsə də böyük dövlətlərin region üzərindəki mübarizələri Türkiyə üçün siyasi və dolayısıyla iqtisadi bir mane yaratmışdır. Belə ki, region xalqları arasındakı sovet zamanında olan düşmənçilik də burada bir siyasi əlaqələrin həyata keçirilməsinə maneə olan digər bir amil olmuşdur.

Həm də region boru xətlərinin keçəcəyi və keçdiyi tranzit yol üzərində yerləşməsiylə yanaşı, Türkiyənin müdafiə etdiyi və fəaliyyətə başlayan Bakı-Tiflis-Ceyhan boru xətti xüsusi əhəmiyyət kəsb etməkdədir. Bu xətt regiondan Türkiyə vasitəsi ilə Ceyhan limanına qədər nefti təhlükəsiz çatdırmasına imkan yaradır. Niyə Ceyhan limanı? Çünki Ceyhan limanı 2 ədəd 300 min tonluk, 2 ədəd 150 min tonluk tanker yerləşə bilir ki, bu da 120 milyon ton yük deməkdir(7;1999.81). Bu xətt irəlidə Qazaxıstan, Türkmənistan və hətta Özbəkistanın da neftinin Qərb bazarlarına təhlükəsiz daşınmasında imkan yaradacaqdır. Regionda zəngin qaynaqları olmasıyla yanaşı, ticarət potensialının da Türkiyə üçün böyük əhəmiyyəti vardır. Ümumiyyətlə, Xəzər hövzəsi ölkələrinin zəngin yeraltı və yerüstü qaynaqları ilə əkinçilik məhsullarının Türkiyədən keçərək dünya bazarlarına çatdırılması regionun iqtisadi inkişafı ilə yanaşı, Türkiyənin iqtisadi inkişafının sürətlənməsində əhəmiyyətli rol oynayacaqdır. Həm də başlıcası enerji qaynaqların bir hissəsinə Türkiyənin də ehtiyacı var. Xəzər hövzəsində çıxarılan neft və təbii qazın fasiləsiz axını həm Türkiyənin, həm də Avropanın enerji təhlükəsizliyi baxımından mühüm əhəmiyyət kəsb edir. Türkiyənin xüsusilə, Rusiya və İranadan enerji asılılığını nəzərə alsaq, Azərbaycan-Gürcüstan yolunda daşınan neft və təbii qazın olduqca qiymətlidir. Azərbaycanın qaynaqlarına əlavə olaraq Qazaxıstanın neft və Türkmənistanın təbii qaz ehtiyatlarının çoxluğu isə Azərbaycan-Gürcüstan-Türkiyə marşrutu ilə daşınacaq enerjinin dünya bazarlarına böyük potensialı olacağını göstərir(3; 2014.3-4 ).

Türkiyənin Cənubi Qafqaz ilə, iqtisadi bütövlük təşkil etməsi onu Çin, Rusiya, Hindistan, Şərq Avropa və Orta Şərq ölkələrinin bəxş etdiyi geniş bazar imkanlarından, maksimum dərəcədə faydalanmaq və inkişaf etmiş ölkələrlə hər sahədə sərbəst rəqabət gücü qazanmağı təmin edəcəkdir. Türkiyənin AB-yə girmək səyləri davam edərkən yeni bir alternativ olaraq, Şərq bazarına yönəlməsi iqtisadi gücünü artıracaqdır. SSRİ-nin dağılmasından sonra Qafqazda Rusiya ilə Türkiyənin ortaq sərhədi qalmamışdır. Bu səbəblə, bu regionda yeni sabitlik yaratmaq, Türkiyənin təhlükəsizliyi baxımından çox əhəmiyyətlidir. Türkiyə xüsusilə də, Mərkəzi Asiya və Qafqaz ümumiyyətlə, Asiyanın Türkiyə üçün bir inkişaf sahəsi olduğunu başa düşməkdədir.

Rusiyanın mövcud problemləri və iqtisadi çətinlikləri yanında, hərbi gücü, mədəni, iqtisadi, demokratik quruluşu çərçivəsində təşkil etdiyi potensial təhlükə qarşısında, Qafqazın "barış qurşağı" və Rusiya ilə bir "təhlükəsiz bölgə" təşkil etməsi, Türkiyə üçün son dərəcə əhəmiyyət daşımaqdadır. Ümumiyyətlə, müasir təhlükəsizlik kompleksina görə təhlükəsizlik kompleksi "əsas təhlükəsizlik anlayışı qayğıları beynəlxalq problemleri ağıllı olaraq bir-birindən ayrı şəkildə analiz edilə bilməyən və ya həll edilə bilməyən dövlətlər birliyi" olarak tanımlanır(4;2010. 2).

Lakin Rusiya öz məqsədlərini həyata keçirmək üçün etnik münaqişələrə kömək etməklə bu regionda sülh və təhlükəsizliyi pozaraq buradakı dövlətləri özündən asılı vəziyyətə salmağa çalışır. Belə problemlər region dövlətlərinin iqtisadi inkişafı üçün maneə yaradır. Bu vəziyyət, regionda fəaliyyət göstərən türk şirkətlərinə də mane yaradır. Transqafqazda investisiya qoymaq türk iş adamları tərəfindən riskli olaraq qiymətləndirilmişdir ki, bu səbəbdən, onun yerinə daha sabit və böyük bir bazar olan Rusiya seçim edilmişdir.

Ümumiyyətlə, Rusiya keçmiş İttifaq dövlətlərində olan maraqlarından imtina etmədi, sadəcə olaraq təsir mexanizmlərini dəyişdirərək bu ölkələrdə nüfuzunu saxlamaq üçün ənənəvi metodlarını işə saldı. Rusiyanın Qafqazda olan hərbi varlığı da, Türkiyənin təhlükəsizliyi baxımından böyük əhəmiyyət daşıyırdı. Həm də Rusiya bu bölgəni, "arxa bağçası" başqa bir ifadəylə, "yaxın ətrafı" olaraq xarakterizə etməklə təsir sahəsində gücləndirməyə çalışır. 2000-ci ildə Rusiyanın yeni hərbi doktorinasının qəbul edilməsi onu xarici siyasətində dəyişikliklər yaratdı. Belə ki, Rusiya bu doktorinaya görə silahlı münaqişələrin həllində hərbi yoldan çəkinir və münaqişələrin danışıqlar yolu ilə həllinə üstünlük verirdi, lakin 2008-ci il avqust hadisələri bunun əksini göstərdi.

Türkiyə üçün Qafqazın nə anlama gəldiyini bilmək üçün burada həyata keçirilən lahiyələrin həyata keçməsinin nə kimi məna daşıdığını anlamaqla daha yaxşı başa düşmək olar. Türkiyə tərəfindən Qafqazın önəmi Xarici İşlər nazirliyinə görə belə qiymətləndirilmişdir; "Şərq və Qərb, Cənub və Şimal arasında keçid bölgəsi olan Qafqaz, Soyuq müharibə sonrası dünya nizamında Avrasiyada qurulan eneji xətlərinin kəsişdiyi nöqtədə yer almaqdadır. Bu mövqeyilə strateji mövqeyin daha da inkişaf edən region bütün Avrasiyada sabitlik və sülhün təsisi



baxımından da gedərək artan bir əhəmiyyətə sahib olmuşdur(2;1998.8).

Sovet İttifaqının dağılmasıyla Türkiyə Qafqazda yeni yaranan dövlətlərin müstəqilliklərini, heç bir ayrı-seçkilik qoymadan tanımış, region ölkələri olan Azərbaycan, Gürcüstan və Ermənistan ilə əməkdaşlıq arzusunu ortaya qoymuşdur. Bu çərçivədə, Türkiyə əsas məqsədi bu dövlətlərin müstəqilliklərinin gücləndirilməsi, ərazi bütövlüklərinin qorunması və iqtisadi potensiallarının həyata keçirilməsində əhəmiyyətli rol oynamaqdır. Türkiyə həm də region dövlətlərinin NATO, ATƏT, AB, Avropa-Atlantik və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı kimi regional təşkilatlarla inteqrasiya olunmalarında aktiv şəkildə dəstəkləməkdədir. Bu dəstəyin təməl səbəbi, Türkiyənin, SSRİ sonrası, müstəqil olmuş yeni respublikaların dünya ilə inteqrasiya olunmaları, bu respublikaların güclənmələrinə və beləcə Rusiyanın bu respublikalar üzərindəki təsirinin azalacağına olan inanmıdır.

Türkiyə Qafqazada sülhü qorumaq məqsədi ilə fəal siyasət aparmalı və bir neçə problemi həll etməlidir. Bunları belə sıralamaq olar:

- Qafqazda Rusiya ilə Türkiyə arasında bir təhlükəsiz, "Barış Qurşağı"nın yaradılması,
- Gürcüstan və Ermənistan ilə dostluq və sülhün qorunması, Azərbaycan ilə isə dostluq, qardaşlıq və mümkün olan hər sahədə strateji əməkdaşlığın inkişaf etdirilməsi,
- Region dövlətlərinin çoxunun türk və müsəlman olması və ümumiyyətlə, Türkiyəyə yaxın dil və din baxımımdan region xalqları ilə sosial-iqtisadi və siyasi əlaqələr qurulmasının təmin edilməsi,
- Strateji yeraltı zənginliklərin və neft yataqları ilə əlaqədar, uyğun xammal və bazar imkanı meydana gətirilməsi,
- Rusiyanın əsas məqsədi cənuba "isti dənizlərə" çatmaqdır ki, bu səbəbdən region Türkiyə üçün bir təhlükə yaradır;
- Xəzər hövzəsindəki enerjinin bu yol üzərindən Türkiyəyə və beynəlxalq bazarlara daşınması təmin edilməli, Xəzər dənizindən keçəcək boru xəttləri üçün inkişaf etdirilən layihələr dəstəklənməlidir. Qazaxıstan neftinin və Türkmənistan qazının Xəzər dənizi və Azərbaycan-Gürcüstan marşrutu ilə daşınması təmin edilməli, Türkiyə-Azərbaycan-Qazaxıstan və Türkiyə-Azərbaycan-Türkmənistan arasında başladılan üçlü danışıqlar davam etdirilməlidir

Türkiyə regionun ən güclü və müasir ordusuna sahib bir ölkəsidir. Türkiyə Qafqazda böyük bir nüfuza malik, daha doğrusu soy birliyi və dil bənzərliyi olma üstünlüklərinə sahib bir ölkədir. Türkiyə Avrasiyanın enerji koridoru və enerji terminalıdır. Belə ki, Avrasiyada qurulan enerji və daşınma yollarının kəsişdiyi nöqtədə yerləşməsiylə və Qafqaz regionun əhəmiyyətini də artırır. Bununla yanaşı, Qafqaz regionundakı sabitlik və təhlükəsizlik, Türkiyənin öz təhlükəsizliyi və sabitliyi baxımından xüsusi əhəmiyyətə malikdir. Qafqaz Türkiyənin Mərkəzi Asiyaya açılan təbii qapısı olmaqla yanaşı, Türkiyənin Qafqaz regionundakı xalqlarla siyasi, iqtisadi, ictimai və mədəni bağların da olması bu regionun əhəmiyyətini bir qədər də artırır . Regionda sülhün və əməkdaşlığın qorunması, Türkiyə üçün böyük əhəmiyyət daşıyır(6;.2006).

Türkiyənin təşəbbüskar gənc insan gücü potensialına malik bir ölkə olması onun Qafqazda gedən proseslərə müdaxilə etməsinə imkan verir. Lakin avqust 2008-ci il Rusiya–Gürcüstan münaqişəsi bir daha göstərdi ki, Qafqaz regionunda təhlükəsizlik nə qədər zəifdir. Sülhün və təhlükəsiz bir mühitin təmin edilməsinin region dövlətlərinin gələcəyi baxımından nə qədər əhəmiyyətli olduğunu bir daha diqqət mərkəzinə çəkmişdir. Lakin Qərbin və Türkiyənin regionada daha aktif və təmkinli siyasəti buradakı dövlətlərin qarşısında yeni fürsətlər yarada bilər. Cənubi Qafqazda yerləşən Ermənistan və Gürcüstan ilə Türkiyə arasında yarana biləcək bir dostluq və barışığın olması bu ölkələrin faydasına olacaqdır. Azərbaycan isə bəzi maneələrin baxmayaraq, dostluq, qardaşlıq və əməkdaşlığın sərhədsiz şəkildə davam etdirilməsi mümkündür. Qafqazda sülhün olması, Türkiyə üçün son dərəcə vacibdir.

Sovet İttifaqının mirasına sahiblənən Rusiya, bütün gücü və imperialist idealları ilə Anadoluya ən böyük təhlükə yaradır. Qafqaz Türkiyə ilə Rusiya arasında bir təhlükəsiz region olaraq, əhəmiyyətini gedərək artırmaqdadır. Qafqazın, müstəqil və dinc dövlətlərdən ibarət olan bir quruluşa qovuşması, Türkiyənin də təhlükəsizlik vəziyyətində olmasını təmin edəcəkdir. Türkiyənin əsas məqsədi Mərkəzi Asiyaya açılan qapısı olan Qafqazda bütün ölkələrlə yaxşı əlaqələrdə olmaq və bu coğrafiyada sabitliyin təsis edilməsinə kömək edə bilməkdir. Rusiyanın Qafqazdakı nüfuzunu artırmasının maneə olmaq üçün, Türkiyənin Gürcüstan və Azərbaycanın təhlükəsizlik narahatlıqlarının aradan qaldırılmasında da yaxından köməklik etməli və bu istiqamətdə hər sahədə yardımlar göstərməlidir.

## ƏDƏBİYYAT

*1.Bal İdris.Türkiye-Ermenistan İlişkileri. XXI əsrin türk xarici siyasəti. Nobel yayımları. Ankara 2004.*

*2.Gachechiladze Revaz. Making of the new Georgia. Development Factors-Plusses and minuses. Caucasian Regional Studies.Cilt 3. No 1. 1998.*

*3.Kafkasya'daki gelişmeler ve Türkiye. Hesabat NO 6 2014*

*4.Katman Filiz. Yeni Büyük Oyun, Güney Kafkasya ve NATO. EURAS Academic Journal, 2010,*

*5. Savaş Yanar. Türk-Rus İlişkilerinde Gizli Güç Kafkasya, IQ Kültür Sanat ve Yayıncılık, İstanbul 2002*

*6.T.C.Dışişleri Bakanlığı, Türkiye-Güney Kafkasya Ülkeleri İlişkileri, http://www.mfa.gov.tr/Turkce/grupa/Kafkasya.htm 04.10.2006*

*7.Türkiye - Rusya ilişkilerindeki yapısal sorunlar ve çözüm önerileri. Yayın No. TÜSÜAD-T/99-264 1999.*

*8. Tüysüzoğlu Göktürk. Türk Dış Politikasında İstikrarın Adresi: Gürcistan: Türkiye-Gürcistan İlişkileri Üzerine Bir Değerlendirme. Türkiye Alim Kitapları İstanbul 2014*

***Açar sözlər:*** *Türkiyə, Şərq, Qərb,Qafqaz, Gürcüstan, enerji*
***Key words:*** *Turkey, East, West, Caucasus, Georgia, energy*
***Ключ слово:*** *Турция, войны, Восток, Запад, Кавказ, Грузия, энергетика*

## SUMMARY

The article has been talking about the relationship the Caucasus region's history, culture, race, language, religion, closely related to the safety of the east, economic, political and military cooperation and solidarity in Turkey's foreign policy. Along with it researched other power centers in the region, aimed at the economic, political, military and cultural interests of the challenges and their effects posed by Turkey

## РЕЗЮМЕ

В статье рассматривается внешняя политика Турции в Кавказском регионе, с которой связывает их история, культура, происхождения, язык и религия, а также общие интересы восточной безопастности, экономика, политика и военное сотрудничество и солидарность. На равне с этим в статье исследуется созданные проблемы для Турции и влияние интересов других центральных сил направленных в области экономики, политики, военной и культурных сферах.

# İqtisadiyyat

## QLOBAL İQTİSADİ ÇAĞIRIŞLAR ŞƏRAİTİNDƏ STRATEJİ YOL XƏRİTƏLƏRİNİN HƏYATA KEÇİRİLMƏSİNDƏ LOGİSTİKA SİSTEMİNİN ƏHƏMİYYƏTİ

ALMAZ HƏMİDOVA
Sumqayıt Dövlət Universiteti



Qlobal iqtisadi çağırışlar dərinləşdikcə və intensivləşdikcə özləri ilə yeni yanaşmalar, yeni şərtlər formalaşdırır, daha mürəkkəb fəaliyyət elementləri gətirir. Qlobal iqtisadi böhranlar dünyanın istənilən ölkəsində və istənilən qitəsində təsir gücünə malik olduğundan, bu çağırışlara rəğmən fəaliyyət istiqamətləri və mexanizmləri yenilənməli, təkmilləşdirilməli və kifayət qədər məhsuldar elementlərlə, daha iti alətlərlə zənginləşdirilməlidir. Müasir dünyanın iqtisadi çağırışlarında və tendensiyalarında fəal mal mübadiləsinin təşkili, alqı-satqı proseslərinin intensivliyi, beynəlxalq ticarətin səmərəli təşkili, dünyada qeyri-bərabər bölüşdürülmüş resurs və xammal potoklarından maksimumu effektiv istifadə edilməsində logistika sisteminin mühüm əhəmiyyəti vardır.

Hazırda ölkəmizdə milli iqtisadiyyatın strateji hədəflərinin müəyyənləşdirildiyi və icrasına başlanıldığı bir şəraitdə logistika sisteminin əhəmiyyəti birəbeş artmışdır. Azərbaycan Respublikası Prezdentinin 2016-ci il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsində qeyd edilir ki, logistika... sürətlə qloballaşan dünyada iqtisadi artımın mühüm təkanverici qüvvəsinə çevrilməklə, əsas sektorlarda birbaşa xarici investisiya qoyuluşlarının həcmini artırmağa şərait yaradır. Hesablamalar göstərir ki, inkişaf etmiş nəqliyyat və logistika sistemi ÜDM-də 3 %-dək birbaşa artıma imkan verir[1, s.5]. Təəssüf ki, ölkəmizdə müasir standartlara və meyarlara cavab verən logistika sistemi və logistika institutu hələlik formalaşdırılmayıb. Sovetlər birliyi dönəmində logistika sistemi arxa planda qalmışdı. Belə ki, xammal resurslarının formalaşdırılması və bölüşdürülməsi mərkəzdə-Moskvada aparıldığından logistika sisteminin inkişafına ehtiyac duyulmurdu[2] Digər tərəfdən respublikaların və müəssisələrin statusu müstəqil logistika sisteminin və logistika konsepsiyasının formalaşdırılmasına və reallaşdırılmasına imkan vermirdi. Amma indi ölkəmiz müstəqil dövlətdir və müstəqilliyin bərpasından keçən dövrdə əksər sahələrdə əhəmiyyətli inkişaf yolu keçmişdir. Son illərdə milli iqtisadiyyatımızın strateji hədəflərinin yenidən baxılması və qlobal iqtisadi çağırışlar nəzərə alınmaqla modelləşdirilməsi logistika sisteminin əhəmiyyətini önə çıxarmışdır.

Qeyd edək ki, logistika sisteminin milli iqtisadiyyatın müxtəlif sahələrinin inkişafında rolu durmadan artmaqdadır. Bu ilk növbədə, bazar iqtisadiyyatı və qlobal iqtisadi çağırışlar şəraitində təsərrüfat-kommersiya fəaliyyətinin optimallaşdırılması, məhsulların maya dəyərinə çəkilən xərclərin azaldılması, xammal potoklarının və hazır məhsulların bütün hərəkət tsikli boyunca səmərəli nəqlinin və daşınmasının təmin edilməsi, istehsal prosesi və kommersiya münasibətləri iştirakçılarının ümumi maraqlarının maksimum qorunması, məhsulların daşınması zamanı itkilərin azaldılması, mürəkkəb istehsal proseslərinin fasiləsizliyinin təmin edilməsi və s. birbaşa bağlıdır[3].

Ölkəmiz üçün kifayət qədər əhəmiyyətli milli iqtisadiyyat sektorlarından biri kimi xarakterizə olunan kimya və neftkimya sektoru da belə iqtisadiyyat sahələrindəndir. Kimya və neftkimya sektorunun güclü ixrac potensialı vardır və bu sahənin balanslaşdırılmış inkişafı ixrac təyinatlı rəqabət qabiliyyətli məhsulların istehsalını artırmağa və ölkəmizə əlavə valyuta vəsaitlərinin gətirilməsində məhsuldar rol oynaya bilər[4]. Hazırda ölkəmizdə kimya və neftkimya sektorunun müasir istehsal gücləri və yeni müəssisələri yaradılmaqdadır. Ölkə Prezdentinin təşəbbüsü və nəzarəti altında nəinki ölkəmizin, regionun əsas kimya və neft-kimya mərkəzi olan Sumqayıt şəhərində müasir infrastruktura malik Kimya Sənayesi Parkı yaradılmışdır[5]. Bu parkda bir-birinin ardınca yüksək texnologiyalar əsaslı yeni müəssisələr istismara verilir və şübhəsiz həmin müəssisələrin xammal təminatının

və hazır məhsul göndərişinin fasiləsiz təşkili əsas etibarı ilə logistika sisteminin maksimum səmərəli fəaliyyətindən asılıdır. Bu parkda iri məhsuldarlığa malik kimya və neftkimya qurğuları ilə yanaşı, müasir logistika sisteminin yaradılması da nəzərdə tutulmuşdur[6]. Digər tərəfdən, keçmiş SSRİ-də və Şərqi Avropada ən məhsuldar və səmərəli neftkimya qurğularından biri olan "EP-300" SOCAR-ın "Azərikimya" İB-də- Sumqayıtda fəaliyyət göstərir. "EP-300" qurğusunun əsas təyinatı ilkin emal və ya müxtəlif karbohidrogen məhsullarının priolizi nəticəsində alınan piroqazı rektifikasiya etməklə əsas məhsul kimi-etilen, propilen, əlavə məhsullar-butilen butadien fraksiyası, yüngül piroliz qətranı, ağır qətran və s. qiymətli yarımfabrikatlar, xammal resursları almaqdan ibarətdir. Qurğunun layihə gücü ildə 300 min ton etilen və 136 min ton propilen istehsal etməyə imkan verir[7, s. 26]. Göründüyü kimi, hələ hazırda mövcud qurğularda belə əlavə dəyər yarada biləcək məhsulların istehsalının artırılması üçün kimya və neftkimya sektorunda kifayət qədər ehtiyat mənbələri vardır və onlardan səmərəli istifadə səviyyəsi aşağıdır. Logistika sisteminin bu sektorda güclü inkişafı qurğunun tam istehsal potensialına uyğun yüklənməsinə, məhsul istehsalının əhəmiyyətli səviyyədə artırılmasına imkan verər. Digər tərəfdən, mövcud xammal və hazır məhsul potokları və yaxın perspektivdə istifadəyə veriləcək iri kimya və neftkimya müəssisələrinin istehsal gücü və xammal tələbatı nəzərə alınmaqla, logistika sisteminin əhatə edə biləcəyi xammal və yük potokunun 3 mln. tonadək artacağı gözlənilir. Bu baxımdan kimya müəssisələrinin logistika sisteminin iqtisadi səmərəliliyinin və daha məhsuldar fəaliyyətinin təşkili mühüm əhəmiyyət kəsb edir. Milli iqtisadiyyatın gəlirli sahələrindən olan kimya və neftkimya sektoruna daxil olan müəssisələrdə logistika sisteminin inkişaf etdirilməsinin əhəmiyyətini aşağıdakı amillərlə əsaslandırmaq mümkündür:

-logistika sisteminin səmərəli təşkili ilə kimya və neftkimya müəssisələrinin fasiləsiz olaraq xammal və materillarla təmin edilməsində etibarlı fəaliyyət sistemi formalaşdırılır;

-kimya və neftkimya müəssisələrində uzunmüddətli fasiləsiz fəaliyyət və istehsal, satış hədəfləri nəzərə alınmaqla xammal və materiallara, yükdaşımalara olan tələbatların sistemli və kompleks baxılması, öyrənilməsi, texniki-iqtisadi əsaslandırılması, hüquqi-təşkilati tədbirlərin görülməsi, kommersiya münasibətlərinin formalaşdırılması və fəaliyyətinin təşkili mümkünləşir;

-istehsal proseslərinin və kimya müəssisələrinin bütövlükdə fəaliyyətinin effektivliyinin artırılmasına imkan verən tədbirlərin görülməsi, məsələn maya dəyəri xərclərinin və əlavə xərclərin, o cümlədən nəqliyyat və bunlarla bağlı əlavə xdmət xərclərinin optimallaşdırılmasına əlverişli şərait yaranır;

-kimya və neftkimya müəssisələrinin sərəncamında olan və əlavə cəlb edilmiş nəqliyyat vasitələrindən, icarəyə götürülmüş dəmiryolu vaqonlarından, digər texniki vasitələrdən istifadənin səmərəliliyinin yüksəldilməsi tədbirlərinin genişləndirilməsinə əlavə imkanlar formalaşır;

-qlobal təsirlərin gücləndiyi və təhlükələrin artdığı bir şəraitdə kimya və neftkimya müəssisələrinin ixrac potensialının artırılmasına, dünya bazarlarına daha sərfəli şərtlərlə çıxışın təmin edilməsinə, rəqabət mühitində müəssisələrin manevrlilik imkanlarının yüksəldilməsinə, boş dayanmalara və itkilərə yol verilməməsinə, satış konsepsiyası üzrə hazır məhsul hərəkətinin alıcılara çatdırılması proseslərinin maksimum səmərəli təşkilinə, müəssisənin fasiləsiz iş rejiminin təmin edilməsi üçün xammal və material ehtiyatlarının daha effektiv idarə edilməsinə münbit şərait yaradır və s.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.
2. Əliyev Ş.T. Azərbaycanın kimya və neft-kimya kompleksinin qiymətləndirilməsi və yenidən qurulması istiqamətləri. Bakı, "Elm və təhsil", 2012.- 156 s.
3. Гамидова А.М., Касумова З.М. Важность ускорения повышения эффективности логистики и логистической системы в условиях углубления мирохозяйственных процессов// Журнал Научное обозрение, Москва, №24, 2016.- С. 236-241.
4. Əliyev Ş.T. Sumqayıt sənaye kompleksinin ölkəyə valyuta resursları gətirilməsində rolunun gücləndirilməsi məsələləri// Audit jurnalı, № 4, 2016.- S. 45-50.
5. Sumqayıt Kimya Sənaye Parkı. http://www.scip.az.
6. Logistika. Sumqayıt Kimya Sənaye Parkı. http://www.scip.az.
7. Əliyev Ş.T. Sumqayıt sənaye mərkəzi: mövcud potensialdan istifadə, modernləşdirmə və müasirləşdirmə prioritetləri. Bakı: "Elm və təhsil", 2012.- 196 s.


Açar sözlər: strateji yol xəritəsi, kimya və neftkimya müəssisələri, logistika sistemi, logistika sisteminin səmərəliliyi, qlobal iqtisadi çağırışlar.

Ключевые слова: стратегическая дорожная карта, химическая и нефтехимическая предприятия, логистическая система, рациональность логистической системы, глобальные экономические вызовы.

Key words: strategic road maps, chemical and petrochemical enterprises, logistic system, rationality of logistic system, global economic challenges.

## РЕЗЮМЕ

В статье исследованы важность логистической системы в осуществлении стратегических дорожных карт в условиях глобальных экономических вызовов. С этой целью анализировано роль химических и нефтехимических предприятий в развитии национальной экономики и важности развития логистической системы в них. Обосновано необходимость расширения деятельности логистической системы в химических и нефтехимических предприятиях.

В конце статьи даны предложения и рекомендации по важность логистической системы в осуществлении стратегических дорожных карт в условиях глобальных экономических вызовов.

## SUMMARY

The importances of logistics system in the implementation of strategic road maps in the face of global economic challenges are explored in the article. The role of chemical and petrochemical enterprises in the development of the national economy and the importance of the development of logistics system in them are analyzed with this purpose. Justified by the need to expand the activities of the logistics system in chemical and petrochemical plants.

The suggestions and recommendations on the importance of logistics system in the implementation of strategic road maps in the face of global economic challenges are given at the end of the article.

# MÜƏSSİSƏNİN TƏSƏRRÜFATÇILIQ FƏALİYYƏTİ VƏ ONUN YAXŞILAŞDIRILMASI İSTİQAMƏTLƏRİ

ELNARƏ ƏHMƏDOVA
Sumqayıt Dövlət Universiteti




Qeyd edək ki, insan potensialının öyrənilməsi digər elmlərlə yanaşı, iqtisadiyyat elminin də əsas fəaliyyət sahələrindən biri olaraq qalır. İnsan potensialının əsas komponentlərinin təsdiqi: onun sağlamlığı, yaradıcılığı, fəallığı, təhlili və peşəkarlığı-insanın əmək fəaliyyətinin əsasını təşkil edir. İnsan potensialının göstərilən komponentlərinin hər birinin formalaşması və inkişaf etdirilməsi cəmiyyətdə həm dövlət səviyyəsində, həm də ayrı-ayrı sahələr, şirkətlər və müəssisələr səviyyəsində aparılan sosial-iqtisadi fəaliyyət sahələrinin inkişaf səviyyəsindən asılıdır. Hər bir ölkənin iqtisadi inkişaf səviyyəsi onun həyata səmərəli sosial siyasətilə müəyyənləşir. Bir qayda olaraq, sosial sahələrin inkişafına ayrılan dövlət vəsaitlərinin dövlət büdcəsində xüsusi çəkisi yüksək olan ölkələr, dünyanın iqtisadi cəhətdən ən inkişaf etmiş ölkələri siyahısına daxildirlər[1]. Müasir bazar iqtisadiyyatı şəraitində milli iqtisadiyyatın əsasını müəssisələrin təsərrüfatçılıq fəaliyyəti təşkil edir. Son məhsul və xidmətlər çoxluğu, ölkənin milli gəlirinin əsası burada formalaşır. Ayrıca götürülmüş hər bir müəssisə mənfəət əldə etməyə səy göstərməklə, ölkənin milli gəlirini gormalaşdırır və bununla da o cəmiyyətin mənafeyinə xidmət etmiş olur.

Məlumdur ki, müəssisə müstəqil surətdə fəaliyyət göstərən və mövcud qaydada qeydiyyatdan keçmiş hüquqi şəxsdir. Mövcud qaydada qeydiyyatdan keçmiş müəssisə, seçmiş olduğu istehsal fəaliyyətini həyata keçirmək üçün müəyyən miqdarda kapitala malik olmalıdır və bu kapital ilkin kapitaldır. İlkin kapital pul formasındadır, çünki pulla istənilən digər kapital formalarını əldə etmək mümkündür. Aydındır ki, kapitalın sahibkarın ixtiyarında yalnız pul formasında olması vacib deyil. Dünya təcrübəsi göstərir ki, bir sıra istehsal sahələri mövcuddur ki, həmin sahələrdə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq gəlirli sayılır. Bu sahələrin inkişafına yönəldilmiş kapital qoyuluşu, tezliklə maliyyə müvəfəqiyyətinin qazanılmasına imkan verir. Həmin sahələr aşağıdakılardır: müxtəlif işgüzar xidmət sahələri; ictimai iaşə sahələri; ticarət; avtomobil təmir sahəsi; mənzil tikintisi sahəsi; informasiya- kommunikasiya üzrə xidmət sahələri və s. Kapitalın hansı istehsal sahəyə yönəldilməsini qərara almış sahibkar daha sonra istehsal prosesinin həyata keçirilməsini təmin edə bilən istehsal resurslarını əldə edir. Sahibkar torpaq sahiblərindən ya bir başa alqı-satqı yolu ilə aldığı, ya da uzun müddətə icarəyə götürdüyü torpaq sahəsində istehsal məqsədlərini həyata keçirmək üçün müvafiq istehsal bazasını təşkil edir. Bu məqsədlə sahibkar digər istehsal istehsal resursları: əmək vasitələrini təşkil edən maşın, mexanizm, alət və avadanlığı və eləcə də məhsuldar qüvvə olan işçi qüvvəsini "işə" cəlb edir. İşçi qüvvəsi əmək vasitələrinin köməyi ilə əmək cisimlərinə təsir göstərir, onları insan tələbatlarını ödəyə bilən formaya salır. Sahibkar bazar iqtisadiyyatının əsas qanunları olan tələb, təklif, rəqabət və qiymət qanunlarının tələbləri ilə hesablaşmalıdır. O, istehsal amillərinin əldə olunması və istehsal prosesinin təşkili zamanı, habelə istehsal etmiş olduğu məhsulları bazara çıxararkən həmin qanunların tələblərini nəzərə almalıdır. Sahibkar bu qanununların tələblərinə əsaslanaraq

seçmiş olduğu istehsal sahəsində gözlənilən mənfəəti qabaqcadan planlaşdırmalı və istehsalın yüksək səmərəliliyinə, gəlirliliyinə nail olmalıdır:

- kifayət qədər yüksək əmək məhsuldarlığını təmin edə bilən mütərəqqi texnika və texnologiyanın tətbiqi;
- müasir idarəetmə sistemlərinin, yəni istehsalın və əməyin təşkilinin səmərəli formalarının tətbiqi;
- müəssisənin maliyyə- təsərrüfat fəaliyyətini xaraktarizə edə bilən səmərəli göstəricilər sistemindən və planlaşmanın üstünlüklərindən istifadə olunması;
- həm işverənlər üçün, həm də işçilər üçün səmərəli olan əmək münasibətlərinin tətbiqinə nail olmaq, müəssisədə normal iş şəraitinin təmin olunması və müəyyən sosial güzəştlərin tətbiqi;
- istehsal olunmuş son məhsul və xidmətlərin tezliklə istehlakçılara çatdırılması, məhsul satışının təşkili.

Müəsisənin təsərrüfatçılıq fəaliyyətinin təşkilində digər məsələlərə də diqqət yetirilməlidir [2]:

- Müəssisənin biznes planının tərtib edilməsi;
- Müəssisədaxiliplanlaşmanıntəşkili;
- Müəssisəniniqtisadigöstəricilərsistemindənistifadəedilməsi;
- Müəssisədaxilisəmərəliəməkmünasibətlərininqurulması.

Biznes-planistehasalınməqsədini, onuntəşkiliyollarını, satış vəmaliyyəmünasibətlərininxarakterini, sahibkarlarlainvestorlar arasındakıqarşılıqlımünasibətlərimüəyyənedənəsassənəddir.Müəssisədaxiliplanlaşmaistehsalresurslarıolanəsasvəköməkçimaterialların, yanacaq-enerjiməsrəflərinin, əsasistehsalfondlarının, əməkehtiyatlarının, maliyyəvəsaitlərininvəmüxtəlifinformasiyaları nsəmərəliistifadəolunmasınıtəminedəbilənfəaliyyətnövüdür. Müəssisədaxiliplanlaşmabazariqtisadiyyatışəraitindəmüəssisəninsarsılmazmövqeyinişərtləndirənəsasamillərdənbiridir.İstehsalprosesinintəşkiledilməsininəsasvəhəllediciamiliolanəməkmünasibətləriişverənlərləişçilərarasındakıçoxaspektliqarşılıqlımünasibətlərsistemidir.Müəssisənintəsərrüfatfaliyyətikompleksyanaşmanınvəsistemlitəhlilitələb edir[3]. Bundanəlavə, hərbirmüəssisəninistehsalproseslərinisəmərəliliyi, insanresurslarındanistifadəninisəviyyəsiiqtisadi-sosialbaxımdanqiymətləndirilməlidir[4]. Müəssisənintəsərrüfatfəaliyyətiçərçivəsindəresurslardanmaksimumeffektivistifadəhesabınagəlirliliksəviyyəsininartırlmasıvəişçilərinsosial-iqtisadiproblemlərininhəlledilməsi nəsəygöstərilməlidir[5].

Qeyd edək ki, müəsssisənin iqtisadi fəaliyyətinin təşkilinin mühüm şərtlərindən biri müəssisənin iqtisadi vəziyyəti və istehsal resurslarından istifadənin səmərəliliyi barədə müəyyən fikir yürütməyə imkan verə bilən iqtisadi göstəricilərdir. Müəssisəniniqtisadigöstəriciləriniaşağıdakıkimiqruplaçdırmaqolar:

- Müəssisəniniqtisadipotensialınıxarakterizəedəngöstəricilər;
- İstehsal resurslarından istifadənin səmərəliliyini xarakterizə edən göstəricilər;
- Müəssisənin maliyyə vəziyyətini xarakterizə edən göstəricilər.

Birinci qrup göstəricilər müəssisənin aktivlərinin həcmini, satış həcmini, əsas və dövriyyə kapitalının həcmini və s. xarakterizə edən iqtisadi göstəricilərdir. Ümumi milli məhsul, xalis məhsul, əmtəə dövriyyəsi belə göstəricilərdəndir. İkinci qrup göstəricilər müəssisənin istehsal resurslarından istifadənin səmərəlilik səviyyəsini xarakterizə edən göstəricilərdir.Üçüncü qrup göstəricilər müəssisənin gəlirlilik və ödəmə qabiliyyətini xarakterizə edən iqtisadi göstəricilərdir. Mənfəət ödəmə qabiliyyətlilik əmsalı belə göstəricilərdəndir.Müəssisənin iqtisadi göstəriciləri onun balans hesabatlarında sintezləşdirilir. Bundan əlavə, müəssisənin iqtisadi-təsərrüfat fəaliyyətinin effektiv təşkili üçün innovatik proseslərdən istifadəyə üstünlük verilməlidir[6]. Bu məqsədlə, müəssisənin fəaliyyətinin iqtisadi effektivliyinin əsas göstəriciləri və metodları da müəyyənləşdirilməlidir[7]. Eyni zamanda, müəssisənin maliyyə- təsərrüfat fəaliyyəti obyektiv təhlil edilərək adekvat tədbirlərin görülməsi planlaşdırılmalıdır[8].

Qeyd edək ki, müəssisənin təsərrüfatçılıq fəaliyyətinin səmərəliliyinin təmin edilməsinin əsas istiqamətlərindən biri də müəssisədə marketinq fəaliyyətinin təşkilidir [9].Sənaye müəssisələrinin idarə olunmasında marketinq fəaliyyəti mühüm yer tutur. Azərbaycan iqtisadiyyatının bazar modelinə keçidi ilə əlaqədar dünya iqtisadiyyatı prosesində istifadə olunan kommersiya fəaliyyətinin forma və metodlarına olan maraq güclənmişdir. Bununla əlaqədar marketinq fəaliyyətinin əhəmiyyəti artmışdır, çünki, bazar menasibətləri şəraitində marketinq müəssisənin idarə edilməsinin ən səmərəli konsepsiyası olduğu dünya iqtisadiyyatı tərəfindən qəbul edilmişdir.Əgər müəssisənin fəaliyyəti yeni əmtəənin yaradılmasına və ya mövcud əmtəənin təkmilləşdirilməsinə istiqamətləndirilmiş olarsa, o zaman istehlakçıya yönəldilmiş marketinqdən istifadə olunur. Məqsəd istehlakçıları yeni əmtəələri əldə etməyə sövq etməkdir.Müəssisəni fəaliyyəti bilavasitə bazar tələbatlarının ödənilməsinə istiqamətləndirilmiş olarsa, o zaman istehlakçıya yönəldilmiş marketinqdən istifadə olunur. Belə marketinqin əsas vəzifəsi potensial tələbatların öyrənilməsidir. Bu növ marketinq ümumuiyyıtlə, kommersiya fəaliyyətinin ən mühüm tərkib hissəsindən biridir, çünki, sahibkar istehsalçıların tələbatlarını öyrənmədən fəaliyyət göstərə bilməz.Sənaye müəssisəsinin təsərrüfat fəaliyyəti üçün marketinqin hər iki formasından istifadə olunması məqsədəuyğundur. Həm istehsal nöqteyi-nəzərindən, həm də bazar nöqteyi-nəzərindən müəssisənin imkanlarının hərtərəfli təhlili kommersiya müvəfəqiyyətini təmin edə bilər. Öz istehsal-kommersiya fəaliyyətini marketinq prinsipləri əsasında duran müəssisələr yeni əmtəələr üzrə proqram işləyib hazırlayırlar. Bu əmtəələrin istehsal və satışı bazarın marketinq tədqiqatlarına əsaslanır. Sənaye müəssisələrinin təcrübəsi göstərir ki, bazarda bu və ya digər əmtəənin satışı ilə əlaqədar müvəfəqiyyətin qazanılması nəinki müəssisənin istehsal və maliyyə imkanlarından, həm də istehlakçıya yönəldilmiş marketinq fəaliyyətindən asılıdır.

Müəssisənin təsərrüfatçılıq fəaliyyətinə təsir göstərən əsas amillərdən biri də həm ölkə, həm də müəssisə səviyyəsində həyata keçirilən sosial siyasətdir. Sosial siyasət dolayı yolla müəssisənin təsərrüfatçılıq fəaliyyətinin yaxşılaşdırılmasına təsir göstərir. Müəssisə səviyyəsində sosial fəaliyyətin məzmunu, onun əsas istiqamətləri dövlətin apardığı sosial siyasətin yuxarıda göstərilən





istiqamətləri ilə müəyyənləşir. Uğur qazanmağa çalışan müəssisələr ilk növbədə ölkə üzrə müəyyən olunmuş rifah standartlarının təmin edilməsinə nail olmalıdırlar. Müəssisənin sosial siyasətihər şeydən əvvələmək kollektivlərinin möhkəmləndirilməsinə, işçi axının qarşısının alınmasına yönəldilməlidir. Bu məqsədlə müəssisəninsosial siyasətini aşağıdakı kimi formalaşdırmaq olar:

- Müəssisənin işçi heyyətinin maddi stimullaşdırılmasının səmərəli sisteminin tətbiq edilməsi;
- İş yerlərinin yaxşılaşdırılması, iş yerlərində təhlükəsizlik xidmətinin gücləndirilməsi;
- İşçi heyyətinin peşə hazırlığının təşkili;
- İşçi heyyətinin sağlamlığını qorumaq, onların istirahətini yaxşılaşdırmaq məqsədi ilə müəssisədə müvafiq səhiyyə ocaqlarının, uşaq baxçalarının və obyektinin yaradılması;
- İşçi heyyətin asudə vaxtının mənalı keçirilməsi üçün tədbirlər sisteminin tətbiqi;
- Müəssisənin maliyyə imkanları hesabına işçi heyyəti üçün müəyyən güzəştlər sisteminin tətbiqi və s.

Beləliklə, milli iqtisadiyyatda sosial siyasətin inkişaf etdirilməsinin əsas istiqamətlərini aşağıdakı kimi formalaşdırmaq olar:

- bütün sosial xidmət sahələrinin həm kəmiyyət, həm də keyfiyyət göstəricilərinin yaxşılaşdırılması;
- əhali gəlirlərinin artırılması, bu məqsədlə minimum əmək haqqı və yaşayış minimumu göstəricilərinin yüksəldilməsi;
- əmək qabiliyyətli əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi;
- əmək qabiliyyətini qismən itirmiş müxtəlif əhali qruplarının müvafiq əmək fəaliyyəti ilə təmin edilməsi üzrə tədbirlərin işlənib hazırlanması və onun həyata keçirilməsi;
- əmək qabiliyyyətini itirmiş əhali qruplarının sosial müdafiəsinin gücləndirilməsi, bu məqsədlə mövcud sosial münasibətlərin, təqaüdlərin, digər sosial ödəmələrin artırılmasına və səmərəliliyinə nail olmaq;
- əmtəə və xidmətlərin qiymətlərinin dövlət tənzimlənməsi tədbirlərinin səmərəliliyinin artırılması, əlavə tədbirlərin görülməsi və s.

## ƏDƏBİYYAT


*1. Генкин, Б. М.Управление человеческими ресурсами. М. : Норма : ИНФРА-М, 2013. – 464 с.*

*2. Журавлева, Г. П. Экономическая теория. Микроэкономика - 1, 2. М.: Дашков и К, 2012. - 934 с.*

*3. Савицкая Г.В. Анализ хозяйственной деятельности предприятия. Минск, издательство: Новое знание, 2002.- 704 с.*

*4. Михмель Г.Н. Экономическая оценка и управление финансово-хозяйственной деятельностью предприятия. Дисс. канд.экон. наук. Хабаровск, 2000.- 248 с.*

*5. Карнаушенко О.А. Оценка и выбор контрагента хозяйственной деятельности промышленного предприятия. Дисс. канд. экон. наук. Белгород, 2003.- 156 с.*

*6. Клявлина Я.М. Совершенствование хозяйственной деятельности предприятия на основе развития инновационных процессов: на примере МУП «Уфаводоканал». Дисс. канд. экон. наук. Уфа, 2005.- 133 с.*

*7. Петрашко Н.Ю. Экономическая эффективность хозяйственной деятельности промышленного предприятия показатели и методы оценки: на примере предприятий ОАО «Оренбургнефть». Дисс. канд. экон. наук. Самара, 2004.- 168 с.*

*8. Музыченко А.А. Анализ финансово-хозяйственной деятельности компаний по разработке газоконденсатных месторождений. Автореферат. Дисс. канд. экон. наук. Московскийгосударственныйуниверситетим. М.В. Ломоносова. Москва, 2009.- 24 с.*

*9. Котлер, Ф. Основы маркетинга. 5-е европейское изд / Ф. Котлер, А. Гари. - М.: Вильямс, 2015. - 752 с.*



***Açar sözlər:** müəssisə,biznes-plan, planlaşdırma, iqtisadi göstəricilər, marketinq fəaliyyəti.*

***Ключевые слова:** предприятие, бизнес-план, планирование, экономические показатели, маркетинговая деятельность.*

***Keywords:** company, business-plan, planning, economic indicators, marketing activity.*


## РЕЗЮМЕ


Статья посвящена исследованию направлений совершенствования хозяйственной деятельности предприятия в условиях рыночной экономики. Отмечается значение бизнес-плана предприятия, внутрихозяйственного планирования, экономических показателей предприятия, трудовых отношений предприятия, а также маркетинговой деятельности как одно из основных направлений.


## SUMMARY


This article is devoted to the research of company’s economic activity improvement in the market economics. One of the main direction is the importance of the business plan of the company, internal planning of the company, economic index of the company, labour relations inside the company, as well as marketing activity of the company.